HƏVVA ABDULLAYEVA
İRADƏ ƏFƏNDİYEVA
MƏLAHƏT ƏLƏSGƏROVA

# AZƏRBAYCAN DİLİ 7

Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi)
fənni üzrə dərslik

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.2014-cü il tarixli 869 nömrəli əmri ilə təsdiq edilmişdir.*

"KÖVSƏR"
NƏŞRİYYATI
BAKI – 2016

Çap üçün deyil

## Dərslikdə istifadə olunmuş şərti işarələr:

* – mətndə tələffüzü üzərində iş aparılması nəzərdə tutulan sözləri fərqləndirir;

.. – çalışmaların mətnində buraxılmış hərf və ya şəkilçinin yerində işlədilir;

... – cümlələrdə buraxılmış hissənin əvəzinə işlədilir;

– – çalışmaların mətnində buraxılmış sözlərin yerində işlənir;

❁ – çalışmalara aid əlavə tapşırıqları fərqləndirir;

▭ – mətn və çalışmalarda buraxılmış sözlərin yerində işlədilir.

---

**H. ABDULLAYEVA, İ. ƏFƏNDİYEVA, M. ƏLƏSGƏROVA**
Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə dərslik.
Bakı, «KÖVSƏR» nəşriyyatı 2016, 160 səh.

Dil və ixtisas redaktoru: **İSMAYIL KAZIMOV**
*filologiya elmləri doktoru, professor*

Dərsliklə bağlı rəy, irad və təkliflərin **kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8142-8-6

© - Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016

Çap üçün deyil



# HEYDƏR ƏLİYEV

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

Çap üçün deyil

Çap üçün deyil

*PLANINIZ 1 İLLİKDİRSƏ – DÜYÜ ƏKİN, 10 İLLİKDİRSƏ – AĞAC BASDIRIN, 100 İLLİKDİRSƏ – İNSANLARA TƏHSİL VERİN.*

*ÇİN ATALAR SÖZÜ*

## § 1. DOSTUM

Mənim bir dostum* var ki,
Ayrılmır ondan ürək.
Söhbət edib **görüşək**
Dostumla hər gün gərək.

Maraqlı söhbətləri*
Necə də şirin olur.
Sahilsiz dəniz qədər
Sözləri dərin olur.

Açır Yerin sirrini,
Öyrədir ulduzları*.
Təsvir edir payızı,
Yayı, qışı, baharı...

Çaylardan, dənizlərdən*,
Bulaqlardan* danışır.
Meşələrdən, düzlərdən*,
Yaylaqlardan* danışır.

Onun böyük hünəri
Dağlar qədər qəlbidir.
Hər alimin, ədibin
Qəlbi onun qəlbidir.

Kim sevməz belə dostu* –
Ki, var min bir hikməti.
Kimin olmaz kitaba
Hörməti, məhəbbəti?

**Mirmehdi Seyidzadə**

SÖZLÜK

qəlbi – высокий	təsvir etmək – изобразить

1 Temp və fasiləni gözləməklə şeiri oxuyun və məzmununu öyrənin.

2 Şairin hər gün görüşməyə ehtiyac duyduğu dostunun kimliyi şeirin hansı bəndində açılır?

A) birinci və altıncı B) ikinci C) dördüncü D) altıncı

3 Necə düşünürsünüz, şair kitabı niyə insan kimi əzizləyərək onu ürək dostu adlandırır? Görəsən, bu dost hansı keyfiyyətlərə malikdir ki, şairin ürəyi ondan ayrıla bilmir? Fikirlərinizi şeirdən gətirdiyiniz misallarla əsaslandırın.

Bəs siz necə, kitabı özünüzə dost hesab edirsinizmi? Kitaba “hörmət” və “məhəbbət”inizin olduğunu necə əsaslandıra bilərsiniz? Faktlarınız varmı?

Çap üçün deyil

❹ Artıq yeddinci ildir ki, siz kitablar vasitəsilə müxtəlif elmlərin sirlərinə yiyələnirsiniz. Bu illərdə oxuduğunuz kitablar ən yaxın köməkçiniz, dostunuz olduğuna sizi inandıra bildimi? Debata qoşulun və fikirlərinizi faktlarla əsaslandırın.

1) Elmlərin sirlərinə yiyələnməkdə ən yaxın köməkçi müəllimdir.

2) Elmlərin sirlərinə yiyələnməkdə ən yaxın köməkçi kitablardır, çünki müəllim olmadıqda belə kitablar insanı öyrədə bilir.

❺ Şeirin ikinci bəndində dostu haqqında dediyi:

"Sahilsiz dəniz qədər

Sözləri dərin olur", – misralarında şair nəyə işarə edir? Misralarda gizlənmiş mənanı yoldaşlarınızla müzakirə edin.

❻ Şairin dostu ilə "söhbət"inin nə barədə olduğunu şeirin 3-cü və 4-cü bəndlərinə əsasən müəyyənləşdirə bilərsinizmi? Fikrinizi nümunələrdən istifadə etməklə əsaslandırın.

❼ Necə düşünürsünüz, –

| | |
|---|---|
| Onun böyük hünəri | Hər alimin, ədibin |
| Dağlar qədər qəlbidir. | Qəlbi onun qəlbidir, – |

misraları ilə şair nə demək istəyir? Kitabın "böyük hünəri" barədə fikirlərinizi yoldaşlarınızla bölüşün.

❽ Şeirdə göy rəngdə verilmiş sözlərin kontekstə uyğun mənalarını izah edin. Bu sözləri omonim hesab etmək olarmı? Müzakirəyə qoşulun və fikirlərinizi əlavə misallarla əsaslandırın. Sözlərdəki şəkilçilərin sayında diqqətli olun!

1) Bu sözlər omonimdir, çünki ...

2) Bu sözlər omonim deyil, çünki ...

❾ Şeirdən seçilmiş aşağıdakı sözlərin məcazi mənada işləndiyini söyləmək olarmı? Onları aid olduqları sözlərlə birlikdə oxuyun və fikirlərinizi əsaslandırın.

şirin, dərin, öyrədir, təsvir edir, qəlbi, hörməti

❿ Şeirdə altından xətt çəkilmiş feillər digərlərindən nə ilə seçilir? Bu feillərin hansı zamanda olduğunu müəyyənləşdirin.

✿ Siz feilin zaman şəkilçilərini tanıyırsınız. Bəs şeirdə qara şriftlə verilmiş feilin zamanını müəyyənləşdirə bilərsinizmi? Özünüzü sınayın: bu feildə zaman şəkilçisi varmı? Necə bilirsiniz, bəlkə, feillərin sizin hələ bilmədiyiniz xüsusiyyətləri də var?! Düşünün!

⓫ Yalnız çıxışlıq halda olan isimlər şeirin neçənci bəndindədir? Həmin isimləri seçib səsləndirin və şəkilçilərin sözlərə artırılmasındakı

Çap üçün deyil

qanunauyğunluğu (ahəng qanununu) izah edin. Səsləndirdiyiniz sözləri ismin digər halları üzrə də dəyişib dəftərinizə yazın.

Şeirin 3-cü bəndindəki isimlərin hansı halda işləndiyini müəyyənləşdirin.

12 Kitab haqqında bildiyiniz aforizmləri deyin və aşağıda verilənləri oxuyun, xoşunuza gələnləri yadda saxlayın.

HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Dünya olduqca böyükdür. Siz öz gözlərinizlə onun çox kiçik hissəsini görə bilərsiniz. Buna görə də faktları kitablarda axtarın.* ***Vladimir Obruçev***
*2) Hər kitab özü bir xəzinə olmaqla yanaşı, həm də neçə-neçə başqa xəzinələrə açardır...* ***Əbu Turxan***
*3) Ordu torpaqları, kitab könülləri fəth edir.* ***Əbu Turxan***
*4) Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, kitab al!* ***Tur Xander***

13 Cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Не бери книгу грязными руками. 2) Не читай во время еды. 3) Не загибай уголки страниц. 4) Не клади книгу под подушку, не читай лежа. 5) Не задерживай долго книгу: ее ждут другие.

14 Aşağıda kitab oxumağın faydaları haqqında bir neçə tezis verilmişdir. Qruplara bölünün və hərəniz bu tezislərdən birini müdafiə edin, faktlarla qarşı tərəfi dediklərinizə inandırmağa çalışın.

Kitab oxumaq insanın:
a) təfəkkürünü inkişaf etdirir;
b) lüğət ehtiyatını zənginləşdirir;
c) oxuduğunu daha asan qavramasına səbəb olur;
d) vaxtını mənalı keçirməsini təmin edir;
e) nitqini (danışma, ünsiyyət bacarığını) inkişaf etdirir;
ə) ümumi mədəni səviyyəsini yüksəldir.

15 Yəqin, oxuduqlarınız əsasında belə nəticəyə gəldiniz ki, kitab çox böyük bir sərvətdir, xəzinədir. Odur ki, hər kəs əlinə aldığı kitabın qədrini bilməli, onu qorumalıdır. Aşağıda kitabın sizə olan xahişini veririk. Qoy bu sözlər il boyu yadınızdan çıxmasın:

– Xahiş edirəm ki, mənimlə səliqəli davranın: vərəqlərimi cırmayın, səhifələrimi qatlamayın; Axı mən sizin dostunuzam, il boyu sizə xidmət edəcəyəm!
– səhifələrimdə yazılar yazmayın, şəkillər çəkməyin;
– kitabxanadan götürdükdə saxlanma vəziyyəti pisdirsə, təmir edin;
– başqalarına verdikdə, geri almağı unutmayın!

Çap üçün deyil

## § 2. GÖZƏL TƏŞƏBBÜS

**İkinci** gecə Şaiqgildə toplanmağı qərarlaşdırmışdılar. Səhhət* və Sabirin Şaiqgildə olacağından xəbər tutan Əlicabbar* da bu gecə buraya gəlmişdi. Şaiqin ayağı yerə dəymirdi. Tez-tez qonşu otağa keçib, əziz qonaqları üçün **yemək** və çay gətirirdi.

**Əvvəlcə*** Sabir "Molla Nəsrəddin" üçün yazdığı **yeni** şeirlərini oxudu. Səhhət Lermontovdan tərcümələr etməyə başladığını söyləyib onun gözəl "Mtsıri" poemasından danışdı:

– Bilmirəm necə çıxacaq, amma* Lermontovun əşarına ***məftun olmuşam***. Tərcümə etdikcə elə bilirəm, **başqa** şairlərdən ruhuma o daha yaxındır.

Oxunan parçanı **hamı** bəyəndi. Şaiq **özünəməxsus** bir xəyalpərvərliklə dilləndi:

– Səhhət əfəndi, çox gözəl tərcümə etmisiniz. Məncə, Lermontov bu əsəri bizim dildə yazsaydı, elə beləcə də səslənərdi.

Əlicabbar söylədi:

– Bəli, vəzni də, dili də ***rəvan***, ürəyəyatımlıdı.

– **İstəyirəm**, Avropa və rus şairlərindən tərcümə etdiyim bir sıra şeirləri "Məğrib günəşləri" adı ilə çap etdirim.

– Gözəl təşəbbüsdü*... Uğur arzulayıram. **Tezliklə** kitabını görək.

– Cəmi bir neçə şeir tərcümə eləmişəm. Hələ qoy bir seçdiklərimin hamısını qurtarım... Onda balalarımız üçün gözəl bir hədiyyə* olar. Onlar Puşkin, Lermontov, Krılov, Hüqo kimi şairləri öz **doğma** dillərində oxuyub feyz alarlar.

– Məncə, Krılovdan tərcümələr Sabir əfəndinin qələminə, ruhuna daha uyğun gələr...

Sabir **kədərlə** gülümsədi:

– Təəssüf* ki, rus dilinə dostum kimi ***aşina deyiləm***. Sonra üzünü gənc Şaiqə tutub **ərklə** davam etdi:

– Yaxşı, bəs qonaqlara şeir oxutdurursan, mənim cavan dostum, amma bir **demirsən**, özün nə yazmısan?

Sabir və Səhhət qarşısında **öz** şeirini oxumağa utanan Şaiq dedi:

– Bilirsinizmi, Mirzə, uşaqlar üçün bir neçə yeni şeir üzərində çalışıram. Balalar üçün yazmağı Mahmud əmi də, cənab Köçərli də mənə məsləhət görürlər*. Ana dilində **dərsliyin** çatışmazlığı, bu dərsliklərə daxil etmək üçün uşaq şeirinin azlığı, hamınız kimi, **məni** də narahat eləyir. Görək nə çıxar.

– Yaxşı olar, inşallah*, yaxşı olar, sən bir **şeir** oxu görək ... – deyə Sabir ***təşviq etdi***. Səhhət də ona **qoşuldu**. Əlicabbar dedi:

– Elədi, oxuyun! Bir müəllim* kimi, "yazın" deyə tələb edirsiniz. Tələbinizdə də haqlısınız. Amma öz yazdıqlarınızdan bir şey oxuyun, **biz** də zövq alaq.

Çap üçün deyil

Şaiq utanırdı, gülümsədi:

– Madam ki, təkid edirsiniz, icazənizlə bir şeir oxuyum.

O gecə başları şeirə, şeiriyyətə*, dərslik məsələsinə elə qarışmışdı ki, səhərin açıldığını lampa işığının zəifləməyindən bildilər.

**Əzizə Cəfərzadə**

SÖZLÜK

| | |
|---|---|
| ürəyəyatımlı – burada: приятный | rəvan – плавный, ровный |
| özünəməxsus – свойственный | ərklə – полагаясь, бесцеремонно |
| xəyalpərvərliklə – с мечтательностю | vəzn – ритм, такт |

SÖZ EHTİYATI

| | |
|---|---|
| əşar – стихи | feyz almaq – наслаждаться |
| məğrib – запад | aşina olmaq – быть знакомым с чем-л |
| məftun olmaq – влюбиться | təşviq etmək – стимулировать |

1 Oxuduğunuz mətndə görkəmli Azərbaycan ədiblərinin adlarına rast gəldiniz. Onlar barədə aşağı siniflərdə aldığınız məlumatları xatırlayıb, yoldaşlarınızla bölüşün.

2 Sizcə, mətn niyə "Gözəl təşəbbüs" adlanır? Bu başlığı mətnin mövzusu üçün uğurlu hesab etmək olarmı? Mətnin məzmunundan çıxış etməklə fikrinizi əsaslandırın.

Bəs siz bu mətnə başlıq seçməli olsanız, onu necə adlandırardınız? Başqa ad seçərdinizmi? Fikrinizi faktlarla əsaslandırın.

3 Mətnin məzmunu üzrə aşağıdakı suallara cavab verin. Hansı suallara mətndə cavab tapmadınız? Həmin sualları səsləndirin və səbəbini izah edin.

1) A.Şaiqin sevincinin səbəbi nə ilə bağlı idi?
2) A.Səhhət M.Lermontovun əsərlərini tərcümə etməyindən nə üçün həvəslə danışırdı?
3) M.Lermontovun "Mtsıri" poemasını Səhhət neçənci ildə tərcümə etmişdi?
4) Səhhət "Məğrib günəşləri" kitabında hansı şeirləri toplamaq istəyirdi?
5) Məclisdə M.Ə.Sabir rus dilindən etdiyi hansı tərcüməni oxudu?
6) A.Şaiq nə üçün öz şeirlərini oxumağa utanırdı?
7) Gənc bir ziyalı kimi, A.Şaiqi hansı məsələlər daha çox narahat edirdi?

4 Mətndə Səhhət çox böyük məmnuniyyətlə M.Lermontovdan tərcümələr etməsindən danışır. Həmin hissənin mətndəki yerini müəyyənləşdirin və məzmununu danışın. Sizcə, bu hissə mətnin mövzusu üçün əsas sayıla bilərmi?

Fikrinizi bildirin: "Cəmi bir neçə şeir tərcümə eləmişəm" cümləsi ilə başlayan abzası bu söhbətin davamı hesab etmək olarmı?

Çap üçün deyil

5 A.Səhhət M.Lermontovun şeirlərini tərcümə etməklə onu azərbaycanlı uşaqlara tanıtmaq istəyirdi. Bəs siz Lermontov haqqında nə bilirsiniz? Bildiklərinizi qısaca danışın.

6 Necə düşünürsünüz, nəyə görə dostları Krılovdan tərcümələr etməyi M.Ə.Sabirin ruhuna daha yaxın hesab edirlər? Sabirin əsərlərindən oxuduğunuz nümunələr bu fikri söyləməyə əsas verirmi? Satirik şairin "Ata nəsihəti" şeirindən aşağıdakı parçanı oxuyun və fikrinizi yoldaşlarınızla bölüşün.

Bəsdir, ey oğul, boş yerə bu elmə çalışma,
Qanın tələf oldu!
Gündüz, gecə səy eyləyibən dərsə alışma,
Canın tələf oldu!
Bu şəhrdə çoxdur, görürəm, elm oxuyanlar,
Onlar nə tapıblar?
Divanədilər malını bu yolda qoyanlar,
Guya ki, yatıblar...

## HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir.* ***Frensis Bekon***
*2) Kitablar bizi ötən əsrlərin varisi edir.* ***Nəcəf bəy Vəzirov***
*3) Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir.* ***Aleksandr Gertsen***
*4) Kitabxanalar insanlığın tək etibarlı və qalıcı olan yaddaşıdır.* ***Artur Şopenhauer.*** *5 ) Kitablar qocalıqda ən yaxşı dost, cavanlıqda ən yaxşı rəhbərdirlər.* ***Samuel Smayls***

7 Aşağıdakı aforizmin oxuduğunuz hekayənin qəhrəmanları ilə əlaqəsini izah etməyə çalışın:
Sənə hər kimsə elm edə təlim,
Ona vacibdir eyləmək təzim. **Seyid Əzim Şirvani**

## SÖZLÜK

| | |
|---|---|
| təzim etmək – поклоняться | təlim – обучение |

8 Verilmiş birləşmələri Azərbaycan dilinə yazılı tərcümə edin və cümlələrdə işlədin.
дорогие гости, близкие по духу, хорошая инициатива, мой юный друг, нехватка учебников, присоединился к нему, прочитанный отрывок

Çap üçün deyil

9 Mətndə qırmızı rəngdə verilmiş ifadənin izahı hansı bənddə daha dəqiq ifadə olunmuşdur?

A) Sürətlə hərəkət edirdi. B) Çox sevinirdi. C) Həyəcanlanırdı.
D) Yeriməyə çətinlik çəkirdi. E) Sürətlə yeriyirdi.

10 Nitqinizi uyğun səs tonu ilə tənzimləməklə mətni səhnələşdirin.

11 Firidun bəy Köçərlinin tərcüməsində İvan Krılovun "Tülkü və üzüm" təmsilindən aşağıdakı parçanı oxuyun. Altından xətt çəkilmiş isimlərin qəbul etdiyi şəkilçilər üzərində müşahidə aparın və onların nə bildirdiyi ilə bağlı fikrinizi söyləyin.

### TÜLKÜ VƏ ÜZÜM

… Tülküciyəz dayandı,
Baxdı, ağzı sulandı.
Dişi alışma tutdu,
dodağı, dili yandı.

… Doğrudur mənim sözüm,
Dəyməyibdir o üzüm.
Yesəm, dişim qamaşar,
Yemədim onu özüm.

❁ İvan Krılovun əməksevərlik mövzusunda olan hansı təmsilini (Siz bu təmsili bilirsiniz) Azərbaycan dilinə Abdulla Şaiq tərcümə etmişdir?

### BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində əşya bildirən sözlərin kimə və ya nəyə (hansı şəxsə və ya şəxslərə) mənsub olduğunu bildirmək üçün xüsusi şəkilçilərdən istifadə olunur. Bu şəkilçilər mənsubiyyət şəkilçiləri (аффикс принадлежности) adlanır.

**Tək**

I şəxs (mənim) -ım$^4$ (-m) – xalq+ım, vətən+im, qürur+um, gülüş+üm, ana+m ...
II şəxs (sənin) -ın$^4$(-n) – xalq+ın, vətən+in, qürur+un, gülüş+ün, ana+n ...
III şəxs (onun) -ı$^4$(-sı$^4$) – xalq+ı, vətən+i, qürur+u, gülüş+ü, anası, nənə+si, palto+su ütü+sü ...

**Cəm**

I şəxs (bizim) -ımız$^4$ (-mız$^4$) – xalq+ımız, vətən+imiz, qürur+umuz, gülüş+ ümüz, ana+mız ...
II şəxs (sizin) -ınız$^4$(-nız$^4$) – xalq+ınız, vətən+iniz, qürur+unuz, gülüş+ünüz, ana+nız ...
III şəxs (onların) -ı$^4$(-sı$^4$) – xalq+ı, vətən+i, qürur+u, gülüş+ü, anası, nənə+si, palto+su ütü+sü ...

12 Sizcə, hekayənin sonuncu cümləsində "o" əvəzliyindən sonra niyə vergül işarəsi qoyulmayıb? Öyrəndiyiniz qaydanı yadınıza salın və fikrinizi əsaslandırmağa çalışın.

Çap üçün deyil

⑬ Qruplara bölünün və müəllimin təqdim etdiyi mətndən biriniz Firidun bəy Köçərlinin həyatı, digəriniz isə yaradıcılığı ilə əlaqədar hissəni Azərbaycan dilinə tərcümə edin, məzmununu danışın.

Mətnin məzmunu üzrə suallar tərtib edib yoldaşlarınıza verin.

⑭ Mətndə qara şriftlə verilmiş sözlərin qrammatik mənasını sualların köməyi ilə müəyyənləşdirin. Fərqli qrammatik mənalarda işlənən sözləri qruplaşdırıb müvafiq sütunlarda sualları ilə birlikdə yazın.

⑮ Mətndə altından xətt çəkilmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin. Sonra mavi rəngdə verilmiş feillər üzərində müşahidə aparın və onların hansı şəxsi bildirdiyini söyləyin. Necə bilirsiniz, bu feillərin hansı zamanda olduğunu təyin edə bilərsinizmi? Fikrinizi bildirin.

⑯ Aşağıda gördüyünüz cədvəldə adlarına mətndə rast gəldiyiniz yazıçı və şairlərin bəzi əsərlərinin yeri dəyişik düşüb. Aşağı siniflərdə oxuyub öyrəndiyiniz bu əsərləri yadınıza salın və yanlışlığı tapıb düzəldin.

| F.Köçərli | A.Şaiq | M.Ə.Sabir | A.Səhhət |
|---|---|---|---|
| "Tülkü və kəklik",<br>"Dəvə və tikan",<br>"Uşaq və buz" | "Oyan, oğlum",<br>"Səməni", "Arı",<br>"Uşaq və dovşan" | "Məktəbə çağırış",<br>"Yaz günləri",<br>"Qərənfil" | "Tənbəl",<br>"Pələng ovu",<br>"Ayı və şir" |

Bu əsərlərin adında mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri seçib səsləndirin və hansı şəxsə aid mənsubluq bildirdiyini izah edin.

⑰ Mətndə adı çəkilən yazıçı və şairlərdən biri haqqında maraqlı təqdimat hazırlayın.

⑱ Mətndə kursivlə verilmiş sözlərin sinonimlərini tapıb söyləyin.

## § 3. SAQQALLI UŞAQ
### I hissə

***Bəzi*** uşaqlarda ***belə*** bir pis xasiyyət* olur ki, əllərinə karandaş düşən kimi başlayırlar evin **divarlarını** yazmağa. Hələ çoxusu kömürlə də, tabaşirlə də yazır. Hələ sən kömürü və tabaşiri deyirsən, mən ***elə*** pis uşaq görmüşəm ki, əlinə mismarı, ya bıçağı alıb, divarları cızıb xarab eləyir.

Nədənsə, divar yazan uşaqlarla* mənim aram yoxdu; ondan ötrü ki, əgər sən yaxşı uşaqsan və **könlün** məşq etmək istəyir, götür kağızı-qələmi, bir yerdə otur və nə qədər kefindir, yaz.

İndi keçək **nağılımıza**.

Çap üçün deyil

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi, o qədər də divar yazan deyillər. Çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar*. Amma axır vaxtlarda gördüm ki, balkonun **divarında**, qapının **dalında** bir xəlvət yerdə bir belə şəkil çəkilib: deyəsən, bir heyvan başıdır, **qulaqları*** da var; deyəsən, bir-iki **ayağı** da var, altında beş dəfə əlif yazılıb və bundan savayı, beş-altı yumru şey çəkilib. Bunların ***hamısı*** karandaş ilə yazılıb. Elə naşı, kobud yazılıb ki, ***bunu*** uşaqdan* savayı, ***heç kəs*** yaza bilməz.



Xoşuma gəlmədi, çağırdım uşaqları.

– Ədə, yenə divarları yazırsınız?

Üçü də gəldi durdu yazının **qabağında**.

– ***Hansınız*** yazmısınız?

Üçü də dayandı.

– Elədə bəs şeytan yazıb?!

– Dədə, vallah mən yazmamışam.

– Dədə, mən də yazmamışam.

Balaca Qurban da "mən yazmamışam" deyə-deyə əllərini üzünə qoyub başladı ağlamağa.

Mən deyinə-deyinə bir əsgi tapıb yazını təmizlədim və deyinə-deyinə çəkildim getdim. Amma bunu eşidirdim ki, Heydər Teymura deyirdi: – Sən yazmısan. Teymur da Heydərə deyirdi: – Sən özün yazmısan.

Bu zaman ağlayan **oğlum** Qurban qaça-qaça gəldi **yanıma**, guya ki, bir böyük xəbər gətirib.

– Dədə, o yazını Heydər yazıb; vallah, dədə, Heydər yazıb.

Heydər də acıqlı-acıqlı gəldi durdu Qurbanın qabağında və **əllərini** ata-ata elə hirslə cavab verdi ki, az qalırdı əllərini soxa uşağın **gözünə**. Mən acıqlandım* və üçü də sakit olub istədilər gedələr, mən onları saxladım və bunu dedim:

– Mən sizdən divarı yazmağınızdan ötrü incimirəm. ***Sizin*** danmağınızdan və qorxudan yalan danışmağınızdan inciyirəm. Ona inciyirəm ki, söz yox, divarı yazan üçünüzdən birinizdi; amma **üçünüz** də and-aman eləyirsiniz ki, siz yazmamışsınız. Bəs sizdən savayı, bu evdə uşaq ki yoxdu.

Aradan bir xeyli keçdi və bir-iki aydan sonra bu giley-güzar yaddan çıxdı.

Amma bir gün mən gecə bərk dilxor oldum. Balkondan keçirdim. Gördüm divarda yenə ***haman*** cızma-qara.

Bu dəfə uşaqlara daha bir söz demədim...

**Cəlil Məmmədquluzadə**

Necə bilirsiniz, hekayə burada bitdi, yoxsa əhvalat hələ açılmadığı üçün o davam etməlidir? Bəs siz divarın kim tərəfindən yazıldığını öyrənmək istəyərdinizmi?

Çap üçün deyil

SÖZLÜK

xəlvət – тайный
əsgi – тряпка
danmaq – отрицать
giley-güzar – жалоба

SÖZ EHTİYATI

əlif – название арабской буквы "а"
aram yoxdu – не нравится
and-aman eləmək – клясться
dilxor olmaq – расстроиться

1 Mətnin məzmununa əsasən suallara cavab verin.
1) Uşaqların hansı pis xasiyyəti böyükləri narahat edir?
2) Mətndəki ata öz uşaqlarının divarı yazmasına niyə inanmırdı?
3) Divardakı şəkildə nə təsvir olunmuşdu?
4) Uşaqlar təqsirli bilinəndə özlərini necə apardılar?
5) Sizcə, uşaqlar səhvlərini niyə etiraf etmirdilər?
6) Nə üçün ata divarın uşaqlar tərəfindən yazılmağına şübhə etmirdi?
7) Ata divarın yazılmasından çox, nədən narahat idi?

2 Necə düşünürsünüz, divardakı şəkilləri, həqiqətənmi, uşaqlar çəkmişdi? Əgər siz onların yerində olsaydınız, təqsirli olmadığınızı necə əsaslandırardınız? Müzakirəyə qoşulun.

3 Hekayədə təsvir olunan uşaqlar təqsirli bilinəndə hansı düzgün olmayan hərəkətə yol verdilər? Mətnin məzmunu əsasında cavabınızı əsaslandırın.
A) And-aman edərək şəkil çəkmədiklərini bildirdilər.
B) Şəkli çəkməkdə bir-birlərini günahlandırdılar.
C) Divarın qonşu uşaqlar tərəfindən yazıldığını söylədilər.
D) Tez əsgi tapıb yazını təmizlədilər.
E) Üçü də günahkar kimi ağlamağa başladılar.

4 Aşağıdakı cümlələrdə mətndəki ardıcıllıq pozulmuşdur. Əvvəlcə onları düzgün sıralayın, sonra isə mətnin məzmunu əsasında sərbəst tamamlayıb yazın.

1) Ona inciyirəm ki, ... 2) Mən elə bilirdim ki, ... 3) Amma bunu eşidirdim ki, ... 4) Elə naşı, kobud yazılıb ki, ... 5) Bəzi uşaqlarda belə bir pis xasiyyət olur ki, ... 6) Aradan bir xeyli keçdi və ... 7) Amma axır vaxtlarda gördüm ki, ...

5 Hekayədə qara şriftlə verilmiş sözlər üzərində müşahidə aparın və onları kök və şəkilçiyə ayıraraq dəftərinizə köçürün. Sözlərə artırılan mənsubiyyət şəkilçilərinin neçənci şəxsə aid mənsubluq bildirdiyini müəyyənləşdirməyə çalışın.

Çap üçün deyil

Həmin sözləri aid olduqları sözlərlə birlikdə dəftərinizə yazın. Çətinlik çəksəniz, dərsliyinizdəki məlumatı oxuyun.

### BUNLARI BİLİRSİNİZMİ?

**I və II şəxslərə** aid mənsubiyyət şəkilçilərini qəbul etmiş isimlər **əşyanın insana mənsubluğunu** bildirir: mənim məqsədim, bizim düşmənimiz, sənin dostun ...

**III şəxsə** aid mənsubiyyət şəkilçisi qəbul etmiş isimlər isə yalnız insana deyil, **başqa canlı və cansız əşyalara** da mənsubluq ifadə edə bilir: pələngin pəncəsi, torpağın bərəkəti, günəşin işığı, saçın rəngi, meyvənin şirəsi, qızın paltarı ...

Bütün hallarda mənsubiyyət şəkilçisi qəbul etmiş isim özündən **əvvəl gələn və yiyəlik halda işlənən əvəzlik və ya isimlə** bağlı olur: **sənin** hərəkətin, **sizin** dərsiniz, **gülün** yarpağı, **onun** səsi, **şagirdin** biliyi, **uşağın** papağı ...

6 Mətndə qara şriftlə verilmiş "**könlün**" və "**oğlum**" sözlərinin kökündə baş verən dəyişikliyin səbəbini izah edin və fikrinizi əlavə misallarla əsaslandırın.

7 "**Torpağım**" sözünü hallandırıb yazın. Sözə artırılan mənsubiyyət, yoxsa hal şəkilçisinin daha əvvəl gəldiyini müəyyənləşdirin. Fikrinizi əlavə misallarla əsaslandırın.

Hallandırdığınız sözün müxtəlif formaları üzərində müşahidə aparın. Necə bilirsiniz, mənsubiyyət şəkilçisi qəbul etmiş isimlər hallana bilir, ya yox? Fikrinizi əsaslandırmaq üçün mətndə qara şriftlə verilmiş sözlərin sonuna artırılan şəkilçilərə diqqət yetirin.

8 Mətndə qara şriftlə verilmiş sözlər üzərində diqqətlə müşahidə aparsanız, görərsiniz ki, bu sözlərin bəziləri təkdə, bəziləri isə cəmdə işlənmişdir. Necə bilirsiniz, həm təkdə, həm də cəmdə olan isimlərin mənsubiyyət şəkilçisi qəbul edərək şəxslərə görə dəyişdiyini söyləmək olarmı? Fikrinizi faktlarla əsaslandırmağa çalışın.

9 Necə bilirsiniz, aşağıdakı cümlələrdə mötərizə içərisində verilmiş sual işarələri nəyə işarə edir? Bəs mötərizələri cümlədən çıxarsaq, sondakı sual işarələrinə ehtiyac qalacaqmı? Fikrinizi əsaslandırmaq üçün cümlələri mötərizəsiz və buraxılmış sözləri yerinə qoymaqla oxuyun. Hər iki variantı müqayisə edin.

1) Bəzi uşaqlarda (?) xasiyyət pis hesab olunur? 2) Uşaqlar ataya (?) söz vermişdilər? 3) Bir dəfə ata (?) yazılmış yazılar gördü? 4) Ata bu yazıların (?) yazıldığını fikirləşdi? 5) Uşaqlar ataya (?) cavab verdilər? 6) Ata uşaqlara (?) acıqlandı? 7) Ata uşaqları saxlayıb onlara (?) dedi?

Suallara cavab versəniz, qarşınızda mətnin planını görəcəksiniz. Həmin plan üzrə mətni danışmağı öyrənin.

Çap üçün deyil

⑩ Mətndə işlənmiş “bir-iki” və “beş-altı” sayları aid olduğu əşyanın dəqiq miqdarını müəyyənləşdirə bilirmi? Fikrinizi bildirin və faktları qarşılaşdırın.

❁ Aşağıdakı variantlardan hansındakı söz say deyil?

A) bir-iki B) beş-altı C) beş-beş D) bir neçə E) xeyli

❁ Necə bilirsiniz, düzgün variantdan başqa, yerdə qalan sayların hamısını eyni qrupa aid etmək olarmı?

⑪ Mətndə altından xətt çəkilmiş sözlərin quruluşca növünü müəyyənləşdirib, yazılış qaydasını izah edin. Sonra sualların köməyi ilə həmin sözləri qrammatik mənalarına görə qruplaşdırıb dəftərinizə yazın.

⑫ Necə düşünürsünüz, mətndə qara kursivlə verilmiş sözlərin hamısını eyni nitq hissəsinə aid etmək olarmı? Bu sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirib qrammatik mənalarını izah edin.

⑬ Öz həmyaşıdlarınızda və ya kiçikyaşlı uşaqlarda müşahidə etdiyiniz hansı xoşagəlməz hərəkətlər sizi narahat edir? Çıxış yolunu nədə görürsünüz?

Səs tonunuzu tənzimləməklə fikirlərinizi açıqlayın.

⑭ Hekayəni siz davam etdirməli olsaydınız, hadisənin davamını necə təsvir edərdiniz və o nə ilə nəticələnərdi? Fikirlərinizi mətnin əvvəlki abzasları ilə əlaqələndirib, öz variantınızı yoldaşlarınıza təqdim edin.

⑮ Mətnin adındakı “saqqallı” sözü necə tələffüz edilməlidir? Qoşasamitli sözlərin tələffüzü ilə əlaqədar müvafiq qaydanı yadınıza salın və əlavə misallar söyləməklə fikrinizi əsaslandırın.

## § 4. SAQQALLI UŞAQ
### II hissə

Bizim bir **müştərimiz** var idi ki, ayda bir, həftədə bir, sağ əlində bir vedrə yağ, sol əlində bir səbət yumurta, **çiynində** tərəzi, hıqqana-hıqqana pilləkənləri çıxar və bizə salam verəndən* sonra həmişə belə deyərdi: “Qab gətirin...”

Bu kişinin **adı** Kəblə Əzimdir. Yaşı qırx-qırx beş olar. Ucaboy, bir kasıb və fağır İran əhlidir.

Dünən yenə Kəblə Əzim yağ və yumurta gətirmişdi. Yağı çox təriflədi ki, Dərbənd yağıdır, çıxarı az olacaq, yeyəndə **ətrindən** doymaq* olmayacaq*. Yumurtaları da guya Qurnaşın kəndindən* gətirib, oranın toyuqları* guya çəmənlərin otundan* və çiçəyindən* başqa, bir şey yemirlər.

Yağdan beş-altı manat, yumurtadan da yenə bir qədər **borcumuz** qaldı. Çünki o günü xırda pulumuz olmadı. Kəblə Əzim şeylərini götürdü və çıxdı dalana ki, getsin, mən də girdim otağa. Birdən **yadıma** düşdü ki, Kəblə Əzimə

Çap üçün deyil

tapşırım, Ərdəbildən gələn olsa, mənə xəbər versin.

Tez çıxdım dalana və gördüm ki, kişi yağı və yumurtanı qoyub yerə və keçib qapının **dalına** və bir gödək karandaşın **ucunu** **ağzına** soxub fikrə gedib. Divarda heyvana oxşar bir cızma-qara çəkilib, altından* bir neçə əlif, yanında bir neçə girdə şey. Mən çox təəccüb elədim və əhvalım da birdən nədənsə dəyişildi. Kəblə Əzim mətləbi duydu və mən soruşmamış dedi:

***– Molla Əmi, doğrusu, mənim dərsim-zadım yoxdu, bu, bir yaddaşdı, yazdım ki, hesablar dolaşmasın.***

Mən qəh-qəh çəkib güldüm. Kişi də bir az gülümsündü. Mən bircə bunu soruşdum ki, divara yazdığının **mənası** nədir?

Mənası bu imiş: Kəblə Əzim istəyirmiş bir inək çəkə və inəyin altında yazdığı beş cızığın **mənası** bu imiş ki, mən ona beş manat inək yağından* borclu qaldım. Girdə yazılar da yumurtadan qalan borcumun hesabı imiş.

Mən yenə güldüm və uşaqlarımı* çağırdım və onlara belə dedim:

– **Uşaqlarım**, uşaqlarım, gəlin, bura gəlin!

Uşaqlar gəldilər və gözləri divara sataşan kimi çox-çox təəccüb elədilər və məndən* soruşmağa başladılar:

– Dədə, bunu kim yazıb?

Dedim:

– **Balalarım**, bu yazını yazan da sizin kimi uşaq* idi; ancaq bircə **fərqiniz** oradadır **ki**, onun **saqqalı** var, sizin hələ **saqqalınız** yoxdur.

Uşaqlar çox gülüşdülər...

**Cəlil Məmmədquluzadə**

SÖZLÜK

| | | |
|---|---|---|
| müştəri – клиент | girdə – круглый | İran əhli – житель Ирана |
| fağır – бедный | mətləb – мысль | |
| hıqqana-hıqqana – спотыкаясь | cızıq – царапина | |

**1** Siz, yəqin ki, yazıçının öz hekayəsini nə üçün “Saqqallı uşaq” adlandırmasının səbəbini başa düşdünüz. Kəblə Əzimi uşağa bənzətməklə ata nə demək istəyirdi? Əsərdən çıxardığınız nəticə haqqında danışın və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**2** Necə bilirsiniz, “Tez çıxdım dalana və gördüm ki, ...” cümləsi ilə başlanan abzası hekayədən çıxarsaq, divardakı şəkillərin kim tərəfindən çəkildiyi məlum olardımı? Bu abzası təkrar oxuyun, onun mətnin əvvəlki hissələri ilə necə əlaqələndiyini təsvir edin və hekayədəki əhəmiyyətini əsaslandırın.

**3** Hekayədə sarı fonla fərqləndirilmiş abzası təkrar oxuyun. Əlamət və keyfiyyət bildirən sözlərdən istifadə etməklə Kəblə Əzimi hərtərəfli təsvir edin, onun haqqında ətraflı danışın. Nitqinizdə şəkilçi variantlarından istifadə edərkən ahəng qanununa əməl etməyi unutmayın!

Çap üçün deyil

**Qeyd.** Kəblə Əzim haqqında danışarkən bildiyiniz atalar sözləri və aforizmlərdən istifadə etsəniz, nitqiniz daha məzmunlu və cəlbedici olacaq!

4 Kəblə Əzimin qeydlərini divarda cızma-qara şəklində aparmasının səbəbi nə ilə bağlı idi? Bu barədə hekayədə hər hansı bir işarə varmı?

Fikirlərinizi əsaslandırarkən tarix fənnindən öyrəndiyiniz müvafiq məlumatlardan, baxdığınız kinofilmlərdəki uyğun nümunələrdən istifadə edin.

❁ Nöqtələrin yerinə hansı ifadəni yazsanız, mətnə uyğun fikir alınar?

Əgər Kəblə Əzim ... qeydlərini divarda cızma-qara şəklində yazmazdı.

A) ağıllı olsaydı B) savadlı olsaydı C) bacarıqlı olsaydı
D) düşüncəli olsaydı E) qoçaq və cəsarətli olsaydı

5 Bilirsiniz ki, indi də evlərə qatıq-süd, meyvə-tərəvəz, pal-paltar gətirib satan insanlar var. Hekayədə olduğu kimi, indi də alıcıların bəzən onlara borclu qaldıqları vaxt olur. Kəblə Əzimlə indiki "Kəblə Əzimləri" müqayisə edin: onlar arasındakı fərq nədədir? Danışarkən "açar sözlər"dən istifadə edin və nitqinizi uyğun səs tonu ilə tənzimləyin.

**Açar sözlər:** maşın, bloknot, qələm, siqnal, təhsil, orta məktəb, telefon ...

6 Necə düşünürsünüz, hekayədən götürülmüş aşağıdakı cümlə mətnin hansı hissəsində işlənmişdir? Fikrinizi mətnə istinad etməklə əsaslandırın.

**Girdə yazılar da yumurtadan qalan borcumun hesabı imiş.**

A) giriş hissəsində B) əsas hissədə
C) nəticə hissəsində D) girişlə əsas hissənin arasında
E) nəticə ilə əsas hissənin arasında

7 Aşağıda verilmiş sözləri Azərbaycan dilinə tərcümə edin və onlara müxtəlif şəxslərə aid mənsubiyyət şəkilçiləri (ahəng qanununa uyğun) artırmaqla cümlələrdə işlədin.

память, счет, стена, долг, разница, борода

8 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri tələffüz xüsusiyyəti baxımından qruplaşdırıb müvafiq sütunlarda yazın. Sonra qruplaşdırmanı düzgün apardığınızı əsaslandırmaq üçün müvafiq tələffüz qaydalarını yadınıza salın və konkret nümunələr əsasında izah edin.

9 Mətndə qara şriftlə verilmiş sözləri bağlı olduqları sözlərlə birlikdə dəftərinizə köçürün. Sonra həmin sözlərdəki mənsubiyyət şəkilçilərini müəyyənləşdirib altından xətt çəkin, hansı şəxsi bildirdiyini, təkdə, yoxsa cəmdə olduğunu söyləyin.

❁ Altından xətt çəkdiyiniz şəkilçilərin şəxsə, yaxud əşyaya aid mənsubluq bildirdiyini faktlarla izah edin.

Çap üçün deyil

Qara şriftlə verilmiş sözlərin əlaqələndiyi sözlərin ismin hansı halında işləndiyini müəyyənləşdirin.

10 Necə düşünürsünüz, mətndə altından xətt çəkilmiş sözlərin hamısının əsas nitq hissələrinə aid olduğunu söyləmək olarmı? Fikrinizi əsaslandırmaq üçün həmin sözləri qrammatik mənaları üzrə qruplaşdırıb, ayrı-ayrı sütunlarda yazın, qarşılarında suallarını qeyd edin.

Hər bir sütunda yazdığınız sözlərin hansı qrammatik mənanı ifadə etdiyini sualların köməyi ilə izah edin.

11 Təlim-tərbiyə haqqında verilmiş aşağıdakı aforizmlərdə yerinə düşməyən sözləri müəyyənləşdirin və mötərizədəki uyğun sözlərlə əvəz edib oxuyun.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Tərbiyədə əsas məsələ tərbiyəçinin hansı (kim, nə üçün, nə?) olmasından ibarətdir* ***(D.İ.Pisarev)****. 2) Çörəkdən sonra xalq üçün ən axırıncı (əvvəlki, vacib, son) şey məktəbdir* ***(J.Danton)****. 3) Elm və maarif bütün xalq arasında – aşağıdan tutmuş hündürə (yüksəyə, yuxarıya, ucaya) qədər istisnasız olaraq hamının arasında yayılmalıdır* ***(M.F.Axundzadə)****. 4) O adam ki bilmir və öyrənməyə cəhd edir, o, zəhmətkeşdir, ona söhbət(tərbiyə, kömək, pislik) edin* ***(N.Tusi)****.*

Aforizmlərdən çıxardığınız nəticəni yoldaşlarınızla müzakirə edin.

12 Kursivlə fərqləndirilmiş cümlənin mətndəki rolu nədən ibarətdir? Diqqətli olun və fikrinizi əsaslandırın.

A) Atanın əhvalının yaxşılaşmasının səbəbi aydınlaşır.
B) Oxucunu təhsilin insan həyatında nə qədər önəmli olduğuna inandırır.
C) Kəblə Əzimin divarı cizmağının səbəbi aydınlaşır.
D) Uşaqların günahsız olduqlarına əminlik hasil olur.
E) Hekayədəki gərginliyin açılmasına xidmət edir.

13 Aşağıdakı atalar sözlərini oxuyun və yadınızda saxlayın. Necə bilirsiniz, onların içərisində mətnin məzmunu ilə səsləşən varmı?

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Qırxında öyrənən gorunda (тот свет) çalar. 2) Biləyi güclü olan birin yıxar, biliyi güclü olan minin. 3) Dərin çay səssiz axar. 4) Birin gör – fikir elə, birin gör – şükür elə. 5) Təhsilsiz insan cilasız (без шлифовка) aynaya bənzər. 6) Min bilsən, bir biləndən xəbər al.

14 Hansı birləşmədəki sözlər məcazi mənada işlənmişdir?

A) gödək karandaş B) bir səbət yumurta C) cızıq çəkmək
D) dalana çıxmaq E) saqqallı uşaq

Çap üçün deyil

⑮ Rus dilində verilmiş aşağıdakı aforizmi tərcümə edib dəftərinizə yazın və mənasını öz sözlərinizlə izah edin.

**Самый мудрый человек тот, кого больше всего раздражает потеря времени (Алигьери Данте).**

⑯ Mətndə qırmızı rəngdə verilmiş sözləri kök və şəkilçiyə ayırın. Köklərə artırılan şəkilçilərin hal, yoxsa mənsubiyyət şəkilçisi olduğunu müəyyənləşdirin.

❁ Bu tipli sözlərin yazılışı ilə bağlı öyrəndiyiniz orfoqrafiya qaydasını yadınıza salın və sözlərin kökündə baş verən dəyişikliyin səbəbini izah edin.

❁ Bu sözlərin qəbul etdiyi şəkilçilərdən hansıların ismin hal şəkilçiləri olduğunu söyləyin.

***Əgər məndən soruşsaydılar ki, ən şərəfli sənət hansıdır?***
***Mən o zaman iftixarla deyərdim: - Müəllimlik.***

**Həsən bəy Zərdabi**

## § 5. BURADA NƏ VAR Kİ?

Aleksey Osipoviç otağı bir də **nəzərdən keçirdi**. Bura məktəbə **oxşamırdı**. Elə ev sahibi də müəllimə* **bənzəmirdi**. Bəs onda o haraya **düşmüşdü**? Axı o, kəndlərdə indiyəcən bu cür yaşayış evi görməmişdi.

Atları **rahatlayandan** sonra içəri, samovar aparmağa gələn Əhməd qonağın dəftərlərlə **əlləşdiyini** görüb **ayaq saxladı**.



– Nə üçün uzanıb dincəlmirsiniz?

Aleksey Osipoviç səsə **qanrılıb** baxdı:

– Siz müəllimsinizmi?

– Xeyr.

– Bəs bunlar nədir?

– Dəftərdir. Uşaqlar yazıblar.

– Bilirəm, uşaqlar yazıb, bəs sizin evdə nə **gəzir**?

– Mən yazdırmışam.

– Heç nə **başa düşmürəm**. Həm deyirsiniz, müəllim deyiləm, həm də deyirsiniz, mən yazdırmışam. Axı Siz kimsiniz?

– Poçtalyon kimi bir şey.

– Necə, poçtalyon?

– Bəli. Bilirsinizmi, cənab, əslində mən burada işsizəm. Əvvəllər* Bakıya, Gəncəyə, Yerevana gedən poçt faytonları, dilicanlar buradan gəlib keçərdi.

Çap üçün deyil

Amma* dəmiryol çəkiləndən sonra şose yolunda gəliş-gediş azaldı. Mən də, necə deyərlər, boş evə **qarovul çəkirəm**. Darıxmamaq üçün uşaqları **başıma yığıb** yazı-pozu öyrədirəm.

Aleksey Osipoviç **ayağa durub** Əhmədin çiynindən **yapışdı**. Onu işığa doğru gətirib diqqətlə* sifətinə baxdı. Elə bil Əhmədin gözlərindəki mənanı **oxumaq** istədi.

– Siz nə qədər böyük iş gördüyünüzü bilirsinizmi?

– Burada nə var ki? – Əhməd sakitcə cavab verdi.

Aleksey Osipoviç:

– Əhməd, sən özün də bilmədən yaxşı bir iş başlamısan. Zənnimcə*, millətinə* kömək etmək istəyən hər kəs elm və maarifə* fikir verməlidir. Sənin bu kənddə uşaqlara **dərs deməyin** böyük xidmətdir. Bu işə çoxdanmı başlamısan?

– İkinci ildir.

– Uşaqlar bir şey öyrənə bilirlərmi?

– Öyrənirlər.

– Sabah onlarla söhbət edə bilərikmi?

– Yoxlamaq istəyirsiniz?

– Yox, yox... Bilirsinizmi, mən Qori Müəllimlər Seminariyasında işləyirəm. Biz orada təzə şöbə açmışıq.

– Harada işləyirsiniz?

– Qoridə. Necə məgər? – deyə Aleksey Osipoviç gözləri **genişlənmiş** Əhmədə baxdı.

– Bağışlayın, Siz Çernyayevski deyilsiniz ki, Aleksey Osipoviç?

İndi də qonaq heyrət və maraqla ev sahibini süzdü.

– Bəli, düz tapmısınız. Bəs Siz mənim adımı hardan bilirsiniz?

– Əşrəfin məktublarından. O həmişə Sizdən yazır. Axı onu mən oxutmuşam. İndi Sizin tələbənizdir.

– Hansı Əşrəf? Göytəpəlimi? – deyə qonaq təəccüblə* soruşdu.

– Bəli.

– Çox yaxşı tanıyıram. Ən yaxşı oxuyan tələbələrimizdəndir. Bilirsinizmi, nə var, Əhməd, madam ki, Əşrəfi siz oxutmusunuz, demək, o biri uşaqlar da **fərasətli** olacaq. Necə deyərlər, *xəstə sağalası olsa, təbib qənşər gələr*. Siz mənə kömək edə biləcəksiniz. Uşaqlarınızdan neçəsini Qoriyə oxumağa apara bilərəm?

– Ailələri* razı olsa, altı-yeddi nəfər.

**İsmayıl Şıxlının "Dəli Kür" romanından**

### SÖZLÜK

| | |
|---|---|
| zənnimcə – полагаю, думаю | fərasətli – умелый |
| əlləşmək – burada: интересоваться | dilican – дилижанс |

Çap üçün deyil

## SÖZ EHTİYATI

qarovul çəkmək – караулить
qənşər gəlmək – идти навстречу

1 Səs tonu və tempi gözləməklə mətni rollar üzrə oxuyun, sonra səhnələşdirin.

2 Necə bilirsiniz, aşağıdakı planda mətndəki ardıcıllığın pozulmasına yol verilmişdirmi? Fikrinizi əsaslandırın və düzgün ardıcıllığı bərpa edərək mətnin məzmununu qısaca danışın.

1) Bura məktəbə oxşamırdı.
2) Xəstə sağalası olsa, təbib qənşər gələr...
3) Bağışlayın, Siz Çernyayevski deyilsiniz ki?
4) Bu işə çoxdanmı başlamısan?
5) Yoxlamaq istəyirsiniz?
6) Siz nə qədər böyük iş gördüyünüzü bilirsinizmi?
7) Darıxmamaq üçün uşaqları başıma yığıb yazı-pozu öyrədirəm.

3 Aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini faktlarla əsaslandırın.

1) Əhməd uşaqlara yazı-pozu öyrətdiyini A.Osipoviçdən niyə gizlətdi?
2) Aleksey Osipoviç Əhmədin gördüyü işə niyə əhəmiyyət vermədi?
3) Aleksey Osipoviç Əhmədin kənddə uşaqlara dərs deməyini niyə böyük xidmət hesab etmirdi?
4) Aleksey Osipoviç Əşrəf Göytəpəlini tanıdığını niyə boynuna almadı?

4 Mətn üzrə tərtib edilmiş aşağıdakı sualların bəzilərində səhvlərə yol verilmişdir. Əvvəlcə həmin sualları müəyyənləşdirib səhvləri aradan qaldırın, sonra isə onları cavablandırın.

1) A.Osipoviç gəldiyi evi nə üçün məktəbə bənzətmişdi?
2) Nəyə görə uşaqların dəftərləri A.Osipoviçin diqqətini cəlb etmişdi?
3) Özünü necə təqdim etdi A.Osipoviçə Əhməd?
4) Darıxmaq üçün kim idi yazı-pozu öyrədən uşaqlara?
5) A.Osipoviç Əhmədin uşaqlarla məşğul olduğunu bildikdə nə dedi?
6) A.Osipoviç "böyük iş" dedikdə nəyi nəzərdə tuturdu?
7) Hardan bildi Əhməd A.O. Çernyayevski olduğunu qonağın?

5 Qruplara bölünün və hərəniz oxuduğunuz mətnin aşağıda verilmiş adlardan hər hansı biri ilə adlandırılmasının daha məqsədəuyğun olduğunu faktlarla əsaslandırmağa çalışın. Danışarkən səs tonunuzu düzgün tənzimləməyə səy göstərin.

1) Burada nə var ki?
2) Böyük xidmət.
3) Xəstə sağalası olsa, təbib qənşər gələr.

Çap üçün deyil

6 Mətndə qara şriftlə verilmiş söz və ifadələrin mənasını düzgün anladığınızı nümayiş etdirmək üçün onları yaxınmənalı qarşılıqları ilə əvəz edib cümlələri yenidən oxuyun.

7 Mətndə göy rəngdə verilmiş sözlər barədə düzgün olmayan fikir hansıdır?
A) Hər iki feil indiki zamanda işlənib.
B) Feillərdən biri təsdiqdə, biri isə inkarda işlənib.
C) Feillərdən hər ikisi üçüncü şəxsin təkində işlənib.
D) Bu feillər mətndə bir-birinə sinonimdir.
E) Hər iki feil quruluşca sadədir.

8 Aşağıdakı cümlələrdə yiyəlik halla əlaqələnən sözlər buraxılmışdır. Həmin sözləri mətnin məzmununa əsasən tapıb yerinə yazın və onların hansı şəkilçi ilə işlənməli olduğunu əsaslandırın.

1) Elə evin – də müəllimə bənzəmirdi. 2) Əhməd qonağın dəftərlərlə – görüb ayaq saxladı. 3) Bilirəm, uşaqlar yazıb, bəs sizin – nə gəzir? 4) Sənin bu kənddə uşaqlara – – böyük xidmətdir. 5) Aleksey Osipoviç ayağa durub Əhmədin – yapışdı. 6) Bəs Siz mənim – hardan bilirsiniz? 7) Əşrəfin – . İndi Sizin – . 8) Bizim ən yaxşı oxuyan – . 9) Sizin – neçəsini Qoriyə oxumağa apara bilərəm?

Verilmiş cümlələrin sıralanmasında bir yerdə mətndəki ardıcıllıq pozulmuşdur. Ardıcıllığın pozulduğu cümləni tapıb səsləndirin və mətnə istinad etməklə fikrinizi əsaslandırın.

9 Müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edib məzmununu danışın.

10 Necə düşünürsünüz, aşağıdakı aforizmdə deyilən fikri mətndəki hər iki obraza aid etmək olarmı? Bu mövzuda debata qoşulun və fikirlərinizi mətn və çalışmalardakı faktlara istinad etməklə əsaslandırmağa çalışın.

***“İnsanlar Vətənə məhəbbətlərini səs-küylə deyil, öz əməlləri ilə sübut edirlər”*** **(V.İvanov).**

1) Əhməd, özü dediyi kimi, darıxmamaq üçün uşaqları başına yığıb onlara yazı-pozu öyrədir. A.Osipoviç isə, sadəcə, vəzifə borcunu yerinə yetirir. Əhməd demişkən, “Burada nə var ki?”

2) İstər Əhmədin, istərsə də A.Osipoviçin gördükləri iş vətənin gələcəyini düşünən insanların gördüyü işdir. Bu isə elə vətənə məhəbbətin sübutudur.

Çin atalar sözündə deyildiyi kimi: “Planınız 1 illikdirsə – düyü əkin, 10 illikdirsə – ağac əkin, 100 illikdirsə – insanlara təhsil verin”.

11 Mətndə altından xətt çəkilmiş sözlər üzərində müşahidə aparın və onlardan hansının sifət, hansının zərf olduğunu əsaslandırın.

Tapdığınız sifətlərin ifadə etdiyi əlaməti artırıb, azaltmağa cəhd göstərin.

Çap üçün deyil

⑫ Qruplara bölünün və hərəniz aşağıdakı aforizmlərdən biri üzrə fikirlərinizi faktlarla əsaslandırmağa çalışın.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir.* ***Viktor Hüqo***
*2) Bütün elmlərin bünövrəsi təhsillə qoyulur.* ***Əbu Turxan***
*3) Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür.* ***Nəriman Nərimanov***

❁ Oxuduğunuz hər bir aforizmdəki mənsubiyyət şəkilçili sözü tapıb aid olduğu sözlə birlikdə səsləndirin. Həmin sözlərin qəbul etdiyi şəkilçinin neçənci şəxsi bildirdiyini, aid olduğu sözlərin ismin hansı halında işləndiyini deyin.

❁ Aforizmlərdəki mənsubiyyət şəkilçili hər bir sözün aid olduğu ismi müxtəlif hallarda işlətməklə yeni birləşmələr yaratmağa cəhd göstərin. Bu yolla mənsubiyyət şəkilçisi qəbul etmiş sözün özündən əvvəl ismin hansı halının işlənməsini tələb etdiyini əsaslandırın.

***Köməkçi:*** pələngin dərisi – pələngə dərisi, pələngi dərisi, pələngdə dərisi ...

⑬ Mətndəki “tələbələrimizdəndir” sözünü kök və şəkilçiyə ayırıb dəftərinizə yazın. Buradakı hər bir şəkilçinin funksiyasını müəyyənləşdirin.

⑭ İnternetdən istifadə etməklə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi ilə bağlı maraqlı bir təqdimat hazırlayıb sinifdə təqdim edin.

⑮ Mətndə sarı fonla fərqləndirilmiş abzası yenidən oxuyun. Bu mövzuda düşündükləriniz əsasında “Böyük xidmət” başlıqlı bir mətn tərtib edib yazın.

⑯ Siz Əhmədi VI sinifdə oxuduğunuz “Peşmançılıq” mətnindən tanıyırsınız. Necə bilirsiniz, xarakterindəki alicənablıq, təvazökarlıq kimi xüsusiyyətlər onun təhsilli bir insan olmasından irəli gələ bilərmi? Hər iki mətndən aldığınız təəssürat əsasında Əhmədin xarakterini konkret faktlara istinad etməklə səciyyələndirin.

⑰ Mətnin birinci və ikinci hissəsində qırmızı rəngdə verilmiş sözlər üzərində müşahidə aparın, sonra onları ayrı-ayrı sütunlarda dəftərinizə yazın. Hər iki sütundakı sözlərin qəbul etdiyi şəkilçiləri bir-biri ilə müqayisə edin: hər bir qrup üçün xarakterik olan şəkilçilər hansılardır? Fikrinizi faktlarla izah edin.

⑱ Axırıncı abzası diqqətlə oxusanız, görəcəksiniz ki, orada işlənmiş atalar sözünün mənası elə həmin abzasda aydınlaşır. Həmin abzası bir daha oxuyun və kursivlə verilmiş atalar sözünün mənasını necə başa düşdüyünüzü izah edin.

Çap üçün deyil

19 Necə bilirsiniz, mətndəki hansı faktlar Çernyayevskinin Əhmədə rəğbətini daha da artırdı və onun köməyinə bel bağlaya biləcəyinə A.Osipoviçi inandırdı. Mətndəki faktları qruplaşdırıb fikrinizi açıqlayın.

***Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir!***
**Heydər Əliyev**

## § 6. SƏHƏRİN KEŞİKÇİLƏRİ

**Bəxtiyar** balalar, oynayın*, gülün
Xalqın sevincidir gülüşləriniz.
Bir də qaşlarınız çatılmayacaq*,
Durmuşuq* **ağ** günün keşiyində biz.

**Körpə** fidanları becərməsəydi,
Bağban bağ üzünə həsrət qalardı.
Uşaqlar, **cavanlar*** yetişməsəydi,
Yəqin ki, insanlıq* tez qocalardı ...

**Yeni** dünya qurdu ata-babanız –
Bu sözün mənası **dərindir**, dərin!
Çox var-dövlət qoydu... **sabah** yəqin ki,
Sahibi sizsiniz bu nemətlərin*!
Dünya bir evdirsə, övlad işıqdır,
Oğul arxadırsa, qız yaraşıqdır.

Oxumaq*, öyrənmək, yaratmaq* olsun,
Hər an vəzifəniz, hər an işiniz.
Sizə biz keşikçi olduqca* bu gün,
Sabah siz özünüz keşikçisiniz!

Gedin, **mətin** olsun addımlarınız,
Hər saat **irəli**, hər gün irəli!
Günəşi lap **erkən** salamlayacaq*,
Qızaran səhərin keşikçiləri!...

**Osman Sarıvəlli**

1 Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun. Sizcə, şair uşaqları niyə “səhərin keşikçiləri” adlandırır? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

Çap üçün deyil

2 Şeirin IV bəndində şair uşaqlara nəyi tövsiyə edir, onların qarşısında hansı vəzifələrin durduğunu xatırladır? Yəqin ki, gündəlik həyatınızda müəllimlərinizdən və valideynlərinizdən bu tövsiyələri siz də tez-tez eşidirsiniz. Fikirlərinizi yoldaşlarınızla bölüşün.

3 "Əkiblər yemişik, əkirik yesinlər" fikri şeirin məzmunu ilə nə dərəcədə səsləşir? Fikirlərinizi şeirdən konkret nümunələr gətirməklə əsaslandırın.

4 Qruplara bölünün və hərəniz şeirin bir bəndi üzrə fikirlərinizi açıqlayın: şairin nə demək istədiyini öz sözlərinizlə şərh edin.

5 Şeirin 3-cü bəndini yenidən oxuyun. Şair ata-babalarımızın qurduğu "Yeni dünya"dan danışarkən nə üçün: "Bu sözün mənası dərindir, dərin!" – deyir? Necə düşünürsünüz, burada şair nəyə işarə edir, "dərin" olan nədir? Düzgün hesab etmədiyiniz variantı göstərin və fikrinizi əsaslandırın.

A) "Yeni dünya" qurarkən babalarımızın əzablı yollardan keçdiyini, bu torpağın qanla suvarıldığını bizlərin – sabahın keşikçilərinin bilməsini istəyir.

B) "Sahibi sizsiniz bu nemətlərin!" misrası ilə bizə qarşıdakı vəzifələrimizi xatırladır.

C) Bizlərə çatan miras üçün məsuliyyət daşıdığımızı xatırlatmaq istəyir.

D) Bizim azad, firavan həyatımız üçün canlarından keçənlərin arzularını həyata keçirməyə borclu olduğumuzu yadımıza salır.

E) Varlı bir ölkənin vətəndaşı olduğumuz üçün bütün qayğılardan azad yaşamağı, günlərimizi əyləncə içərisində keçirməyi tövsiyə edir; bu ölkənin sabahı üçün heç bir məsuliyyət daşımadığımızı bildirir.

Qruplarla işləyin: hərəniz variantlardan birində qoyulan mövzu üzrə müvafiq nümunələrdən və faktlardan istifadə etməklə danışın. Danışarkən səs tonunuzu tənzimləməyə çalışın.

6 Şeirin sonuncu bəndində işlədilən "qızaran səhər" ifadəsini necə başa düşmək lazımdır? Fikrinizi şeirin məzmunu əsasında əsaslandırmağa çalışın.

A) yeni açılan səhər
B) şən həyat, işıqlı sabahlar
C) gələcək günlərimiz
D) günün birinci yarısı
E) doğan günəş

7 Ümummilli liderimiz H.Əliyevin aşağıda verilmiş fikrini oxuyun və şeirin məzmunu ilə bağlılığını izah edin. Necə düşünürsünüz, müdrik rəhbər niyə elə hesab edirdi ki, "daim müstəqillik içində yaşayacaq Azərbaycanın böyük binasını" siz məktəblilər qurursunuz? Fikrinizi əsaslandırın.

"Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göycək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl

Çap üçün deyil

əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayacaq Azərbaycanın böyük binasını qurursunuz“.

❁ Altından xətt çəkilmiş sözlərin qrammatik mənasını izah edin və sinonimlərini tapıb cümlələrdə işlədin.

8 Necə bilirsiniz, şeirdə qara hərflərlə verilmiş sözləri qrammatik mənalarına görə neçə qrupa bölmək olar? Fikrinizi faktlarla izah edin və sözlərdən hər birinin kontekstə uyğun sinonimini deyin.

❁ Hansı qrupa aid etdiyiniz sözlərdəki əlaməti artırıb, azalda bilərsiniz? Özünüzü sınayın.

❁ "Ağ, ağımtıl, ağımtraq, ağımsov, ağappaq" sözlərini rus dilinə tərcümə edin. Bu sözlərin ifadə etdiyi əlamət bir-birindən nə ilə fərqlənir? Fikrinizi izah edin.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz artıq sifətlərin əşyanın əlamət və keyfiyyətini bildirən sözlər olduğunu bilirsiniz. Əlamət və keyfiyyət isə əşyalardan birində **normada** olduğu halda, başqa bir əşyada **normadan az** və ya **çox** ola bilər. Məsələn: **yaşıl** sözündə əlamət normada, **yaşılımtıl**, **açıq-yaşıl** sözlərində normadan az, **yamyaşıl**, **tünd-yaşıl** sözlərində isə normadan çoxdur.

Azərbaycan dilində sifətin üç müqayisə dərəcəsi var: **adi** dərəcə, **azaltma** dərəcəsi, **çoxaltma** dərəcəsi.

**Adi dərəcə** əlamətin normada olduğunu bildirən dərəcədir: qırmızı, sarı, göy, bərk, yumşaq, təmiz və s. Adi dərəcə digər dərəcələr üçün ölçü hesab olunur.

9 Necə düşünürsünüz, şeirdə altından xətt çəkilmiş sözlər üçün ortaq əlamət – qrammatik məna nədən ibarətdir? Həmin qrammatik məna hansı nitq hissəsi üçün əsas əlamətlərindən sayılır. Fikrinizi əsaslandırmağa çalışın.

❁ Bu sözləri rus dilinə tərcümə edib fərqli xüsusiyyətin nədən ibarət olduğunu öz sözlərinizlə izah edin. Sonra onları aid olduqları sözlərlə birlikdə yazın.

10 Necə bilirsiniz, şeirin son bəndində işlənmiş "erkən" sözünü hansı sözlə əvəz etsək, məna dəyişməz?

A) tezdən B) səhər C) əvvəl D) sürətlə E) qabaq

❁ Bu sözün hansı nitq hissəsinə aid olduğunu deyin və qrammatik mənasını izah edin. Bu qrammatik mənada işlənən sözlərə aid əlavə misallar söyləyin.

Çap üçün deyil

⑪ "Çatılmayacaq", "salamlayacaq" sözlərini birləşdirən cəhətlərlə bağlı düzgün olmayan cavab hansıdır? Fikrinizi əlavə misallarla izah edin.

A) İkisi də feildir.
B) Hər iki söz qəti gələcək zamanda işlənib.
C) Hər iki söz təsdiqdədir.
D) Hər ikisi III şəxsi bildirir.
E) Hər ikisi düzəltmə sözdür: biri isimdən, biri isə feildən düzəlib.

⑫ Aşağıdakı sözlərdən eyniköklü sözlər düzəldib yazın və bir neçəsini cümlələrdə işlədin.

gül(mək), yeni, qoca, körpə, cavan, dərin, keşik, mətin, irəli, addım

✽ Yuxarıdakı sözlərin içərisindən əlamət bildirən sözləri seçib səsləndirin və həmin sözlərdəki əlamətin normada olub-olmadığını müəyyənləşdirin.

⑬ Aşağıdakı cümlələri oxuyun və sifətləri seçib əlamət, yoxsa keyfiyyət bildirdiyini müəyyənləşdirin. Sonra həmin sifətlərin ifadə etdiyi əlaməti artırıb, azaltmağa səy göstərin.

Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq, çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü **(Abdulla Şaiq)**.

⑭ Verilmiş müdrik fikirlərin şeirin bütöv məzmunu və ya hər hansı bir hissəsi ilə əlaqəsinin olduğunu əsaslandıra bilərsinizmi? Özünüzü sınayın.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Siz ata-babalarınızın müqəddəs yerlərinə o vaxt vətən deyə bilərsiniz ki, onun sahibi olasınız.* ***Nəriman Nərimanov***

*2) Hər millətin öz taleyi,*
*Hər torpağın öz nəfəsi.* ***Səməd Vurğun***

⑮ Şeirdə onun misraları ilə bağlana bilməyən bir aforizm işlənmişdir. Həmin aforizmi tapıb səsləndirin və onun bu şeirin bir hissəsi olmadığını əsaslandırmağa çalışın.

⑯ "Oğul" sözünü hallandırıb yazın, sonra isə ahəng qanununa uyğun mənsubiyyət şəkilçiləri artırmaqla şəxslərə görə dəyişin.

✽ Hansı hal və mənsubiyyət şəkilçilərini artırarkən sözün kökündə dəyişiklik müşahidə etdiniz? Səbəbini izah edin.

✽ Qruplarla işləyin. Hərəniz bir şəxsdə işlənmiş "oğul" sözünü hallandırıb yazın.

Çap üçün deyil

**17** 6-cı sinifdə "Azadlıq" mətnindən tanış olduğunuz Həsənin vəziyyətini yadınıza salın. Necə düşünürsünüz, Həsən niyə fikir dəryasına qərq olmuşdu?

Şairin "bəxtiyar balalar" deyə müraciət etdiyi uşaqlarla Həsənin yaşadığı dövrü müqayisə edin. Sizcə, şairin keşiyində durduğu "ağ gün" nəyə işarədir?

***Həqiqət hamı üçün birdir.***
**Romen Rollan**

## § 7. İNŞA

Rasim Elçinə məktəbin həyətində rast gəldi. Dərsin başlanmasına az qalırdı. Rasim:

– Elçin, inşanı yazmısan? – deyə xəbər aldı.

Elçin:

– Yazmışam, – dedi. – Nə üçün maraqlanırsan*?

– İstəyirəm** köçürəm. Müəllim yoxlayacaq**.

– Bəs bütün günü nə etmisən?

– Nəsimi küçəsinin uşaqları ilə futbol oynayırdıq**. İşin tərsliyindən*, uduzduq.

O, Rasimi dinlədi, sonra bildirdi ki, dəftərini* ona verə bilməyəcək**:

– İnşalarımız eyni olmamalıdır. Bunu sən özün də bilirsən.

Dostunun* cavabı Rasimə <u>ağır gəldi</u>. **Acıqla*** əlini yelləyib** dedi:

– Dosta bax, bir dəftəri də qıymır.

*Rasimin **bərk** incidiyini görən Elçin onu saxladı. …*

Günortaya az qalmışdı. Bərk isti idi. Uşaqlar addımlarını yeyinlətdilər. Kəndin qənşərinə çıxanda Böyükdüz göründü. Başı ağ örpəkli arvadlar kolların arasında əyilə-əyilə pambıq yığırdılar.

… Dərs başlananda Rasim artıq* işini qurtarmışdı. Müəllim davamiyyəti* yoxlayıb** uşaqlardan soruşdu.

– Evə verilən tapşırığı kim yerinə yetirməyib**?

– …

– Çox gözəl. Deməli, hamınız ______. Rasim, bala, inşanı oxu görək.

Rasim ayağa qalxıb oxumağa başladı. Müəllim onun "Bahar fəsillər gözəlidir" sərlövhəli yazısını bəyəndi və onu təriflədi.

– Görürsən, Rasim, çalışsan, o birilərdən heç də geri qalmazsan, – dedi və onun adının qarşısında "yaxşı" yazdı.

Nəhayət, növbə Elçinə çatdı. Rasim narahat oldu. Elə bilirdi, Elçin öz inşasını oxumağa başlayacaq** və hər şey müəllimə aydın olacaq. Rasimin onu aldatdığını başa düşəcək. Elçin isə ayağa qalxıb:

– Yazmamışam, – dedi.

Çap üçün deyil

Müəllim təəccübləndi*:

– Nə üçün, oğul, bəlkə, başa düşməmisən?

–Vaxtım* olmayıb**.

– Bəs bütün günü nə ilə məşğul olmusan?

O dinmədi. Rasimə **ötəri** nəzər salıb, üzünü yana çevirdi. Rasim bayaq* ona dediyi sözləri xatırlayıb** xəcalət çəkdi.

Müəllim sualını yenidən təkrar etdi. Elçin başını aşağı salıb güclə:

– Futbol oynamışam , – dedi.

– Bəs bayaq* soruşanda ev tapşırığını kim yazmayıb**, nə üçün dillənmədin? Heç gözləməzdim. Otur.

Müəllim o gün Elçinə "2" yazdı. Dərs ili ərzində aldığı ilk "iki"dən o, bərk təsirləndi. Gözlərindən* süzülən yaş damlaları dəftərinin üzərinə düşüb, dünən **həvəslə** yazdığı inşanı ləkələdi. …

Rasim öz səhvini başa düşmüş, bərk peşman olmuşdu. O, tənəffüsdə* Elçinə yaxınlaşıb* üzr istədi:

Sonra isə müəllimlər otağına yollandı. Əhvalatı müəllimə danışdı və ondan* da üzr istədi:

– Müəllim, söz verirəm ki, bundan* sonra **yaxşı** oxuyacağam.

Müəllim onun başını sığallayıb** gülümsündü.

**Akif Abbasov**

SÖZLÜK

| | |
|---|---|
| uduzmaq – проиграть | ləkələmək – запятнать |
| qıymaq – burada: пожадничать | sərlövhə – заглавие |

1 Üzərində ulduz işarəsi qoyulmuş sözləri düzgün tələffüz etməklə (eyni sözün mətndə bir neçə dəfə işlənməsinə diqqət edin) mətni rollar üzrə oxuyun. Səs tonu, temp və fasiləni gözləməyi unutmayın!

2 Qruplara bölünüb mətnin məzmunu üzrə ən azı yeddi sual tərtib edin. Sonra sualları müəllimin məsləhət bildiyi qrupa verin. Sualları alan qrup onların qrammatik normalar baxımından düzgünlüyünə diqqət yetirməli və qarşılarında cavablarını yazmalıdır.

3 Səs tonunuzu düzgün tənzimləməklə hekayədən çıxan nəticə barəsində danışın. Danışarkən yoldaşlarınızın fikirlərinə münasibət bildirməyi unutmayın.

4 Aşağıdakı cümlənin mətndəki yerini müəyyənləşdirib, həmin hissəni yenidən oxuyun. Necə bilirsiniz, bu cümləsiz mətnin məzmununda hər hansı bir anlaşılmazlıq yaranırmı? Yoldaşlarınızın söylədikləri fikrə münasibət bildirməklə fikrinizi açıqlayın.

Çap üçün deyil

– **Bağışla, Elçin, mən düzgün hərəkət etmədim.**

❁ Hekayəni siz yazsaydınız, bu cümləni işlətməyi vacib hesab edərdinizmi?

**5** Elçinin müəlliminə yalan deməsinə haqq qazandırırsınızmı? Yoldaşlarınızın söylədikləri fikrə münasibət bildirməklə debata qoşulun.

1) Elçin düzgün hərəkət etdi, onun başqa çıxış yolu qalmamışdı.
2) Elçin səhv etdi, o, həqiqəti müəllimə deməli idi.

❁ Necə bilirsiniz, Elçin dostuna başqa cür kömək edə bilməzdimi?

**6** Aşağıdakılardan hansı mətn üçün əsas fakt və hadisə hesab edilə bilər? Mətnin məzmununa istinad etməklə fikrinizi əsaslandırın.

A) Rasimin dostunun inşasını köçürməklə müəllimi aldatması
B) Rasimin dostundan incidiyini bildirməsi
C) Elçinin müəllimə yalan deməsi
D) Rasimin Elçindən üzr istəməsi
E) Rasimin müəllimdən üzr istəməsi

## BUNLARI BİLİRSİNİZMİ?

**Sifətin azaltma dərəcəsi** əlamətin **normadan az** olduğunu bildirir. Azaltma dərəcəsini düzəltmək üçün adi dərəcədə olan sifətlərin sonuna **-ımtıl**$^4$**, -raq**$^2$**, -ımtraq (-mtraq), -sov (-ımsov, -ümsov)** şəkilçilərindən biri artırılır: göy**ümsov**, sarı**mtıl**, yaşıl**ımtraq**, gödə**rək**, uzun**sov**, boz**umtul** ...

Sifətin azaltma dərəcəsini düzəltmək üçün **“açıq”, “təhər”, “ala”** sözlərindən də istifadə olunur: **açıq**-sarı, **açıq**-qara, sarı**təhər**, şirin**təhər**, **ala**-çiy, **ala**-sütül ...

**7** Rasimin inşanı köçürüb dostunu pis vəziyyətdə qoymasını və bu yolla həm də müəllimi aldatmasını necə qiymətləndirirsiniz? Sizcə, başqasının əməyindən bu şəkildə istifadə etmək düzgündürmü? Müzakirə edin və fikrinizi yoldaşlarınızla bölüşün.

**8** Oxuduğunuz hekayədəki əhvalat sizinlə dostunuz arasında baş versə, aşağıdakı hansı atalar sözləri və ya aforizmdə deyilən fikrə uyğun hərəkət edərsiniz? Fikrinizi əsaslandırın və seçdiyiniz kəlamların mənasını izah edin.

## ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Dost dar gündə tanınar. 2)Yaxşı dostu yaman gündə sına. 3) Divarın əyrisi özülündən başlar. 4) Dil yalançı olunca, lal olsa, yaxşıdır. 5) Doğru yolda yıxılan tez qalxar. 6) Doğru yolla gedən yorulmaz. 7) Yalançının evi yandı, heç kəs inanmadı. 8) Doğruya zaval yoxdur, çəksələr min divana. 9) Düzgün yol məqsədə çatmaq üçün ən yaxın yoldur (Nəsirəddin Tusi).

Çap üçün deyil

❁ Oxuduğunuz hekayədəki hadisəyə bənzər hər hansı bir əhvalatla qarşılaşmısınızmı? Eşitdiyiniz və ya şahidi olduğunuz hadisəni yoldaşlarınıza danışın.

9 Əlamət bildirən sözlərdən istifadə etməklə hekayədəki Rasimi və Elçini yazılı şəkildə səciyyələndirin. Fikirlərinizi əsaslandırmaq üçün müvafiq nümunələrdən istifadə edin və cümlələri bir-biri ilə düzgün əlaqələndirin.

10 Hekayə Rasimin öz səhvini etiraf etməsi ilə bitir. Necə düşünürsünüz, bu hekayənin başqa bir sonluğu ola bilərdimi? Hər biriniz hekayənin sonluğunu düşündüyünüz şəkildə dəftərinizə yazın. Yazdıqlarınızı parta yoldaşınıza göstərin və bir-birinizin fikrinə münasibətinizi bildirin.

11 Təsəvvür edin ki, siz yığcam tərcümeyi-halınızı yazmalısınız. Onu necə yazacağınızı bilirsinizmi? Nümunə ilə tanış olun və hər biriniz öz tərcümeyi-halınızı yazıb, müəlliminizə təqdim edin.

**Tərcümeyi-hal**

Mən, Əliyev Ənvər Akif oğlu 2002-ci il sentyabrın 15-də Bakı şəhərində anadan olmuşam. 2008-ci ildə Bakı şəhəri Nəsimi rayonu 111№-li orta məktəbin I sinfinə qəbul olunmuşam. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdiyəm.

Texniki fənlərə marağım böyükdür. Məktəb olimpiadasında 3 dəfə riyaziyyat fənni üzrə qalib olmuşam.

Ailəmiz 4 nəfərdən ibarətdir:

Atam – Əliyev Akif Əli oğlu – mühəndisdir;

Anam – Əliyeva Zərifə Sabir qızı – müəllimdir;

Bacım – Əliyeva Nərmin Akif qızı – məktəblidir.

20 oktyabr 2014-cü il. İmza: Ə. A. Əliyev

12 Hekayəni oxuyarkən onun məzmunu ilə bağlana bilməyən cümlə və ya abzasa rast gəldinizmi? Həmin hissəni seçib oxuyun və fikrinizi əsaslandırın.

13 Mətndə altından xətt çəkilmiş sözün izahı hansı bənddə düzgün verilməyib?

A) toxunmaq B) pis təsir etmək C) qəlbinə dəymək D) xoş gəlmək

14 Mətndəki mavi boşluqda "yerinə yetirmək" ifadəsinin hansı qrammatik forması yazılmalıdır?

Çap üçün deyil

A) I şəxs cəm B) II şəxs tək C) II şəxs cəm
D) III şəxs cəm E) III tək

⓯ Necə bilirsiniz, mətndə kursivlə verilmiş cümlənin davamı aşağıdakı variantlardan hansı ola bilər? Fikriniizi əsaslandırın.

A) İnşanı yazmadığı üçün Rasimi dostcasına danladı.
B) İnşanı köçürmək üçün dəftərini ona verdi.
C) Dəftərini ona vermək istəmədiyini bildirdi.
D) Bunun yaxşı hərəkət olmadığını Rasimin üzünə dedi.
E) Bunun müəllimin xoşuna gəlməyəcəyini söylədi.

***Kəlmələrin "dili"ni öyrənək!***

**İnşa** – 1) Qurma, tikmə, yaratma, qayırma: Gəmi, mədən, bina və s. inşası. Şəhərimizdə yeddimərtəbəli binaların inşasına başlandı.

**İnşa etmək** – qurmaq, yaratmaq, quraşdırmaq. Layihə üzrə yeni yeraltı keçidlər və körpülər inşa ediləcək.

2) Qələmə alma, bir mətləbi ədəbi şəkildə ifadə etmə, yazma – inşa yazanlar; şagirdlərin yaradıcı və rabitəli yazmaq qabiliyyətlərini inkişaf etdirmək məqsədi ilə aparılan sərbəst yazı işi – üç səhifəlik inşa, maraqlı inşalar, inşadakı səhvlər ...

⓰ Mətndə qara şriftlə verilmiş sözlərin qrammatik mənasını izah edin və onların hansı nitq hissəsinə aid olduğunu deyin. Necə bilirsiniz, bu sözlərdən hansılar həm sifət, həm də zərf kimi işlədilir? Fikrinizi əsaslandırmaq üçün həmin sözləri cümlələrdə hər iki qrammatik mənada işlədin.

⓱ Mətndə üzərində iki ulduz (**) işarəsi qoyulmuş sözləri dəftərinizə köçürün, qarşılarında tələffüz şəklini yazın.

## § 8. MARAQLI GÖRÜŞ

Tələbələrin çoxu onun sabah görüşə gələcəyinə inanmırdılar. Yataqxanada gecə yarıyacan bu haqda ___. Əksəriyyət* deyirdi ki, gəlməz, onun qonaqlardan* ayrılması yaxşı düşməz. Bir də ki, vaxtı hanı gəlsin, bir söz idi dedi. Görünür, **üzümüzdən keçmədi**. Bəziləri isə inad edirdi ki, gələcək, mütləq gələcək...

Səhər Səməd Vurğun düz saat on iki ___ görüşə gəldi. "Gəlməyəcək" deyənlərin* **gözü kəlləsinə* çıxmışdı**. Hamı uşaq kimi sevinir, bir-birini muştuluqlayırdı. Şair təzə kostyum geyinmişdi. Səliqə ilə daranmış dümağ

Çap üçün deyil

saçlarından* **adam gözünü çəkə bilmirdi**. Bir anın içində akt zalı ağzınacan doldu, içəri keçmək ___. Müəllim Əziz Mursaqulov bir az onun yaradıcılığından* danışıb, şairə söz verdi. Səməd Vurğun kürsüdə alqışların ___ xeyli gözlədi. Xeyli danışdıqdan* sonra üzünü zala tutub soruşdu:

– Özünüz deyin, əvvəlcə nə oxuyum? Axşam "Şair, nə tez qocaldın sən?!"i oxudum.

Zaldan kimsə:

– "Dağlar"ı, – dedi, – "Dağlar"ı oxuyun!

– Hansı "Dağlar"ı ? Mənim üç "Dağlar" şeirim var.

Yerdən:

– Üçünü də, yenə varsa, onu da.

Şair bir neçə şeir və "Zəncinin arzuları" poemasından bir parça oxudu. Sonra bir anlıq dayanıb zala **göz gəzdirdi**. Zalda çoxlu rus, gürcü və başqa millətlərin* nümayəndəsi olduğunu görüb:

– Heyf ki, – dedi, – tərcümə olunmuş kitablarımdan* heç birini gətirməmişəm. Onlardan* da oxuyardım.

Sonra şair məğrur və alovlu səslə "Ölüm kürsüsü" poemasının tərcüməsindən* yadında qalan parçanı oxudu. Alqışların **ardı-arası kəsilmirdi**.

Zal sakitləşəndə:

– Yenə oxuyardım, – dedi, – amma* kitab yoxdur.

Zaldan balacaboylu, arıq bir qız ayağa durdu. Cərgələr arasındakı adamları yara-yara birbaş kürsüyə – Səməd Vurğunun ___ gəldi. Onun əlində iki kitab vardı. Qız təbəssümlə gülümsünüb kitabları şairə uzatdı. S.Vurğun əyilib kitabları götürdü. Özünün Moskvada çap olunmuş ikicildliyi idi. Şair maraq dolu baxışlarını* qıza zilləyib*:

– Adın nədir? – deyə soruşdu.

– Qalina.

– Bəs familiyan?

– Familiyam Kim, – qız fəxrlə, – mən koreyalıyam, – dedi.

Şair gülümsündü, alnına tökülən ___ geri sığalladı:

– Hə, bizim dostlarımızdansınız*...

... O, həmişəki adəti üzrə, əli ilə alnını ovxaladı. Kitabı açdı, qarşısına çıxan ilk şeiri – "Deyin, gülün, övladlarım!"ı yeni bir ___ oxudu:

... Deyin, gülün, əl də çalın, heç qısmayın səsinizi,
Gülər görüm, oynar görüm, xoşbəxt görüm hər vaxt sizi! ...

Alqış sədalarından* zal **lərzəyə gəlmişdi**. Neçə illik fəaliyyətində* A.S.Puşkin adına Dövlət Pedaqoji İnstitutu belə görüş, belə təntənə görməmişdi. Bu, yüzlərlə tələbənin ___ qalan ən maraqlı* görüş oldu.

**Şəmistan Nəzirli**



Çap üçün deyil

## SÖZLÜK

əksəriyyət – большинство
ikicildlik – двухтомный
kürsü – burada: трибуна
ovxalamaq – помассировать

## SÖZ EHTİYATI

heyrətlənmək – удивиться
lərzəyə gəlmək – содрогнуться
üzündən keçməmək – burada: не отказать
baxışlarını zilləmək – пристально смотреть
adamları yara-yara – разделяя людей в стороны

1 Səs tonu, temp və fasiləni gözləməklə mətni rollar üzrə oxuyun.

2 Mətndəki narıncı boşluqların yerinə ilk ağlınıza gələn sözü qoyub cümlələri oxuyun. Sonra "Köməkçi"yə baxıb səhv edib-etmədiyinizi müəyyənləşdirin. Onu da nəzərə alın ki, hər söz üçün "Köməkçi"də iki variant verilmişdir.

***Köməkçi:*** ilhamla – həvəslə; kəsilməsini – dayanmasını; saçlarını – telini; söhbət getdi – danışıq uzandı; yanına – bərabərinə; tamamda –15-də; mümkün olmadı – çətinləşdi; yaddaşında – xatirində

3 Mətnin məzmunu üzrə aşağıdakı suallara cavab verin. Necə bilirsiniz, sualların qoyuluşunda mətndəki ardıcıllıq gözlənilmişdirmi? Fikrinizi əsaslandırın.

1) Tələbələrin əksəriyyəti şairin görüşə gələcəyinə niyə şübhə ilə yanaşırdı?
2) Şair görüşə gələrkən necə görünürdü?
3) Şair nə üçün tələbələrə məhz "Şair, nə tez qocaldın sən?" şeirini oxudu?
4) Zaldakı balacaboylu, arıq qız kim idi və o, nə üçün ayağa qalxdı?
5) S.Vurğun şeirlərini oxumaq üçün kürsüdə niyə gözləməli oldu?
6) Zalda müxtəlif millətlərin nümayəndələrini gördükdə şair nəyə təəssüfləndi?
7) Necə oldu ki, şair "Deyin, gülün, övladlarım!" şeirini oxudu?
8) A.S.Puşkin adına institut harada yerləşir və bu görüş neçənci ildə olmuşdu?

✿ Yəqin ki, axırıncı suala mətndə cavab tapmadınız. Necə düşünürsünüz, buna səbəb aşağıdakı variantlardan hansı ola bilər?

1) Mətn oxunarkən diqqətsizliyə yol verilmişdir.
2) Mətn çap olunarkən texniki səhvə yol verilib.
3) Dərslikdə Ş.Nəzirlinin qələmə aldığı xatirə ixtisarla verilmişdir.

✿ Bəs siz mətn üzrə bir-birinizə hansı sualları vermək istərdiniz? İstədiyiniz sualları tərtib edib yazın və yoldaşlarınıza oxuyun.

Çap üçün deyil

❹ “Şair bir neçə şeir  və “Zəncinin arzuları” poemasından bir parça oxudu” – cümləsində fərqləndirilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?

A) bənd  B) hissə  C) tikə  D) misra  E) beyt (двустишие)

❺ Mətndə altından xətt çəkilmiş sözlərin antonimlərini deyin. Sonra bu sözlərin sinonimlərini tapıb, cümlələri həmin sözlərlə yenidən oxuyun.

✽ Bu sözləri qrammatik mənaları üzrə qruplaşdırıb yazın

❻ Şairin uşaqlara, gənclərə xoş arzuları onun mətndə adı çəkilən hansı şeirində ifadə olunur? Bu şeirin adı çəkildiyi abzasın mətndə rolu nədən ibarətdir? Necə bilirsiniz, bu abzası mətndən çıxarsaq, hansı hissələrin əlaqəsi pozular? Fikrinizi mətndən nümunələr gətirməklə əsaslandırın.

❼ Aşağıdakı birləşmələri yazılı tərcümə edin və hər birini cümlələrdə işlədin.

много аплодисментов, часть из поэмы, разные национальности, до середины ночи, несколько стихов, из изданных книг, интересные взгляды, в памяти студентов, интересная встреча

❽ “Şair” və “şeirlər” sözlərini ahəng qanununa uyğun şəkilçi variantları seçməklə hallandırın. Bu tipli sözlərin tələffüzü ilə əlaqədar öyrəndiyiniz qaydanı yadınıza salın və hər birinin qarşısında düzgün tələffüz şəklini qeyd edin.

❾ Xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığı ilə əlaqədar  araşdırma aparın və  maraqlı təqdimat hazırlayıb yoldaşlarınıza oxuyun.

❿ Mətndə qara şriftlə verilmiş ifadələri dəftərinizə yazın və kontekstə uyğun mənalarını izah edin. Çətinlik çəksəniz, “Köməkçi”yə müraciət edin.

***Köməkçi:*** uğuldamaq-titrəmək, dayanmamaq, baxmaq, çox təəccüblənmək -heyrətlənmək, sözünü yerə salmamaq, uzun müddət baxmaq

⓫ Mətni oxuyub hansı nəticəyə gəlmək olar? Söylənilən fikirlərə münasibətinizi bildirin.

A) Azərbaycan xalqının hər bir nümayəndəsi S.Vurğunun şeirlərini əzbər bilir.

B) S.Vurğunun şeirlərini yalnız azərbaycanlılar deyil, müxtəlif millətlərin nümayəndələri də sevə-sevə oxuyurlar.

C) S.Vurğunun şeirlərini müxtəlif xalqların nümayəndələri Azərbaycan dilində (rus dilində) oxuyurlar.

D) S.Vurğunun şeirlərini müxtəlif millətlərin nümayəndələri öz dillərində oxuyurlar.

E) S.Vurğunun yaradıcılığı yalnız Azərbaycanda deyil, müxtəlif ölkələrdə tanınır və sevilir.

Çap üçün deyil

⓬ Aşağıdakı aforizmləri oxuyun və sifətləri seçib onlardakı əlamətin dərəcəsini müəyyənləşdirin. Necə bilirsiniz, bu sifətlərin içərisində quruluşca düzəltmə olanı varmı?

### S.VURĞUNUN HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Doğmalar dar gündə yad ola bilməz!..*
*2) Bizdən bu dünyada hünər qalacaq!*
*3) Dünyanı quran da, yıxan da əldir.*
*4) Ürəkdir insana ən yaxşı sirdaş.*
*5) İstidir hər quşun doğma yuvası ...*
*6) Ana nəfəsinin özgə dadı var!*

✽ Ən çox xoşunuza gələn aforizmin mənasını izah etməyə çalışın və müvafiq situasiyalarda ondan istifadə edin.

⓭ Mətndən əşyanın əlamətini bildirən sözləri seçib dəftərinizə yazın və əvvəlcə quruluşca növlərini, sonra isə əlamətin dərəcəsini müəyyənləşdirin. Necə bilirsiniz, seçdiyiniz sifətlərin içərisində çoxaltma dərəcəsində olan varmı? Fikrinizi faktlarla əsaslandırın.

### BUNLARI BİLİRSİNİZMİ?

Sifətin **çoxaltma dərəcəsi** əlamətin **normadan çox** olduğunu bildirir və əsasən, aşağıdakı üsullarla düzəlir:

1) **M**, **p**, **r** samitlərinin köməyi ilə: qı**p**qırmızı, gö**m**göy, tə**r**təmiz, yu**p**yumru, ...

2) Adi dərəcədə olan sifətlərin əvvəlinə daha, ən, lap, çox, tünd, olduqca sözlərini, "düm" hissəciyini artırmaqla: daha böyük, ən gözəl, lap uca, çox səmimi, dümağ, tünd-sarı, olduqca nəzakətli, tünd-yaşıl ...

⓮ Ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə etməklə müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

⓯ Mavi boşluqların yerinə lazım olan sözü qoyub aşağıdakı misraları oxuyun. Necə bilirsiniz, oxuduğunuz misralar bir, yoxsa iki şeirdən götürülmüşdür? Fikrinizi konkret faktlarla əsaslandırın.

Qayaları baş-başadır,
Güneyləri tamaşadır.
Bu yerlərdə limon <u>sarı</u>,
Əyir, salır budaqları;

Dağlarının <u>dümağ</u> qarı,
Yaranmışdır qarlı qışdan,
Bir səngərdir yaranışdan.
<u>Gödək</u> ömrü çox yaşadır,
Canım ______, gözüm ______!

**Səməd Vurğun**

✽ Altından xətt çəkilmiş sifətləri azaltma və çoxaltma dərəcəsində cümlələrdə işlədin.

Çap üçün deyil

## § 9. ZƏNCİNİN ARZULARI



Qara zənci ağız açır:
– **Mən** zənciyəm, həm də rəssam!
Otuz ildən bir az da çox övladıyam **bu** sənətin,
**Məni** yalnız insan deyil, bir də şair doğmuş anam!
Amerika, Yeni dünya! **Mənim** doğma vətənimdir,
Babamın ağ sümükləri* çürümüşdür bu torpaqda ...
Dəniz mənim, hava mənim, torpaq mənim, göy mənimdir!
Arzularım* yuva salmış **hər** budaqda, hər yarpaqda,
Mən sevirəm **öz** yurdumu bir müqəddəs məhəbbətlə.
Rəssam könlüm vurğunudur hər axşamın, hər səhərin,
Yaratdığım tablolarda* hüsnü vardır şəfəqlərin*...
Vaxtınızı çox almayım!
Deyin, mənim bu sənətlə,
Bu hünərlə yaşamağa yer üzündə yerim varmı
Heç evsiz də, eşiksiz də rəssam olan yaradarmı
Onun qara gözlərindən* bir ildırım çaxdı keçdi,
Ürəyinin qızıl qanı ürəyimdən axdı keçdi.
Zənci dalğın ... Salon səssiz ... Elə bil ki **bütün** varlıq
**Ona** bu dəm qulaq asır.
– Bir səyahət günlərində* mən ac qalsam, susuz qalsam,
Bir aşxana qapısını ötənlərdən* xəbər alsam,
“Sən qarasan...” sözlərini* oxuyuram nəzərlərdə*,
Deyin görək, ömrüm boyu **necə** dözüm mən bu dərdə?
Qanunların* qara hökmü **belə** yazır nə zamandır;
Şəhərlərə* qonaq düşmək qaralara qadağandır.
Bəli! – dedi qara zənci, – *vətən **mənə** bir qürbətdir,*
***Məni** vaxtsız qocaldan da bu ayrılıq, bu möhnətdir!*
... Amerika, Yeni dünya! Vətənimdir, dedim bayaq,
Çox sevirəm ana yurdun axıb gedən çaylarını*,
Onun qarlı qışlarını*, bir də bahar aylarını*.
Qızıl, gümüş mədənidir yarandığım qara torpaq,
Fəqət, mənim bu torpaqda yaşamağa haqqım varmı?
Vətənsiz də insan olan insan kimi yaşayarmı?

**Səməd Vurğun**

SÖZLÜK

| | |
|---|---|
| zənci – негр | çürümək – гнить |
| dalğın – задумчивый | vurğun – влюбленный |
| bu dəm – в это время | hökm – приговор |

Çap üçün deyil

## SÖZ EHTİYATI

| | |
|---|---|
| fəqət – но | qonaq düşmək – погостить |
| aşxana – столовая | gözlərində ildırım çaxmaq – burada: гневный взгляд |
| möhnət – горе | |
| hüsn – красота | |

1 Şeirdəki əsas fikri müəyyənləşdirin və zəncinin fikirlərinə münasibətinizi öz sözlərinizlə ifadə edin. Zənci nəyə etiraz edirdi; o, insanların diqqətini nəyə cəlb etmək istəyirdi?

2 Aşağıdakı suallara cavab verməklə şeirin məzmununu öz sözlərinizlə danışın.

1) Amerikanın özünün doğma vətəni olduğunu zənci necə əsaslandırır?
2) Zəncinin hansı fikirləri onun öz yurdunu müqəddəs bir məhəbbətlə sevdiyinə insanları inandırır?
3) Vətən sözünü deyəndə zənci niyə alışıb yanır?
4) Zəncini ən çox təhqir edən, onu alçaldan nədir?
5) Zənci öz tələblərində nə qədər haqlıdır?

3 Qruplara bölünün və özünüzü zəncinin yerində hiss edərək şeirdən götürülmüş aşağıdakı bəndlərdən biri əsasında təqdimat hazırlayın. Fikirlərinizi əsaslandırarkən şeirin məzmununa istinad etməklə yanaşı, başqa müvafiq nümunələrdən də istifadə edin. Qiymətləndirmə aparın: hansı qrupun təqdimatında zəncinin hisləri daha inandırıcı ifadə olunur?

1) Bu hünərlə yaşamağa yer üzündə yerim varmı?
Heç evsiz də, eşiksiz də rəssam olan yaradarmı?
2) "Sən qarasan..." sözlərini oxuyuram nəzərlərdə,
Deyin görək, ömrüm boyu necə dözüm mən bu dərdə?
3) Bəli! – dedi qara zənci, – vətən mənə bir qürbətdir,
Məni vaxtsız qocaldan da bu ayrılıq, bu möhnətdir!
4) Qızıl, gümüş mədənidir yarandığım qara torpaq,
Fəqət, mənim bu torpaqda yaşamağa haqqım varmı?

4 Misraları şeirin məzmunu əsasında tamamlayın. Necə bilirsiniz, tamamladığınız misralar şeirdəki ardıcıllığa uyğun gəlirmi? Müvafiq ardıcıllığı bərpa edin və fikrinizi əsaslandırın.

1) Rəssam könlüm vurğunudur ... . 2) Heç evsiz də, eşiksiz də ... . 3) Qanunların qara hökmü ... . 4) Vətənsiz də insan olan ... . 5) Məni yalnız insan deyil ... . 6) Mən sevirəm öz yurdumu ... . 7) Bir səyahət günlərində ... .

5 Şeirdəki hansı misraları aforizm kimi qəbul edirsiniz? Həmin misraları seçib səsləndirin.

Çap üçün deyil

6 Necə bilirsiniz, zəncinin vətəninə sonsuz məhəbbətini ifadə edən misraları şeirdən çıxarsaq, onun sözləri oxucuya inandırıcı təsir bağışlaya bilərmi? Fikirlərinizi əsaslandırmaq üçün aşağıdakı aforizmlərdən hansından istifadə daha çox yerinə düşər?

### HİKMƏT XƏZİNƏSİNDƏN

1) *İnsan özünü bir işə tamamilə həsr etdikdə Allah da ona yardım edər.* ***Yohan Höte***
2) *Dünyada heç bir böyük iş ehtirassız görülə bilməz.* ***Fridrix Vilhelm Hegel***
3) *Səbr ilə yaranar hər böyük zəfər.* ***Səməd Vurğun***
4) *Gözdən yaş çıxarmı, ürək yanmasa?!* ***Mikayıl Müşfiq***
5) *"Halva-halva" deməklə ağız şirin olmaz.* ***Atalar sözü***

7 Üzərində ulduz işarəsi qoyulmuş sözlərdən bəzilərində "**-lar**$^2$" şəkilçisi yazıldığı kimi, bəzilərində isə yazılışından fərqli tələffüz olunur. Əvvəlcə həmin sözləri ayrı-ayrı sütunlarda yazın, sonra isə qarşılarında düzgün tələffüz şəklini qeyd edin.

8 Şeirdəki hansı misraların sonunda sual işarəsini qoymaq yaddan çıxıb? Həmin misraları seçib səsləndirin və fikrinizi əsaslandırın.

9 Şeirdə altından xətt çəkilmiş sözləri aid olduğu sözlərlə birlikdə dəftərinizə köçürün. Sonra onların neçənci şəxsə mənsub olduğunu müəyyənləşdirin və mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.

10 Aşağıdakı birləşmələri yazılı tərcümə edin və cümlələrdə işlədin.
новый мир, чёрная земля, жить отважно, серебренный промысль, всю свою жизнь, жить без родины, убедительный ответ, мрачное лицо, патриотические выступления, общественное положение

11 Şeirdə qara şriftlə verilmiş əvəzlikləri məna növləri üzrə qruplaşdırın. Əvəzliklərin rus dilindəki məna növlərini yadınıza salın və qrammatik mənasını müəyyənləşdirməkdə çətinlik çəkdiyiniz əvəzliklər varsa, onları ayrıca bir qrupa yerləşdirin.

12 Zənci rəssamın nitqini dinləyən şairin dilindən deyilmiş "Ürəyinin qızıl qanı ürəyimdən axdı keçdi" misrasında ifadə olunan fikri necə başa düşmək lazımdır? Misranın mənasına uyğun gəlməyən variantı seçib səsləndirin.

A) Onun gözləri həyəcandan alışıb-yanır, alov püskürürdü.
B) Bir anlıq özümü zənci rəssamın yerində hiss etdim.
C) Zəncinin keçirdiyi hisslər mənə yaxın idi: o, vətəninin sahibi olmaq istəyirdi.
D) Bir anlıq elə bildim ki, damarlarımda zəncinin qanı axır.
E) Gözlərimiz bir-birinə sataşanda aramızda bir doğmalıq duydum.

Çap üçün deyil

✿ Necə bilirsiniz, "Ürəyinin **qızıl** qanı ürəyimdən axdı keçdi" cümləsində fərqləndirilmiş söz həqiqi, yoxsa məcazi mənada işlənib?

⓭ Şeirdə mavi rəngdə verilmiş sözlərin qrammatik mənasını izah edin və onları uyğun sözlərlə işlədərək söz birləşmələri düzəldib yazın.

⓮ Şeirdə mavi rəngdə verilmiş sözlərdən hansıları sifətin hər üç müqayisə dərəcəsində işlətmək mümkündür? Özünüzü sınayın və yazın.

***Köməkçi:*** boz – bozumtul – açıq-boz – bomboz – tünd-boz

### *Kəlmələrin "dili"ni öyrənək!*

**Bənd**[1] – 1) Bağ, ip, düyün; ♦ bənd etmək – bağlamaq, ilişdirmək; 2) Ayrı–ayrı hissələrdən ibarət olan şeirin bir parçası – şeirin birinci bəndi. 3) Qanun məcəlləsinin, yaxud hər hansı bir mətnin, sənədin və s.-nin rəqəm və ya hərflə ayrılan kiçik hissəsi, maddəsi – Müqavilə üç bənddən ibarətdir. 4) Bir yeri seldən, daşqından qorumaq, yaxud suyun kənara axmasının qabağını almaq üçün çəkilən sədd – Bənd çəkmək.

**Bənd**[2] – Vurğun, vurulmuş, aşiq; ♦ bənd olmaq – aşiq olmaq, vurulmaq, bərk sevmək, məftun olmaq – Bənd olmuşam şirin-şirin sözünə (Molla Pənah Vaqif).

⓯ Şeirdə kursivlə verilmiş cümləni bir daha oxuyun. Necə düşünürsünüz, vətəni niyə zənci rəssam üçün qürbətə çevrilib? Həqiqətə uyğun olmayan variantı seçib səsləndirin.

A) başqa ölkələrdə yaşadığı və vətənini uzun müddət görmək imkanı olmadığı üçün.

B) dərisi qara olduğundan doğma vətənində insan yerinə qoyulmadığı üçün.

C) özünü bu vətənin sahibi hiss etmədiyi üçün.

D) vətəninin ixtiyarı başqalarının əlində olduğu üçün.

E) vətənində özünü azad hiss etmədiyi üçün.

⓰ "Vətənsiz də insan olan insan kimi yaşayarmı?" fikri ətrafında debat təşkil edin.

1) Vətənsiz də insan kimi yaşamaq mümkündür, burada nə var ki?!

2) Öz vətənində vətənsiz olmaq çox çətindir: bu, yaşamaq deyil, sadəcə var olmaqdır! İnsan vətənlə bütövləşir.

⓱ Hansı birləşmələrdə "qara" sözü məcazi mənada işlənib? Fikrinizi əsaslandırın.

1) qara gözlər 2) qara hökm 3) qara zənci 4) qara torpaq 5) qara gün

A) 1, 2 B) 2, 5 C) 3, 4 D) 1, 5 E) 2, 4

Çap üçün deyil

⑱ Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə müəllimin təklif etdiyi cümlələri Azərbaycan dilinə tərcümə edin.

⑲ Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə “Mən sevirəm öz yurdumu bir müqəddəs məhəbbətlə” başlıqlı mətn tərtib edib yazın və yoldaşlarınıza oxuyun.

## § 10. QAZILIQ QOCA OĞLU YEYNƏK BOYU
### I hissə

Bayındır xan yerindən* durmuşdu, qara yerin üzərində uca evini tikdirmişdi. Böyük alaçığı göy üzünə dirənmişdi. **Min** yerdə ipək xalça ***döşənmişdi***. İç Oğuz və Daş Oğuz bəyləri məclisə toplaşmışdı. Yemək-içmək idi.

Qazılıq* qoca deyilən bir kişi var idi. Bayındır xanın vəziri idi. Qaba dizləri* üstə çöküb Bayındır xandan* yürüş üçün izin istədi. Bayındır xan icazə verdi: “Haraya istəyirsən, get!” – dedi.

Qazılıq qoca ***dünyagörmüş***, işə yarayan adam idi. ***Etibarlı**** qocaları yanına ***cəmlədi***. Yataq-yarağı ilə yola düşdü. **Çox** dağlar, dərə-təpələr aşdı, keçdi. Günlərin* bir günü Qara dəniz kənarında Düzmürd qalasına gəldi; obaya çatıb dayandılar.

O qalanın bir təkuru vardı. Adına Arşın oğlu Dirək təkur deyirdilər. O kafirin **altmış** **arşın** qaməti vardı. Altmış **batmanlıq*** gürz atırdı. Ən möhkəm yayı da çəkərdi...

Qazılıq qoca oraya çatan kimi döyüşə başladı. Sonra o təkur qaladan ***bayıra*** çıxdı. Meydana girdi, ***özünə tay*** igid istədi: Qazılıq qoca onu görən kimi yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin ənsəsinə bir **qılınc** vurdu. Zərrə qədər kəsə bilmədi. Növbə kafirə çatdı. O, altmış batmanlıq* gürzlə Qazılıq qocanı vurdu. Boş *dünya onun başına dar oldu*. Qanı sel kimi şoruldayıb axdı. Qazılıq qocanı qarmalayıb-tutub qalaya saldılar. İgidləri* durmayıb qaçdılar.

Qazılıq qoca düz **on altı** il qalada dustaq* oldu. Sonralar Əmən deyilən bir kişi **altı** dəfə getdi, həmin qalanı ala bilmədi.

Sən demə, Qazılıq qoca dustaq* düşən vaxt **bir** yaşında oğlu varmış. Oğlan **on beş** yaşına girdi, igid oldu. Atasını ölmüş bilirdi. Atasının dustaq* olduğunu oğlandan* gizlədirdilər. Həmin oğlanın adına **Yeynək** deyərdilər. Günlərin* bir günü Yeynək oturub bəylərlə söhbət edərkən Qaragünə oğlu Budaqla* *sözü düz gəlmədi*... Bir-birinə *söz atdılar*. Budaq dedi: “Burada boş-boş danışıb neyləyirsən? Dalaşmağa adam axtarırsansa, gedib atanı qurtarsana! Bəs niyə **on altı** ildir dustaqdır*?”

Yeynək bu xəbəri eşidəndə *ürəyi oynadı, qara bağrı sarsıldı*. Qalxdı, Bayındır xanın hüzuruna getdi. Üzünü yerə qoydu, dedi: “Dövlətli xan, mənə kömək! Qoşun ver, məni atamın **dustaq** olduğu qalaya göndər!”

Çap üçün deyil

Bayındır xan **iyirmi dörd** vilayətin pəhləvan bəylərini Yeynəyə yoldaş etdi. Bəylər yığışıb, hazırlıq* gördülər. Birdən o gecə Yeynək yuxu gördü. Yuxusunu yoldaşlarına* söylədi: "Bəylər, dərdli başım-gözüm yatmışkən yuxu gördü. Ala gözümü açanda dünyanı gördüm. Ağ-boz atlar* çapdıran alpanları* gördüm. Ala gözlü igidləri* yanıma saldım. Ağ saqqallı Dədə Qorquddan ***öyüd*** aldım. Qarşıdakı uca dağları ***aşdım***. İrəlidə uzanan Qara dənizi gördüm. Gəmi düzəltdim; köynəyimi çıxarıb yelkən qurdum. Qabaqdakı dənizi üzüb keçdim. O tərəfdəki uca dağın yanında bir kişi gördüm. Qalxıb yerimdən* durdum. Qarğı dilli iti süngümü qapıb, kişiyə sarı getdim. Qarşıdakı o kişiyə sancmaq* istədiyim zaman ***gözucu*** ona baxdım; tanıdım, dayım Əmən imiş. Dönüb o kişiyə salam verdim. "Oğuz ellərində kimlərdənsən?" – dedim. Göz qapaqlarını* qaldırıb, üzümə baxdı. "Oğul, Yeynək, haraya gedirsən?" – dedi. Mən dedim:"Düzmürd qalasına gedirəm. Atam orda dustaq* imiş". Burada **dayım** mənə söylədi: "Mən **yeddi** dəfə getdimsə də, qalanı ala bilməyib geri döndüm. Məndən* igid ola bilməzsən, Yeynəyim, dön! – dedi".

Yeynək də yuxusunda dayısına demişdir: "Sən ala gözlü* igid bəyləri *yanına salmadın*, sən ***tanınmış*** bəylərlə getmədin. Sən beş **axçaya** qulluq edən, ot-ələf yığan adamları özünə yoldaş elədin. Ona görə də o qalanı ala bilmədin".

Yeynək bu yuxunu yoldaşlarına* danışdı.

Necə bilirsiniz, Yeynək dayısının məsləhətinə qulaq asıb atasının arxasınca qalaya getmək fikrindən dönəcək, yoxsa yoldaşları ilə yoluna davam edəcək? Siz dastanı necə davam etdirərdiniz? Variantınızı yoldaşlarınıza təqdim edin.

## SÖZLÜK

zərrə qədər – нисколько
şoruldamaq – течь, хлынуть
qarmalamaq – хватать
süngü – копье
ənsə – затылок
yaraq – оружие
qarğı – тростник
qaba – грубый
yelkən – парус

## SÖZ EHTİYATI

axça – денежная единица
alpan – алпан
yeləm – как клей
gürz – булава
batman – батман (мера веса от 3 до 8 кг)
bağrı sarsılmaq – испугаться
göy üzünə dirənmək – burada: высоко
ürəyi oynamaq – сердце вздрогнуло
dünya başına dar olmaq – burada: попасть в трудное положение
Allahına sığınmaq – надеяться на Бога

Çap üçün deyil

1 Mətn üzrə tərtib edilmiş planda ardıcıllıq pozulmuşdur. Düzgün ardıcıllığı bərpa edin və boyun məzmununu plan əsasında qısaca danışın.

1) Yeynəyin Bayındır xandan kömək istəməsi.
2) Qazılıq qocanın Bayındır xandan yürüş üçün izin istəməsi.
3) Qazılıq qocanın Düzmürd qalasına çatıb döyüşə başlaması.
4) Yeynəyin yuxusunu yoldaşlarına söyləməsi.
5) Yeynəyin atasının dustaqlıqda olması xəbərini alması.

2 Mətndəki faktlardan istifadə edərək aşağıdakı sualların mətnin məzmununu əks etdirib-etdirmədiyini əsaslandırmağa çalışın.

1) Bayındır xan nə üçün Qazılıq qocaya yürüş üçün icazə vermədi?
2) Qazılıq qoca nə üçün Düzmürd qalasına yürüş etmək fikrindən döndü?
3) Qalanın təkuru nə üçün Qazılıq qoca ilə döyüşməkdən qorxdu?
4) Qazılıq qoca təkuru necə məğlub etdi?
5) Yeynək atasının harada dustaq olduğunu niyə öyrənmək istəmirdi?
6) Yeynək atasını dustaqlıqdan qurtarmaq üçün niyə Bayındır xandan kömək istəmədi?

3 Necə düşünürsünüz, aşağıdakı faktlara əsasən "Qazılıq Qoca oğlu Yeynək boyu"nun "Kitabi-Dədə Qorqud" dastanından olduğunu söyləmək olarmı? Oxuduğunuz boyun məzmununa əsasən fikrinizi əlavə faktlarla əsaslandırın.

1) Açar sözlər: Dədə Qorqud, Bayındır xan, təkur, oğuz, kafir, qala, dustaq
2) Hadisə Bayındır xanın hakimiyyəti dövründə baş verir.
3) Bu dastan da "Kitabi-Dədə Qorqud" dastanının digər hissələri kimi "boy" adlanır.
4) İç Oğuz və Daş Oğuz bəyləri xatırlanır, "Oğuz ellərində kimlərdənsən"? – deyə soruşulur.
5) "Ağ saqqallı Dədə Qorquddan öyüd aldım", – deyilir.

4 Aşağıdakı suallara cavab verməklə "Kitabi-Dədə Qorqud" dastanı haqqında bildiklərinizi yadınıza salın və yoldaşlarınızla bölüşün. Unutduğunuz faktlar varsa, araşdırma aparın.

1) "Kitabi-Dədə Qorqud" dastanının neçə illik yubileyi keçirilmişdir?
2) "Kitabi-Dədə Qorqud" dastanı neçə boydan ibarətdir?
3) "Kitabi-Dədə Qorqud" dastanından hansı boyların adını bilirsiniz?
4) Dastanın "Müqəddimə" hissəsi hansı cümlə ilə başlanır?
5) "Kitabi-Dədə Qorqud" dastanı elm aləminə nə vaxt bəlli olub və onun neçə əlyazma nüsxəsi məlumdur?
6) "Kitabi-Dədə Qorqud" dastanının Almaniyadakı nüsxəsi hansı kitabxanada saxlanılır?
7) Bəs dastanın İtaliyadakı nüsxəsi hansı kitabxanada saxlanılır?

Çap üçün deyil

❺ Aşağıdakı cümlələri oxuyun və hansı cümlələrdə “o”, “bu” əvəzliklərindən sonra vergülün səhv qoyulduğunu müəyyənləşdirin. Fikrinizi əsaslandırın.

1) Birdən o, gecə Yeynək yuxu gördü. 2) Yeynək bu, yuxunu yoldaşlarına danışdı. 3) Bu, Yeynəyin gördüyü ən maraqlı yuxu idi. 4) O, qalanın bir təkuru vardı. 5) Sonra o, təkuru qaladan bayıra çıxmağa məcbur etdi. 6) O, kafirin altmış arşın qaməti vardı.7) O, altmış batmanlıq gürzlə Qazılıq qocanı vurdu. 8) Bu, oğuznamə Yeynəyin olsun!

❻ Mətndə qara kursivlə verilmiş sözləri yaxınmənalı qarşılıqları ilə əvəz edib cümlələri yenidən oxuyun. Necə düşünürsünüz, hansı variant daha uğurludur?

❼ Mətndə mavi rəngdə verilmiş sözlər haqqında nə deyə bilərsiniz? Doğru cavabı müəyyənləşdirin və fikrinizi əsaslandırın.

A) çoxmənalı sözlərdir B) antonim sözlərdir C) yeni sözlərdir
D) köhnəlmiş sözlərdir E) ümumişlək sözlərdir

✿ Həmin sözlərin hansının uzunluq, hansının çəki, hansının isə pul vahidi olduğunu müəyyənləşdirin və müasir qarşılıqları ilə əvəz edin.

❽ Mətndə altından xətt çəkilmiş sözləri aid olduqları sözlərlə birlikdə səsləndirin və onların qrammatik mənasını izah edin. Necə bilirsiniz, bu sözlərdən hansılar həm də feillərlə əlaqələnə bilir? Fikrinizi müvafiq nümunələr əsasında izah edin.

✿ Bu sözlərdən bir neçəsini müqayisə dərəcələri üzrə dəyişib yazın.

❾ Verilmiş ifadələri tərcümə edin və mətnin məzmununa uyğun cümlələrdə işlədin.

на берегу моря, знаменитый бег, во время разговора, интересный сон, самый крепкий лук, быстро действовать, достигнуть с трудом, глаза налились кровью

❿ Mətndən mənsubiyyət şəkilçili bir neçə söz seçib aid olduğu sözlərlə birlikdə səsləndirin. Həmin sözlərdə mənsubiyyət şəkilçilərinin altından xətt çəkib, hansı şəxsdə olduğunu müəyyənləşdirin.

⓫ Mətndə çəhrayı rəngdə verilmiş isimləri ahəng qanununa uyğun şəkilçi variantları seçməklə hallandırıb yazın. Sonra yiyəlik halda olan sözlərə mənsubiyyət şəkilçili ikinci tərəf artırıb söz birləşmələri düzəldin və cümlələrdə işlədin.

⓬ Sözlərin sonunda “q” samitinin tələffüzünə aid qaydanı yadınıza salın və aşağıdakı sözlərin düzgün tələffüzünü qarşısında yazın.

Qazılıq qoca, dustaq oldu, dustaq düşən vaxt, hazırlıq gördülər, işıqlı, sancmaq istədiyim zaman, göz qapaqlarını, orda dustaq imiş, qabaqdakı

Çap üçün deyil

⑬ Mətndə qara şriftlə verilmiş sözləri aid olduğu sözlərlə birlikdə seçib yazın və onların ifadə etdiyi qrammatik məna üzərində müşahidə aparın. Rus dilindəki biliklərinizə əsasən buradakı miqdar saylarının neçə növdə olduğunu deyin.

### BUNLARI BİLİRSİNİZMİ?

Miqdar saylarının **üç növü** vardır:

a) **müəyyən** miqdar sayları – üç, səkkiz, iyirmi dörd, əlli, yüz, beş yüz otuz ...;
b) **qeyri-müəyyən** miqdar sayları – az, çox, xeyli, bir az, minlərlə, beş-altı... ;
c) **kəsr sayları** – onda üç, səkkizdə bir, dörd tam onda iki, yüz tam mində bir...

⑭ Mətndə üzərində qırmızı ulduz işarəsi qoyulmuş sözləri dəftərinizə köçürün və onlarda cəm şəkilçilərinin altından xətt çəkin. Sonra həmin sözlərdəki cəm şəkilçilərinin düzgün tələffüz şəklini qarşılarında qeyd edin.

⑮ Mətndən götürülmüş aşağıdakı sözləri quruluşca növlərinə görə qruplaşdırıb yazın və bir neçəsini cümlələrdə işlədin.

böyük, dərə-təpə, alaçıq, uca, dünyagörmüş, batmanlıq, igid, kafir, qarşıdakı, gözucu, sancmaq, öyüd, dilli, süngü, döyüş, yoldaşlarına, ağ-boz, yemək-içmək, hazırlıq

❁ Seçdiyiniz mürəkkəb sözlərin yazılış xüsusiyyətini izah edin.

⑯ Mətndəki xüsusi isimləri seçib nə bildirdiyini izah edin.

⑰ Mətndə adi kursivlə verilmiş frazeoloji vahidlərin kontekstə uyğun mənası üzərində müşahidə aparın və onları necə başa düşdüyünüzü izah etməyə çalışın. Çətinlik çəksəniz, "Köməkçi"yə müraciət edin.

***Köməkçi:*** həyəcanlanmaq; kədərlənmək – üzülmək; çox sarsılmaq – çətin vəziyyətə düşmək – pərişan olmaq – kədərlənmək; özü ilə aparmamaq; anlaşmamaq; sataşmaq

⑱ Aşağıdakı məlumatı oxuyun və yadda saxlayın. Sayları seçib məna növləri üzrə qruplaşdırın və sözlə yazın.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ilk beynəlxalq sənəd – Uşaq Hüquqları Haqqında Konvensiya BMT tərəfindən 1949-cu ildə qəbul olunub. 1950-ci ildən başlayaraq hər ilin 1 iyun tarixi beynəlxalq səviyyədə Uşaqların Müdafiəsi Günü kimi qeyd olunur. Azərbaycan həmin konvensiyaya 1992-ci ildə qoşulub. Dünyanın artıq 190-dan çox dövləti bu konvensiyanı imzalayıb.

❁ Mətndə miqdar saylarının hansı növləri işlənmişdir? Fikrinizi faktlarla izah edin.

Çap üçün deyil

## § 11. QAZILIQ QOCA OĞLU YEYNƏK BOYU
### II hissə

Sən demə, dayısı Əmən oraya yaxın imiş. **Bütün** bəylərlə yoldaş olub getdilər. Gedib Düzmürd qalasına çatdılar. Dayirə* şəklində dayandılar. Elə ki kafirrər* bunnarı* gördü, Arşın oğlu Dirək təkura xəbər verdilər. O lənətə gəlmiş də qaladan çıxıb bunnara* qarşı gəldi və **özünə** tay döyüşçü istədi. Qıyan Səlcik oğlu Dəli Dondaz durub gəldi. Altmış tutamlıx* nizəsini qoltuğuna qısıb "o kafiri qabax* tərəfdən vurum", – deyə fikirrəşdi*, vura bilmədi. Kafir təkur **onu** qamarlayıb zərbə vurdu. Süngüsünü çəkib əlinnən* aldı. O, altmış batmannıx* gürz ilə Dondazı **bərk** vurdu. Gen dünya Dondazın başına daraldı. Qazlığ* atını döndərdi, qayıdıb gəldi.

**Bundan*** sonra Dönəbilməz Tüləkvuran at üstündə altı pərli çomağı ilə hücum edib, kafiri yuxarıdan aşağı **möhkəm** vurdu, yıxa bilmədi. Təkur **onun** da çomağını qarmalayıb aldı. Onu da gürzlə vurdu. **O** da qazlıq* atını döndərib qayıtdı. İyirmi dörd vilayətin bəyi təkurun əlində məğlub oldu.

Sonra cavan, təzəcə igid olan Qazılıq qoca oğlu Yeynək Allaha sığındı. Qüdrətli Allahı təriflədi:

Ucalardan ucasan,
**Kimsə** bilməz **necəsən**, əziz tanrı!
... Birliyinə sığındım, qadir tanrı!
Qara donlu kafirə qarşı at sürürəm,
İşimi sən başa vur, sən kömək et!

**Həmin** dəmdə atını irəli sürdü. Yel kimi yetişdi, yeləm kimi yapışdı. Kafirin çiyninə bir qılınc vurdu. Geyim-kecimini doğradı. Altı barmaq* dərinliyində* yara vurdu. Qara qanı şoruldayıb axdı. Qara inək gönündən* tikilmiş çəkmələri qanla doldu. Qara başı dumanlandı*, fırlandı*. Dərhal döndü, qalaya qaçdı. Yeynək arxasından çatdı. Hasar qapısından* girən yerdə böyük, iti polad* qılıncını ənsəsinə elə vurdu ki, başı top kimi yerə düşdü. Ondan* sonra Yeynək atını döndərib qoşunun içinə gəldi.

Qazılıq qocanı dustaqlıqdan* çıxartdılar.

Yeynək atası ilə görüşdü. Ondan sonra qalan bəylər görüşdülər. Bəylər bir anda hasara hücum etdilər, düşmən malını çalıb-çapdılar.

Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. "Bu oğuznamə Yeynəyin olsun!" – dedi.

Yeynək və atası bir-birinə həsrət qaldıqları* üçün xeyli qucaqlaşıb-öpüşdülər. Allaha çox şükür etdilər. Qalanın kilsəsini yıxıb yerində məscid tikdilər. Şahinlərin* ən yaxşısını, qumaşın gözəlini, qızların* göyçəyini, doqquz* cərgə zər naxışlı çuxanı Bayındır xana hədiyyə ayırdılar. Qalan şeyləri döyüşçü igidlərə* bağışladılar. Dönüb evlərinə gəldilər.

Çap üçün deyil

## SÖZ EHTİYATI

| | |
|---|---|
| qumaş – кумач | altı pərli çomaq – дубинка с лопастями |
| lənətə gəlmiş – проклятый | qamarlamaq – схватить |
| qadir tanrı – всевышний | |

1 Mətnin məzmunu üzrə beş bənddən ibarət plan tərtib edib yazın və bu plan əsasında dastanın məzmununu danışın. Nitqinizdə yeri gəldikcə oğuz igidlərinin adları, silahları və s. bağlı faktlardan istifadə etməyə çalışın.

2 Siz dastanın bu “boy”unda müxtəlif oğuz qəhrəmanlarının adını eşitdiniz. Yeynək də bu qəhrəmanlardan biridir. Oxuduğunuz hissələr əsasında Yeynəyi xarakterizə edən xüsusiyyətlər barədə danışın.

3 Necə düşünürsünüz, təzəcə igid olan Yeynəyin Arşın oğlu Dirək təkura qalib gəlməsinin səbəbi hansı bənddə düzgün göstərilib? Cavabınızı mətndəki faktlarla əsaslandırın.

A) Dayısı Əmənin “Məndən igid ola bilməzsən, Yeynəyim, dön!” – deməsi ona təsir etmişdi.

B) Dayısı Əmənin yeddi dəfə getsə də, qalanı ala bilməyib geri dönməsi onu əsəbiləşdirmişdi.

C) Yeynək Dirək təkurla döyüşə Dədəm Qorqudun xeyir-duası ilə getmişdi.

D) Yeynək Dirək təkurun qabağına iyirmi dörd vilayətin pəhləvan bəyləri ilə çıxmışdı.

E) Yeynək igidliyi və Allaha sığınaraq ondan kömək istəməsi sayəsində Dirək təkura qalib gəldi.

4 Necə düşünürsünüz, aşağıdakı fikirlərdən hansını Yeynəyə aid etmək olmaz? Fikrinizi mətnin məzmunu əsasında faktlarla əsaslandırın.

A) Allahın qüdrətinə inanır, çətin məqamda ona sığınır, ondan kömək istəyir.

B) 16 yaşlı cavan igid olsa da, cəsarətlidir, qorxu bilmir.

C) Dayısı Əmənin sözü ilə qorxub Düzmürd qalasına getmək fikrindən dönür.

D) İyirmi dörd vilayətin bəyi təkurun əlində məğlub olsa da, Yeynək geri çəkilmir.

E) Atasının dustaq olduğunu eşidən kimi onu qurtarmaq haqqında fikirləşir.

5 Oxuduğunuz “boy”un əsas hissəsi hansı cümlə ilə başlanır? Əsaslandırın.

A) Bayındır xan yerindən durmuşdu.

B) Qazılıq qoca deyilən bir kişi var idi.

C) Qazılıq qoca dünyagörmüş, işə yarayan adam idi.

D) Qazılıq qoca düz on altı il qalada dustaq oldu.

E) Qazılıq qocanı dustaqlıqdan çıxartdılar.

Çap üçün deyil

❁ Necə bilirsiniz, yuxarıdakı variantlarda verilən cümlələr mətndəki ardıcıllığa uyğun gəlirmi? Münasibətinizi bildirin.

6 Dastanın oxuduğunuz hissəsində bir yerdə ardıcıllığın pozulmasına yol verilmişdir. Həmin hissəni tapıb oxuyun və fikrinizi əsaslandırın.

7 Mətnin birinci abzasında üzərində ulduz işarəsi qoyulmuş sözlərin düzgün yazılışını müəyyənləşdirib dəftərinizə köçürün.

8 Dastandan götürülmüş aşağıdakı misraların hansı dastan qəhrəmanı tərəfindən söyləndiyini yadınıza salın. Siz də bu sözlərdən istifadə edirsinizmi?

Birliyinə sığındığım, qadir tanrı!
İşimi sən başa vur, sən kömək et!

A) Qazılıq qoca B) Dəli Dondaz və Dönəbilməz Tüləkvuran
C) Dirək təkur D) Qaragünə oğlu Budaq E) Yeynək

9 Mətndə işlənmiş miqdar saylarını tapıb qrammatik mənasını izah edin və hər birini cümlələrdə işlədin.

❁ Bəs "onlarla, yüzlərlə, minlərlə, üç-dörd, on-on beş, neçə-neçə, çox-çox" sözləri nə bildirir? Bu sayların qrammatik mənasını izah edin və quruluşca növlərini müəyyənləşdirib cümlələrdə işlədin.

10 Mətndə qara şriftlə verilmiş sözlərin qrammatik mənalarını izah edin və onları bildiyiniz məna növləri üzrə qruplaşdırın. Rus dilində əvəzliyin məna növləri ilə bağlı biliklərinizi yadınıza salın və növünü müəyyənləşdirə bilmədiyiniz sözləri ayrıca bir qrupda yerləşdirin. Bunlar hansı sözlərdir?

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz **şəxs**, **işarə** və **sual** əvəzlikləri ilə tanışsınız. Ancaq nitqinizdə əvəzliyin digər növlərindən də istifadə edirsiniz ki, bunlar aşağıdakılardır:

a) **qeyri-müəyyən** əvəzliklər – kimsə, kim isə, biri, birisi, nəsə, nə isə, kimi, kimisi, hamı, hərə, hər şey, kiməsə, bəziləri, harasa, kimdənsə, hər nə, neçəsi, kimsə, heç kim, heç nə, heç bir şey, heç kəs, heç biri ...

b) **təyini** əvəzliklər – öz, hər, bütün, filan, eyni

11 Mətndə sarı fonda verilmiş abzasda xeyli mənsubiyyət şəkilçili söz var. Həmin sözləri tapıb hansı şəxsdə işləndiyini müəyyənləşdirin, sonra onların əlaqələndiyi sözlərin ismin hansı halında olduğunu söyləyin.

12 Mətndə altından xətt çəkilmiş sözləri sinonim qarşılıqları ilə əvəz edib cümlələri yenidən oxuyun. Necə düşünürsünüz, əvəzetmə nəticəsində cümlələrin mənasında dəyişiklik baş verdi, yoxsa yox? Siz hansı variantdan istifadəyə üstünlük verərdiniz? Fikrinizi açıqlayın.

Çap üçün deyil

⓭ Mətndə narıncı rəngdə verilmiş sözlərin qrammatik mənası ilə bağlı debat təşkil edin. Deyilən fikirlərə münasibət bildirməklə fikrinizi əlavə faktlarla əsaslandırın. Unutmayın, rus dilindəki bilikləriniz də köməyinizə gələ bilər.

1) Bu sözlər zərfdir, çünki...   2) Bu sözlər sifətdir, çünki ...

Bu sözləri həm sifət, həm də zərf kimi işlətməklə cümlələr qurun.

⓮ Cümlələri düzgün tamamlasanız, bir neçə atalar sözü alınacaq. Özünüzü sınayın və alınan atalar sözlərini oxuyun. Necə bilirsiniz, onların içərisində mətnin məzmunu ilə səsləşəni varmı? Fikrinizi açıqlayın.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Sən saydığını say, ... 2) Böyük ağacın kölgəsi də ... 3) Düşməni dost elə, dostu ... 4) Gördüyünü qoyub ... 5) Kiminin əvvəli, ... 6) Örtülü bazar – ... 7) Namərdin çörəyi ... 8) Qarı düşmən ... 9) Özgə atına minən ...

Köməkçi: dostluğu pozar; böyük olar; düşmən eləmə; kiminin axırı; dizinin üstündə olar; tez düşər; gör fələk nə sayır; eşitdiyinə inanma; dost olmaz

⓯ Aşağıdakı əvəzliklərdən hər birini bir cümlədə işlədib yazın.

kimsə, birisi, nəsə, hamı, hərəniz, hər şey, bəziləri, harasa, heç nə, heç kəs, heç bir şey, hərəmiz

⓰ Aşağıdakı cümlələri dəftərinizə köçürn. Sözlərə artırılan şəkilçilərin altından xətt çəkib hər birinin nə bildirdiyini izah edin.

Şahinlərin ən yaxşısını, qumaşın gözəlini, qızların göyçəyini, doqquz cərgə zər naxışlı çuxanı Bayındır xana hədiyyə ayırdılar. Qalan şeyləri döyüşçü igidlərə bağışladılar.

***Kəlmələrin "dili"ni öyrənək!***

**Dönmək** –1) Getdiyi, ya durduğu tərəfin əksinə çevrilmək – Dön, baxım; istiqamətini dəyişmək, başqa tərəfə yönəlmək – Məktəbə tərəf döndü. 2) Qayıtmaq, geri qayıtmaq – Dönüb evlərinə gəldilər. 3) Sözünü, vədini, qərarını pozmaq, sözündən qaçmaq – Demək, sözündən döndün; imtina etmək, əl çəkmək, üz döndərmək – Mən əqidəmdən dönən deyiləm. 4) Keyfiyyəti dəyişmək – əriyib suya dönmək; başqalaşmaq, çevrilmək – cənnətə dönmək; 5) Dövr etmək, fırlanmaq, hərlənmək – Yer öz oxu üzərində dönür; Başına dönüm, ay ana! 6) Yıxılmaq, çevrilmək – üzü üstə dönmək; 7) Oxşamaq, bənzəmək – daşa dönmək.

⓱ Necə bilirsiniz, "Qazılıq qoca oğlu Yeynək boyu"ndan oxuduğunuz 1-ci hissədə mətnin tamamlandığını, 2-ci hissənin müstəqil mətn olduğunu söyləmək olarmı? Fikrinizi faktlarla əsaslandırın.



Çap üçün deyil

# § 12. AZƏRBAYCAN



*Od ürəkli, od nəfəsli* ***diyarımsan***
Ocağına canım qurban, ____ !
*Əzilsən* də, əyilməyən **vüqarımsan**
Bu çağına canım qurban, ____ !



**Savaşlardan alnıaçıq** çıxan zaman
Tarixlərə bağışladın **neçə** qurban.
*Hər qonşuda bir* ***parçası*** *əsir qalan*
Torpağına canım qurban ____ !



*Neçə gizli* ***sərvət*** *yatır qucağında,*
*Neçə ölkə od aparır ocağından*.*
*Azadlığın* ***al rəmzi*** *var bayrağında*
Bayrağına canım qurban, ____ !



*Hər* ***uğurun*** *gələcəyə bir yol açır,*
Hər dost elə xoş **niyyətin** işıq saçır.
*Hər millətə, hər məzhəbə isti,* açıq**
Qucağına canım qurban, ____ !



Başım üstdə **məğrur-məğrur** dalğalanan
Bayrağına canım qurban, ____ !
*Ruhuma büt,* ***cismim*** *üçün vətən olan*
Torpağına canım qurban, ____ !

**Nəriman Həsənzadə**

## SÖZLÜK

| | |
|---|---|
| çağ – время | niyyət – намерение |
| alnıaçıq – burada: честный | məzhəb – вера |
| al – алый | cism – burada: тело |

**1** Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun. Necə bilirsiniz, şeirdəki boşluqların yerinə hansı sözün yazılması daha çox yerinə düşər? Fikrinizi şeirdəki faktlara istinad etməklə əsaslandırın.

A) ey vətən B) torpağım C) ulu diyar D) Azərbaycan E) qəhrəmanım

**2** Şeirdəki əsas fikri müəyyənləşdirin. Necə düşünürsünüz, –
Ruhuma büt, cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan! – misraları ilə şair nə demək istəyir? Fikirlərinizi açıqlayın.

**3** Şeirin müxtəlif bəndlərində Vətənimizin qəhrəman tarixi, zənginliyi, torpağının müqəddəsliyi tərənnüm olunur. Qruplara bölünün və hərəniz şeirin



Çap üçün dey

bəndlərindən birində deyilən fikirlər ətrafında Azərbaycan haqqında danışın. Danışarkən şeirin hissələrinə uyğun müvafiq faktlardan, nümunələrdən istifadə edin və nitqinizi uyğun səs tonu ilə tənzimləyin.

❹ Şeiri oxuduqdan sonra inşa yazmalı olsanız, aşağıdakı misralardan hansını ona başlıq seçərdiniz? Seçdiyiniz başlıq üzrə material toplayın və cümlələr, abzaslar arasında əlaqələri gözləməklə inşa yazın.

1) Od ürəkli, od nəfəsli diyarımsan ...
2) Azadlığın al rəmzi var bayrağında ...
3) Hər millətə, hər məzhəbə isti, açıq ...
4) Ruhuma büt, cismim üçün vətən olan ...
5) Neçə gizli sərvət yatır qucağında ...

❺ Şeirdən götürülmüş aşağıdakı misralarda işlənən “neçə” sözünün qrammatik mənası ilə bağlı debata qoşulun. Qarşı tərəfin izahına münasibət bildirməklə fikirlərinizi tutarlı faktlarla əsaslandırın.

**1) <u>Neçə</u> gizli sərvət yatır qucağında,**
**<u>Neçə</u> ölkə od aparır ocağından.**

**2) Tarixlərə bağışladın <u>neçə</u> qurban.**

1) Bu misralarda “neçə” sözü sual əvəzliyidir.
2) Bu misralarda “neçə” sözü qeyri-müəyyən saydır.

❻ Kiçik qruplara bölünün və hərəniz şeirdə kursivlə verilmiş misralardan birində “gizlənən” mənaları necə başa düşdüyünüzü izah edin.

### *Kəlmələrin “dili”ni öyrənək!*

**Yatmaq** – 1)Yuxulamaq – Bərk yatmaq; yuxulamaq üçün yatağa girmək – Saat 12-də yatdıq; 2) Xəstə olmaq, xəstələnmək – Düz iki ay xəstə yatdı; 3) Çökmək, enmək – Toz yatdı; 4) Bir işin, hadisənin təsiri azalmaq, zəifləmək, sakitləşmək, dayanmaq – Külək yatdı. Hirsi yatdı; 5) Yığılıb qalmaq, satılmamaq – Dükanlarda mal yatıb qalıb. 6) Həbsdə olmaq – həbsxanada yatır; 5) məcazi mənada: arxayın olmaq, xəbərsiz olmaq – Yatmısan, heç nədən xəbərin yoxdur? 6) məcazi mənada: Dayanmaq, işləməmək, fəaliyyətdən qalmaq – Saat yatıb.

❼ Verilmiş ifadələri tərcümə edin və cümlələrdə işlədin.

тёплое дыхание, огненное сердце, скрытое богатство, красное знамя, приятное намерение, тёплое объятие, до последнего дыхания

❽ Şeirdə qara hərflərlə verilmiş sözlərin qrammatik mənalarını izah edin. Sonra onların içərisindən mənsubiyyət şəkilçili isimləri seçib aid olduğu sözlərlə birlikdə səsləndirin, mənsubiyyət şəkilçilərinin hansı şəxsi bildirdiyini izah edin.

Çap üçün deyil

❁ Bu sözləri kontekstə uyğun sinonimləri ilə əvəz edib, misraları yenidən oxuyun.

9 Şeirdə işlənmiş sifətləri seçib yazın və onları quruluşca növlərinə görə qruplaşdırın. Necə bilirsiniz, həmin sifətlərdən hansıların müqayisə dərəcələri üzrə dəyişmək mümkündür. Özünüzü yoxlayın.

10 Aşağıdakı sətirlərdə sizin bildiyiniz altı atalar sözü "gizlənmişdir". Həmin atalar sözlərini tapıb yazın. Necə bilirsiniz, tapdığınız atalar sözlərinin içərisində şeirin məzmunu ilə səsləşməyən varmı? Fikrinizi açıqlayın.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

vətənə gəldim, gözlərimə qan gəldi, vətən həsrəti çəkdim, imana gəldim, qürbətdə xan olunca, öl içində, köçən yurdun qədrini, gözüm vətəndə, el içində, vətənində dilən gəz, özüm qürbətdəyəm, düşən yurdda bilərlər

11 Şeirdə qırmızı rəngdə verilmiş sözlərin əvəzliyin hansı məna növlərinə aid olduğunu deyin və onları başqa cümlələrdə də işlədin. "Bu" əvəzliyini hallandırın.

❁ Şeirin 1-ci bəndində işlənmiş "bu" əvəzliyindən sonra vergül qoyulmasına ehtiyac varmı? Fikrinizi müvafiq nümunələrdən istifadə etməklə əsaslandırın.

12 Cütlərlə işləyin: Ahəng qanununa uyğun düzgün şəkilçi variantı seçməklə şeirdən götürülmüş aşağıdakı sözlərdən birini mənsubiyyətə görə dəyişin və hallandırın. Sonra müxtəlif şəxslərdə işlənmiş formaları hallandırın.

**bayraq, ocaq, ürək, torpaq, qucaq, azadlıq, gələcək, dost**

13 Şeirdə indiki və keçmiş zamanda işlənmiş feilləri seçib göstərin, onların neçənci şəxsdə olduğunu deyin. Həmin feilləri cümlələrdə müxtəlif şəxslərdə işlədin.

14 Vətən haqqında aşağıdakı aforizmləri oxuyun, mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri seçib səsləndirin. Seçdiyiniz sözlərdəki şəkilçilərin hansı şəxsə aid mənsubluq bildirdiyini izah edin.

### HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Öz vətəninə mənsub olmayan bəşəriyyətə də mənsub deyil.* ***Vissarion Belinski.***
*2) Valideynlərimiz, övladlarımız, qohumlarımız bizə əzizdir; lakin məhəbbət haqqında bütün təsəvvürlərimiz bir sözdə – "Vətən" sözündə birləşmişdir.* ***Mark Tulli Siseron.***
*3) Torpağı qorumasan, əkib-becərməyə dəyməz; əkib-becərməsən – qorumağa dəyməz.* ***Dədə Qorqud***

Çap üçün deyil

15 Şeirin 1-ci bəndində yaşıl rəngdə verilmiş feilin neçənci şəxsdə işləndiyini deyin. Rus dilindəki biliklərinizə əsasən, onun feilin hansı formasında olduğunu müəyyənləşdirməyə çalışın. Necə bilirsiniz, bu feildə şəxs şəkilçisindən əvvəl gələn şəkilçi zaman şəkilçisidir, yoxsa forma düzəldən şəkilçi? Fikrinizi bildirin.

16 Vətən sevgisini hər şair müxtəlif şəkildə tərənnüm edir. Qruplara bölünün və Vətən haqqında oxuduğunuz şeirlərdən xoşunuza gələn misraları xatırlayıb yazın. Deyə bilərsinizmi, niyə məhz həmin misralar yadda qalır? Yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə mövzunu müzakirə edin.

Yadınızda qalan misraların aforizmə çevrildiyini söyləmək olarmı? Necə bilirsiniz, belə nümunələrə nə zaman müraciət olunur? Fikirlərinizi əsaslandırın.

***Köməkçi:*** 1) Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan! **Səməd Vurğun**
2) Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik! **Ülvi Bünyadzadə**

## § 13. HÜSEYNQULU XAN

Sizə kimdən* deyim, Hüseynqulu xandan*. O Hüseynqulu xan ki, həmişə dostu **duz-çörəklə**, düşməni qılıncla* qarşılamışdı. Bir ucu İran, bir ucu Turan – hamı onun **ağıl-kamalından***, hünərindən* danışırdı. Amma son vaxtlar* nədənsə Hüseynqulu xanın *kefi yox idi*[1]. Yaxın dostu* – avarların* başçısı Əhməd xan rus knyazı Sisianovdan aldığı bir məktubu ona göndərmişdi ki, oxusun, tanış olsun. Rus knyazı Sisianov yazırdı ki, mən hərb meydanını sevirəm.

**Hüseynqulu** xan belə *götür-qoy etdi ki*[1], bu gün Avarıstana gedən sabah da **Badi-Kubəyə** gələcək. Görünür, Gəncəni, Şamaxını işğal edəndən* sonra *iştahası böyüyüb*[1]. Odur ki, boş durmaq* olmaz. Tədbir görmək lazımdır.

Hüseynqulu xan göstəriş* verdi ki, **İçərişəhərin** qala divarları* möhkəmləndirilsin, oxlar düzəldilsin, qılınclar kəsilsin, atların* nalları təzələnsin, ta düşmən gələnə bir **əyər-əskik** qalmasın. Bağçalarda güllər, çiçəklər əkilsin.

İndi sizə kimdən* deyim, rus knyazı Sisianovdan. O, Şamaxı tufanından* sonra bərk xəstələnmişdi*. Elə **ağır-ağır** nəfəs alırdı ki, deyirdin ki, indicə öləcək. Nə qədər **dava-dərman** eləyirdilərsə də, xeyri olmurdu. Düz üç gün, üç gecə *arxası üstə qaldı*[1], boğazına **qurtum-qurtum** su ______ . Nəhayət, dördüncü gün gözünü açdı və yanındakı yavərə dedi:

– Artıq hiss edirəm ki, əcəlim yetib. Amma Badi-Kubəni tutmamış, İçərişəhərə girməmiş ölmək istəmirəm. Mənim adımdan* qoşuna de ki, hazırlaşsın*.

Çap üçün deyil

– ***Axı bu halda ...***

– Eybi yoxdur ... Məni elə birtəhər atın belinə aşırın, yolda sağalacağam.

Sisianov düz üç gündən* sonra qoşunu ilə gəlib İçərişəhərin qala divarı önündə ______ . Gördü qala divarlarının* üstü oxatanlarla* doludur. Sakitcə dayanıb əmr ______ .

Sisianov içəriyə elçi göndərdi, xana çatdırdı ki, onunla danışmaq ______ . Hüseynqulu xan dedi ki, buyursun, gəlsin. Sisianov bu dəfə elçiyə dedi:

– Xana de ki, şəhərin açarlarını* göndərsin ki, ona inanım.

Elçinin sözü Hüseynqulu xana *xoş getmədi*[1]. İstədi ki, onu qovsun. Amma məsləhətçi və məşvərətçilər dedilər ki, səbirli ol.

Qazılıq qoca düz on altı il qalada dustaq oldu. Sonralar Əmən deyilən bir kişi altı dəfə getdi, həmin qalanı ala bilmədi.

Hüseynqulu xan İçərişəhərin açarlarını* ______. Amma Sisianov bundan* da razı olmadı. Dedi ki, açarları* xan özü gətirsin. Məsələ bu yerə gəlib çatanda Hüseynqulu xan məsləhətçi və məşvərətçilərinə dedi ki, narahat olmayın, artıq* mən bilirəm ki, nə etmək lazımdır.

Hüseynqulu xan İçərişəhərin açarlarını* bir gümüş nimçəyə qoyub Sisianovun yanına apardı. Elə ona çatanda qılıncını sıyırıb *boynunu vurdu*[1]. Bunu görən qoşun pərən-pərən düşdü.

Hüseynqulu xan Sisianovun tökülən qanına, yerdə top kimi diyirlənən* başına baxıb dedi:

– Knyaz, xoşladığın şey *başına gəldi*[1]. Səndən* Gəncənin də, Şamaxının da heyfini çıxdım.

Deyilənə görə, Sisianovun kəsilmiş başı sonradan necə oldusa, tapılmadı. Kimi dedi, Gəncəyə, Şamaxıya aparılıb, qapı-qapı gəzdirildi, kimi dedi, Avar xanı Əhməd xana sovqat göndərildi; kimi də dedi ki, qırx pud ağırlığında* qızıla İran şahına satıldı ...

**İşləyəni: Dilsuz**

### SÖZLÜK

nal – подкова
yavər – адъютант
əyər-əskik – недостаток
sıyırmaq – burada: вытащить
götür-qoy etmək – обдумать
məşvərətçi – советник, консультант

### SÖZ EHTİYATI

pud – пуд (мера веса равная 16,4 кг)
pərən-pərən düşmək – разойтись

**1** Mətndəki ağ boşluqların yerinə ilk ağlınıza gələn sözləri qoyub cümlələri oxuyun. Sonra “Köməkçi”yə baxaraq düzgün seçim edib-etmədiyinizi müəyyənlədirin.

***Köməkçi:*** axıtdılar, tökdülər, doldurdular, verdilər; oturdu, gəzindi,

Çap üçün deyil

dayandı, gözlədi; verirdilər, gözləyirdilər, dinləyirdilər; istəyir, xahiş edir, tələb edir, arzusundadır; apardı, göndərdi, verdi, tulladı ...

❁ Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyun və əsas fikri müəyyənləşdirin.

❁ Oxu zamanı mətnin məzmunu ilə əlaqəsi olmayan cümlə və ya abzasla qarşılaşdınızmı? Fikrinizi açıqlayın və müəyyən etdiyiniz faktları səsləndirin.

2 Aşağıdakı suallara cavab verin və mətnin məzmununu qısaca danışın.

1) Hüseynqulu xanın kefi niyə pozulmuşdu?
2) Xan nə üçün qala divarlarının möhkəmləndirilməsi üçün göstəriş verdi?
3) Sisianov xəstəlikdən gözünü açanda yanındakı yavərə nə dedi?
4) Xan Sisianovun yerdə top kimi diyirlənən başına baxıb nə dedi?
5) Sisianov içəriyə elçi göndərib Hüseynqulu xana nə çatdırdı?
6) Sisianov qoşunu ilə İçərişəhərin qala divarı önündə dayananda nə gördü?
7) İçərişəhərin açarlarını Sisianovun yanına nə üçün xan özü apardı?

❁ Necə bilirsiniz, sualların sırası mətndəki ardıcıllığı əks etdirə bilirmi? Fikrinizi mətnə istinad etməklə əsaslandırın və müvafiq ardıcıllığı bərpa edin.

❁ Necə düşünürsünüz, hadisələr suallardakı ardıcıllıq üzrə baş verə bilərdimi? Söylənilən fikirlərə münasibət bildirməklə müzakirə edin və fikirlərinizi əsaslandırın.

3 Mətnin hissələrini və bu hissələri bir-birinə bağlayan cümlələri müəyyənləşdirin.

❁ Necə düşünürsünüz, mətnin əvvəlki hissələrindən sonluğun bu şəkildə olacağını təxmin etmək mümkündürmü? Fikrinizi söyləyin.

4 Sarı fonda verilmiş abzasın mətndəki rolunu müəyyənləşdirməyə çalışın. Necə düşünürsünüz, bu abzası mətndən çıxarsaq, Sisianovun nə üçün gəlib İçərişəhərin qala divarı önündə dayanmasının səbəbini başa düşmək olarmı? Müzakirə edin və münasibətinizi bildirin.

5 Aşağıdakı mətni Azərbaycan dilinə tərcümə edin. Bu məlumatdan "Hüseynqulu xan" mətninin hansı hissəsində istifadə etmək olar? Fikrinizi əsaslandırın.

28 ноября Цицианов прибыл в Шамхор и отправил Джавад-хану письмо, где напомнил, что тот принял подданство России и дал клятву. Далее шло ультимативное требование сдать город, иначе обещал «огонь и меч». В письме сообщалось и том, что Гянджа с округой принадлежали ранее Грузии и Россия, приняв Грузию под свою власть, не может оставить Гянджу в чужих руках. Джавад-хан, затягивая время, дал неопределённый ответ в лучших традициях восточной дипломатии.

Çap üçün deyil

❻ Mətndə qara şriftlə verilmiş mürəkkəb sözlərin nə üçün bitişik və ya defislə yazılmasının səbəbini izah edin və onlardan hər birinin hansı nitq hissəsinə aid olduğunu deyin.

❼ Necə düşünürsünüz, mətndə qara kursivlə verilmiş cümləni kontekstə uyğun tamamlamaq üçün aşağıdakı variantlardan hansı yerinə düşmür?

A) ata necə minəcəksiniz B) gedə bilməzsiniz
C) sizə çətin olar D) necə gedə bilərsiniz
E) sizi heç bir təhlükə gözləmir

❽ Uyğun əlamət bildirən sözlərdən istifadə etməklə Hüseynqulu xanı təsvir edən bir neçə cümlə yazın. Cümlələrin bir-biri ilə əlaqələnməsinə diqqət yetirin.

***Köməkçi:*** cəsur, ağıllı, hünərli, tamahkar, kinli, varlı, səbirli, zülmkar, iradəli, işgüzar, vətənpərvər, tənbəl, davakar, tədbirli, gözüaçıq, etibarlı, acgöz, diribaş, uzaqgörən, işğalçı, qaniçən ...

❾ Mətndə altından xətt çəkilmiş sözlərin qrammatik mənasını izah edin və məna növləri üzrə qruplaşdırın.

✿ Qeyri-müəyyən əvəzliklərə aid özünüzdən misallar deyin və cümlələrdə işlədin.

❿ Mətndə narıncı rəngdə verilmiş feilləri kök və şəkilçiyə ayırıb yazın. Sonra həmin feillərdən yenilərini düzəldin.

***Köməkçi:*** köçürmək: köç+ür+mək – köçürülmək, köçürtmək, köçürtdürmək, köçürtdürülmək

⓫ Aşağıdakı söz birləşmələrini tərcümə edib yazın və cümlələrdə işlədin.

поле битвы, крепостные стены, русский князь, ключи города, серебряная тарелка, сорок килограмм золота

⓬ Mətndə adi kursivlə fərqləndirilmiş ifadələrin kontekstə uyğun mənalarını izah edin. İçərisində bu ifadələr işlənmiş cümləni tərcümə edin.

⓭ Kiçik qruplara bölünün. Həriniz aşağıdakı feillərdən birini müəllimin tövsiyə etdiyi formada şəxslərə görə dəyişib yazın və cümlələrdə işlədin.

köçürmək, təmizləmək, daramaq, bağlamaq, açmaq, hazırlaşmaq

⓮ Mətndə narıncı rəngdə verilmiş feillərin şəxsini və axırıncı abzasdakıların zamanını müəyyənləşdirin. Rus dilindəki biliklərinizə əsasən, narıncı rəngdəki digər feillərin formasını (şəklini) təyin edə bilərsinizmi?

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində feilin **altı forması** (şəkli) var. Bunlar aşağıdakılardır:
1) **Əmr** forması: heç bir xüsusi şəkilçisi yoxdur – yuyum, yu, yusun, inanaq...
2) **xəbər** forması: zaman şəkilçiləri ilə düzəlir – dincəlir, üşüdüm, gələcəksən...
3) **arzu** forması: -a, -ə şəkilçisi ilə düzəlir – gərək baxam, gedəsən, kaş dinləyə...
4) **lazım** forması: -ası, -əsi şəkilçisi ilə düzəlir – verəsiyəm, qaytarasıyıq...
5) **vacib** forması: -malı, -məli şəkilçisi ilə düzəlir – oyanmalısınız, silməlisən...
6) **şərt** forması: -sa, -sə şəkilçisi ilə düzəlir – soruşsalar, doldursaq, bişirsən...

⓯ Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlərin qrammatik mənasını izah edin. Necə bilirsiniz, bu sözlər eyni, yoxsa fərqli qrammatik mənada işlənib? Fikrinizi əlavə misallarla əsaslandırmağa çalışın.

1) Hüseynqulu xan Sisianovun yerdə top kimi diyirlənən başına baxdı. 2) Kimi dedi, Gəncəyə aparılıb, kimi dedi, Əhməd xana sovqat göndərildi. 3) Kimi görmək istəyirsiniz?

*Bir kərə yüksələn bayraq, bir daha enməz.*

**Məmməd Əmin Rəsulzadə**

## § 14. BAYRAĞIMIZ

Ay-ulduzlu, gur şəfəqli,
Göz oxşayan, bər-bəzəkli,
Göy, qırmızı, yaşıl rəngli,
Dalğalanan bayrağımız.

Sən millətin **qürurusan,**
Odun şöhrət, sünbülün şan,
**Yenilməzdir** Azərbaycan,
**Ucal hər an**, bayrağımız!



Tanrı bizi darda qoymaz.
Gözəlliyə fələk qıymaz.
Səndən heç vaxt könül doymaz,
**Məğrur** dayan, bayrağımız!

Öz yerin var yer üzündə,
Bir **bəzəksən** el gözündə,
Şuşada, Cıdır düzündə,
Qalx, dalğalan, bayrağımız!

**Mahmud Əhməd**

❶ Nitqinizi uyğun səs tonu ilə tənzimləməklə şeiri oxuyun.

❷ Bayrağımızın təsviri şeirin hansı bəndində verilmişdir? Əlamət bildirən sözlərdən istifadə etməklə həmin təsviri genişləndirib öz sözlərinizlə danışın.

❸ Nə üçün şair bayrağımızın məhz Şuşada və Cıdır düzündə qalxıb dalğalanmasını arzulayır? Mövzunu genişləndirib danışın, cümlələrin bir-biri ilə əlaqələnməsinə diqqət yetirin.

❹ Şeirin 2-ci bəndində işlənmiş sinonim sözləri tapıb səsləndirin, sonra qara şriftlə verilmiş sözlərin sinonimlərini tapıb söz birləşmələri və cümlələrdə işlədin.

Çap üçün deyil

❺ Şeirdə işlənmiş “gözəllik” və “bəzək” sözlərinin qrammatik mənasını müəyyənləşdirin. Sonra onları kök və şəkilçiyə ayırın və həmin şəkilçilərlə yeni sözlər düzəldin.

❻ Ahəng qanununa uyğun düzgün şəkilçi variantları seçməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə yazılı tərcümə edin və bayrağımızın tarixi haqqında məlumatınızı artırın.

- Mətnin məzmunu üzrə suallar tərtib edib yazın.
- Bu məlumatdan şeirin hansı bəndinin mənasını izah etmək üçün bir nümunə kimi istifadə oluna bilər? Fikrinizi əsaslandırın.

❼ Cümlələr arasında əlaqələri gözləməklə “Bayrağımız qürurumuzdur” mövzusunda inşa yazın. Tərtib etdiyiniz mətndə müvafiq nümunələrdən, faktlardan istifadə etməyə çalışın.

❽ Şeirdə mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri seçib yazın, hər birinin qarşısında neçənci şəxsə mənsub olduğunu qeyd edin və aid olduqları sözlərlə birlikdə səsləndirin.

❾ Şeirin 1-ci bəndində işlənən sifətləri seçib yazın, müqayisə dərəcələri üzrə dəyişib cümlələrdə işlədin.

❿ Şeirdə altından xətt çəkilmiş sözlərin feilin hansı formasında olduğunu müəyyənləşdirin. Sonra onları həmin formada şəxslər üzrə dəyişib yazın və şəxs şəkilçilərinin artırılmasında ahəng qanununa əməl olunduğunu əsaslandırın.

| ***Köməkçi:*** | | | |
|---|---|---|---|
| | çağır + ım | çağır – | çağır + sın |
| | çağır + aq | çağır + ın | çağır + sınlar |

⓫ Qruplara bölünün. Şeirdə altından xətt çəkilmiş sözləri hərəniz feilin arzu, lazım, vacib, şərt şəkillərindən birində şəxslərə görə dəyişib yazın. Forma və şəxs şəkilçilərini fərqləndirin.

| ***Köməkçi:*** | | | |
|---|---|---|---|
| | öyrənməli**yəm** | öyrənməli**sən** | öyrənməli**dir** |
| | öyrənməli**yik** | öyrənməli**siniz** | öyrənməli**dirlər** |

⓬ Şeirdə altından xətt çəkilmiş sözləri feilin xəbər şəklində (keçmiş, indiki və gələcək zamanlarda) şəxslərə görə dəyişib yazın. Zaman və şəxs şəkilçilərini müxtəlif işarələrlə fərqləndirin. Şəkilçilərin artırılmasında ahəng qanununa əməl olunduğunu əsaslandırın.

⓭ Şeirdə işlənmiş aşağıdakı sözlərdən eyniköklü sözlər (biri feil olmaq şərti ilə) düzəldib yazın.

bəzə(mək) doy(maq), dalğa, yaşıl, rəng, göy, qürur, od, uca, dar, yer, üz, göz, düz, gözəl

- Düzəltdiyiniz feilləri **əmr, xəbər, arzu, lazım, vacib, şərt** şəkillərində cümlələrdə işlədin.

Çap üçün deyil

⓮ Aşağıdakı cümlələri oxuyun, feilləri seçib dəftərinizə yazın. Onların feilin hansı formalarında işləndiyini müəyyənləşdirib, qrammatik mənalarını izah edin; forma və şəxs şəkilçilərinin altından xətt çəkin.

1) Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. 2) Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. 3) Hüseynəli xan: ”Yox, xanım, beşiyin dalınca gərək özüm gedəm”, – dedi. 4) Hacıəli kişi, əgər yadındadırsa, demişdim ki, Allah-Təala mənə bir övlad versə, beşiyini sənə düzəltdirəcəyəm. 5) Xan, mən daha qocalmışam, gedək, “Böyük çarşı”dan sənə yaxşı bir beşik alaq.

⓯ Şeirdə inkarda işlənən feilləri tapıb səsləndirin və onların feilin hansı formasında işləndiyini müəyyənləşdirin. Sonra həmin feilləri eyni formanın təsdiqində şəxslər üzrə dəyişib yazın.

***Kəlmələrin “dili”ni öyrənək!***

**Şərəf** – 1) Fəxr, iftixar ediləcək şey – Sənin kimi bir insanla dost olmağı özüm üçün şərəf hesab edirəm; Namus, mənəvi saflıq, təmizlik, bəkarət – şərəfini qorumaq; Verdiyimiz sözü vaxtında yerinə yetirmək bizim üçün şərəf işidir. Yaxşı ad, etibar – Məktəbimizin şərəfini uca tutmalıyıq. 2) Ehtiram, saygı, hörmət – Bu şərəf üçün nəyə borcluyuq?

**Şöhrət** – 1) Zəhmət, istedad, məharət və s. nəticəsində hamı tərəfindən tanınma; məşhur olma, ad-san – Onun şöhrəti bütün dünyaya məlumdur; Adı çıxma, ad qazanma – O, şöhrət üçün yaşamırdı. **Şöhrət qazanmaq** – məşhur olmaq, hamı tərəfindən tanınmaq, məşhurlaşmaq – Şöhrət qazanmaq elə də asan deyil. 2) Şan, şərəf, iftixar – Alnıaçıq hər kəsə şöhrətdir bayrağımız (S.Rüstəm).

**Şan** – Ad-san, şöhrət, şərəf – Şanın, şöhrətin dünyanı tutub.

## § 15. DOĞRUDAN DA, FİZİKDİR ...

Dərsdən sonra yeddinci **sinfin** bütün şagirdləri məktəbin fizika kabinetinə yığışdılar. İlıq* bahar günəşi kabinetin geniş pəncərələrindən* **içəri** dolmuşdu. Vəli ilə Nadir **səssiz** içəri girib lap qapı **ağzında** qoyulmuş stullarda oturdular. Ramazan müəllim hələ ***gəlməmişdi***. Onun əvəzində isə Adil uzun stolun üstünə elektroskop, elektrik maşını, reostat* və başqa cihazlar düzür, divardan cədvəllər asırdı.

– Bəs Ramazan müəllim* ***gəlməyəcək***?

– Gələcək. Onsuz olmaz.

Elə bu zaman hündürboylu, qıvrımsaçlı Ramazan müəllim içəri girdi. Uşaqlara salam verdikdən sonra üzünü Adilə tutub dedi:

– Hə, hazırsınızmı?

Çap üçün deyil

Adil tez divara vurduğu cədvəl və sxemlərin qabağına keçib dedi:

– Bəli, hər şey hazırdır.

Müəllim stolun üstünə düzülmüş cihazlara və sxemlərə **nəzər saldı**, sonra üzünü uşaqlara* tutub dedi:

– Hə, demək, bugünkü məşğələmiz mexaniki enerjinin elektrik enerjisinə çevrilməsi haqqındadır. Bu barədə Adil danışacaqdır.

Bu sözü eşitdikdə Vəli ilə Nadir **təəccüblə*** bir-birinə baxdılar. Adil sxemlərin qabağında durub danışmağa başladı. O danışdıqca əlindəki ağacla* divara vurulmuş sxemləri göstərir, dediklərini cihazlar vasitəsilə **nümayiş etdirirdi.**

Ramazan müəllim hündürboylu, arıq və bir şey düşündüyü zaman **həmişə** gözlərini qıyan Adilə **diqqətlə** qulaq asırdı. Adil sözünü qurtardığı zaman o gülümsəyərək dedi:

– Çox sağ ol, **yaxşı** danışdın.

Vəli ilə Nadir **dinməzcə** oturub baxırdılar. Adilin çəkinmədən, çaşmadan danışması onları **heyrətə salmışdı**. "Doğrudan da, fizikdir", – deyə Nadir öz-özünə fikirləşdi*.

Dərnəyin məşğələsi bir saatdan artıq* çəkdi.

**Xalidə Hasilova**

SÖZLÜK

| | |
|---|---|
| cihaz – аппарат | ılıq – теплый |
| cədvəl – burada: таблица | çəkinmək – стесняться |
| qıymaq – burada: жмурить | çaşmaq – растеряться |

1 Temp və fasiləni gözləməklə mətni oxuyun. Sonra **giriş, əsas hissə və nəticəni** bir-biri ilə bağlayan cümlələri müəyyənləşdirib səsləndirin.

2 Mətn üzrə beş elə sual tərtib edib yazın ki, onlara mətndə cavab tapmaq mümkün olmasın.

3 Üzərində ulduz işarəsi qoyulmuş sözlərdən üçü qoşasaitli sözdür. Bu sözlərdən hər biri tələffüzünə görə digərlərindən fərqlənir. Bu fərqlər nədən ibarətdir? Qoşasaitli sözlərin tələffüzü ilə əlaqədar öyrəndiyiniz qaydaları yadınıza salın və hər bir sözün tələffüzünü əlavə misallar söyləməklə izah edin.

4 Mətndə göy rəngdə verilmiş ifadələri hansı sözlərlə əvəz etmək olar? Cümlələri tapdığınız sözlərlə yenidən oxuyun və hər iki variantı müqayisə edin. Necə bilirsiniz, bu ifadələrin içərisində "göz gəzdirmək" ifadəsinin sinonimi varmı? Fikrinizi əsaslandırın.

5 Mətndə altından xətt çəkilmiş sözlərin quruluşunu müəyyənləşdirib qrammatik mənalarını izah edin. Sonra həmin sözləri uyğun sözlərlə əlaqələndirərək birləşmələr düzəldib yazın.

Çap üçün deyil

6 Mətndə qara şriftlə verilmiş sözləri dəftərinizə köçürün və hər birinin qarşısında suallarını yazın. Bu sözlərin hansı nitq hissəsinə aid olduğunu və hər birinin hərəkəti hansı cəhətdən izah etdiyini müəyyənləşdirməyə çalışın.

### BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz zərflərin hərəkəti müxtəlif cəhətdən izah etdiyini bilirsiniz. Bu baxımdan zərflərin müxtəlif məna növləri vardır:

**Tərzi-hərəkət** zərfi – yavaş yeriyir, hündürdən danışır, taybatay açıldı...
**Zaman** zərfi – bayaq dedi, günorta yedi, əvvəl yazdı, hələ bilmir ...
**Yer** zərfi – irəli yeridim, burada razılaşdım, üzüyuxarı qalxdım...
**Kəmiyyət** zərfi – çox gözlədik, azca yığdıq, xeyli dincəldik, birə-beş artdı...

7 Müəllimin təqdim etdiyi cümlələri Azərbaycan dilinə tərcümə edin, sonra onları ardıcıllıqla elə düzün ki, mətn alınsın.

8 Aşağıdakı sözlərin sualını müəyyənləşdirin və onlardan hər birini uyğun hərəkət bildirən sözlərlə əlaqələndirib yazın. Necə düşünürsünüz, bu sözləri zərfin hansı məna növünə aid etmək lazımdır?

sağa, sola, ora, aşağı, uzaqda, yuxarı, içəri, geri, üzüaşağı, dala-qabağa, ora-bura, o yan-bu yana, irəlidə, yaxından, ortalıqda, kənarda

9 Aşağıdakı atalar sözlərini oxuyun və zərfləri tapıb səsləndirin. Sonra onlardan hər birinin zərfin hansı məna növünə aid olduğunu müəyyənləşdirin.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Çox yaşayan çox bilməz, çox gəzən çox bilər. 2) Çox yemək adamı az yeməkdən də qoyar. 3) Ağac bar verəndə başını aşağı əyər. 4) Cücəni payızda sayarlar. 5) Dəmiri isti-isti döyərlər. 6) Dəvə ağır gedər, çox gedər.

10 Aşağıdakı sözləri elə dəyişin ki, “haraya?, harada?, haradan?” suallarına cavab olsun. Sonra həmin sözləri cümlələrdə işlədin.

yaxın, aşağı, bura, içəri, geri, yuxarı, uzaq

***Köməkçi:*** bayır – bayıra, bayırda, bayırdan

11 Necə düşünürsünüz, Adilin çıxışını dinləyəndən sonra Vəli fizika dərnəyinə üzv yazılmaq istəyəcəkmi? Bəs dərnəyə yazılmaq üçün Vəli hansı məzmunda ərizə yazmalıdır? Bu ərizəni yazmaqda ona kömək edə bilərsinizmi? Özünüzü yoxlayın və rus dilindəki biliklərinizdən istifadə edərək Vəli üçün bir ərizə nümunəsi yazın.

12 Aşağıdakı sözlər üzərində müşahidə aparın, onların hansı sözlərdən düzəldiyini və hər birinin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

Çap üçün deyil

**çəkmək** – çəki – çəkici – çəkilmək – çəkinmək – çəkingən – çəkindirmək – çəkişmək – çəkdirmək

**çaşmaq** – çaşqın – çaşqınlıq – çaşdırmaq – çaşdırıcı – çaşbaş, çaşıb-qalmaq

❁ Bu sözlərdən bir neçəsini cümlələrdə işlədin. Başa düşmədiyiniz sözlərin mənasını lüğətdən tapıb öyrənin.

**13** Aşağıdakı sözlərin sualını müəyyənləşdirin və zərfin hansı məna növünə aid olduğunu deyin. Onlardan bir neçəsini uyğun hərəkət bildirən sözlərlə əlaqələndirib yazın.

indi, bildir, srağagün, inişil, axşamüstü, axşamçağı, axşamtərəfi, səhər-axşam, gecəyarı, gecə-gündüz, yenə, arabir, hərdənbir, əvvəl-axır, ara-sıra, hərdən-birdən, hərdən-hərdən, o zaman, bu vaxt, tezdən, tezliklə, onda, dərhal, qabaqlar, daim, tez-tez, sonradan-sonraya, yenicə, təzəcə

❁ Bu sözlərin quruluşunu müəyyənləşdirib ayrı-ayrı sütunlarda yazın.

**14** Qruplara bölünün və hərəniz aşağıdakı aforizmlərdən biri ətrafında fikirlərinizi əsaslandırmaqla danışın. Danışarkən səs tonunuzu düzgün tənzimləməyə səy göstərin.

### HİKMƏT XƏZİNƏSİNDƏN

1) Nursuz göz kimidir elmsiz ürək. **Marağalı Əvhədi**
2) Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir. **Onore de Balzak**
3) Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər. **Emil Zolya**
4) Pis müəllim biliyin özünü, yaxşı müəllim onu tapmağı öyrədir. **Adolf Disterveq**
5) Elm həm bildiklərinizi, həm də bilmədiklərinizi bildirmək üçündür. **Çin atalar sözü**

❁ 4-cü aforizm üzrə debat təşkil edin:
1) Pis müəllim biliyin özünü öyrədir.
2) Yaxşı müəllim biliyi tapmağı öyrədir.

**15** Aşağıda hissələri bir-biri ilə qarışıq düşmüş dörd tapmaca verilib. Əvvəlcə mənaca uyğun hissələri birləşdirib tapmacaların ilkin şəklini bərpa edin, sonra onları cavablandırın.

Gəlirdim adam ilə,
Bir xəlbir badam ilə,
Şəhəri var, evi yox.
Meşəsi var, ağacı yox.

Düzülüb arpa kimi,
Danışır adam ilə.
Dənizi var, suyu yox.

Yerciyi ağdı,
Toxumu qara,
Buraxsan, dayanar.

Əllərdə yeriyər,
Əllə əkərlər,
Dillə biçərlər.

Çap üçün deyil

## § 16. YOX, MONTYOR GƏLMƏYƏCƏK

Çayın hər iki tərəfində olan evlərə elektrik xətti çəkilmişdi. Gecələr kəndin küçələrində lampalar hər tərəfə işıq* yayırdı. Bir gün dərsdən sonra Vəli məktəbdə dedi ki, nənəsinin mənzilində elektrik xətti xarab olub. İki gündür ki, işıq yanmır. Nənəsi iki gündür ki, lampa yandırıb oturur.

Adil bunu eşitdikdə dedi:

– Dərsdən sonra gedək, baxaq!

Vəli başını **hərlədi**.

– Baxmaqla* nə olsun, – dedi. – Düzəltmək lazımdır. Kəndin montyoru* da iki gündür xəstədir*.

Adil:

– Eybi yoxdur, – dedi. – Sən mənə göstər*, bizim bir yaxşı montyor tanışımız var. Ona deyərəm, gəlib düzəldər.

– Dərsdən sonra Adil Vəlinin nənəsigilə getdi. Vəli ondan* qabaq* otağa girib lampanı bir neçə dəfə burdu və dedi:

– Gördünmü, yanmır! Baxmaqla nə olur ki?

Adil onun sözlərinə əhəmiyyət* vermədən qapının haşiyəsinə vurulmuş elektrik açarını sağa-sola burdu. İşıq yanmadı. Vəlidən bir bıçaq* gətirməsini xahiş etdi. Bıçaqla* elektrik açarının qapağını qaldırdı və **diqqətlə** baxdı. Elektrik məftilinin* bir tərəfdən qırıldığını gördü.

Vəlinin nənəsi açarın qapağının çıxarıldığını gördükdə **həyəcanla** dedi:

– A bala, neyləyirsən, xarab edərsən.

Adil dedi:

– Qorxma, nənə! Heç nə eləmirəm. Baxıram.

Adil qırılmış simi **ehtiyatla*** birləşdirib qapağı yerinə bağladı.

Vəli:

– Yaxşı, montyora nə vaxt deyəcəksən? Sabah gələrmi?

Adil gülümsədi:

– Yox, montyor gəlməyəcək.

Bunu deyib Adil elektik açarının düyməsini qaldırdı. Lampa yandı. Vəlinin gözləri* bərəldi.

– Neylədin? Nə oldu ki, yandı?

Vəlinin nənəsi də gözlərini **təəccüblə*** yanan lampaya zillədi...

**Xalidə Hasilova**

**SÖZLÜK**

haşiyə – burada: наличник
xarab olmaq – испортиться
qapaq – крышка
gözləri bərəlmək – вытаращить глаза

**1** Necə düşünürsünüz, mətnin başlığı məzmunu əks etdirə bilirmi? Bəs siz mətni necə adlandırardınız? Fikirlərinizi əsaslandırın.

Çap üçün deyil

**2** Necə düşünürsünüz, “Doğrudan da, fizikdir...” və “Yox, montyor gəlməyəcək” mətnləri arasında hər hansı bir bağlılıq varmı? Əgər varsa, bu bağlılıq nədən ibarətdir? Fikrinizi faktlarla əsaslandırın.

**3** Mətn üzrə plan tərtib etməli olsanız, aşağıda verilmiş planla razılaşardınız, yoxsa yeni plan tərtib edərdiniz? Qruplara bölünün və öz variantınızı təqdim edin. Tərtib etdiyiniz plan əsasında mətnin məzmununu danışın.

1) Vəlinin məlumatı.
2) Adilin təklifi.
3) Adil Vəlinin nənəsigildə.
4) Nənənin narahatlığı.
5) Vəlinin və nənəsinin təəccübü.

**4** Aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırın.

1) Vəli nənəsinin işığının yanmadığını niyə gizlədirdi?
2) Adil niyə Vəlinin məlumatını dinləmək istəmədi?
3) Nə üçün Adil Vəlinin nənəsigilə getməkdən boyun qaçırdı?
4) Montyor elektrik xəttindəki qırığı tapa bildimi?
5) Vəli nənəsinin işığını düzəldərkən nədən istifadə etdi?
6) Nənə işığın yandığını görəndə nə üçün təəccüblənmədi?

**5** Oxuduğunuz mətndəki əsas fakt və hadisəni müəyyənləşdirin.

A) Vəlinin nənəsinin işığı yanmırdı, elektrik xəttindəki qırığı Adil düzəltdi.
B) Montyor xəstə idi, Vəli başqa montyor axtarırdı.
C) Lampa yanırdı, Adil Vəli ilə söhbət edib, evlərinə qayıtdı.
D) Vəlinin nənəsi təəccüblə yanan lampaya baxdı.
E) Vəlinin nənəsinin işığı yanmırdı, Adil rezin əlcək və ayaqqabı axtardı.

**6** Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri dəftərinizə köçürün, düzgün tələffüz şəklini qarşılarında qeyd edin.

**7** Mətndə altından xətt çəkilmiş sözlərə sual verib nə bildirdiyini müəyyənləşdirməyə çalışın. Çətinlik çəkdinizsə, bunun səbəbini izah etməyə səy göstərin. Sizcə, nitqimizdə işlətdiyimiz bütün sözlərin leksik mənası varmı?

**8** Mətndə göy rəngdə verilmiş sözün əvəzinə aşağıdakılardan hansını işlətmək daha çox yerinə düşər?

A) fırladı B) buladı C) döndərdi D) qaldırdı E) salladı

**9** Mətndə qara şriftlə verilmiş sözlərdəki ümumi cəhət nədən ibarətdir? Düzgün olmayan cavabı göstərin.

A) hərəkətə aid olduğu üçün hamısı zərfdir
B) hamısı düzəltmə sözdür
C) hamısı qoşasamitli sözdür
D) hamısı isimdən düzəlib
E) hamısı tərzi-hərəkət zərfidir

Çap üçün deyil

⑩ Aşağıdakı atalar sözlərindən mətnin məzmununa uyğun olmayanı seçib səsləndirin. Fikrinizi əsaslandırın.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) İş ustasından qorxar. 2) Yalançının evi yandı, heç kim inanmadı. 3) Çörəyi ver çörəkçiyə, birini də üstəlik. 4) Çalışqan əl nəyə dəysə, qızıl olar. 5) Bacarıq ağlın nişanəsidir. 6) Bacarmadığın bir işi bacarıram demə! 7) İş bacaranın, aş yeyənindir!

⑪ Lampa ilə əlaqədar tapmaca deyə bilərsinizmi? Özünüzü yoxlayın.

⑫ Cümlələrin düzgün qurulmasına diqqət yetirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

⑬ Aşağıdakı sözlərin quruluşunu müəyyənləşdirin.
açarının, düyməsini, tanışımız, birləşdirib, bağladı, çəkilmişdi, vurulmuş

⑭ Cümlələri əvvəl mətnin məzmunu əsasında, sonra isə istədiyiniz kimi tamamlayın.

1) Bir gün dərsdən sonra Vəli məktəbdə dedi ki, ... . 2) Kəndin montyoru da ... . 3) Dərsdən sonra Adil ... . 4) Bunu deyib Adil elektik açarının ... . 5) Adil onun sözlərinə əhəmiyyət vermədi və ... . 6) Adil qırılmış simi ehtiyatla ... .

⑮ Mətndə işlənmiş qoşasamitli sözləri seçib yazın və onların tələffüzü ilə bağlı bildiyiniz qaydaları izah edin.

⑯ Mətndə inkarda işlənmiş feilləri seçib yazın və onları müxtəlif zamanlarda cümlələrdə işlədin. Bu feilləri feilin başqa hansı formalarında (şəkillərində) işlədə bilərsiniz?

⑰ Adil elektrik xəttindəki nasazlığı aradan qaldırandan sonra Həbibin fizika dərnəyinə üzv yazılmaq qərarı qətiləşdi. O, məktəb direktorunun adına aşağıdakı ərizəni yazdı. Həbibin ərizəsi üzərində müşahidə aparın və ərizənin quruluşunu (hansı hissələrdən ibarət olduğunu) təsvir edin.

Quba rayonu Xınalıq kənd orta **məktəbnin** direktoru
Cəmilə Bağırovaya həmin məktəbin **7-ci** sinif şagirdi
Cəfərov Həbib Hüseyn oğlundan

**Ə R İ Z Ə**

**Xahişt** edirəm ki, məni **məktəbmizdə faliyyət** göstərən **“Fizikaşunas” dərnəginə üzüv yazasız.**

İmza: C.H.Hüseynov
20 sentyabr 2014-cü il.

❁ Sizcə, Vəlinin ərizəsindəki bəzi sözlər niyə qara şriftlə verilib?



Çap üçün deyil

## § 17. REZİN ELEKTRİKİ KEÇİRMİR

Bu hadisədən bir müddət keçmişdi. Bərk külək əsirdi. Külək axşama**dək** ***kəsmədi***. Hava qaralmağa başlayırdı. Bu axşam kəndin mədəniyyət sarayında tədbir vardı. Sədr tədbiri açmaq* istəyirdi **ki**, onun sözü ağzında qaldı. Sarayın işıqları* **birdən** söndü. Montyor hər yeri yoxladı. Elektrik məftili heç yerdən qırılmamışdı. Vəli də bir neçə qonşu uşaq* **və** ata-anası **ilə** bu tədbirə gəlmişdi. **Çünki** tədbirdən **sonra** konsert olacaqdı. İşıqlar* sönən kimi uşaqlar **da** **bayıra** çıxdılar. Montyor yuxarı baxa-baxa gəzirdi. Elektrik məftilinin haradan qırıldığını axtarırdı. Vəli yanındakı uşaqlara dedi:



– Gedək, biz də axtaraq*!

Uşaqlar da ona qoşulub, kluba çəkilən elekrik məftillərinə baxa-baxa kəndin içinə **tərəf** getdilər. Birdən Vəlinin ayaqlarına* bir şey ilişdi. O əyilib baxdı. İlişən şeyin elektrik məftili olduğunu gördü.

– **Bax** buradan qırılıb, – deyə Vəli səsləndi.

Uşaqlardan biri:

– Gedib montyoru çağırım!

Vəli:

– **Yox**, lazım deyil, – dedi.

– Niyə?

Vəli cavab vermədi. Bu dəqiqə o, gözünün qabağına Adili gətirdi. Adil **də** vaxtı ilə onun: "**Bəs** montyor nə vaxt gələcək?" – sualına: "Yox, montyor gəlməyəcək!" – deyə cavab vermişdi. **İndi** də o, Adil **kimi** etmək istəyirdi.

Vəli **yuxarı**, küləkdən az qala **ikiqat** əyilmiş cavan qovaq* ağaclarının budaqları* arasına baxdı. Məftilin o biri ucu ağacdan asılıb qalmışdı.

– Biz özümüz onu birləşdirə bilərik, – deyib Vəli uşaqların ayağına baxdı. O, Rzanın ayağındakı* qaloşu görüb dedi:

– Qaloşunu çıxart, ver mənə!

– Niyə?! – deyə Rza **təəccüblə** soruşdu.

– Adamın ayağında rezin ayaqqabı* olanda elektrik onu vurmaz. Rezin elektriki keçirmir. Bunları bizə Ramazan müəllim öyrədib. Siz hələ beşinci sinifdə oxuyursunuz. Bir ildən **sonra** siz də bunları biləcəksiniz. **Di** tez ol, qaloşu çıxart, ver mənə.

Rza daha bir söz deməyib, qaloşunu çıxartdı. Vəli çəkməsini çıxarıb Rzanın qaloşunu geyindi **və** bir əlində məftilin ucunu tutub ağaca dırmandı. Külək ağacın budaqlarını xışıldadırdı. Vəli **çətinliklə** yuxarı dırmaşdı. Kürəyini yoğun bir budağa* dirəyərək yuxarıdan sallanmış məftili tutdu. **Əvvəlcə** bir məftilin, sonra da o birinin uclarını qarmaq* **kimi** əyərək bir-birinə keçirmək istədi. **Lakin** məftillərin ucları qısalmışdı, bir-birinə **güclə** çatırdı. Qarmaqlar* dartılıb açıla bilərdi. **Buna görə də** məftili əvvəlcə möhkəm dartışdırıb yoğun

Çap üçün deyil

bir budağa doladı. Məftil möhkəm dartıldı, sonra rahatlıqla* o biri məftilin qarmağını* birinci qarmağa keçirdi. **Elə** bu zaman uzaqdan* mədəniyyət sarayının pəncərələrinin işıqlandığını gördü.

– Yandı, – dedi və cəld aşağı düşdü.

Vəli öz ayaqqabısını geyinib uşaqlarla **birlikdə** saraya **tərəf** yüyürdü.

Sarayın qapısında montyoru gördülər. Rza özünü saxlaya bilməyib, sevincindən gülümsəyə-gülümsəyə:

– Vəli düzəltdi, – dedi.

Montyor təəccüblə:

– Vəli?!

– **Bəli**, Vəli düzəltdi.

Montyor köməkçisinə baxıb sevindi. O, üzünü Vəliyə çevirib:

– Ay sağ ol, – dedi. – Ancaq məftili möhkəmləndirmək lazımdır. Belə küləkdə o, yenə qırıla bilər. Siz içəri keçin, mən gedim onu möhkəmlədim. Bunu deyib montyor **tez** uşaqlardan ayrıldı.

Vəlinin gözləri* qabağına yenə "fizik" Adil gəldi. O gülümsəyirdi. **Elə bil**, Vəlinin gördüyü işə o **da** sevinirdi. Vəli özü də indi fizika məşğələlərinə vaxtlı-vaxtında getməsindən* çox razı qalmışdı.

**Xalidə Hasilova**

### SÖZLÜK

| | |
|---|---|
| tədbir – мероприятие | dırmanmaq – взбираться |
| qovaq – тополь | qoşulmaq – присоединиться |
| ikiqat – вдвойне | yoğun – burada: толстый |

### SÖZ EHTİYATI

sözü ağzında qalmaq – не успеть высказаться
gözünün qabağına gətirmək – представить

**1** Oxuduğunuz mətni əvvəlki hər iki mətnin davamı hesab etmək olarmı? Fikirlərinizi əsaslandırmaq üçün hər üç mətndəki uyğun fakt və hadisələri qruplaşdırıb təqdim edin.

**2** Mətn üzrə aşağıdakı suallara cavab verin. Onların içərisində mətnlə əlaqəsi olmayan suallar varmı? Fikrinizi əsaslandırın.

1) Sədrin sözü nə üçün ağzında qaldı?
2) Uşaqlar mədəniyyət sarayına niyə gəlmişdilər?
3) İşıqlar sönən kimi uşaqlar niyə evlərinə qayıtdılar?
4) Elektrik məftilinin qırılan yerini Vəli necə tapdı?
5) Vəli nə üçün montyoru çağırmağa qoymadı?
6) Vəli nə üçün uşaqların ayağına baxdı?
7) Rza nə üçün ayağındakı qaloşu Vəliyə vermək istəmədi?
8) Qırılan məftilləri düzəltmək üçün Vəli nə etməli oldu?

Çap üçün deyil

3 Mətndə kursivlə verilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olar? Fikrinizi həmin sözləri birləşmə içərisində işlətməklə əsaslandırın.

A) yaralamaq B) güclənmək C) ölçüb-biçmək
D) dayanmaq, ara vermək E) qısaltmaq, gödəltmək

4 Mətnin birinci cümləsində hansı hadisəyə işarə edilir? Həmin hadisəni yadınıza salın və danışın.

❁ Necə düşünürsünüz, bu cümləni əvvəlki mətnlə əlaqə yaradan vasitə hesab etmək olarmı? Fikrinizi əsaslandırın.

5 Mətndə altından xətt çəkilmiş sözlərin quruluşunu müəyyənləşdirib, onların yazılışı ilə bağlı müvafiq qaydaları izah edin.

6 Uyğun səs tonunu gözləməklə Vəlinin elektrik xəttini düzəltməsini təsvir edən abzası öz sözlərinizlə danışın.

❁ Həmin hissə üzrə imla yazın, sonra kitabla yoxlayın.

7 Mətndə mavi rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Əgər həmin sözləri ayrı-ayrı sütunlarda yazmalı olsanız, onları necə qruplaşdırardınız? Özünüzü yoxlayın və yazın.

## BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüzü üzərində diqqətlə müşahidə aparsanız, görərsiniz ki, **sonu "q" ilə yazılan** çoxhecalı söz və söz formalarında həmin **"q"** aşağıdakı hallarda **[x]** kimi tələffüz olunur:

a) həmin sözlər **ayrılıqda tələffüz olunduqda** – budaq[x], tapmışıq[x], barmaq[x], daşlıq[x], qorumaq[x], qaçdıq[x], oturmalıyıq[x], yuyuruq[x], işıq[x] ...

b) onlardan sonra **samitlə başlanan şəkilçilər gəldikdə** – qarmaq[x]lar, budaq[x]-dan, qaranlıq[x]da, işıq[x]çı, uzaq[x]dan ...

c) belə sözlər nitq axınında **samitlə başlanan başqa sözlərin qarşısında gəldikdə** – pambıq[x] tarlası, qarmaq[x] kimi, uzaq[x] kənd, balıq[x] tutmaq[x], açıq[x] qapı ...

Sonu "q" ilə yazılan çoxhecalı sözlər **saitlə başlanan sözlərin** qarşısında gəldikdə isə **"q" samiti [ğ] kimi** tələffüz olunur: – qovaq[ğ] ağacları, oxumaq[ğ] arzusu, balıq[ğ] əti, torpaq[ğ] ətri, açmaq[ğ] istəyirdi, moruq[ğ] aldım ...

8 Necə düşünürsünüz, "birdən" və "çoxdan" sözləri quruluşca sadədir, yoxsa düzəltmə? Fikrinizi əsaslandırın.

9 "Məftil" sözü ilə oxşar orfoqramlı sözlərə aid misallar yazın və qarşılarında düzgün tələffüzünü qeyd edin.

***Köməkçi:*** dəftər - [dəfdər], ...

Çap üçün deyil

⑩ Aşağıdakı atalar sözlərini oxuyun, onların hamısının mətnlə əlaqəsi olduğunu söyləmək olarmı? Fikrinizi əsaslandırın.

ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Bacarmadığın bir işi bacarıram demə! 2) Gücün çatmayan işdən yapışma. 3) Çalışqan əl nəyə dəysə, qızıl olar. 4) İşi başlayan yarıda qoymaz. 5) Zərərin yarısından qayıtmaq da xeyirdir. 6) İş ustasından qorxar. 7) Vura bilməyən, daşın böyüyündən yapışar. 8) Çox yaşayan çox bilməz, çox gəzən çox bilər.

⑪ Aşağıdakı birləşmələri köçürün və sözlərin sonundakı "q" samitinin düzgün tələffüzünü göstərin.

qucaq açmaq, qulaq asmaq, qırıq nəlbəki, ayaq saxlamaq, qaşıq almaq, qatıq çalmaq, arıq at, balıq şorbası, toyuq çığırtması, balqabaq şirəsi, dırnaq əti, topuq sümüyü, papaq ölçüsü, papaq tikmək, toyuq tükü, cırıq köynək

✿ Bu sözlərin düzgün yazılışı və tələffüzü ilə bağlı qaydaları izah edin.

⑫ Mətnin hissələrini müəyyənləşdirin və hər bir hissəni digərinə bağlayan cümlələri tapıb səsləndirin.

⑬ "Elektrik" sözü ilə assosiasiya yaradan sözlər cərgəsini davam etdirin.
Elektrik – montyor, dirək, avadanlıq, ...

✿ Tapdığınız sözləri işlətməklə söz birləşmələri düzəldib yazın.

⑭ Mətndə qara şriftlə verilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirib, məna növləri üzrə qruplaşdırın.

⑮ Aşağıdakı sözlərin düzgün tələffüzü və yazılışı ilə bağlı variantları ayrı-ayrı sütunlarda yazın.

ota(q, x, ğ)ımız, daya(q, x, ğ)sız, dara(q, x, ğ)ım, ota(q, x, ğ)dakılar, tapşırı(x, q, ğ), buru(x, q, ğ)un, qona(x, q, ğ)lıq, saça(x, q, ğ)lı, qoru(q, x, ğ)çu

## § 18. KÖMƏKÇİ

Şahinlə Ayaz qapıbir qonşu idilər. Səhərdən həyətdə oynayırdılar. Birdən Ayaz başını qaldırıb göyə baxdı.

– Aa, günorta oldu ki... Mən gecikdim. Anama yemək aparacağam.

Şahin ondan* soruşdu:

– Analarımız bir yerdə işləyirlər?

– Hə, Böyükdüzdə. İstəyirsən*, sən də gedək.

Şahin bir anlığa fikirləşib* dedi:

– Anam qoymur, deyir ki, sən hələ uşaqsan*, tarlaya tək gəlmə, yolda ilana rast gələrsən. O gün atam da deyirdi ki, çöldə bir yekə ilan öldürüblər.

Çap üçün deyil

– Bəs mən hər gün anama yemək aparıram, niyə ilan görmürəm? Gəl sən də mənimlə gedək...

Şahin sevinə-sevinə evə qaçdı. Köynəyini, ayaqqabısını* geyinib darvazadan çıxdı. Ayaz əlində bağlama onu gözləyirdi*. Onlar yola düşdülər...

Günortaya az qalmışdı. Bərk isti idi. Uşaqlar* addımlarını yeyinlətdilər. Kəndin qənşərinə çıxanda Böyükdüz göründü. Başı ağ örpəkli arvadlar* kolların arasında əyilə-əyilə pambıq* yığırdılar.

Birdən Ayaz dilləndi:

– Şahin, niyə əliboş gedirsən, heç olmazsa bir az meyvə yığaydın.

Şahin, elə bil yuxudan ayıldı. Peşman oldu.

– Evdə niyə yadıma salmadın, gəlib tarlaya çatanda deyirsən? Onda getmirəm, – deyə Şahin geri döndü.

– Eh, getmirsən, getmə, onda mən getdim...

Bir azdan nahar fasiləsi başlanacaqdı*. Cəmilə xala əl saxladı. Dikəlib yaylığının ucu ilə alnının tərini sildi. Əlini gözünün üstünə qoyub kəndə tərəf boylandı. Sonra yanındakı Nurxanıma dedi:

– Ay qız, bu Ayaz niyə gəlib çıxmadı? Lap nigaran qalmışam.

– Narahat olma, harda olsa, indi gəlib çıxar.

Elə bu zaman Cəmilə xala sevincək dilləndi:

– Odur ey, qadasını aldığım Ayaz gəlir.

Ayaz gəlib çıxdı. Nurxanım soruşdu:

– Oğlum, bizim Şahindən* xəbərin varmı, bilmədin dərsdən qayıtmışdı, ya yox?

– Nurxanım xala, Şahin də mənimlə gəlmək istəyirdi*. Nə fikirləşdisə*, yolun yarısından geri qayıtdı.

– Elə yaxşı eləyib qayıdıb, bu istidə tarlada nə işi var. Oturub dərslərini* hazırlayar.

Nahar fasiləsi təzəcə başlamışdı ki, tarla yolunun kənarında Şahin göründü. Onun çiynində böyük bir bağlama vardı. Bunu görən Ayaz bərk utandı. Fikirləşdi ki*, yəqin, Şahin qayıdıb evdən anası üçün meyvə, qarpız gətirib.

– Oğlum, yaxın gəl görüm, nə gətirmisən?

– Pambıq*, – deyə Şahin gülümsədi.

– Nə pambıq*, onu kim yığıb?

– Özüm yığmışam.

– Kimin tarlasından*?

– Tarladan yox. Maşınlardan* yolun qırağına tökülən pambıqdır*. Heç bilirsən nə çoxdur! Sabah məktəbimizin bütün fəallarını çağıracağam, yollara tökülən pambığı yığacağıq*.

– Çox sağ ol, oğlum, indi bildim ki, sən əsl vətənpərvərsən!

**İsa Hümmətov**

Çap üçün deyil

### SÖZLÜK

| | |
|---|---|
| qapıbir – дверь в дверь | əliboş – с пустыми руками |
| bağlama – свёрток | elə bil – кажется |
| örpək – головной платок, косынка | əsl – истинный |

### SÖZ EHTİYATI

| | |
|---|---|
| kəndin qənşəri – окраина деревни | nigaran qalmaq – беспокоиться |

1 Mətndəki əsas fikri müəyyənləşdirin. Bu hadisə ilə səsləşən özünüzlə bağlı və ya eşitdiyiniz bir əhvalat danışa bilərsinizmi?

2 Qruplara bölünün və mətn üzrə plan tərtib edin. Sonra tərtib edilmiş planları müzakirə edib, ən uyğun variantı müəyyənləşdirin.

3 Mətn üzrə aşağıda verilmiş sualları nəzərdən keçirin. Necə düşünürsünüz, mətn üzrə başqa hansı sualları vermək olardı? “Unudulmuş” sualları da siz tərtib edib yoldaşlarınıza verin.

1) Ayaz anasına yemək aparacağını niyə birdən xatırladı?
2) Şahinin pambıq tarlasına getməsinə valideynləri niyə icazə vermirdilər?
3) Şahin yoldan niyə geri qayıtmalı oldu?
4) Cəmilə xala niyə nigaran qalmışdı?
5) Uzaqdan Şahin görünəndə Ayaz nə üçün pərt oldu?
6) Anası nə üçün Şahini əsl vətənpərvər adlandırdı?

4 Yerə tökülmüş pambığı yığdığına görə anası Şahini “əsl vətənpərvər” adlandırdı. Siz necə düşünürsünüz, kimləri əsl vətənpərvər adlandırmaq olar? Müzakirəyə qoşulun və fikirlərinizi yoldaşlarınızla bölüşün.

5 Necə bilirsiniz, “Maşınlardan yolun qırağına tökülən pambıqdır” cümləsi mətnin hansı hissəsinə aiddir?

A) giriş  B) əsas hissə  C) nəticə

6 Aşağıdakı tapmacaları oxuyun və cavablandırın. Cavablarda ifadə olunan əşyaları təsvir edin.

Nədəndi, ay nədəndi
Dərmə, nazik bədəndi.
Plov üstə məskəni,
Görən, rəngi nədəndi?

**Çiçəkliyər** gül deyil,
Ağdı, amma qar deyil,
İstisi var, yun deyil.

❁ 2-ci tapmacada qara şriftlə verilmiş sözdə yol verilmiş orfoqrafik səhvi tapın və niyə belə yazılmasının səbəbini izah edin.

7 Aşağıda verilmiş cümlələrdə mətndəki ardıcıllıq pozulmuşdur. Cümlələri elə sıralayın ki, mətndəki ardıcıllıq bərpa olunsun.

1) Oğlum, yaxın gəl görüm, nə gətirmisən? 2) Şahin, elə bil yuxudan

Çap üçün deyil

ayıldı. 3) Anama yemək aparacağam. 4) Uşaqlar addımlarını yeyinlətdilər. 5) Nə fikirləşdisə, yolun yarısından geri qayıtdı. 6) Birdən Ayaz başını qaldırıb göyə baxdı. 7) Cəmilə xala əl saxladı.

Bu cümlələrdən hansının mətnin hansı hissəsinə aid olduğunu söyləyin.

8 Aşağıdakı tapmacada altından xətt çəkilmiş sözlərdəki "-lar" hissəsi ilə bağlı debata qoşulun.

Bir sürü atlar,
Çəməndə otlar,
Vaxtı gələndə,
Dərisi çatlar.

1) Hər üç halda eyni vəzifə yerinə yetirir: "-lar" ismin cəm şəkilçisidir.
2) 1-ci cümlədə başqa, 2-ci və 4-cü cümlələrdə isə başqa vəzifə yerinə yetirir.

9 Aşağıdakı sözlərin içərisində ismin yerlik halında olmayan bir neçə söz "gizlənmişdir". Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

kənddə, bağçada, kündə, yazda, tarlada, həyətdə, yolda, gündə, dağda, lövhədə, mətndə, buğda, hekayədə, dostluqda, bəndə

10 Aşağıdakı cərgələrdə verilmiş sözlərin mənalarını izah edin, aralarındakı münasibəti və hər birinin quruluşca növünü müəyyənləşdirin.

**Qayğı** – qayğıkeş – qayğıkeşlik – qayğılı – qayğısız – qayğılanmaq

**düzmək** – düzülmək – düzülü – düzülüş – düzdürmək – düzgün – düzgünlük

**düz** – düzlük – düzəlmək – düzəliş – düzəlişmək – düzəltmək – düzəltmə – düzəltdirmək – düzbucaqlı – düzxətli – düz-əməlli – düz-düzünə

**düz** – düzən – düzənlik – düzəngah – düzəngahlıq

11 Mətndə bitişik yazılan altı mürəkkəb söz işlənmişdir. Həmin sözləri tapıb köçürün və bitişik yazılmasının səbəbini izah edin. Sonra hər birini cümlədə işlədin.

12 Aşağıdakı məlumatı oxuyun və sayları seçib məna növünü müəyyənləşdirin. Sonra hər birini sözlə yazın.

Azərbaycandan Rusiyaya pambıq ixracı 17-ci əsrdən genişlənmişdir. 18-ci əsrdə Mil-Muğan və Şirvan düzlərində geniş pambıq sahələri olmuşdur. XX əsrin əvvəllərində Rusiyanın toxuculuq sənayesinin mahlıca ehtiyacı ilə əlaqədar Azərbaycanda pambıq əkini sahəsi genişləndirilmişdir. 1913-cü ildə pambıq əkini sahəsi 100 min hektardan çox, pambıq istehsalı 65 min ton olmuşdur.

13 Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlərin ismin hansı halında işləndiyini müəyyənləşdirin.

1) Sabah məktəbimizin bütün fəallarını çağıracağam, yollara tökülən pambığı yığacağıq. 2) Şahin sevinə-sevinə evə qaçdı. Köynəyini, ayaqqabısını geyinib darvazadan çıxdı. 3) Oğlum, bizim Şahindən xəbərin varmı, bilmədin dərsdən qayıtmışdı, ya yox? 4) Dikəlib yaylığının ucu ilə alnının tərini sildi.

Çap üçün deyil

5) O gün atam da deyirdi ki, çöldə bir yekə ilan öldürüblər.

❁ Cümlələrin mətnə uyğun ardıcıllığını bərpa edin.

⓮ Payızda yetişən meyvələrin faydası haqqında nə bilirik? Müəllimin təqdim etdiyi mətnləri tərcümə edin və BİBÖ cədvəlini doldurun.

⓯ “Pambıq” sözünə əvvəlcə saitlə, sonra isə samitlə başlanan şəkilçilər artırıb ayrı-ayrı sütunlarda yazın. Hər birinin qarşısında tələffüzünü qeyd edin.

❁ Bu sözü saitlə və samitlə başlayan sözlərdən əvvəl işlətməklə birləşmələr düzəldib yazın və hər birinin qarşısında düzgün tələffüz formasını qeyd edin.

⓰ Mətndə altından xətt çəkilmiş feillərdə işin neçənci şəxs və ya şəxslər tərəfindən icra olunduğunu necə müəyyən etmək olar? Fikrinizi əsaslandırın.

❁ Bu feillərdən biri digərlərindən fərqli formada işlənmişdir. Həmin feili seçib, hansı formada işləndiyini deyin.

## § 19. QIZIL PAYIZ

– Quşlar, **bəzəkli** quşlar,
Qızıl **lələkli** quşlar.
Ay **leyləklər**, durnalar,
Yenə nə olmuş, nə var?–
Yaşıl budaqlar* üstə
Toplaşıb dəstə-dəstə
Deyin, hara gedirsiz? –
Yaxınlara gedirsiz,
Uzaqlara* gedirsiz?
– Yenə payız gəlibdir,
Soyumuşdur havalar. –
Toplaşıb qatar-qatar,
Qoşularaq* ***yellərə***,
Biz uçuruq*, uşaqlar,
Uzaq – isti ***ellərə***.
– Ağ qazlar, boz **ördəklər**
Yenə də səhər-səhər
Deyin, hardan gəlirsiz?
Yaxınlardan gəlirsiz,
Uzaqlardan* gəlirsiz?
Dilə gəlin siz barı,
Mehriban qu quşları!
– Biz isti ölkələrdən
**Gəlmişik** qonaq* sizə.
Neçə payız nəğməsi
**Gətirmişik**, bax sizə.
– **Küləklər**, ay küləklər,
Niyə belə əsirsiz? –
Niyə soldurursunuz
Bağçaları, bağları?
Dağıdırsız hər yana
**Sapsarı** yarpaqları*.
Dilə gəldi küləklər:
– Çılpaqlaşıb* dağ, dərə,
Payız gəlib ellərə.
Payız gəlib ellərə.
– Buludlar, ay buludlar,
Yenə nə olmuş, nə var?
Hücum çəkib yenə siz
Göylərdə gəzirsiniz.
– Siz ey ***qəşəng*** ağaclar,
Niyə belə barlısız –
Soyumuşdur havalar,
Yenə də baharlısız?
– Payızın bu ellərə
Nə qədər sovqatı var.
– Tarlalar, ay tarlalar,
Yenə nə olmuş, nə var?–
Yenə **ağappaqsınız***,
Elə bil ki, dağsınız.
Yerə-göyə sığmayır,
Pambıq* tayalarımız.
Aşır-daşır varımız.
Payız bizə xoş gəlib –
Ölkəmizə xoş gəlib.
Dolaşıb qarış-qarış,
Gəzər payız hər yanı;
Sərin **küləkləriylə**,
Sarı **çiçəkləriylə**,
Bəzər payız hər yanı.
Qızılı yarpaqların*
Xışıltı səsi gəlir.
Bağçalardan, bağlardan
Payız nəğməsi gəlir.
(ixtisarla)

**Tofiq Mütəllibov**

Çap üçün deyil

SÖZLÜK

soldurmaq – завянуть
dağıtmaq – burada: разбросать
çılpaqlaşmaq – оголиться
qızılı – золотистый

SÖZ EHTİYATI

hücum çəkmək – нападать
dilə gəlmək – заговорить

1 Necə düşünürsünüz, oxuduğunuz şeirdə şair niyə məhz durnalara və leyləklərə, qazlara və ördəklərə, küləyə, buluda və ağaclara müraciət edir? Fikrinizi faktlarla əsaslandırın.

2 Səs tonu, temp və fasiləni gözləməklə şeiri rollar üzrə oxuyun.

3 Aşağıda "Qızıl payız" şeirindən götürülmüş iki parça verilmişdir. Həmin parçaların şeirdəki yerini müəyyənləşdirin və əlavə etdiyiniz hissə ilə birlikdə oxuyun.

Baxınız, sapsarıyıq,
Biz payızın barıyıq –
Yeyin, yeyin, uşaqlar! –
Bu nübarçün payıza,
Sağ ol deyin, uşaqlar!

**Tuturuq bircə anda;**
**Dərəni biz, dağı biz.**
**Payızda çox oluruq,**
**Göylərin qonağı biz.**

4 Qruplara bölünün və hərəniz "Payızda təbiət", "Payızda köçəri quşlar", "Payızda meyvə bağları", "Payızda pambıq tarlaları, yaxud üzüm bağları" mövzularından biri üzrə təqdimat hazırlayın.

5 Kursivlə verilmiş sözlərdən hansının sinoniminə şeirdə rast gəlmədiniz? Həmin sözləri sinonimləri ilə birlikdə deyin və hər birindən yeni sözlər düzəldin.

6 Şeirdə altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirib, qrammatik mənasını izah edin.

Şeirdə altından xətt çəkilmiş sözlərdən ikisi göy rənglə fərqləndirilmişdir. Bu sözlər digərlərindən nə ilə fərqlənir? Səbəbini izah edə bilərsinizmi?

7 Şeirdə altından xətt çəkilmiş sözlərdən hansıların əlamətini artırıb, azalda bilərsiniz? Özünüzü yoxlayın və düzəltdiyiniz sözləri cümlələrdə işlədin.

8 Şeirdə işlənmiş antonim cütlükləri tapıb səsləndirin və hər birini cümlələrdə işlədin.

9 Payızda yetişən bitkilərdən biri olan itburnunun faydaları haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Yeni nə öyrəndiniz? Bu mövzuda danışın.

Çap üçün deyil

⑩ Şeirdə üzərində ulduz işarəsi qoyulmuş söz və söz formalarının sonunda gələn "q" samitinin necə tələffüz olunması ilə bağlı fikrinizi əsaslandırın.

⑪ "Payız meyvələri" başlıqlı mətn tərtib edin və meyvələrdən birinin faydaları haqqında bildiklərinizi danışın.

⑫ Şeirdə qara şriftlə verilmiş sözlərin tələffüzü üzərində müşahidə aparın. Həmin söz və söz formalarının sonunda "**k**" hərfinin necə tələffüz olunacağı ilə bağlı mülahizələrinizi müəlliminizə bildirin.

⑬ Aşağıdakı şəkilləri nəzərdən keçirin və "Təbiətin payız rəngləri" mövzusunda danışın.





⑭ Aşağıda sizin bildiyiniz dörd tapmaca verilmişdir. Bu tapmacaların hissələri bir-biri ilə qarışıq düşmüşdür. Diqqətli olsanız, düzgün variantı asanlıqla taparsınız. Özünüzü sınayın.

1) Kiçik-kiçik sandıqlar,
Yerə düşər, dillənər.

2) Göydən gələr millənər,
İçi dolu fındıqlar.

3) Otlarda necə otdu
Nə dişi var, nə ağzı
Gecə yumular,

4) Səhər açılar.
Dişləyir heyvan kimi.

❁ Tapmacalarda altından xətt çəkilmiş sözlərin feilin hansı zamanında işləndiyini deyin.

⑮ Aşağıdakı sözlərin içərisində ismin çıxışlıq halında olmayan bir neçə söz "gizlənmişdir". Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

bağlardan, meşədən, cırtdan, payızdan, heyvandan, quşlardan, bədən, təbiətdən, çoxdan, meyvələrdən, çamadan, dağdan, qənddan

❁ "Əvvəl, sonra, başqa, özgə, savayı" sözlərini yuxarıdakı sözlərdən hansı ilə işlətmək mümkündür? Yoxlayın.

Çap üçün deyil

16 Qruplara bölünün. Hərəniz aşağıdakı abzaslardan birini genişləndirsəniz, “Bağçılıqda ən mühüm dövr payız fəslidir” başlıqlı mətn alınacaq.

1) Payızda meyvə bağlarını mümkün qədər tez şumlamaq, peyinlə gübrələmək lazımdır.

2) Meyvə ağaclarını payızda yarpaqlar töküləndən sonra budamaq daha məqsədəuyğundur.

3) Ağacların payızda əkilməsi daha yaxşı effekt verir. Belə ki, yeni əkilmiş ağaclar təbii yolla sulanır.

4) Xəstə və quru budaqları mütləq kəsmək və yarpaqlarla birlikdə yandırmaq lazımdır.

17 Rus dillində müəllimin təqdim etdiyi şeiri oxuyun və tərcümə edin. Onun məzmunu əsasında “Qızıl payız” mövzusunda inşa yazın.

## § 20. İLK QABAR

Namiq dərsdən qayıdan **kimi** **anası** ona yemək* gətirdi, çay verdi. O, həmişəki kimi, xörəkdən* bir az yeyib çəkildi. Bayaqdan oturub oğlunun hərəkətlərini izləyən ana yenə də deyinməyə başladı:

– Ay bala, **axı** sənə nə olub? Niyə az yeyirsən? **Heç** bilirsən nə günə qalmısan?

– Yemək* istəmirəm,– deyə Namiq üz-gözünü turşutdu.

– Bəs nə vaxt öz dilinlə yemək* istəyəcəksən*, əməlli-başlı yeyib-içəcəksən*?

– Bilmirəm.

– Onda dur, divanda uzan, dincəl, yəqin, yorulmusan.

Ana üzünü kənddən qonaq gəlmiş Təhmiraz babaya tutub gileyləndi:

– Namiq məni **lap** dərdə salıb, **heç** bilmirəm başıma nə çarə qılım?

– Nə olub **ki**? – deyə baba xəbər aldı.

– **Eh**, daha nə olacaq, ay ata, **gözümüzün** ağı-qarası bir uşaqdır, **o da ki** belə. **Nə** yeməyi var, **nə** içməyi. Rəngi **də** sapsarı. Heç bir şeydən **korluğumuz** yoxdur. Hər il kurorta aparıram. Əlini ağdan-qaraya vurmağa qoymuram. **Amma** bir kökəlib ətə-qana gəlmir. Yanından yel keçən kimi xəstələnir.

Baba gəlinin dediklərinə* qulaq asandan **sonra** gülümsədi, əlini saqqalına çəkdi.

– Ay qızım, sən nahaq yerə özünü incidirsən. Qorunan gözə çöp düşər. Uşağı **lap** dibçəkdəki* gül **kimi** saxlayırsınız. Soyuğa düşəndə büzüşür, istiyə düşəndə quruyur. Qoymursunuz, bir bərkdən-boşdan çıxa.

Ana gözlərini bir nöqtəyə zillədi, öz-özünə danışırmış kimi dedi:

– Gərək* uşağı bu il Soçiyə aparım. Yaxşı həkimlərə baxdırım, görsünlər uşağın dərdi nədir.

Çap üçün deyil

Baba dərin fikrə getmişdi. Birdən o, başını qaldırıb dedi:

– Qızım, uzağa getmək* lazım deyil. Uşağın **dərmanı** bizim dağlardadır. Namiqi bu yay apararam kəndə, loğmana göstərərəm, nə dərdi varsa, çarə edər.

Ananın gözlərində sevinc qığılcımları parladı. **Lakin** tezcə **də** keçib getdi.

– Babacan, deyirsən, **lap** yaxşı həkimdir?

– **Heç** tayı-bərabəri yoxdur, qızım, – deyə baba inamla dilləndi.

– Nə deyirəm, necə məsləhət görürsən, elə də olsun.

Baba nəvəsini yanında oturdub ona kəndin gözəl **mənzərələrindən**, **havasından**, bağbanı olduğu bağların ətirli **meyvələrindən** maraqlı söhbətlər edirdi. Namiq quş olub kəndə uçmaq istəyirdi: "**Bircə** bu günlər tez gəlib keçsəydi...". **Ancaq** həkim məsələsi Namiqin yadına düşəndə onu kədər bürüyürdü. Anası lazımlı-lazımsız oğluna o qədər iynə vurdurmuşdu, dərman içirmişdi **ki**...

Çox keçmədi **ki**, yay tətili başlandı. Baba **ilə** nəvə kəndə getdilər. İstilər düşmüşdü. **Lakin** dağlar qoynunda yerləşən Almalı kəndində yayın gəldiyi hiss olunmurdu. Bura şəhərli oğlanın çox xoşuna gəlmişdi. O, evlərinə zəng edir, yaxşı istirahət etdiyini anasına bildirirdi. Anası **isə** hər gün zəng edib onun halını soruşur, özündən muğayat olmasını tapşırırdı.

Sentyabr yaxınlaşdı. Baba dağların dadlı meyvəsindən nəvəsinə sovqat tutdu. Onu avtobusla şəhərə yola saldı. Ayrılarkən baba əlini nəvəsinin çiyninə qoyub dedi:

– Get oğlum, **ancaq** babanı yaddan çıxarma. Hər yay yanıma gəl, gözləyəcəyəm səni.

– Gələcəyəm, baba, gələcəyəm...

Necə düşünürsünüz, Namiq olanları anasına olduğu kimi danışacaq, yoxsa onu sakitləşdirmək üçün yalan danışmalı olacaq?

Şəhərdə Namiqi qarşılamadılar. **Çünki** o, haçan gələcəyini xəbər verməmişdi. Avtobus şəhərə axşamüstü çatdı. O, çamadanını götürüb evlərinə getdi. Zəngi basdı. Qapını anası açdı. Anası duruxdu. **Elə bil** oğlunu tanımadı. İndi Namiqin **sifəti** mis rənginə çalırdı, **yanaqları** alma **kimi** qızarmışdı.

Ana oğlunu qucaqlayıb bağrına basdı, üzündən-gözündən öpdü. Onlar keçib divanda oturdular. Ana oğluna baxmaqdan doymurdu.

– **Bıy, ay** Namiq, **nə** qəşəngləşmisən? Babanın ömrü uzun olsun, səni belə görəndə, elə bil, dünyanı mənə bağışladılar.

Ananın sevinci yerə-göyə sığmırdı. O, sualları yağış **kimi** yağdırırdı:

– Oğlum, həkim sənə hər gün baxırdı? Dərmanları hardan alırdınız?

– Anacan, kənddə həkim vardı. **Ancaq** onun üzünü **də** görməmişəm. **Axı** mən heç xəstələnmirdim...

– **Doğrudan? Nə yaxşı! Bəs** onda necə dincəldin? – deyə ana maraqla soruşdu.



Çap üçün deyil

– Babam məni yuxudan **lap** tez oyadırdı. Otların şehi qurumamış bağ-bostana gedirdik. Arı pətəklərindən* bal çıxarıb nahar edirdik*. Sonra baba ot biçir, ağacları suvarırdı.

– **Bəs** sən nə iş görürdün?

– Mən də dağlara gəzməyə çıxırdım, gül-çiçək* dərirdim, meyvə yığırdım, çayda çimirdim.

– Elə bu?

– Babama kömək* də edirdim. Ona bulaqdan sərin su gətirirdim, ocaq qalayırdım, çay hazırlayırdım. Ana can, özümə bostan **da** əkmişdim. Heç bilirsən nə qədər qovun-qarpız yığdıq!.. Sənə pay da gətirmişəm.

– Çox sağ ol, oğlum! – deyə ana oğlunun balaca əllərini sıxdı.

Namiqin ovcunun içindəki qabarlar ananın zərif əllərinə toxunduqda o, təəccüblə soruşdu:

– **Bıy, ay** bala, bu nədir? **Yoxsa** əllərin işləməkdən* qabar olub?

Namiq gülümsünüb babasının dediklərini* təkrar etdi:

– Babamdan mən də belə soruşdum. Dedi ki, əlindəki qabar səni sağaldan, sağlamlaşdırıb kökəldən loğmanın əvəzidir.

**İsa Hümmətov**

### SÖZLÜK

bayaqdan – давно
büzüşmək – съёживаться
qabar – мозоль
duruxmaq – burada: удивиться
sevinc qığılcımları – искорки радости
yanından yel keçən kimi – чуть ветер мимо подует

### SÖZ EHTİYATI

mis rənginə çalmaq – на медный цвет похожий
nə günə qalmısan – в каком ты виде
başına çarə qılmaq – найти выход из положения
gözümüzün ağı-qarası – burada: единственный
korluğumuz yoxdur – нет нужды
bərkdən-boşdan çıxmaq – пройти испытание
özündən muğayat olmaq – быть осторожным

**1** Mətndən çıxarılan nəticə barəsində yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə danışın.

**2** Mətn üzrə aşağıda verilmiş planı nəzərdən keçirin. Əvvəlcə plandakı uyğunsuzluqları müəyyənləşdirin, sonra isə müvafiq dəyişiklik edərək onu genişləndirin.

1) Anası Namiqdən narazıdır.
2) Şahin tarlada görünür.

Çap üçün deyil

3) Namiq kənddə keçirdiyi günlərdən danışır.
4) Təhmiraz baba Namiqi kəndə aparmağı təklif edir.
5) Cəmilə xala Ayazdan nigarandır.
6) Qapını açan ana  Namiqi görəndə çaşıb qalır.
7) Yay tətili başlayır və baba ilə Namiq kəndə gedirlər.

3 Sualların qoyuluşunda yol verilmiş səhvləri tapıb onları yenidən formalaşdırın.

1) Namiqin nə üçün anası niyə başladı deyinməyə yenə də? 2) Ana gileyləndi Təhmiraz babaya kənddən qonaq gəlmiş nədən? 3) Ananın gözlərində dünəndən parladı sevinc qığılcımları nə məqsədlə? 4) Baba Təhmiraz Namiqin anasını inandırdı hansı sözü deməklə? 5) Baba dibçəkdəki güllə uşağı müqayisə etdi necə? 6) Anası nə üçün çaşıb qaldı Namiq kənddən gələndə? 7) Əlindəki qabar Namiqin əvəzi idi hansı loğmanın?

4 Sonu "q" ilə yazılan söz və söz formalarının tələffüzü ilə əlaqədar öyrəndiyiniz  nitq situasiyalarını yadınıza salın. Sonra  mətndə üzərində ulduz işarəsi qoyulmuş sözləri bu baxımdan qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

5 Necə düşünürsünüz, aşağıdakı cümlələri mətndən çıxarsaq, ona "İlk qabar" başlığını seçmək olardımı? Bəs onda mətni necə adlandırardınız? Fikrinizi deyin.

Namiqin ovcunun içindəki qabarlar ananın zərif əllərinə toxunduqda o, təəccüblə soruşdu:

– Bıy, ay bala, bu nədir? Yoxsa əllərin işləməkdən qabar olub?

6 Aşağıdakı atalar sözlərini oxuyun və yadınızda saxlayın. Onların mənasını başa düşməkdə çətinlik çəksəniz, müəllimin köməyindən istifadə edin.

ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Acın gözü çörək təknəsində olar. 2) Acın qarnı doyar, gözü doymaz. 3) Acın zəhləsi sudan gedər. 4) Aclıq yavanlıq istəməz, yuxu da yastıq. 5) Aclıqda darı çörəyi halvadan şirin olar. 6) Ac elə bilər hamı acdır, tox elə bilər hamı toxdur. 7) Ac əlinə düşəni yeyər, tox ağzına gələni deyər.

SÖZLÜK

yavanlıq – всякая еда, употребляемая вместе с хлебом

7 Mətndə işlənmiş atalar sözünü tapıb səsləndirin. Yadınıza salın: dilimizdə bu atalar sözünün başqa hansı variantı işlədilir?

8 Mətndə göy rəngdə verilmiş sözlər  dildə hər hansı bir vəzifə yerinə yetirirmi? Rus dilindəki biliklərinizə əsaslanaraq, bununla  bağlı fikirlərinizi yoldaşlarınızla bölüşün.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, hər birimiz nitqimizdə əsas mənaları ifadə edən sözlərlə yanaşı, **konkret məna bildirməyən**, dildə köməkçi vəzifə yerinə yetirən sözlərdən də istifadə edirik. Belə söz qrupları **köməkçi nitq hissələri** adlanır.

Azərbaycan dilində işlədilən köməkçi nitq hissələri aşağıdakılardır: **qoşma, bağlayıcı, ədat, modal sözlər, nida.**

Bilirsiniz ki, köməkçi nitq hissələrinə aid olan sözlər **konkret məna ifadə etmədikləri üçün** onlara sual vermək də olmur. Məsələn: və, üçün, lakin, axı, daha, qeyri, savayı, tərəf, sarı, sanki, vay, of, paho, həm də, yoxsa, di, yaxud və s.

Köməkçi nitq hissələri dildə **müxtəlif vəzifələr** yerinə yetirir: a) sözlərə qoşularaq **müəyyən məna çaları** yaradır; b) sözlər və cümlələri bir-birinə **bağlayır**; c) sözlərin və cümlələrin **təsir gücünü artırır**; d) danışanın ifadə etdiyi **fikrə münasibətini** bildirir; e) **hiss-həyəcan** bildirir.

9 Ahəng qanununu gözləməklə buraxılmış şəkilçiləri artırın və cümlələri köçürün.

Şəhərdə Namiq.. qarşılamadılar. Çünki o, haçan gələcəyi.. xəbər verməmişdi. Avtobus şəhər.. axşamüstü çat.. . O, çamadanı.. götürüb evləri.. getdi. Zəng.. basdı. Qapı.. anası aç.. . Anası, elə bil oğlu.. tanımadı. İndi Namiq.. sifəti mis rəngi.. çalırdı, yanaqlar.. alma kimi qızarmış.. .

Cümlələrdə altından xətt çəkilmiş sözlərin hansı vəzifəni yerinə yetirdiyini müəyyənləşdirməyə çalışın.

10 Mətndə altından xətt çəkilmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin.

11 Nənənizin və babanızın yanında keçirdiyiniz bir günü təsvir edən mətn tərtib edin. Mətnə ad qoyun və cümlələrin düzgün əlaqələnməsinə diqqət yetirin.

12 Təsəvvür edin ki, oxuduğunuz hekayəni siz yazırsınız. Aşağıda verilmiş parçanı hekayədəki hansı cümlədən sonra verərdiniz? Mətndən həmin cümləni seçib səsləndirin.

"Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti vardır. Səhərlərə məxsus olan mehdən arabir yarpaqlar qımıldanır, tarlalara, təpələrə, çöllərə xalı kimi döşənmiş yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır. Yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik..."

13 Aşağıda verilmiş düzəltmə sözlərin içərisində üç sadə söz gizlənmişdir. Həmin sözləri tapa bilərsinizmi? Özünüzü yoxlayın.

yaşıllaşdı, yoxuş, köpüklənib, biçənək, göründü, buludlu, yağış, dincəlmək, turşutdu, xəstələnirsən, saxlamaq, sevinc, ətirli, qucaqladı, söylədi

Çap üçün deyil

⑭ Aşağıdakı sözlərin düzgün tələffüzü və yazılışı ilə bağlı variantları ayrı-ayrı sütunlarda yazın.

korlu(q,ğ,x)umuz, naha(q,x,ğ) yerə, uşa(q,ğ,x)ı, mara(q,ğ,x)lı, yana(q,x,ğ) ları, quca(ğ,q,x)layıb, baxma(x,q,ğ)dan, mara(q,x,ğ)la, bula(ğ,q,x)dan, oca(ğ,q,x) qalayırdım, toxundu(ğ,q,x)da

⑮ Balqabağın faydası haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Bu məlumatı oxuyandan sonra, yəqin ki, heç biriniz ananızın hazırladığı balqabaq şirəsindən və ya yeməyindən imtina etməyəcəksiniz.

⑯ Tapmacanı oxuyub tərcümə edin. Tapdığınız cavabda ifadə olunan əşyanı təsvir edin, onunla assosiasiya yaradan sözlər deyin.

В огороде - жёлтый мяч,
Только не бежит он вскачь,
Он как полная луна,
Вкусные в нем семена.

❁ Aşağıdakı sözlərdən hansı qabaq növünü ifadə etmir?

A) boranı B) balqabaq C) yemiş D) kudu

⑰ Mətndə qara hərflərlə verilmiş sözləri əlaqəyə girdiyi sözlərlə birlikdə dəftərinizə köçürün. Sonra şəkilçilərin köməyi ilə onların neçənci şəxsə mənsub olduğunu müəyyənləşdirib qarşılarında yazın.

❁ Həmin sözlərin ismin hansı halı ilə əlaqələndiyini izah edin.

⑱ Aşağıdakı sətirlərdə 7 atalar sözü "gizlənmişdir". Bu atalar sözlərini daha tez tapmaq üçün "Kim daha tez ?.." yarışı keçirin.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

Qocalara hörmət et, cavandan kömək, cavanlıqda daş daşı, dövlətdə dəvə, qocadan demək, sən də qocalacaqsan, qocaya gülən, övladda nəvə, qocalıqda ye aşı, böyüksüz evdə, babanın əlindən, xeyir-bərəkət olmaz, nəvə tutar, özünə gülər

## § 21. DİNƏ BİLMƏDİ

Bazar günü idi. Ənvər kişi səhərdən həyətdə odun doğrayırdı. O, bir araba odunun yarısını doğrayıb qurtardı. Sonra baltanı yerə atıb **ucadan** səsləndi:

– Ay uşaqlar, bəsdir yatdınız. Durun, odunları zirzəmiyə daşıyın.

Cəfər ilə Kərim yuxudan oyanmışdılar. Səriyyə xala içəri girib dedi:

– A bala, eşitmirsiniz? Atanız sizi çağırır... Tez geyinib ona kömək edin!

Cəfər yerindən* sıçrayıb geyinməyə başladı. Kərim isə yorğana bürünüb mızıldandı:

– Mən xəstələnmişəm*...

– Haran ağrıyır?

Çap üçün deyil

– Başım.

Səriyyə xala Kərimin əlini ovcuna aldı, nəbzini yoxladı. Onun istiliyi* yox idi.

Ana:– Qulağın iş sözünü eşidib, ona görə xəstələnmisən*, eləmi? – deyib Cəfərlə otaqdan* çıxdı.

Ana səhər yeməyi hazırlamaqla* məşğul oldu. Cəfər isə həyətə düşdü. Havada bərk sazaq* var idi. Cəfər soyuğa əhəmiyyət vermədi, əllərini ovuşdurub atasına kömək elədi.

Bir azdan onlar odunu daşıyıb qurtardılar. Hamı səhər yeməyinə əyləşdi. Cəfərin yanaqları* köz kimi qızarmışdı. O, iştaha ilə yeyirdi. Kərim isə hələ yerindən* durmaq* istəmirdi.

Günorta anası Cəfərə dedi:

– Atanın evdə işi var, hazırlaş* biz də kinoya gedək. Deyirlər, klubda təzə uşaq* filmi göstərəcəklər.

Kərim bu xəbəri eşitcək dik atılıb çarpayısında oturdu. Ancaq* anası onun fikrini başa düşüb tez dedi:

– Sən yat, bala, xəstəsən. Qalxarsan, soyuq* dəyər.

Ana Cəfərlə qapıya tərəf yönəldi. Kərimin isə "xəstə deyiləm" deməyə dili gəlmədi. Onların dalınca baxa-baxa qaldı.

**İsa Hümmətov**

**SÖZLÜK**

sazaq – мороз, стужа
mızıldanmaq – пробормотать

1 Mətndəki əsas fikri və onun hissələri arasında əlaqələri müəyyənləşdirin.

2 Səs tonu və fasiləni gözləməklə mətnin birinci yarısını oxuyun.

3 Aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırın.
1) Odunları zirzəmiyə yığmaq üçün ata nə üçün uşaqları qaldırmadı?
2) Anası niyə Kərimə yataqdan qalxmağa icazə vermədi?
3) Cəfərin niyə iştahı yox idi?
4) Cəfərlə anası niyə kinoya gedəsi olmadılar?
5) Kərimin qızdırması olduğu halda, o, niyə yatmaq istəmirdi?

4 Mətndə göy rəngdə verilmiş sözün quruluşu ilə bağlı debata qoşulun.
1) Bu, sadə sözdür, ismin çıxışlıq halında işlənmişdir.
2) Bu, düzəltmə sözdür, "-dan" burada sözdüzəldici şəkilçidir.

5 Mətndən bir neçə zərf tapıb onların hərəkəti hansı cəhətdən (tərz, zaman, yer və s.) izah etdiyini əsaslandırın və cümlələrdə işlədin.

6 Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüzü ilə bağlı öyrəndiyiniz qaydaları yadınıza salın və onları qruplaşdırmaqla təqdim edin. Həmin sözləri düzgün tələffüz etdiyinizi göstərin.

Çap üçün deyil

**7** Mətndə qoşa samitlə yazılan iki söz işlənmişdir. Həmin sözləri tapıb, onların tələffüzü ilə bağlı öyrəndiyiniz qaydanı yadınıza salın və izah edin.

**8** Aşağıdakı atalar sözlərindən hansılar mətnin məzmunu ilə səsləşir? Müəyyənləşdirdiyiniz atalar sözlərindən mətnin hansı hissəsində istifadə etmək yerinə düşərdi?

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Səndən hərəkət, məndən bərəkət. 2) Tənbələ iş buyur, sənə ağıl öyrətsin. 3) Tənbəl dağda qar gördü, yorğanına büründü. 4) Əldən qalan əlli il qalar. 5) Tənbəl həmişə xəstəyəm deyər. 6) Tənbəl günortayacan neyləyib ki, günortadan sonra neyləsin?! 7) Tənbələ dedilər: qapını ört, dedi: yel əsir, örtər.

**9** "Səriyyə xala Kərimin əlini ovcuna aldı" cümləsində altından xətt çəkilmiş sözün kökünü müəyyənləşdirin və onun yazılışı ilə bağlı öyrəndiyiniz qaydanı yadınıza salıb, fikrinizi əsaslandırın.

**10** Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlərin eyniköklü olub-olmadığını əsaslandırın. Həmin kökdən düzələn başqa sözlər deyə bilərsinizmi?

1) Səriyyə xala Kərimin əlini ovcuna aldı. 2) Cəfər əllərini ovuşdurub atasına kömək elədi.

**11** Müvafiq nümunələr əlavə etməklə mətnin məzmununu danışın.

**12** Aşağıdakı sözlərin içərisində ismin yönlük halında olmayan altı söz "gizlənmişdir". Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

zirzəmiyə, yorğana, hekayə, ovcuna, həyatə, döngə, soyuğa, fəvvarə, atasına, kinoya, həftə, qapıya, hissə, meşəyə, dağlara, dərsə, xəritə, düşmənə, qonşuya

**13** "Köməkçi"dəki sözlərdən uyğun gələni artırmaqla cümlələri köçürün. Artırdığınız sözlərin ayrılıqda, yoxsa qoşulduğu sözlərlə birlikdə müəyyən məna ifadə etməsi üzərində müşahidə aparın.

1) Cəfər atasına – bir neçə addım atıb dayandı. 2) Uşaqlar axşama – atalarına kömək etdilər. 3) Yeməkdən – əlləri sabunla yumaq lazımdır. 4) İlk vaxtlar rəngli boya – işləmək Gülsümə çətin gəlirdi. 5) Namiqin sifəti mis rənginə çalırdı, yanaqları alma – qızarmışdı. 6) Vüqardan – bütün dostları onu təbrik etmişdilər.

***Köməkçi:*** tərəf, doğru, lakin, başqa, axı, ilə, lap, uf, kimi, qədər, sonra, əvvəl

✿ Artırdığınız sözlərin ismin hansı halından sonra işləndiyinə diqqət yetirin.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, dilimizdə köməkçi vəzifə yerinə yetirən sözlərin bir qrupu **qoşma** (послелог) adlanır. Qoşmalar ismin **adlıq, yiyəlik, yönlük, çıxışlıq** halında işlənən sözlərə qoşularaq onlarda **müəyyən məna çaları yaradan** sözlərdir: çətir **kimi,** quş**tək,** sənin **üçün,** meşəyə **tərəf,** məktəbə **qədər,** evə**dək**, dünəndən **bəri,** Cəfərdən **başqa**, bağa **sarı**, dostumdan **savayı** və s.

Məsələn: "Dərsdən **sonra** Adil Vəlinin nənəsigilə getdi" cümləsində işlənən **"sonra"** qoşması qoşulduğu sözə (dərsdən) **zaman,** "Uşağı lap dibçəkdəki gül **kimi** saxlayırsınız" cümləsindəki **"kimi"** qoşması isə qoşulduğu sözə (gül) **bənzətmə** çaları vermişdir.

Azərbaycan dilində **ən çox işlənən qoşmalar** aşağıdakılardır: üçün, ilə (-la, -lə), qədər, kimi, tək, haqqında, barəsində, üzrə, tərəf, sarı, doğru, -dək, -can, görə, dair, aid, qarşı, əvvəl, sonra, qabaq, bəri, başqa, savayı, ayrı, qeyri, ötrü

**14** Necə düşünürsünüz, mətndə altından xətt çəkilmiş sözlər işləndiyi cümlələrdə necə bir vəzifə yerinə yetirir? Həmin sözləri cümlələrdən çıxarsaq, nə baş verər? Fikrinizi əsaslandırın.

**15** Aşağıdakı tapmacaları oxuyun və cavablandırın. Cavablarda ifadə olunan əşyaları təsvir edin.

Çoxlu tağ atar,
Torpaqda yatar,
Qoyma yetişsin,
Kal-kal dər, apar.

Üstü yaşıl məxmərdi,
İçi şirin-şəkərdi.

O nədi ki,
Otuz səkkiz paltar geyir,
Hamısı da düyməsiz.

Babam oturub al çuxada
Kim soyundursa, gözü çıxar.

✿ Tapmacalarda işlənmiş isim, sifət, say, əvəzlik, feil və zərfləri seçib ayrı-ayrı sütunlarda yazın. Sonra hər birinin qrammatik mənasını izah edin.

## § 22. SAAT

Tik-tak, tik-tak...
Bir divara bax:
Saat ***işləyir***,
Elə bil, deyir:
– Qiymətini bil,
hər dəqiqənin.
Getməsin hədər
Heç vaxtın sənin!

Vaxtında* işlə,
Vaxtında* dincəl!
Əməklə–işlə
Yaşa, art, yüksəl!
Durmaq istəsən,
Əgər lap erkən,
***Zəngli*** saatı
Əvvəlcədən qur.

Vaxtı gələndə,
O, zəng çalacaq,
Bütün otağa
Haray salacaq:
– Vaxtdır!
Dur, dur!..
Hər saat sənə
deyir ***ucadan***:

Çap üçün deyil

Bax, bir saat da
Keçdi həyatdan!..

Bu bir saatda
Min tonlarla* neft
Verdi ölkəyə
Neftçi yoldaşlar.

Bu bir saatda
Min tonlarla yük,
Minlərcə* minik
Aparıb getdi
Yüzlərlə qatar.
Bu bir saatda
Minlərcə kitab,
Dəftər* çap etdi
***Nəşriyyatçılar.***
Minlərcə doktor,
Alim, sənətkar
İş başındadır,
Hamı **səninçün**,
Qurur, yaradır!..
Hər saat sənə
Deyir ucadan:
– Bax, bir saat da
Keçdi həyatdan!..
Ey gənc ***vətəndaş***,
Sən ey məktəbli,
Əlaçı yoldaş!
Sən nə edibsən?!
Saata bir bax:
– Tik-tak, tik-tak...
Saat işləyir,
O sənə deyir:
– Qiymətini bil,
hər dəqiqənin.
Getməsin hədər
Heç vaxtın sənin!
Vaxtında işlə,
Vaxtında dincəl!
Əməklə – işlə
Yaşa,
art,
yüksəl!..

**Mikayıl Rzaquluzadə**

SÖZLÜK

| | |
|---|---|
| erkən – рано | çap etmək – печатать |
| nəşriyyatçı – издатель | artmaq – повышаться |

1 Bu şeirdə şair niyə məhz sizə – məktəblilərə müraciət edir? Şeirdən çıxartdığınız nəticə barəsində danışın.

2 Şeiri səs tonu və tempi gözləməklə oxuyun.

3 Vaxtın hədər getməməsi üçün şairin məktəblilərə tövsiyəsi nədən ibarətdir? Fikrinizi öz sözlərinizlə izah edin.

4 Necə düşünürsünüz, hədər gedən vaxtınız və bunun üçün təəssüfləndiyiniz olubmu? Bu barədə fikirlərinizi yoldaşlarınızla bölüşün.

5 Heç düşünmüsünüzmü, vaxtınızın hədər getməməsi üçün nə etmək olardı? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

6 Aşağıda verilmiş misraları şeirin məzmunu əsasında tamamlayın, sonra şeirdəki ardıcıllıq üzrə sıralayın.
1) Saat işləyir və elə bil, deyir ki, hər dəqiqənin ...
2) Sən ey gənc vətəndaş, ey məktəbli, əlaçı yoldaş ... ?!
3) Neftçi yoldaşlar bu bir saatda ölkəyə ...
4) Hər saat sənə ucadan deyir ki, bax bir saat da ...
5) Əgər lap erkən durmaq istəsən, zəngli saatı ...
6) Bu bir saatda minlərcə doktor, mühəndis, sənətkar ... və hamı ...
7) Vaxtında işlə, vaxtında dincəl, ...

Çap üçün deyil

7 Aşağıdakı sözlərin içərisində ismin yönlük halında işlənən üç söz "gizlənmişdir". Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

çadra, cücə, divara, çevrə, çağa, çərçivə, saata, dairə, dayə, dəhrə, ölkəyə, dəfinə, gölməçə, xəstə

8 Şeirdə işlənmiş miqdar saylarını seçib yazın. Sonra onların müəyyən miqdar sayı, qeyri-müəyyən miqdar sayı, yoxsa kəsr sayı olduğunu müəyyənləşdirib qrammatik mənasını izah edin.

9 Şeirdə bir qoşasaitli söz işlənmişdir. Həmin sözün tələffüzü ilə bağlı qaydanı yadınıza salın və əlavə misallar göstərməklə izah edin.

10 Aşağıdakı parçada qara hərflərlə verilmiş sözlərlə bağlı düzgün cavabları göstərin.

Vaxtında **işlə**,
Vaxtında dincəl!

Əməklə – **işlə**
Yaşa, art, yüksəl!

1) hər ikisi isimdir, hər ikisində vurğu birinci hecadadır
2) birincidə vurğu ikinci, ikincidə isə vurğu birinci hecadadır
3) hər ikisi feildir, hər ikisində vurğu ikinci hecadadır
4) birincisi düzəltmə feildir, ikincisi qoşma ilə işlənmiş isimdir

11 Necə düşünürsünüz, şeirdə qara hərflərlə verilmiş sözdə qoşma hansı məna çaları yaratmışdır? Mülahizənizi söyləyin və fikrinizi əlavə misallarla əsaslandırın.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində işlənən qoşmalar qoşulduğu sözlərdə, əsasən, aşağıdakı **məna çalarlarını** yaradır:

1) **birgəlik**, vasitə (ilə, -la,- lə) – araba ilə, qələmlə, atamla, səninlə;
2) **zaman** (əvvəl, sonra, qabaq, bəri) – hücumdan sonra, dərsdən əvvəl;
3) **məsafə** (kimi, qədər, -dək, -can²) – sahiləcən, şəhərə qədər, məktəbə kimi ...
4) **istiqamət** (tərəf, doğru, sarı, qarşı) – düşmənə qarşı, kluba doğru, evə sarı;
5) **bənzətmə** (kimi, qədər, tək) – gül kimi, sənin qədər, qultək, buz kimi;
6) **fərqləndirmə** (başqa, savayı, qeyri, özgə, ayrı) – bacımdan savayı, vətəndən ayrı, anamdan özgə, Süsəndən başqa;
7) **səbəb-məqsəd**, aidlik (üçün, ötrü, görə) – gecikdiyimə görə, dostumdan ötrü, vətənə dönmək üçün, bacım üçün, ağladığım üçün və s.

12 Məsafə və fərqləndirmə bildirən qoşmaları işlətməklə cümlələr qurub yazın və yazdığınız cümlələrdə qoşmaların ismin hansı halına qoşulduğu üzərində müşahidə aparın.

Çap üçün deyil

⑬ Aşağıdakı cümlələrdə işlənmiş qoşmaları tapıb ismin hansı halında işlənmiş sözlərə qoşulduğunu və qoşulduğu sözdə hansı məna çaları yaratdığını müəyyənləşdirin.

1) Bir sürü ceyran gurultu ilə düzənlik boyu Gülyaza tərəf qaçırdı. 2) Bala ceyran daşa dəyib sıyrılan qıçını güclə sürüyə-sürüyə anasına doğru getdi. 3) Gülyaz balasını qaldırdı və oyanan körpəsinə süd vermək üçün yaxasını açdı. 4) Dərsdən sonra Adil Vəlinin nənəsigilə getdi. 5) Vəli ondan qabaq otağa girib lampanı bir neçə dəfə burdu, lakin lampa yanmadı. 6) Əvvəlcə Sabir "Molla Nəsrəddin" üçün yazdığı yeni şeirlərini oxudu. 7) Bir anın içində akt zalı ağzınacan doldu, içəri keçmək mümkün olmadı. 8) Darıxmamaq üçün uşaqları başıma yığıb yazı-pozu öyrədirəm.

Bu cümlələrdən birində işlənmiş "üçün" qoşması qoşulduğu sözdə səbəb və ya məqsəd deyil, aidlik məzmunu yaradır. Həmin cümləni tapıb oxuyun.

⑭ Aşağıdakı tapmacaları cavablandırın və cavabda ifadə olunan əşyaları təsvir edin. Sonra həmin sözlə assosiasiya yaradan sözlər cərgəsi düzəldin.

Gecə-gündüz işlər,
Dişlərini dişlər.

Tap-tapı, dəmir qapı,
On iki budaq, iki yarpaq.

Bir atım var dərində,
Bağlamışam sərində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

## HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Ağıl dişi hamıda çıxır, amma ağıl gözü hamıda açılmır.* **Əbu Turxan**
*2) Yaxşı ağıl hələ azdır, əsas məsələ onu yaxşı tətbiq etməkdədir.* **Rene Dekart**

⑮ Şeirdə altından xətt çəkilmiş sözlərin qrammatik mənasını izah edin və onları müvafiq məna növləri üzrə qruplaşdırın.

⑯ Şeirdə qara kursivlə verilmiş sözləri kök və şəkilçiyə ayırıb, hansı şəkilçi ilə düzəldiyini müəyyənləşdirin. Sonra hər bir şəkilçi ilə yeni sözlər düzəldib ayrı-ayrı sətirlərdə yazın.

***Köməkçi:*** işıq**lan**dı (işıq+**lan**+dı) – dalğa**lan**maq, ləpə**lən**mək, düz**lən**mək, hirs**lən**mək, ürək**lən**mək, acıq**lan**maq, lovğa**lan**maq, geniş**lən**mək, maraq**lan**maq, dil**lən**mək, kədər**lən**mək, tük**lən**mək, at**lan**maq, həyəcan**lan**maq, ...

⑰ Şeirdə hansı faktlarla qarşılaşdınız? Həmin faktları qruplaşdırıb təqdim edin və mövzu ilə bağlı bildiyiniz yeni faktları yoldaşlarınızla bölüşün.

Çap üçün deyil

## § 23. AĞA MUSA NAĞIYEV

Bakı milyonçularından* biri də Ağa Musa Nağıyev idi. O, var-dövlətdə Tağıyevdən heç də geri qalmırdı. Axır vaxtlar Musa Nağıyevin varı-dövləti yetmiş milyon manat qızıl pula çatmışdı. Milyonçu Ağa Musa "əfsanəvi" bir şəxsiyyətə* dönmüşdü. Xeyriyyə* məqsədilə müəyyən* binalar tikdirməyinə, Bakı su kəməri üçün xeyli pul verməyinə baxmayaraq, camaat* tərəfindən* ***"xəsis" sözü ilə damğalanmışdı***.

Ağa Musa cavanlıqda* adi bir hambal imiş. Dalında palan biri üç qəpiyə, beş qəpiyə ona-buna şələ daşıyarmış. Sonradan neft hesabına varlanmış və milyonçu olmuşdu. Şəhərdə həm çoxlu mülk tikdirmiş, həm də yenisini almışdı. Özünün tikintiyə olan meylini o, atasının vəsiyyəti* ilə izah edərdi: "Allah ev tikənin ömrünü uzadır. Yadında saxla, oğul, nə qədər ev tikəcəksənsə, ömrün o qədər uzanacaq*".

Nağıyev yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi idi. Ancaq* o, təmtərağı sevən deyildi, şan-şöhrətdən məst olmazdı. Artıq xərcdən, israfçılıqdan boyun qaçırardı.

Bir dəfə Ağa Musa mədənə gəlir. Görür ki, kontorun yanında divar hörən bənna və fəhlələr nahar fasiləsinə çıxıblar. İşə yaramayan taxtalardan ocaq qalayıb qızınır, çörək yeyib, söhbət edirlər. İş icraçısı papiros bükür, kibriti **alışdırıb** ______ . Ağa Musa deyir:

– Bala, sabahdan işə çıxma, get kontora, haqq-hesabını al.

İş icraçısı çaşıb qalır:

– Niyə, Ağa Musa?!..

Ağa Musa:

– Ona görə ki, qabağında o boyda ocaq* ola-ola, papirosu onunla ____, nahaq yerə kibriti zay edirsən. Öz malının qədrini bilmədiyin halda, mənim malımın qədrini necə biləcəksən?

**Manaf Süleymanov**

**SÖZLÜK**

| | |
|---|---|
| hambal – грузчик, носильщик | təmtəraq – роскошь |
| mülk – имение | israfçılıq – расточительство |
| haqq-hesab – расчёт | palan – спинная подушка грузчиков |

**SÖZ EHTİYATI**

| | |
|---|---|
| iş icraçısı – прораб | işə yaramayan – непригодный |
| zay etmək – испортить | məst olmaq – burada: потерять голову |

**1** Qruplara bölünün. Hər biriniz mətnin məzmunu ilə əlaqədar ən azı beş sual tərtib edib yazın. Sualların qrammatik normalar baxımından düzgünlüyünə diqqət yetirin. Bir-birinizin tərtib etdiyi sualları cavablandırın.

Çap üçün deyil

2 Mətndə kursivlə fərqləndirilmiş ifadənin izahı hansı bənddə düzgün verilməmişdir?

A) Onun üzərinə "xəsis" sözü yazılmış damğa vurulmuşdu.
B) Camaat onu xəsis adlandırırdı.
C) O, xəsislik rəmzinə çevrilmişdi.
D) Onun adı həmişə "xəsis" sözü ilə yanaşı işlədilirdi.
E) Onun adı çəkilən kimi, "xəsis" sözü də yada düşürdü.

3 Mavi boşluqlarda "yandırmaq" sözünün hansı qrammatik formaları yazılmalıdır?

A) yandırır, yandırmırsan
B) yandırdı, yandırmır
C) yandırmadı, yandırmırsan
D) yandırmışdı, yandırmadın

4 Necə bilirsiniz, aşağıdakı cümləni mətndəki hansı abzasın sonuna əlavə etmək olar?

Çünki əlavə pul xərcləməyi heç sevməz, həddən artıq qənaətlə dolanardı.

A) 1-ci B) 2-ci C) 3-cü D) 4-cü

5 Aşağıdakı məlumatı oxuyun. Bu məlumatdan mətnin hansı hissəsinin məzmununu genişləndirmək üçün istifadə etmək olar?

Ağa Musa Nağıyev Bakıda böyük şəhər xəstəxanası tikdirib. Xəstəxananın binası 1918-ci ildə istismara verilib. Onun tikintisi Nağıyevə 300 min qızıl "rubl"a başa gəlib. Xəstəxana ərazisinin ümumi sahəsi 100 min kvadratmetrdən artıqdır. Ambulator hissəsi 1000 çarpayı üçün nəzərdə tutulub. Bina "H" (kiril əlifbası ilə Nağıyevin soyadının baş hərfi) formasındadır. Hazırda həmin xəstəxana məhz onun adını daşıyır.

❁ Oxuduğunuz məlumatda mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri göstərin və hansı şəxsə aid olduğunu deyin.

❁ Mətndəki sayları seçib sözlə yazın və mənaca növünü müəyyənləşdirin.

6 Necə düşünürsünüz, Bakı milyonçusu Ağa Musa Nağıyevi xeyriyyəçi hesab etmək olarmı? Oxuduqlarınız əsasında debata qoşulun və fikrinizi faktlarla əsaslandırın.

1) Bakı milyonçusu Ağa Musa Nağıyev əsl xeyriyyəçi idi.
2) Bakı milyonçusu Ağa Musa Nağıyev sahibkar və milyonçu idi.

7 A.Nağıyevin iş icraçısını işdən kənarlaşdırmaq istəyinə haqq qazandırmaq olarmı? Sizcə, bu hərəkəti ilə milyonçunun hansı xüsusiyyəti üzə çıxır? Fikrinizi əsaslandırın.

A) zalımlığı B) xəsisliyi C) qənaətcilliyi D) kobudluğu

8 Mətndən götürülmüş aşağıdakı cümlələri oxuyun. Necə düşünürsünüz, Ağa Musa Nağıyevin qeyd olunan keyfiyyətlərini nə ilə əlaqələndirmək olar?



Çap üçün deyil

*Təmtərağı sevən deyildi, şan-şöhrətdən məst olmazdı. Artıq xərcdən, israfçılıqdan boyun qaçırardı. Çünki əlavə pul xərcləməyi heç sevməz, həddən artıq qənaətlə dolanardı.*

A) Sərvətini daha da artırmaq, daha da çox varlanmaq istəyirdi.
B) Əvvəllər hambal işləmişdi, kasıbçılığın nə olduğunu bilirdi.
C) Çox xəsis idi, pulunu xərcləməyə əli gəlmirdi.
D) O, çox kasıb ailədə anadan olmuşdu, belə çox pul görməmişdi.

9 Sözlərin əlaqələnməsinə diqqət yetirməklə müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edib dəftərinizə yazın.

10 Mətndə altından xətt çəkilmiş sözlərin əvəzinə onların sinonim qarşılıqlarını qoyub cümlələri yenidən oxuyun. Həmin cümlələrin məzmununda hər hansı bir dəyişiklik olub-olmadığı barədə fikrinizi söyləyin.

11 Mətndən götürülmüş aşağıdakı sözlərin əksmənalı qarşılıqlarını tapıb qarşılarında yazın və bir neçəsini cümlələrdə işlədin.
xəsis, israfçılıq, varlanmaq, əzəmətli, zay etmək, geri qalmaq, yandırmaq

12 Mətndə üzərində ulduz işarəsi qoyulmuş eynicinsli qoşasaitli və qoşasamitli sözləri dəftərinizə köçürün. Onların düzgün tələffüzü ilə əlaqədar qaydaları izah edin və hər birinin qarşısında tələffüz şəklini göstərin.

13 Mətndə mavi rəngdə verilmiş sözün omonim qarşılığını cümlədə işlədin və həmin feili keçmiş zamanın hər iki növündə şəxslər üzrə dəyişib yazın.

**HİKMƏT XƏZİNƏSİNDƏN**

*Kömək yoxsullar üçündür, israfçılar üçün deyil.* **Sədi Şirazi**

14 Tapmacanı cavablandırın. Cavabın mətnlə hər hansı bir əlaqəsi olub-olmadığını əsaslandırın. Cümlələrdəki sözləri yenidən sıralasanız, necə edərdiniz?

Qırx kişi var bir boyda, bir biçimdə,
Yatıb hamısı bir sandıq içində,
Sandıq da babamın şalvar cibində.

15 Lətifəni oxuyun və əsas fikri müəyyənləşdirin. Bu lətifənin və oxuduğunuz mətnin məzmunu arasında hər hansı bir əlaqə görürsünüzmü? Fikrinizi əsaslandırın.

## Teymurləngsən ki, varsan

Günlərin birində Teymurləng Mollaya deyir: – Molla, bu gün **kefim çox sazdı.** Sənə bir şey bağışlamaq istəyirəm. Amma bilmirəm nə bağışlayım ki, sənin **ürəyindən olsun.**

Molla deyir: – Qibleyi-aləm sağ olsun, elə sən hər nə **bağışlasan,** mənim

Çap üçün deyil

ürəyimdən olar.

Teymur deyir: – Onda qoy mən bir-bir sayım, sən özün seç! Ya on qızıl, ya bir at, ya bir sürü qoyun, ya da bir bağ. Hansını istəyirsən?

Molla deyir: – Əgər mənim ürəyimi soruşursansa, mən istəyirəm, sən **sübut eləyəsən** ki, doğrudan da, **ədalətli** bir şahsan.

Teymur deyir: – Necə?

Molla deyir: – Əgər mən on qızılı cibimə qoyub ata minsəm, qoyunları qabağıma salıb bağa getsəm, sən sübut eləmiş olarsan ki, ədalətli şahsan.

Teymur deyir: – İştahan pis deyil. Əgər heç birini verməsəm?

Molla deyir: – Heç bir şey. Sübut eləmiş olarsan ki, elə Teymurləngsən ki, varsan.

❁ Lətifədə işlənmiş feillərin şəxsini və kəmiyyətini müəyyənləşdirin.

⑯ Lətifədə qara şriftlə verilmiş sözləri və ifadələri yaxınmənalı qarşılıqları ilə əvəz edib cümlələri yenidən oxuyun. Hansı variant daha çox xoşunuza gəlir? Fikrinizi bildirin.

⑰ Aşağıdakı məlumatı oxuyun və orada işlənmiş qoşmaları tapıb qoşulduğu sözlərdə hansı məna çaları yaratdığını izah edin.

"İsmailiyyə" binasının üzərində İmam Əlinin aşağıdakı müdrik sözləri həkk edilmişdi: "İnsan əməyi ilə ucalır və arzularına yalnız zəhməti ilə çatır"; "İnsan doğulandan ölənə qədər öyrənməlidir"; "Müsəlmanlar! Sizin dövrünüz sizinlə birlikdə ölür, öz övladlarınızı yeni dövrə hazırlayın!"

⑱ Aşağıdakı məlumatı oxuyun. Deyilənlər Nağıyevin xarakterini səciyyələndirən və onun varlı olmasını təmin edən cəhətlərdən sayıla bilərmi? Müzakirə edin və fikrinizi yoldaşlarınızla bölüşün.

Qoçulər iki dəfə Ağa Musanı oğurlayib öldürməklə hədələmişdilərsə də, ondən heç nə qopara bilməmişdilər. Bir dəfə onu gizli mənzila gətirib on min manat tələb edirlər. Ağa Musa özünu itirməyib deyir: "Min manat verə bilərəm, artıq yox". Qaçıranlar onu ölümlə hədələyanda halını pozmadan deyir: "Atam, atam, öldürun. Öldürsəniz, o min manat da əlinızdan çıxacaq, onu da ala bilməyəcəksınız".

❁ Altından xətt çəkilmiş sözlərdə ahəng qanunu pozulmuşdur. Bu sözlər necə yazılmalı idi? Fikrinizi əsaslandırın.

⑲ Aşağıdakı atalar sözlərini oxuyun və yadınızda saxlayın. Onların içərisində mətnin məzmunu ilə səsləşəni varmı? Fikrinizi əsaslandırın.

**ATALAR SÖZÜ – AĞLIN GÖZÜ**

1) Xəsisdən alınan yumurtanın sarısı olmaz. 2) İçim özümü yandırır, çölüm özgəni. 3) İgidlik biləklə deyil, ürəklədir. 4) İlan öz əyrisin bilməz, deyər: dəvənin boynu əyridi.

Çap üçün deyil

## § 24. XEYRİYYƏÇİ HACI ZEYNALABDİN TAĞIYEV

Hacı Zeynalabdin Tağıyevin bir xeyriyyəçi **kimi** tarixdə qalmasının səbəbini anlamağa təkcə bir misal kifayət edər:

Tağıyev öz ana dillərində oxumaları **üçün** Bakıda ilk qız məktəbinin açılması xahişi**lə** imperator III Aleksandra müraciət edir. III Aleksandr bu xahişi rədd edir. Lakin Tağıyev bu fikirdən əl çəkmir və istəyinə nail* olmaq **üçün** əlindən gələni əsirgəmir. Əvvəlcədən* məktəbin xərcini ödəmək **üçün** banka 150.000 manat qoyur. Bu, beş faizdən* ildə 7.500 manat gəlir gətirəcəkdi ki, məktəbin bütün xərcləri artıqlaması ilə ödəniləcəkdi.

1896-cı ildə qız məktəbi açmağa icazə verilir. Tağıyev 1898-ci ildə məktəbin binasını tikdirməyə başlayır. Məktəbin binası 1900-cü ildə hazır olur. Bina 184.000 manat qızıl pula başa gəlir. Bundan əlavə, tədris avadanlığına 29.000 manat xərclənir. Bankda 125.000 manat toxunulmaz kapital saxlanılırdı. Məktəb seminariyaya çevriləndən **sonra** vəsait* 225.000 manat olmuşdu.

Məktəbə 58 qız qəbul edilmişdi; onlardan 35 nəfəri kasıb ailələrdən* idi. Onlar təhsil haqqından azad edilmişdilər. Geyim və yemək-içməklərinin xərcini Tağıyev ödəyəcəkdi.

Musa Nağıyev birinci Realnı* məktəbin hamiliyini öhdəsinə götürmüşdü. Hər il hazırlıq* sinfinə 25 müsəlman uşağını əlavə qəbul etdirməyə nail olmuşdu. Bunun nəticəsində az bir zamanda məktəbdə müsəlman şagirdlərinin sayı 50 faizə*çatmışdı.

... O zamanlar* dustaqları Nargin adasında saxlayırdılar. Camaat* ora gedib-gələndə çox əziyyət* çəkirdi. Tağıyev camaatın xahişi **ilə** təzəcə tikilib qurtarmış beşmərtəbəli dəyirman binasını **dustaqxana** **üçün** bağışlayır. Tağıyevin bu cür xeyriyyə* işlərinin sayı-hesabı yoxdu. Ona görə də o, tarixdə milyonçu **kimi** deyil, böyük xeyriyyəçi **kimi** yaşadı.

Hacı pula güvənib yolundan* azmamaq üçün bənnalıq* etdiyi baltanı imarətindəki seyflərdən birinin divarından* qapı **ilə** üzbəüz asıbmış ki, hər açanda görsün və o günlərini* yadından çıxarmasın...

### SÖZ EHTİYATI

| | |
|---|---|
| başa gəlmək – обойтись | əlindən gələni əsirgəməmək – не жалеть |
| əl çəkmək – burada: отречься | yolunu azmaq – сбиться с пути |

**1** Oxuduğunuz faktlar sizi hansı qənaətə gətirib çıxarır? Mətndən çıxardığınız nəticə barəsində fikirlərinizi yoldaşlarınızla bölüşün. Danışarkən digər danışanların fikrinə də münasibət bildirin.

**2** Mətndəki faktlardan istifadə edərək aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırın.

Çap üçün deyil

1) H.Z.Tağıyev Bakıda ilk qız məktəbinin açılmasını niyə istəmirdi?

2) Niyə III Aleksandrın onun xahişini rədd etməsi H.Z.Tağıyevin ürəyincə oldu?

3) Məktəbin xərcini ödəmək üçün əvvəlcədən banka qoyduğu pulları Tağıyev niyə geri götürür?

4) 1896-cı ildə qız məktəbi açmağa icazə veriləndə Tağıyev niyə məktəbin binasını tikdirməkdən imtina edir?

5) Məktəbə niyə cəmi 35 qız qəbul edilir?

6) H.Z.Tağıyev niyə kasıb ailələrdən olan qızların geyim və yemək-içməklərinin xərcini ödəməkdən imtina edir?

7) H.Z.Tağıyev niyə beşmərtəbəli dəyirman binasını dustaqxanaya bağışlamaqdan imtina edir?

3 Mətndə çoxlu faktdan istifadə olunmuşdur. Bu faktları neçə istiqamətdə qruplaşdırmaq olar? Variantınızı təqdim edin.

4 Mətndə bir neçə dəfə "məktəb" sözü işlənmişdir. Bu sözün mətndə ismin hansı hallarında işləndiyini müəyyənləşdirin və fikrinizi əsaslandırın. Sonra "məktəb" sözünü ismin digər hallarında da cümlələrdə işlədin.

5 Mətndə qara şriftlə verilmiş qoşmaları məna növləri üzrə qruplaşdırın və hər birinin qrammatik mənasını izah edin. Sonra həmin qoşmaları başqa sözlərlə də işlədin.

6 Müvafiq əvəzliklərdən istifadə etməklə mətn üzrə 10 sual cümləsi tərtib edin. Sualların qrammatik normalar baxımından düzgünlüyünə diqqət yetirin və cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə etməyi unutmayın. Çalışın ki, suallar daha çox faktların dəqiqləşdirilməsinə xidmət etsin.

7 Aşağıdakı məlumatı oxuyun. Necə bilirsiniz, Musa Nağıyevlə H.Z.Tağıyevin taleləri arasında bir uyğunluq varmı? Fikrinizi faktlarla əsaslandırın.

Ağa Musa Hacı Nağı oğlu Nağıyev 1842-ci ildə Bakı quberniyasının Biləcəri kəndində olduqca kasıb bir ailədə anadan olub. O, 10-11 yaşından işləməyə başlayır. Əlinin qabarı, ayaqlarının döyənəkləri hesabına qazandığı pulu qəpik-qəpik toplayaraq kiçik bir torpaq sahəsi alır. Amma o zaman ağlına da gəlmirdi ki, bu bir parça torpaqda qazdırdığı quyudan su əvəzinə neft fontan vuracaq və bir müddət sonra onu Bakının ən iri neft maqnatlarından birinə çevirəcək.

İsmin mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri müəyyənləşdirib hansı şəxsdə olduğunu deyin.

8 Aşağıdakı məlumatı oxuyun, sonra oxuduqlarınınz əsasında A.M.Nağıyev və H.Z.Tağıyevin xidmətlərini faktlarla müqayisə edin. Necə düşünürsünüz, "O, tarixdə milyonçu kimi deyil, böyük xeyriyyəçi kimi yaşadı"

Çap üçün deyil

fikrini hər iki milyonçuya eyni dərəcədə aid etmək olarmı? Debata qoşulun.

Musa Nağıyev Bakının ilk mülk sahiblərindın biri idi. Onun başqa milyonçulardan fərqi də məhz köhnə Bakının memarlıq simasına ən çox töhfə verməsidir.

M.Nağıyev Bakıda 98 bina tikdirib. Bunların içində ən çox seçilənləri «İsmailiyyə» binası, 28 May küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera teatrının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları və sair bu kimi şəhərin gözəgəlimli binalarıdır.

9 Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirin. Necə bilirsiniz, mətndə yerinə düşməyən, digər abzaslarla əlaqəsi olmayan hissə varmı? Fikrinizi əsaslandırın.

10 A.M.Nağıyev və ya H.Z.Tağıyevin tərcümeyi-halının mühüm məqamları ilə bağlı təqdimat hazırlayın və sinifdə oxuyun.

11 Mətnin axırıncı cümləsində işlənən zərfi tapıb səsləndirin, qrammatik mənasını izah edin və onunla eyni yolla düzələn sözlər tapıb deyin.

12 Mətndə işlənmiş mürəkkəb sözləri tapıb səsləndirin. Hər birinin hansı nitq hissəsinə aid olduğunu deyin və nə üçün bitişik və ya defislə yazılmasının səbəbini izah edin.

13 Üzərində ulduz işarəsi qoyulmuş qaşasaitli və qoşasamitli sözlərin tələffüzü ilə əlaqədar müvafiq qaydaları yada salın və həmin sözlərin necə tələffüz olunacağını izah edin.

14 Mətndə altından xətt çəkilmiş cümlələrdə işlənmiş ifadələri tapın və onları sinonim qarşılıqları ilə əvəz edib cümlələri oxuyun.

15 Mətndə göy şriftlə verilmiş sözün quruluşu ilə bağlı debat keçirin.
1) **Dustaqxana** düzəltmə sözdür. 2) **Dustaqxana** mürəkkəb sözdür.

16 Azərbaycanda neft sənayesinin inkişaf tarixi barədə nə bilirsiniz? Aşağıdakı mətni oxuyun, bu barədə qısa məlumat əldə edin. Sonra mətndə işlənmiş sayların qrammatik mənasını izah edin və onların yazılışında yol verilmiş səhvləri müəyyənləşdirib, nə ilə bağlı olduğunu əsaslandırın.

Azərbaycanda "qara qızıl" qədim zamanlardan çıxarılmağa başlanmışdır. Araşdırmalar nəticəsində məlum olub ki, hələ bizim eradan əvvəl 6-7-cı əsrlərdə Abşeron yarımadasında neft çıxarılırmış. Mexaniki üsulla dünyada ilk neft quyusu 1847-cu ildə Bibiheybətdə qazılmışdır. Sübut olunmuşdur ki, dənizdə də ilk neft quyusu 18-cü əsrdə Abşeron yarımadasında – dənizdən 19

Çap üçün deyil

metr aralıda qazılmışdır. Sonralar Xəzər dənizinin qalxması nəticəsində həmin neft kəhrizləri suyun altında qalmışdır.

1949-ci ildə əfsanəvi “Neft daşları” yatağı kəşf olundu. Bu hadisə dənizdə neft hasilatının inkişafının əsasını qoydu.

1971-cu ildə Azərbaycanda milyardıncı ton neft çıxarıldı.

1994-ci ildə “Əsrin müqaviləsi” adı ilə tarixə daxil olmuş saziş imzalandı. Bununla da Azərbaycanın neft sənayesi tarixində yeni eranın başlanğıcı qoyuldu.

BİBÖ cədvəlini doldurun.

## § 25. SİZİNLƏ İŞLƏYƏCƏYƏM...

Qapıdan: “**Dükanda** xarici dillərdə danışılır” lövhəsi asılmışdı. Gənc oğlan piştaxtanın arxasından bir nəfərin çıxdığını gördü.

– İstəyirsiniz, bu vazaların hamısını yuyub təmizləyim, – dedi. – Bu toz-pas içində onları ***heç kim*** almaz.

Tacir ***heç nə*** söyləmədən gənc oğlana baxdı.

– Əvəzində **yemək üçün** mənə bir şey verərsiniz, danışdıq?

Adam dillənmirdi. Oğlan fikirləşdi ki, bir qərara gəlmək lazımdı. Heybəsində çuxa vardı, səhrada ona **gərək** olmayacaqdı. Çuxanı çıxardı və vazaları **silməyə*** başladı. Yarım saat içində vitrində olan bütün büllur qablar par-par parıldayırdı. Bu müddət ərzində iki **müştəri** gəlib xeyli qab-qacaq aldı.

İşini **qurtarandan sonra** Santyaqo dükan sahibindən yemək istədi.

Büllur taciri qapıya bir lövhə asdı: ”Nahar fasiləsidir” və Santyaqonu yoxuşun sonunda olan kiçik bir bara apardı. Barda olan yeganə **masaya oturandan sonra** büllur taciri gülümsəməyə* başladı:

– Əslində sənin o vazaları təmizləməyinə* **lüzum** yox idi. Quran buyurur ki, ac adamları doyurmaq savabdır.

– Elə isə nə üçün məni işləməyə* qoydunuz?

– **Çünki** büllur qablar **kirli** idi. Və hər ikimizin də beynimizdəki zir-zibili təmizləməmiz lazımdı.

**Yeməkdən sonra** tacir **oğlana tərəf** döndü:

– İstəyirəm ki, mənim dükanımda çalışasan. Bu gün sən büllur qabları silərkən iki müştəri gəldi: bu, yaxşı əlamətdi. – Hə, nə deyirsən, mənimlə işləməyə razısanmı? – yenidən büllur taciri soruşdu.

– Dan **sökülənə qədər** qalan bütün qabları təmizləyərəm. Siz də **əvəzində** mənə Misirə **getmək üçün** lazım olan yol pulunu verərsiniz.

Dükan sahibi yenidən gülməyə* başladı:

– Dükandakı bütün büllur qabları il boyu silsən də, satılan hər şeydən öz faizini alsan da, sənə bəs etməz. Misirə **getmək üçün** bir xeyli borca düşməlisən.

Çap üçün deyil

Burdan – Tancadan **Misirə qədər getmək üçün** isə səhradan keçməlisən.

**Bundan sonra** araya elə bir **səssizlik** çökdü ki, **sanki** şəhər başdan-başa yuxuya dalmışdı.

Dəli Həsənlə Koroğlu qılınclarını çəkib, bir-birinə hücum elədilər.

Tacir ona çaşqın-çaşqın baxdı. Hələ səhər, bir az əvvəl o, necə **nəşəli** idi.

– Oğlum, vətənə **dönmək üçün** sənə pul verə bilərəm, – büllur taciri dedi.

Oğlan cavab vermədi. Sonra ayağa qalxdı, əynini-başını **sahmana** saldı və heybəsini götürdü: – **Sizinlə** işləyəcəyəm, – dedi və bir az **susduqdan sonra** sözünü **tamamlamaq üçün** əlavə etdi:

– Bir neçə qoyun **almaq üçün** pula ehtiyacım var.

**Paulo Kuelyo**

### SÖZLÜK

piştaxta – прилавка
büllur – хрусталь
savab – благое дело
çaşqın-çaşqın – растерянно
əslində – в действительности, на самом деле

### SÖZ EHTİYATI

nəşəli – радостный
dan sökülənə qədər – до рассвета
borca düşmək – задолжать
yuxuya dalmaq – заснуть
əynini-başını sahmana salmaq – привести себя в порядок
araya səssizlik çökdü – воцарилась тишина

**1** Səs tonu və fasiləni gözləməklə mətni rollar üzrə oxuyun. Mətndən hansı nəticəni çıxarmaq olar? Fikrinizi bildirin.

**2** Suallara cavab verməklə mətnin məzmununu qısaca danışın.

1) Santyaqo nə üçün vitrindəki bütün vazaları yuyub təmizləməyi təklif etdi?
2) Büllur taciri nə üçün Santyaqonu yoxuşun sonunda olan kiçik bara apardı?
3) Dükan sahibi nə üçün Santyaqonun vazaları təmizləməyinə ehtiyac görmürdü?
4) Yeməkdən sonra tacir oğlana nə təklif etdi?
5) Santyaqo tacirdən nə istədi?
6) Tacir vətənə dönmək üçün niyə Santyaqoya pul vermək istədi?
7) Santyaqo nə üçün tacirlə işləməyə razılıq verdi?

**3** Mətnin hər hansı hissəsində cümlələr arasında əlaqə olmadığını söyləmək olarmı? Fikrinizi əsaslandırın.

**4** Necə düşünürsünüz, mətndə kursivlə verilmiş sözləri əvəzliyin aşağıdakı növlərindən hansına aid etmək olar? Özünüzü sınayın.

A) təyini B) işarə C) sual D) qeyri-müəyyən E) şəxs

Çap üçün deyil

❺ Aşağıdakı sözlərin içərisində çıxışlıq halda olmayan bir neçə söz gizlənmişdir. Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

qapıdan, dükandan, mətndən, zindan, güldan, yenidən, heybədən, uşaqdan, bağdan, yoldan, əvvəldən, dərslikdən, vicdan, masadan, vitrindən

❻ Aşağıdakı cümlələrdə sayları tapıb qrammatik mənasını izah edin. Burada miqdar saylarının hansı növləri işlənmişdir? Fikrinizi əsaslandırın.

1) Bu müddət ərzində iki müştəri gəlib xeyli qab-qacaq aldı. 2) Bir neçə qoyun almaq üçün pula ehtiyacım var. 3) Misirə getmək üçün bir xeyli borc almalısan. 4) Bina 184.000 manat qızıl pula başa gəlir.

❼ Mətndə işlənmiş qoşmaları tapıb ismin hansı halları ilə işləndiyini müəyyənləşdirin və qrammatik mənalarını, qoşulduğu sözlərdə yaratdığı məna çalarlarını izah edin.

❽ “Sonra, əvvəl, başqa, özgə, qeyri, savayı” qoşmalarının ismin hansı halında işlənən sözlərə qoşulduğunu və qoşulduğu sözlərdə hansı məna çalarını yaratdığını müəyyənləşdirin və fikrinizi misallarla əsaslandırın.

❾ Mətndə işlənmiş məsdərləri tapıb yazın. Bir neçəsini ismin müxtəlif hallarında işlədin və onların orfoqrafiyası ilə əlaqədar fikrinizi bildirin.

❿ Üzərində ulduz işarəsi qoyulmuş sözlərdə məsdər şəkilçisinin sonundakı ”k” samitinin “y”-yə keçməsinin səbəbini izah edə bilərsinizmi? Fikrinizi əsaslandırın.

⓫ Mətndə qırmızı rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edib cümlələri yenidən oxuyun.

⓬ Mətndə altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin və qrammatik mənasını izah edin. Sonra isə onları məna növləri üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

⓭ Aşağıdakı atalar sözlərini oxuyun və yadda saxlayın. Uyğun situasiyalarda onlardan nitqinizdə istifadə etməyə çalışın.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Gec gələn qonaq öz kisəsindən yeyər. 2) Dünyanın malı dünyada qalacaq. 3) Əvvəl arxı tullan, sonra bərəkallah de. 4) Əvvəl salam, sonra kəlam. 5) Əl əli yuyar, əl də üzü. 6) Əmanətə xəyanət olmaz.

✿ Atalar sözlərində altından xətt çəkilmiş sözlərin qrammatik mənası ilə bağlı debat təşkil edin:

1) Bu cümlələrdə işlənən “əvvəl” və “sonra” sözləri **qoşmadır**.
2) Bu cümlələrdə işlənən “əvvəl” və “sonra” sözləri **zərfdir**.

Çap üçün deyil

14 Mətndə işlənmiş qoşmaların yazılışı üzərində müşahidə aparın və "tərəf, doğru, sarı, kimi, -dək, -can, -cən, qədər" qoşmalarını müvafiq sözlərlə işlədərək cümlələr qurub yazın. Yazdığınız cümlələrdə onların yaratdığı məna çalarını izah edin.

## § 26. SƏRV AĞACI

Qoca bağbanın bağı çox gözəl idi. Bu bağda can dərmanı desən, tapardın. Qırmızıyanaq* almaların, sapsarı armudların*, heyvaların, alyanaq* narların* dadından* doymaq* olmurdu.

Bu bağda bir sərv ağacı da bitmişdi. Bu ağac* hər gün boy atıb yüksəlirdi. Ancaq* barsız-bəhərsiz idi. Qoca bağban neçə dəfə onu kəsib, yerində meyvə ağacı əkmək istəmişdi. Ancaq yaşıllığına heyfi gəlmişdi.

Sərv ağacı bir gün ətrafa boylanıb, öz uca qaməti ilə öyündü:

– Eh, bu bağda mənə çatan olmaz, – dedi. – Az keçməz başım lap buludlara* dəyər.

Sərv ağacının boyu uzandıqca* lovğalığı da artırdı. Bütün ağaclara* yuxarıdan aşağı baxırdı.

Ellərə payız gəlmişdi. Qoca bağbanın meyvələri yetişib ballaşırdı. O, hər gün bağın meyvələrindən* dərib nəvə-nəticələrinə səbət-səbət pay göndərirdi. Uca sərv ağacına isə heç yaxın getmirdi.

Bir gün sərv ağacı başını aşağı əyib yanındakı alma ağacından* soruşdu:

– Görəsən, bağban mənə niyə yaxın düşmür?

Alma ağacı dedi:

– Axı niyə də yaxın düşsün, barın yox, bəhərin yox.

Öz ucalığı ilə öyünən sərv ağacı bu sözdən yamanca tutuldu. Belə barlı-bəhərli* bağda bitdiyinə peşman oldu. Əvvəlki sevincindən* əsər-əlamət qalmadı. Barlı ağaclara baxıb xəcalət çəkdi. İndi o, başını uca tutmağa belə utanırdı. Barsızlıq* ona böyük bir dərd olmuşdu.

Axır ki bu bağda onun dərdinə bir şərik olan tapıldı. İri kötüklü meynənin topasından ayrılmış zoğ əlini sərv ağacına uzadaraq*:

– Ey sərv ağacı, gəl dost olaq, – dedi.

Sərv ağacı əvvəl ona heç məhəl qoymadı. Sonra könülsüz-könülsüz:

– Eh, sən hara, mən hara? – dedi.

– Bilirəm, ucalığını deyirsən. Kömək etsən, mən də sənə çata bilərəm.

Sərv ağacı ürəyində ucalığını tutmamışdı. Öz barsızlıq dərdini demək istəyirdi.

– Eh, siz meyvələrə nə var ki! Məhsulunuz bol, hər yerdə təriflənirsiniz, süfrələr bəzəyirsiniz. Dərd mənim dərdimdir.

Meynə sərv ağacının halına acıdı:

Çap üçün deyil

– Sənin nə dərdin ola bilər? – dedi. Uca qamətinə aləm heyrandır. Bütün ağaclar* sənə **həsəd aparır.**

Sərv ağacı:

– Nə olsun ki, uca qamətim var, – dedi. Barım ki yoxdur.



Meynə sərv ağacının dərdini anladı, halına acıdı. Ona kömək etmək üçün fikirləşdi*, fikirləşdi və axırda:

– Mən sənin dərdinə əlac edərəm, – dedi.

Sərv ağacı sevinərək:

– Necə edərsən?

– Bax mən sənin uca qamətinə sarılıb, yuxarı qalxaram. Payız gələndə sarı kəhrəba salxımlarımla* səni bəzəyərəm.

Sərv ağacı meynənin sözlərindən* çox sevindi. Həmin gündən* onunla dost oldu, qoynunda ona yer verdi. Meynə sərv ağacına sarılıb yuxarıya qalxdı. Günəşin işığını, hərarətini əmib boy atdı. Payızda öz kəhrəba salxımları ilə sərv ağacını bəzədi. Salxımlar şirəyə doldu, saralıb ballandı. Bağban sərv ağacından* sallanan salxımlardan dərib yenə nəvələrinə pay göndərdi. Sərv ağacı buna sevindi. Qoca bağban ondan* da çox sevinirdi. İndi onun bağında bir dənə də bəhərsiz ağac yox idi.

**Əli Səmədli**

SÖZLÜK

| | |
|---|---|
| alyanaq – румяный | zoğ – побег |
| sərv ağacı – кипарис | ballaşmaq – созревать, наливатся соком |

SÖZ EHTİYATI

| | |
|---|---|
| can dərmanı – эликсир жизни | yaxın düşmək – приближаться |
| ürəyində tutmaq – задумать | məhəl qoymamaq – игнорировать |
| yuxarıdan aşağı baxmaq – смотреть сверху вниз | |

1 Hekayədəki əsas fikri müəyyənləşdirin və səs tonu, ritmi gözləməklə hekayəni rollar üzrə oxuyun.

2 Qruplara bölünün və hekayənin məzmunu ilə bağlı suallar tərtib edib yazın. Sualların ədəbi dilin qrammatik normalarına uyğunluğuna diqqət yetirin. Sualların tərtibində yol verilmiş səhvləri müəyyənləşdirib düzəldin.

3 Mətn üzrə aşağıda verilmiş planda hansı dəyişikliyi etmək istərdiniz? Fikrinizi əsaslandırın.

1) Meynənin dostluq təklifi.
2) Qoca bağbanın bağı.
3) Barsızlıq dərdi.
4) Lovğa sərv ağacı.
5) Sərv ağacının sevinci.

Çap üçün deyil

❹ Necə bilirsiniz, mətnin giriş və əsas hissəsi bir-biri ilə aşağıdakı cümlələrdən hansı ilə əlaqələnir? Fikrinizi əsaslandırın.

A) Sərv ağacı bir gün ətrafa boylanıb, öz uca qaməti ilə öyündü.
B) Bu bağda bir sərv ağacı da bitmişdi.
C) Sərv ağacının boyu uzandıqca lovğalığı da artırdı.
D) Sərv ağacı əvvəl ona heç məhəl qoymadı.

❺ Cümlələri mətnin məzmunu əsasında tamamlayın və sonda müvafiq durğu işarələrini qoyun. Sonra onları mətnin məzmunu üzrə ardıcıl sıralayın.

1) Sərv ağacı həmin gündən meynə ilə dost oldu, ... 2) Qoca bağban neçə dəfə sərv ağacını kəsib, ... 3) Bir gün sərv ağacı başını aşağı əyib ... 4) Görəsən, bağban mənə niyə ... 5) Bağban hər gün bağın meyvələrindən dərib, ... 6) Meynə sərv ağacına sarılıb... 7) Sərv ağacının boyu uzandıqca ...

### HİKMƏT XƏZİNƏSİNDƏN

*Birinci addımda lovğalananlar,*
*İkinci addımda yıxılacaqdır.* **S.Vurğun**

❻ Hansı cümlədə "o", "bu" əvəzliklərindən sonra vergül işarəsinin buraxıldığını müəyyənləşdirin və düzgün şəkildə köçürün.

1) O meynənin sözlərindən çox sevindi. 2) Sənin o vazaları təmizləməyinə lüzum yox idi. 3) İndi o başını uca tutmağa belə utanırdı. 4) Bu sərv ağacını çox kədərləndirdi. 5) O düşünürdü ki, bütün ağaclar ona həsəd aparır. 6) O sərv ağacına sarılıb yuxarıya qalxdı. 7) Bu müddət ərzində iki müştəri gəlib xeyli qab-qacaq aldı. 8) O altmış batmanlıq gürzlə Dondazı bərk vurdu.

❁ Hansı cümlələrdə "o", "bu" əvəzliklərindən sonra vergül işarəsinə ehtiyac olmadığını müəyyənləşdirin və səbəbini izah edin.

❼ Necə düşünürsünüz, aşağıdakı atalar sözlərindən mətnin məzmunu ilə səsləşəni varmı? Uyğun bildiyiniz atalar sözünü seçib səsləndirin.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) İki qoçun başı bir qazanda qaynamaz. 2) İçim özümü yandırır, çölüm özgəni. 3) Gedən bağdan gedər, bağbandan nə gedər. 4) Əli aşından da olduq, Vəli aşından da. 5) Əvvəl evin içi, sonra çölü. 6) El gözü tərəzidir. 7) Əkinçi yağış istər, yolçu quraqlıq.

❁ Axırıncı atalar sözünü necə başa düşdüyünüzü izah edin.

❽ Aşağıdakı cümlələrdə qoşmaları tapıb sinonimləri ilə əvəz edin.

1) Səlim muzeyə çatana kimi hələ nə edəcəyini bilmirdi. 2) Uşaqlar meydançaya tərəf gedib sağa döndülər. 3) Vəli məftillərin uclarını qarmaq təki

Çap üçün deyil

əyərək bir-birinə keçirdi. 4) Toğruldan başqa, bütün uşaqlar şənliyə vaxtında gəldilər. 5) Lalə Nərmindən qabaq qapını açıb içəri girdi.

❁ Necə düşünürsünüz, öyrəndiyiniz qoşmalardan hansıları bir-birinin əvəzinə işlətmək olar? Fikrinizi misallarla əsaslandırın.

## BUNLARI BİLİRSİNİZMİ?

Qoşmalar **iki cür yazılır:** 1) **birhecalı qoşmalar** (-can, -cən, -dək, -tək) aid olduqları sözə bitişik yazılır: küçəyə**dək**, axşama**can**, səhərə**cən**, gül**tək**;

2) **ikihecalı qoşmalar** (tərəf, kimi, qədər, bəri, ötrü, üçün, ilə, və s.) aid olduqları **sözdən ayrı** yazılır: anam **üçün**, ceyran **kimi**, dünəndən **bəri**, qılınc **təki** və s.

**Qeyd:** İlə qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq **-la, -lə** şəklində **sözə bitişik** yazıla bilər: anam**la**, qələm**lə**, ağac**la** ...

**9** Aşağıdakı cümlələrdən hansı hekayənin əsas hissəsini nəticə ilə (sonluqla) bağlamağa xidmət edir? Fikrinizi əsaslandırın.

A) Meynə sərv ağacına sarılıb yuxarıya qalxdı.
B) Sərv ağacı meynənin sözlərindən çox sevindi.
C) İndi onun bağında bir dənə də bəhərsiz ağac yox idi.
D) Payızda öz kəhrəba salxımları ilə sərv ağacını bəzədi.
E) Payız gələndə sarı kəhrəba salxımlarımla səni bəzəyərəm.

**10** Aşağıda verilmiş tapmacaları cavablandırın. Cavablarda ifadə olunmuş əşyaları təsvir edin və həmin sözlərlə assosiasiya yaradan sözlər silsiləsi yazın.

Əyri-üyrü boy atar,
Ayağı yerə batar.
Salxım-salxım sallanar,
Altında karvan yatar.

Uzun-uzun uzanar.
Al-yaşıla boyanar.
Qırmızıdan don geyər.
Ərş üzünə dayanar.

Yaşılı yamanca bərkdi,
Sarısı göbələkdi.
Əl vurma düşəcəkdi.

Ağac başında sarı yumaq,
Üstünə səpilib ağ sumaq.

**11** Cümlələrin düzgün qurulmasına diqqət yetirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

**12** Mətndə işlənmiş defislə və bitişik yazılan mürəkkəb sözləri seçib səsləndirin və onların orfoqrafiyası ilə əlaqədar qaydanı izah edin.

**13** Mətndə altından xətt çəkilmiş sözləri dəftərinizə köçürün, hər birinin düzgün tələffüzünü qarşısında qeyd edin. Sonra həmin sözlərin üzərində vurğusunu qoyun.

**14** Mətndən götürülmüş aşağıdakı sözlərdən eyniköklü sözlər düzəldib yazın və hər birini birləşmə daxilində işlədin.

bağ, uca, bar, tərif, bəzə(mək), fikir, bal, ağac, lovğa, yaşıl, dad, üzüm

Çap üçün deyil

**15** Aşağıdakı məlumatı oxuyun və Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı faktları qruplaşdırıb, müqayisə edin. Sonra sayların mənaca növlərini müəyyənləşdirin və kəsr saylarını sözlə yazın.

1969-cu ildə Azərbaycanda üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülmüş tədbirlər nəticəsində bu rəqəm 2 milyon tonu ötmüşdü. Lakin keçən əsrin 80-ci illərinin ortalarından başlayaraq Azərbaycanda böyük zəhmət hesabına yaradılmış üzüm bağları məhv edilmişdir.

Yalnız ölkəmiz müstəqillik əldə etdikdən sonra üzümçülüyün inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

2010-cu ilin statistik məlumatlarına əsasən, Azərbaycanda üzümün əkin sahəsi 15,4 min hektar, istehsalın həcmi 129,5 min ton, təzə və qurudulmuş üzüm idxalı 5,5 min ton, ixracı isə 24,1 ton olmuşdur.



## § 27. AYLARIN DÜZÜMÜ



Bilirsənmi bu dünyada
İlin neçə ayı vardır?
Payızı var,
Qışı vardır,
Baharı var, yayı vardır.



Yanvar, fevral...
Qar geyimli...
Martsa **gələr** əldə çiçək.
Aprel keçib, may **gülümsər**
**Zəmiləri** bəzəyərək.



İyun, iyul...
Qızıl zəmi...
Zəmi **düzüm-düzüm** olar.
Avqustun da hədiyyəsi*
Günəş **nurlu*** üzüm olar.





Sentyabr, oktyabr
Alma **verər**, nar **gətirər**.
Noyabrla dekabrda
Yenə **boran**, qar gətirər.

Bax beləcə günlər* **keçər**,
Ay dalınca ay **ötüşər**.
Qış qapını döyməmişdən
Bahar keçər, yay **ötüşər**.

Əgər günlər* bir-birinə
**Bəxş etsə** də öz yerini,
Yenə aylar görə **bilməz**
Bu dünyada bir-birini.

**Nəbi Xəzri**

**SÖZLÜK**

düzüm – строение
ötüşmək – burada: пройти

**1** Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun və şairin onu niyə belə adlandırması ilə bağlı müzakirə aparın.

Çap üçün deyil

**2** Dörd qrupa bölünün və qrupları “Yaz”, “Yay”, “Payız”, “Qış” adlandırın. Hər qrup adını daşıdığı fəsil, onun əhatə etdiyi aylar, əsas əlamətləri üzrə təqdimat hazırlasın.

**3** “Yaz”, “yay”, “payız”, “qış” sözlərindən hər biri ilə assosiasiya yaradan sözlər cərgəsi düzəldib yazın.

**4** Cütlərlə işləyin. Hər cütlük ilin aylarından birini özünə şərti ad seçsin. Hansı ayı özünüzə ad seçmisinizsə, həmin ayı yazılı şəkildə səciyyələndirin. Hər bir ay nə ilə səciyyələnir: həmin ayda təbiətdə hansı hadisələr baş verir, insanlar necə davranırlar, hansı işlər görülür və s.?

Tərtib etdiyiniz mətndə cümlələr və abzasların düzgün əlaqələnməsinə diqqət yetirin.

**5** Şeirdə qara şriftlə verilmiş sözlərin kontekstə uyğun mənasını izah edin.

**6** Aşağıdakı tapmacaları cavablandırın və onlarda işlənmiş isim, sifət, say və əvəzlikləri seçib ayrı-ayrı sütunlarda yazın, qrammatik mənalarını izah edin.

Bir ağacım var, on iki budağı,
Hər budağın otuz yarpağı,
Hər yarpağın bir üzü qara, bir üzü ağ.

Dəyirmana dən doldu,
Zülf üzünə bənd oldu[1],
Düz üç yüz altmış taxta
Bir mismara bənd oldu[2].

**SÖZLÜK**

bənd olmaq[1] – burada: влюбиться

bənd olmaq[2] – burada: закрепиться

❁ Tapmacada altından xətt çəkilmiş sözlərin sinonimləri aşağıdakılardan hansıdır?

***Köməkçi:*** aşiq olmaq, bağlanmaq, vurulmaq, ilişmək, məftun olmaq, yapışmaq

**7** Şeiri nəsrə çevirib məzmununu öz sözlərinizlə danışın. Danışarkən səs tonunuzu tənzimləyin.

**8** “Martsa gələr əldə çiçək” misrası ilə şair nə demək istəyir? Fikrinizi müvafiq nümunələrdən istifadə etməklə izah edin.

**9** Aşağıdakı mətni oxusanız, müstəqil Azərbaycanın enerji sahəsinin inkişafında hansı illərdə hansı mühüm tarixi hadisələrin baş verdiyini öyrənəcəksiniz. Mətndə sayın hansı məna növünün daha çox işləndiyini müəyyənləşdirin və onların yazılışında yol verilmiş səhvlərin nə ilə bağlı olduğunu izah edin.

1996-cı ildə “Şahdəniz” qaz yatağı ilə bağlı saziş imzalanmış, sonra 1999-cu ildə Xəzər dənizini Gürcüstanın Qara dəniz sahilləri ilə birləşdirən ilk

Çap üçün deyil

boru kəməri inşa edilmişdir. Daha sonra – 2006-cı ildə Xəzər dənizini Aralıq dənizi və beynəlxalq bazarlarla birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəməri, 2007-ci ildə isə Cənubi Qafqaz boru kəməri inşa edilmişdir. 2012-ci ildə Türkiyə ilə Trans-Anadolu boru kəməri – TANAP-a dair tarixi saziş, 2013-cü il dekabrın 17-da isə "Şahdəniz-2" yekun investisiya qərarı imzalanmışdır.

⑩ Zamanla bağlı aşağıdakı tapmacaların cavabını siz artıq bilirsiniz. Burada onların hissələri bir-biri ilə qarışıq düşüb. Hissələr arasındakı uyğunluğu tapıb, tapmacaların ilkin şəklini bərpa edin.

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
O hansı quşdu ki,
Bir qanadı ağdı,

Üçü yığar gətirər,
Üçü vurar dağıdar.
Bir qanadı qara.

Atamın yeddi oğlu var,
Biri isti, biri soyuq.

Basdırmışam iki toyuq,
Yeddisi də bir boyda.

⑪ Şeirdə yaşıl rəngdə verilmiş feillərin zamanını müəyyənləşdirin. Həmin feillərdən axırıncısı digərlərindən nə ilə fərqlənir? Fikrinizi əsaslandırın.

⑫ 2013-cü ilin son ayı hansı layihənin imzalanması ilə yadda qaldı?

A) Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair memorandum imzalandı.

B) Türkiyə ilə Trans-Anadolu boru kəmərinə dair tarixi saziş imzalandı.

C) Bakı – Ceyhan neft kəmərinə dair "Əsrin müqaviləsi" imzalandı.

D) Dekabrın 17-də "Şahdəniz-2" üzrə yekun investisiya qərarı imzalandı.

E) "Şahdəniz" qaz yatağı ilə bağlı saziş imzalandı.

⑬ **Yanvar, mart, may, iyun, sentyabr, oktyabr, noyabr, dekabr** aylarında hansı bayramlar və tarixi günlər qeyd olunur? Ən çox sevdiyiniz bayram və ya tarixi günlərdən biri haqqında mətn tərtib edib danışın. Tərtib etdiyiniz mətndə hadisələrin ardıcıllığına və cümlələrin əlaqəsinə diqqət yetirin.

⑭ Müəllimin təqdim etdiyi "Tərcümeyi-hal" üzərində müşahidə aparın və illərin düzümünə əməl etməklə nümunə əsasında hər biriniz öz geniş tərcümeyi-halınızı yazın.

## BUNLARI BİLİRSİNİZMİ?

Tərcümeyi-hal yazarkən aşağıdakı ardıcıllığa əməl etmək lazımdır:

1) Başlıq: Tərcümeyi-hal ; 2) Adınız, soyadınız və atanızın adı. 3) Doğulduğunuz il, ay, gün; 4) Məktəbə qədər olan dövr; 5) Məktəb dövrü; 6) Məktəbdəki fəaliyyətiniz və apardığınız ictimai vəzifə; 7) Ailə üzvləri haqqında qısa məlumat; 8) Tərcümeyi-halın yazılma tarixi; 9) Tərcümeyi-hal yazanın şəxsi imzası.

Çap üçün deyil

⑮ Hansı il, ay sizin, yaxud ailə üzvlərinizin həyatında əlamətdar hadisələrlə yadda qalıb? Cümlələr arasındakı əlaqələri gözləməklə bu mövzuda ətraflı danışın.

⑯ İllərin və ayların düzümündə bir tarix – 20 Yanvar 1990-cı il Azərbaycan xalqının yaddaşında **Qanlı Yanvar** kimi əbədiləşir. 20 Yanvar hadisələri ilə əlaqədar debata qoşulun. Fikrinizi konkret fakt və rəqəmlərlə əsaslandırın.

1) 20 Yanvar 1990-cı il Azərbaycan tarixində milli hüzn günüdür.
2) 20 Yanvar 1990-cı il Azərbaycan xalqının şərəfli qəhrəmanlıq tarixidir.

***Köməkçi:*** Bakıda və respublikanın rayonlarında 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur; qəddarlıq: R.Rüstəmova 23, Y.Meyerovicə 21, D.Xanməmmədova 10-dan cox gullə vurulmuşdur;

⑰ Aşağıdakı cədvələ diqqətlə baxın və oradakı illərin, **ayların düzümünü** yadda saxlayın! Bu tarixlər Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal tarixləridir! Tariximizi unutmayaq!

| | |
|---|---|
| **Xankəndi – 26 dekabr 1991-ci il** | **Ağdərə – 7 iyul 1993-cü il** |
| **Xocalı –26 fevral 1992-ci il** | **Ağdam – 23 iyul 1993-cü il** |
| **Şuşa – 8 may 1992-ci il** | **Cəbrayıl – 23 avqust 1993-cü il** |
| **Laçın – 18 may 1992-ci il** | **Füzuli – 23 avqust 1993-cü il** |
| **Xocavənd – 2 oktyabr 1992-ci il** | **Qubadlı – 31 avqust 1993-cü il** |
| **Kəlbəcər – 2 aprel 1993-cü il** | **Zəngilan – 29 oktyabr 1993-cü il** |

⑱ Aşağıdakı sözlər cərgəsini nəzərdən keçirin və onların arasında hər hansı bir bağlılıq olub-olmadığını izah edin. Sözlərdən bir neçəsini cümlədə işlədin.

**Düzmək** – düzüm – düzdürmək – düzülmək – düzülüşmək – düzlənmək
**Ötmək** – ötürmək – ötürücü – ötürücülük – ötüşmə – ötüşmək – ötüşdürmək

## § 28. QIRMIZI GİLƏLİ BUDAQLAR

Natiq hər dəfə babası ilə meşəyə gedəndə bir şey öyrənirdi. Bu dəfə gördüklərini isə o, bir nağılda oxumuşdu.

... Zalım **ögey** ana qış vaxtı* balaca qıza əmr edir ki, meşəyə gedib onun üçün təzə meyvə gətirsin. Tapmasa, bir daha evə qayıtmasın.

Balaca qız qara bata-bata meşəyə **üz tutur**. Ağlaya-ağlaya gəlib bir böyük qovaq* ağacına söykənir. Hara baxırsa, ağappaq* qar görünür. Nə edəcəyini bilmir. Bu zaman onun gözünün qabağında **nurani** bir qoca görünür.

– **Əziz** balaca qız, ağlama! Bax bu qovaq* ağacından* yeddi ağac o yana, qoca palıdın yanına get. Qarı təmizlə, ***oradan*** giləmeyvə taparsan.

Balaca qız əllərini ovxura-ovxura **həmin** ağacın yanına qaçır.

Çap üçün deyil

– Burada gör nə qədər qar var, – deyir və qarı təmizləməyə* başlayır. Birdən **gözlərinə* inanmır**. Qarın altından* bərk, yaşıl yarpaqları*, parlaq qırmızı gilələri olan kiçik budaqlar* çıxır... Qız sevinə-sevinə **həmin** giləmeyvələrdən yığıb, zənbilini doldurur və ***sonra*** evə **yüyürür**...

***İndi*** babası qar altından balaca budaqlar çıxarıb onlardan* meyvə dərəndə Natiq həmin nağılı xatırladı. Sərv ağacı meynənin sözlərindən* çox sevindi.



– Baba, mən bu haqda nağıl da oxumuşam.

– Bala, elə bu da meşənin nağılıdır da. **Bütün** bu işləri də insanlar* görür, nağılları da insanlar* qoşurlar*.

Onlar meyvə yığır və şirin söhbət edirdilər.

– Baba, bu nə ağacıdır?

– Ağac deyil, bitkidir.

– Bəs adı nədir? Payız öz kəhrəba salxımları ilə sərv ağacını bəzədi.

– Adına mərsin deyirlər*.

Baba giləmeyvələrdən yığır və **hər şeyi** Natiq üçün yerli-yerində danışırdı. Mərsin həmişəyaşıl bitkidir. O, payızda da yarpaqlarını* tökmür. Hə, qarın altında da yaşıl qalır. Giləmeyvələri də yarpaqları kimi donmur.

Söhbətin bu yerində Natiq özünü saxlaya bilməyib soruşdu:

– Baba, mən eşitmişəm ki, qışda **bütün** meyvələr donur.

– Yox, bala, donmayan da var. Bax elə mərsini götürək. Onun üçün qar qorxulu deyil. Payızda olduğu kimi, qışda da yaşıl olur, meyvələri də dadını saxlayır.

Onlar* bir balaca **heybə** mərsin giləmeyvəsi yığıb, **yola düzələndə** Natiq bir məsələni də öyrənmək* istədi:

– Baba, qar basmış meşədə sən bu mərsinin yerini necə tapdın?

Baba güldü:

– Hə, onun da sirri var.

– Sirri de, baba, xahiş edirəm.

– Sirri budur ki, bilirdim, Natiq balam ***qışda*** mənə qonaq* gələcək. Odur ki, yayda mərsin bitən yeri **nişanlamışdım.** Qışda da ***birbaş*** həmin yerə gəlib çıxdıq*.

Bu gün Natiqin sevinci kiçik qəlbinə sığmırdı. Birinci, ona görə ki, babası onu çox istəyirdi. İkinci də, o, bu gün meşədə nağıllarda oxuduğu bir aləmdə olmuşdu.

**Əmrah Əmrahov**

**SÖZLÜK**

qırmızı giləli – красными ягодами
ovxurmaq – burada: согревать
giləmeyvə – ягода
mərsin – мирт

Çap üçün deyil

❶ Səs tonu, temp və fasiləni gözləməklə hekayəni oxuyun. Qara hərflərlə verilmiş sözlərin və ifadələrin mənasını izah edin.

❷ Aşağıdakı suallardan hansına hekayədə cavab tapmadınız? Fikrinizi əsaslandırın və suallara cavab verin.

1) Nağıldakı balaca qız meşədəki giləmeyvənin yerini necə tapır?
2) Nağılda ögey ana balaca qızcığazı necə mükafatlandırır?
3) Necə oldu ki, Namiq oxuduğu nağılı xatırladı?
4) Babası Namiqə mərsin barəsində hansı məlumatı verdi?
5) Xalq təsərrüfatında mərsindən nə məqsədlə istifadə olunur?
6) Baba meşədə mərsinin yerini necə tapmışdı?
7) Mərsin meşəsi Azərbaycanın hansı bölgəsində yerləşir?

❸ Mətn üzrə aşağıdakı planı nəzərdən keçirin. Bu planda dəyişiklik etmək istərdinizmi? Hər hansı bir fikriniz varsa, əsaslandırın. Sonra səs tonunuza diqqət yetirməklə verilmiş plan əsasında mətnin məzmununu danışın.

1) Balaca qızcığazın nağılı.
2) Meşənin nağılı.
3) Natiqin marağı.
4) Babanın sirri.
5) Natiqin sevinci.

❹ Necə düşünürsünüz, hekayədəki nağıl əhvalatından yazıçı nə məqsədlə istifadə etmişdir? Fikrinizi əsaslandırın və mətnin hissələrini müəyyənləşdirin.

❺ Hekayənin hansı hissəsi (giriş, əsas hissə, nəticə) daha çox xoşunuza gəldi və niyə? Xoşunuza gələn hissəni danışın.

❻ Hekayənin əsas hissəsini girişlə bağlayan cümlə hansıdır? Fikrinizi əsaslandırın.

A) Baba, mən bu haqda nağıl da oxumuşam.
B) İndi babası qar altından balaca budaqlar çıxarıb onlardan meyvə dərəndə Natiq həmin nağılı xatırladı.
C) Bu dəfə gördüklərini isə o, bir nağılda oxumuşdu.
D) Balaca qız əllərini ovxura-ovxura həmin ağacın yanına qaçır.
E) Bu gün Natiqin sevinci kiçik qəlbinə sığmırdı.

❼ Hekayədəki cümlələrdən birində düz 5 sifət işlənmişdir. Həmin cümləni tapıb oxuyun və sifətləri seçib deyin. Sonra cümləni həmin sifətlərsiz işlədin və sifətlərin dildəki əhəmiyyəti haqqında fikrinizi izah edin.

❽ Mətndə altından xətt çəkilmiş sözlərlə işlənən qoşmaları sinonimləri ilə əvəz edin və onların qrammatik mənasını – qoşulduğu sözlərdə hansı məna çalarları yaratdığını izah edin.

❾ "Üçün" qoşması işlənmiş cümlələr üzərində müşahidə aparın. Necə bilirsiniz, həmin cümlələrdəki qoşmaları ismin yönlük hal şəkilçisi ilə əvəz etmək olarmı? Bəs aşağıdakı cümlələrdə bu qoşmanı hansı sözlə əvəz etmək olar? Fikrinizi misallar üzərində şərh edin.

1) Hava şaxtalı olduğu üçün qalın kürk geyinmişdim. 2) Əsmərlə çoxdan tanış olduğumuz üçün bir-birimizi yaxşı başa düşürdük.

Çap üçün deyil

⑩ Necə bilirsiniz, aşağıdakı cümlələrin sırası hekayənin məzmununa uyğun gəlirmi? Fikrinizi əsaslandırın və hekayədəki ardıcıllığı bərpa edin.

1) O, payızda da yarpaqlarını tökmür. 2) Qız sevinə-sevinə zənbilini doldurur və sonra evə yüyürür... 3) Onlar yola düzələndə Natiq bir məsələni də öyrənmək istədi. 4) Bilirdim, Natiq balam qışda mənə qonaq gələcək. 5) Qışda da birbaş həmin yerə gəlib çıxdıq. 6) Balaca qız qara bata-bata meşəyə üz tutur. 7) Balaca qız meşəyə gedib ona təzə meyvə gətirsin.

❁ Uyğun qoşmalardan istifadə edərək cümlələri yenidən qurun.

***Köməkçi:*** 1) Bu qonaqlıqdan beş il keçdi, Hüseynəli xanın bir oğlu oldu. – Bu qonaqlıqdan beş il keçəndən sonra Hüseynəli xanın bir oğlu oldu. 2) Hava ayaz olduğundan bir qədər soyuq idi – Hava ayaz olduğu üçün bir qədər soyuq idi.

⑪ Necə bilirsiniz, hekayədə məzmunla əlaqəsi olmayan cümlələr varmı? Varsa, həmin cümlələri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

⑫ Hekayədə göy şriftlə verilmiş sözlərin qrammatik mənasını izah edin və hansı məna növünə aid olduğunu müəyyənləşdirin.

⑬ Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin. Şəkilçilərin yazılışında ahəng qanununun tələblərini gözləməyi unutmayın.

⑭ “Qovaq”, “giləmeyvə”, “mərsin” sözlərini hallandırın. Hal şəkilçilərinin artırıldığı sözün ahənginə uyğun olmasına diqqət yetirin.

❁ Həmin sözlərin müxtəlif formalarını isim, sifət və saylarla işlədərək söz birləşmələri düzəldib yazın və bir neçəsini cümlələrdə işlədin.

⑮ Hekayədə kursivlə verilmiş sözlərin qrammatik mənasını izah edin və hansı məna növünə aid olduğunu müəyyənləşdirin.

## § 29. KOROĞLUYNAN DƏLİ HƏSƏN
### I hissə

Günlərin* bir günü Koroğlu Qıratı minib Çənlibelin ətəyindəki yola çıxmışdı. Bir də baxdı budu, bir dəstə yaraqlı-yasaqlı* atlı* gəlir. **Amma** atlıların* qabağında bir oğlan gəlir **ki**, dünyalara dəyər. Üzündən*, gözündən* igidlik yağır. Oğlan Koroğlunu görcək, dəstəsinə* hay vurdu. Atlılar o saat Koroğlunu araya aldılar. Koroğlu dayandı. Gözlədi ki, görsün işin axırı nə olacaq*. Oğlan atı **cövlana gətirdi**, süzdürüb düz Koroğlunun qabağında dayandı. **Sonra bir Koroğluya baxdı, bir atına baxdı, soruşdu:**

– Əyə, de görüm kimsən? Bu yerlərdə* nə gəzirsən?

Koroğlu dedi:

– Yoldan keçənəm.

Çap üçün deyil

Oğlan bir də Koroğlunun atına baxıb soruşdu:

– Bu atı hardan alıbsan?



Koroğlu dedi:

– Mən sənə məsləhət görürəm öz yolunla düz gedəsən. **Yoxsa** yaxşı olmaz.

Oğlan bu sözdən qəzəbləndi. Hirslə **atının başını çəkdi**. At iki dal ayaqları* üstünə qalxdı. Üzünü Koroğluya tutub dedi:

Dəli Həsən elə bildi ki, Koroğlu ondan* qorxur. Geri qanrılıb, başının adamlarına dedi:

– Görünür ki, sən məni tanımırsan? Əgər tanısaydın, belə danışmazdın. Mənə Dəli Həsən deyərlər*. Bu yollardan kim keçsə, mənə bac-xərac verməlidi.

Koroğlu onu tanıdı. Bildi ki, atasının dediyi Dəli Həsəndi. Bir də diqqətlə atına, özünə baxdı. Gördü yox, Dəli Həsən, doğrudan da, igid oğlandı. Koroğlu atası ölən gündən* bəri onu axtarırdı. Onunla dostlaşmaq*, əlbir olmaq* fikrində idi. **Ancaq*** bilirdi **ki**, bu iş elə-belə **baş tutmayacaq***. Dava-dalaşsız məsələ düzəlməyəcək. **Fikir onu götürdü** ki, indi nə təhər eləsin. Elə bu fikirdə idi **ki**, Dəli Həsən bir də qışqırdı:

– Əyə, sənə atdan düş demirəmmi? **Yoxsa** əcəlin çatıb?

Koroğlu aramla dedi:

– Dəli Həsən, səsinə qüvvət vermə, igid* dil açmaz, əl açar.

Dəli Həsən dedi:

– Əyə, sən kimsən ki, mənim qabağımda belə yekə-yekə danışırsan?

– Dayan deyim, kiməm.

Bunu deyib, Koroğlu **atın başını çəkdi**. At elə qalxdı ki, dırnağının altından* qopan daş bir neçə adam boyu Dəli Həsənin başının üstündən* keçib, o tərəfə düşdü. Koroğlunun ətrafını bürümüş atlılar çaxnaşmaya düşdülər. Koroğlu sazı çiynindən* aşırıb döşünə basdı, dedi:

Məndən* salam olsun əcəm oğluna,
Meydana girəndə, meydan mənimdi!
Qıratım köhləndi, özüm qəhrəman,
Çalaram qılıncı, düşmən mənimdi!

Adımı soruşsan, bil, Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu;
Mənəm bu yerlərdə* bir dəli, dolu,
Gündoğandan ta günbatan mənimdi.

Dəli Həsən bir Koroğluya baxdı, bir dönüb başının adamlarına baxdı, hündürdən bir **şaqqanaq* çəkib** güldü. Atlılar da gülüşdülər. Onların* bu gülüşməyi Koroğluya dəydi. Bir istədi Misri qılıncı çəkib, özünü onlara göstərsin. Sonra lənət şeytana deyib, aldı sazı görək nə dedi:

Qoç Koroğlu çıxar düzə,
Baxmaram əlliyə, yüzə.

Mən dəlidən öyüd sizə,
Həddindən* aşmamaq* gərək.

Çap üçün deyil

Koroğlunun belə yekə-yekə nəsihət verməyi Dəli Həsənə lap **acıq* gəldi.** Başının adamlarına hay vurub, Koroğluya hücum eləmək istədi. Koroğlu dedi:

Gəl sənə söyləyim, ay Dəli Həsən,
And içmişəm, bu gün döyüş olmasın.

– Əyə, mən də elə bilmişəm **ki**, bu, doğrudan da, igiddi. Tutun, yekə-yekə danışdığına görə atını əlindən* alın, özünə də bir-iki vurub yola salın.

Hadisələr bundan sonra necə cərəyan edəcək? Dəli Həsən Koroğluya qalib gələcək, yoxsa o, Koroğluya məğlub olacaq? Öz variantınızı təqdim edin.

**SÖZLÜK**

bac-xərac – устар. дань
yaraqlı-yasaqlı – вооружённый
cins – burada: родословие
köhlən – выхоленный конь

**SÖZ EHTİYATI**

dünyalara dəyər – бесценный
cövlana gətirmək – кружить
əcəm oğlu – соотечественник
həddini aşmamaq – не перегибать палку
əcəli çatmaq – наступление смертного часа

1 Səs tonu və fasiləni gözləməklə mətni rollar üzrə oxuyun, sonra səhnələşdirin.

❁ Mətndəki əsas fikri müəyyənləşdirin və ardıcıllığı gözləməklə oxuduğunuz hissənin planını tərtib edib yazın.

2 Dastandan götürülmüş aşağıdakı misraları oxuyun. Necə bilirsiniz, bu sözlər hansı dastan qəhrəmanının xarakterinə uyğundur? Misraların mətndəki yerini müəyyənləşdirin və fikrinizi əsaslandırın.

İgid meydana girəndə,     Qaynayıb coşmamaq gərək.

3 Koroğlu nə üçün Dəli Həsənlə döyüşmək istəmir? Bunun səbəbi nə ilə bağlı idi? Mətnin məzmununu əks etdirməyən variantı səsləndirin və fikrinizi əsaslandırın.

A) Koroğlu Dəli Həsənin igidliyini yoxlamaq istəyirdi.
B) Koroğlu Dəli Həsənin igidliyini görüb ondan qorxdu.
C) Koroğlu başa düşürdü ki, Dəli Həsənlə yaxınlaşmaq elə də asan olmayacaq.
D) Koroğlu Dəli Həsənlə dostlaşmaq, onunla əlbir olmaq istəyirdi.
E) Koroğlu atası ölən gündən bəri onu axtarırdı.

❁ Nitqinizi uyğun səs tonu ilə tənzimləyərək mətndən həmin hissənin məzmununu danışın.

4 Dastandan oxuduğunuz hissənin məzmunu əsasında Koroğlu ilə Dəli Həsəni müqayisə edin, oxşar və fərqli xüsusiyyətlərini sadalayın. Necə

Çap üçün deyil

bilirsiniz, hər ikisi qəhrəman olduğu halda, niyə məhz Koroğlu xalqın sevimli qəhrəmanına çevrilir? Mövzunu müzakirə edin.

5 Koroğlu haqqında əlavə məlumat almaq istəyirsinizsə, müəllimin təqdim etdiyi qısa məlumatı oxuyub Azərbaycan dilinə tərcümə edin. Ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə etməyi unutmayın.

6 Koroğlu özü haqqında mətnin hansı hissəsində məlumat verir? Həmin hissəni tapıb yenidən oxuyun və məzmununu öz sözlərinizlə çatdırın.

7 Mətnin iki yerində cümlələr arasında əlaqə pozulmuşdur. Əlaqələrin pozulduğu həmin yerləri müəyyənləşdirin. Necə bilirsiniz, mətndə əlaqənin pozulmasına səbəb nə olmuşdur? Fikrinizi əsaslandırın.

8 Mətndə yerində işlənməyən cümləni tapıb səsləndirin. Necə bilirsiniz,bu cümlənin mətnin məzmunu ilə hər hansı bir bağlılığı varmı?

Tapdığınız cümlənin mətndəki yerini müəyyənləşdirib onu yerinə qoyun və oxuyun. Cümlələrin necə əlaqələndiyini izah edin.

9 Necə bilirsiniz, mətndə atalar sözü işlənmişdirmi? Əgər işlənmişdirsə, tapıb səsləndirin. Qəhrəmanlıq, igidlik mövzusunda bildiyiniz atalar sözlərini yadınıza salıb deyin.

10 Mətndə altından xətt çəkilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edib, cümlələri yenidən oxuyun. Cümlələrin məzmununda hər hansı bir dəyişiklik müşahidə etdinizmi? Fikrinizi bildirin.

11 Mətndə qara şriftlə verilmiş ifadələrdən hansının qarşılığı düzgün verilməmişdir?

A) baş tutmayacaq – olmayacaq
B) şaqqanaq çəkmək – bərkdən gülmək, şaqqıltı ilə gülmək
C) cövlana gətirmək – fırlatmaq, dövrə vurmaq
D) atın başını çəkmək – sürüb getmək
E) acıq gəlmək – xoş gəlməmək, acıqlandırmaq

12 Aşağıdakı cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Onunla dostlaşmaq, əlbir olmaq fikrində idi. Ancaq bilirdi ki, ... 2) Dəli Həsən elə bildi ki, ... 3) Bu yollardan kim keçsə, ... 4) Koroğlunun belə yekə-yekə nəsihət verməyi ... 5) Tutun, yekə-yekə danışdığına görə atını əlindən alın, ...

13 Mətndə yaşıl fonda verilmiş cümlədəki “sonra” sözünün qrammatik mənası ilə bağlı düzgün cavabı səsləndirin və fikrinizi əsaslandırın.

1) Bu cümlədə “sonra” sözü zaman zərfidir.
2) Bu cümlədə “sonra” sözü qoşmadır.

Çap üçün deyil

⑭ Mətndə altından xətt çəkilmiş cümlədə feilin hansı formaları işlənmişdir? Əlavə misallardan istifadə etməklə fikrinizi əsaslandırın və həmin feilləri şəxslər üzrə dəyişib yazın, sonra cümlələrdə işlədin.

⑮ Mətndən mənsubiyyət şəkilçili bir neçə söz seçib şəxsini müəyyənləşdirin və aid olduğu sözlə birlikdə səsləndirin.

⑯ Mətndə qırmızı rəngdə verilmiş sözlər üzərində müşahidə aparın və rus dilindəki biliklərinizə əsasən onların dildə hansı qrammatik vəzifəni yerinə yetirdiyini müəyyənləşdirməyə çalışın.

A) sözlərə qoşulub onlarda müəyyən məna çaları yaradır
B) sözləri və cümlələri bir-birinə bağlayır
C) ayrı-ayrı nitq hissələrini əvəz edərək onların yerində işlənir
D) sözlərin və cümlələrin təsir gücünü artırır
E) hiss, həyəcan bildirir

## § 30. KOROĞLUYNAN DƏLİ HƏSƏN
### II hissə

Dəli Həsənin dəstəsi Koroğluya hücum elədi. Koroğlu atı cövlana gətirib, qızmış şir **kimi** onların üstünə **cumdu**. Bir yandan* Koroğlu, bir yandan Qırat az vaxtda dəstəni* qatım-qatım qatlayıb əldən-ayaqdan saldılar. Dəstədən* qırılan qırıldı, qalanlar* da qaçıb dağıldılar.

Koroğlu dəstəni dağılmış görüb, Qıratı ildırım **kimi süzdürdü**, çəkilib bir yanda duran Dəli Həsənin üstünə sürdü. Üzünü ona tutub, aldı görək nə dedi:

Qıratı gətirdim cövlana, indi
Varsa igidlərin meydana gəlsin!

Dəli Həsənlə Koroğlu **dava eləyəsi** oldular. Qılınclarını çəkib, bir-birinə hücum elədilər. Qılıncdan murad hasil olmadı, əmuda əl atdılar. Əmuddan murad hasil olmadı, nizəyə əl uzatdılar. Nizədən **də** kar aşmadı. Axırda atdan düşdülər, güləşməyə başladılar. Dəli Həsən **ilə** Koroğlu çox güləşdilər, **gah** o, buna güc gəldi, **gah** bu, ona güc gəldi. Qoç Koroğlu axırda bir dəli nərə çəkib Dəli Həsəni götürüb yerə vurdu. Dizini sinəsinə dayadı, əlini qılınca atanda Dəli Həsən bir ah çəkdi.

Necə düşünürsünüz, Koroğlu Dəli Həsəni öldürəcəkmi, yoxsa onun igidliyinə qıymayıb bağışlayacaqmı? Müzakirə edin.

Koroğlu dedi:
– **Bir qaşıq*** qanından* qorxub niyə ah çəkirsən?
Koroğlunun cavabında Dəli Həsən dedi:

Çap üçün deyil

– Ey igid, mən canımdan* qorxub ah çəkmirəm. Əhdim var idi. Əhdimə çatmadım.

Koroğlu soruşdu:

– Əhdin nə idi?

Dəli Həsən dedi:

– Mən əhd eləmişdim **ki**, *hər kim* məni bassa, onun**la** dost, qardaş olam. Ölənə **qədər** onun yanında qalam. İndi sən məni basdın, **ancaq** öldürürsən, əhdimə çata bilmirəm.

Dəli Həsənin bu sözü Koroğlunu sevindirdi. Ayağa qalxdı, Dəli Həsənin qolundan* yapışıb qaldırdı, əlini üç dəfə onun **dalına** vurdu.

Dəli Həsən onun qılıncının altından* keçdi, ölənə**cən** ona qardaş olub, qulluğunda durmağa and içdi. Ondan sonra üzünü Koroğluya tutub dedi:

– Qoç Koroğlu, düz yeddi ildi ki, mən bu yolların ağasıyam. İndiyə **qədər** hələ bir adam mənim qabağıma çöp sala bilməyib. Bu yeddi ilin ərzində bir bəzirgan mənə bac verməmiş bu **həndəvərdən** keçə bilməyib. Bəylərdən, xanlardan*, tacirlərdən* alıb yığdığım mal-dövlətin, qızıl-gümüşün, cavahiratın hamısını saxlamışam. İgidlər* arasında olan adətə **görə**, indi onların* *hamısı* sənə çatır. Buyur, gedək, **malına** sahib ol! Mən yoxsul bir adamam.

Koroğlu qabaqca* ona inanmadı. Şübhələndi **ki**, bəlkə, hiylə qurub onu **tora salmaq** istəyir. Sonra fikirləşib* öz-özünə dedi: "Eybi yoxdu, elə belə yaxşıdı. Bu başdan yoxlayıb, sınaqdan* çıxardaram. Qoy mərddirsə **də** indidən bilinsin, müxənnətdirsə **də** indidən bilinsin".

Özü Qıratı mindi, sonra da üzünü ona tutub dedi:

– Min atını, sür, gedək!

Dəli Həsən qabaqda, Koroğlu dalda az getdilər, üz getdilər, gəlib bir sıldırım qayanın dibinə çatdılar. Qayanın dibi **yaman** kol-kosluq* idi. Dəli Həsən atını kol-kosluğa vurdu. Koroğlu da onun dalınca. Elə bir az getmişdilər ki, qabaqlarına bir mağara çıxdı. Dəli Həsən atdan düşdü. Sonra Qıratın cilovundan* yapışıb dedi:

– Çatmışıq*. İndi atdan düş, içəri girək.

Koroğlu yenə də Dəli Həsəni qabağına salıb mağaraya girdi. Baxdı **ki**, burada o qədər qızıl-gümüş var **ki**, elə bil yeddi padşahın xəzinəsi buradadı. Koroğlu mağaranı **tamam-kamal** gəzdi. *Hamısını* gözdən keçirdi. Sonra Dəli Həsənə dedi:

– Qoy bunlar elə buradaca qalsınlar. İndi bunlar* bizə lazım deyil. Amma elə ki, Çənlibeldə yurd-yuva saldıq*, başımıza dəlilər, igidlər yığıldı, onda bunlar bizə lazım olacaq*.

Doğrudan da, elə oldu. Bu gündən* Koroğlunun başına yavaş-yavaş adamlar yığışmağa başladı. Çox çəkmədi **ki**, Çənlibel qoçaq oğlanların*, igidlərin* məskəni oldu.

**"Koroğlu" dastanından**

Çap üçün deyil

## SÖZLÜK

əhd eləmək – дать обет
bəzirgan – устар. купец.
müxənnət – устар. подлый
cavahirat –драгоценность

## SÖZ EHTİYATI

əldən-ayaqdan salmaq – выбить из сил
ildırım kimi süzdürmək – как молния
muradı hasil olmamaq – не достичь желанного
qabağına çöp sala bilməmək – не устоять перед ним
kar aşmır – не помог
bac – устар. пошлина

**1** Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyun, onun məzmunu ilə əlaqəsi olmayan cümləni tapıb səsləndirin.

**2** Cümlələrdəki ardıcıllığı mətnin məzmununa əsasən bərpa etsəniz, mətnin planı alınacaq. Nitqinizi uyğun səs tonu ilə tənzimləyərək plana əsasən mətnin məzmununu qısaca danışın.

1) Koroğlu Dəli Həsəni qabağına salıb mağaraya girdi.
2) Dəli Həsənlə Koroğlu dava eləyəsi oldular.
3) Çənlibel qoçaq oğlanların məskəni oldu.
4) Düz yeddi ildi ki, mən bu yolların ağasıyam.
5) Dəli Həsən Koroğlunun qılıncının altından keçdi.

**3** Koroğlunun Dəli Həsəni məğlub etdiyi hissəni səhnələşdirin.

**4** Tərtib edilmiş suallarda mətnin ardıcıllığı pozulmuşdur. Əvvəlcə düzgün ardıcıllığı bərpa edin, sonra sualları cavablandırın.

1) Koroğlu nə üçün Dəli Həsənlə getməyə razılaşdı?
2) Mağaranı nəzərdən keçirən Koroğlu Dəli Həsənə nə dedi?
3) Dəli Həsənin cavabı nə üçün Koroğlunu sevindirdi?
4) Nə üçün Koroğlu Dəli Həsənlə vuruşası oldu?
5) Dəli Həsən məğlub olanda niyə ah çəkdi, o, nəyə əhd eləmişdi?

- Özünüz mətn üzrə bir-birinizə hansı sualları vermək istərdiniz?

- Mətn üzrə elə suallar tərtib edin ki, mətndə onların cavabı olmasın.

**5** Necə düşünürsünüz, mətndə təsvir olunan hadisə Koroğlunun fəaliyyətinin hansı dövrünə təsadüf edir? Fikrinizi mətnin məzmunundan çıxış edərək əsaslandırın.

A) ətrafına igidləri topladığı dövr
B) qocalıq dövrü
C) artıq bir qəhrəman kimi tanındığı dövr
E) uşaqlıq dövrü
D) zalımlardan intiqam almaq istədiyi dövr

Çap üçün deyil

6 Mətndə qara şriftlə verilmiş sözləri ilk ağlınıza gələn sinonimləri ilə əvəz edib cümlələri oxuyun. Sonra "Köməkçi"yə baxıb səhv edib-etmədiyinizi dəqiqləşdirin.

***Köməkçi:*** tərəflərdən, ətrafdan, yan-yörədən; yerli-yataqlı, hərtərəfli, bütünlüklə; bir az, cüzi miqdarda, azacıq; var-dövlət, sərvət, qənimət; aldatmaq, dolaşdırmaq, azdırmaq; çox, həddindən artıq, hədsiz; qaçdı, yüyürdü, üstünə atıldı; oynatmaq, rəqs etdirmək; vuruşmaq, döyüşmək, dalaşmaq;

Necə düşünürsünüz, mətndəki sözlərin kontekst üçün "Köməkçi"dəki sinonimlərindən daha uğurlu variant olduğunu söyləmək olarmı? Müzakirə edin və fikrinizi əlavə misallarla əsaslandırın.

7 Mətndə "dəlilər" "Dəli Həsən" kimi ifadələr işlənmişdir. Necə düşünürsünüz, burada "dəli" sözü hansı mənada işlənmişdir? Düzgün cavabı göstərin və fikrinizi əsaslandırın.

A) bu söz artıq köhnəlmişdir
B) bu söz məcazi mənada işlənir
C) bu söz mətndə heç bir məna kəsb etmir
D) igid, qorxmaz
E) ağılsız, ağlını itirmiş

8 Mətndən götürülmüş aşağıdakı sözlərin tələffüzü ilə bağlı səhvə yol verilmiş cərgəni göstərin və səhvin nədən ibarət olduğunu əlavə misallarla izah edin.

A) canımdan, kol-kosluq idi, qılınc – [canımnan, kol-kosdux idi, qılınç]
B) tacirlərdən, qaşıq, dəstəni – [tacirrərdən, qaşıx, dəsdəni]
G) qabaqca, altından, cilovundan – [qabaxca, altınnan, cilovunnan]
D) xanlardan, sınaqdan, oğlanların – [xannardan, sınaxdan, oğlannarın]
E) igidlərin, fikirləşdi, qanından – [igitdərin, fikirrəşdi, qanınnan]

9 Cümlələrdə sözləri düzgün əlaqələndirmək və ahəng qanununa əməl etməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Necə bilirsiniz, bu tərcümə "Koroğlu" dastanı ilə bağlı məlumatınızın genişlənməsinə xidmət göstərə bildimi?

Əldə etdiyiniz faktlardan nə vaxt bir nümunə kimi istifadə edə bilərsiniz? Fikrinizi açıqlayın.

10 Mətndə qırmızı və göy rəngdə verilmiş sözləri ayrı-ayrı sütunlarda yazın; rus dilindəki biliklərinizi yadınıza salın və onları bir-biri ilə müqayisə edin. Bu söz qrupları ilə bağlı səhv cavabı səsləndirin və fikrinizi əsaslandırın.

A) Hər ikisi müstəqil leksik mənaya malik deyil və suala cavab vermir.
B) Hər ikisi dildə köməkçi vəzifə yerinə yetirir.
C) Qırmızı rəngdə verilmiş sözlər sözləri və cümlələri bir-birinə bağlayır.
D) Göy şriftlə verilmiş qoşmalar sözlərə bitişik və ayrı yazılır.
E) Hər ikisi sözləri və cümlələri bir-birinə bağlayır və qoşulduğu sözdə müəyyən məna çaları yaradır.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, dilimizdə köməkçi vəzifə yerinə yetirən söz qruplarından biri də **bağlayıcı**dır (союз). Bağlayıcılar cümlədə **sözləri və cümlələri bir-birinə bağlayır**. Məsələn, "Dəli Həsən **ilə** Koroğlu çox güləşdilər" cümləsində "**ilə**" bağlayıcısı sözləri, "Çox çəkmədi **ki**, Çənlibel qoçaq oğlanların, igidlərin məskəni oldu" cümləsində isə "**ki**" bağlayıcısı cümlələri bir-birinə bağlamışdır.

Sintaktik vəzifəsinə görə bağlayıcıların iki növü var:

1) **tabesizlik** bağlayıcıları – və, ilə, gah, gah da, ya, ya da, amma, ancaq, həm, həm də, isə, və ya da ki, yaxud, hətta, həmçinin, lakin ...

2) **tabelilik** bağlayıcıları – ki, belə ki, əgər, indi ki, çünki, ona görə ki, hərçənd ki ...

11 Mətndə altından xətt çəkilmiş feillər üzərində müşahidə aparın və onları qrammatik mənasına görə (feilin şəkilləri üzrə) qruplaşdırıb dəftərinizə yazın.

Müşahidələrinizə əsasən deyin: feilin formalarından hansı dildə daha çox işlənir? Fikrinizi əsaslandırın.

Hər qrupda yazdığınız feillərdən birini şəxslər üzrə dəyişib yazın və cümlələrdə işlədin.

12 Mətndə kursivlə verilmiş sözlərin qrammatik mənasını izah edin və məna növünü göstərin. Əlavə misallar gətirməklə fikrinizi əsaslandırın.

13 Aşağıdakı cümlələrdə bağlayıcıları tapıb, qrammatik mənasını izah edin. Sonra sintaktik vəzifəsinə görə hansı növə aid olduğunu müəyyənləşdirin.

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi, o qədər də divar yazan deyillər. Çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar. Amma axır vaxtlarda gördüm ki, balkonun divarında ... bir belə şəkil çəkilib...

## *Kəlmələrin "dili"ni öyrənək!*

**Durmaq** – 1) Ayaq üstə, şaquli vəziyyətdə hərəkətsiz dayanmaq – Yolun qırağında durmuşdum. 2) Yerindən qalxmaq, oturduğu yerdən qalxmaq; Yuxudan ayılaraq yorğan-döşəkdən qalxmaq – Gec durmaq; Sağalmaq, yaxşı olmaq. 3) Yerləşmək, olmaq, dikəlmək – Bir küncdə durur. 4) Əyninə oturmaq, bədəninə uyğun gəlmək – Bu don əynində yaxşı durur. 5) Qalmaq, dayanmaq – Bir az dur, gedərik. 6) Qərar tapmaq, rahat qalmaq, sakit qalmaq – Bu uşaq bələkdə durmur. 7) Müqavimət göstərmək, möhkəm dayanmaq, dözmək – Düşmən qabağında durduğunu unutma! 8) Sabitlik göstərmək, israr edib dayanmaq – Sözünün üstündə durmadı.

Çap üçün deyil

## § 31. FƏTƏLİ XANIN BEŞİYİ
### I hissə

Sizə hardan deyim? Quba mahalından*. Quba mahalında kimdən*? Hüseynəli xandan*. Hüseynəli xan Azərbaycanın dörd bir **səmtinə** – Badi-Kubəyə, Dəmirqapı Dərbəndə, Şəkiyə, Qarabağa, Lənkərana, İrəvana, Naxçıvana, Təbrizə, Marağaya, Ərdəbilə … **çapar** göndərmişdi. **Qəsdi** bu idi ki, o mahalların adlı-sanlı* xanlarını* Novruzqabağı bir yerə **yığsın**, incikliyi, **umu-küsüsü** olanları* barışdırsın.♥

Neçə gün idi **ki**, qonaqlığa hazırlıq* görülürdü. Mahalın ən **mahir** ovçuları səhərin gözü açılmamışdan bildirçin, qırqovul, turac, kəklik ovuna çıxırdılar. Çobanlar* kəsiləcək erkəkləri seçirdilər, qızlar* iri-iri sinilərdə düyü **arıtlayırdılar**. Eşikağasının **da ki**, bir ayağı elə **çarşıda** qalmışdı. Baş aşpaz nə deyirdisə, şabalıd olsun, kişmiş olsun, albuxara olsun, **dərhal** alıb gətirirdi.♥

Hüseynəli xan **həm də** düşünürdü **ki**, axırda hər qonağa adına layiq bir **bəxşiş də** versin.♥ **Odur ki**, əvvəl istədi **ki**, eşikağasını tanıdığı zərgərlərin*, xəttatların* yanına göndərsin, görsün nələri var? **Amma** sonradan fikrini dəyişdi. Belə qərara gəldi **ki**, özü Badi-Kubəyə – "Böyük çarşı"ya getsin, seçsin, **ürəyinə yatan** şeylər alsın.

Hüseynəli xan nökər-naibə göstəriş verdi **ki**, faytonu hazırlasınlar*. Sonra arvadını – Usmi Əhmədxan qızını çağırıb dedi:

– Mən səfərə çıxıram.♥ Bir həftəyə* kimi gələcəyəm. Mahalda gözün olsun.

Hüseynəli xan lap **obaşdan** yola çıxdı. İki ötüb, üç deyən günü Badi-Kubəyə **yetişdi**. "Böyük çarşı" Qız qalasından* azca yuxarıda – karvansaranın düz qabağında idi. Burada nələr satmırdılar? Üzük, sırğa, boyunbağı, nişan xonçaları, Osmanlıdan* gətirilmiş qılınclar*, qaragül dəridən tikilmiş buxara papaqlar*, Xorasan kürkü, **qısası**, hildən, darçından*, zəfərandan*, iydə qurusundan*, püstədən, badamdan* tutmuş, xalça-palazacan hər şey.♥

Hüseynəli xan "Böyük çarşı"da xeyli gəzib-dolaşandan* sonra qını **və qəbzəsi** qızıl suyu ilə işlənmiş, qiymətli* daş-qaşlarla bəzədilmiş bir neçə osmanlı* qılıncı aldı.♥ Elə çıxıb getmək istəyirdi **ki**, xalça-xalı satılan yerin qabağında yan-yana düzülmüş beşikləri görəndə **ayaq saxladı**, diqqətlə baxmağa başladı.

Məşhur beşik ustası Hacıəli kişi Hüseynəli xanı görən kimi tanıdı. **Odur ki**, yaxınlaşıb*: "Xan, beşik almaq istəyirsiniz?" – deyə xəbər aldı.

Hüseynəli xan dedi:

– Yox … Elə-belə baxıram … çox qəşəngdilər. Kim düzəldib bunları?

Hacıəli kişi **kamali-ədəblə** əlini **köksünə** qoyub: "**Bəndeyi-həqiriniz**", – dedi.

Hüseynəli xan dedi: "Hacıəli kişi, Allah-Təala mənə bir övlad **bəxş etsə**, beşiyini sənə düzəltdirəcəyəm".

Çap üçün deyil

Hüseynəli xan Qubaya qayıdandan* sonra qonaqları* gəldi. Seçmə erkəklər, bildirçinlər*, qırqovullar, turac **və** kəkliklər kəsildi, qazanlar* qaynadı, düz yeddi gün, yeddi gecə bir qonaqlıq* oldu **ki**, gəl görəsən. **Elə ki**, **vədə** yetişdi, getmək vaxtı **gəldi**, Hüseynəli xan aldığı hədiyyələri* gətirib dedi:

– Bax hərənizə bir qılınc almışam.♥ Bir olsaq, düşmən qorxar, üstümüzə gəlməz.

Qılınclar qonaqların* çox xoşuna gəldi. Elə oradaca qurşandılar, dedilər:

– Hüseynəli xan, çox sağ ol **ki**, bizi bir yerə **yığdın**. **Həmişə** evinə **şadlığa-şadyanalığa** gələk.

**İşləyəni: Dilsuz**

Necə bilirsiniz, Hüseynəli xan beşik almaq üçün "Böyük çarşı"ya gedəcəkmi? Mətni siz necə davam etdirərdiniz? Öz variantınızı təqdim edin.

## SÖZLÜK

umu-küsü – обида
albuxara – сушёная слива
sini – поднос
qın – футляр
qəbzə – рукоятка
hil – кардамон
darçın – корица
yüyrük – колыбель, люлька

## SÖZ EHTİYATI

çarşı – базар
xəttat – коллиграф
nökər-naib – слуги
eşikağası – придворный служащий
qurşanmaq – опоясываться
qəsd – замысел
kamali-ədəblə – с почтением
bəndeyi-həqiriniz – покорный слуга

**1** Mətnin məzmunu üzrə aşağıdakı suallara cavab verin.

1) Xanlıqda qonaqlığa hazırlıq necə gedirdi?
2) "Böyük çarşı"da Hüseynəli xanın diqqətini nə cəlb etdi?
3) Hüseynəli xan nə üçün "Böyük çarşı"ya özü getməyə qərar verdi?
4) "Böyük çarşı" harada yerləşirdi və orada nələr satılırdı?
5) Hüseynəli xan nə məqsədlə Azərbaycanın dörd bir səmtinə çapar göndərdi?
6) Hədiyyələri verəndə Hüseynəli xan qonaqlara hansı arzusunu bildirdi?
7) "Böyük çarşı"da Hüseynəli xan Hacıəli kişiyə nə dedi?

Necə bilirsiniz, sualların sırası mətndəki ardıcıllığı əks etdirirmi? Fikrinizi əsaslandırın və müvafiq ardıcıllığı bərpa edin.

**2** Qruplara bölünün və mətn üzrə tərtib edilmiş planın bəndlərindən biri üzrə danışın.

1) Hüseynəli xanın niyyəti.
2) Qonaqlığa hazırlıq.
3) "Böyük çarşı"da.
4) Hədiyyələrin təqdimi.

Çap üçün deyil

3 Mətndəki faktlardan çıxış edərək aşağıdakı sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırın.

1) Hüseynəli xan zərgərin yanına niyə eşikağasını göndərdi?
2) Hüseynəli xan niyə qılınc deyil, buxara papaq almaq istədi?
3) Hüseynəli xan niyə “Böyük çarşı”ya getmək fikrindən daşındı?
4) Hacıəli kişi niyə Hüseynəli xanı tanımadı?
5) Hədiyyələr niyə qonaqların xoşuna gəlmədi?

4 Ahəng qanununa uyğun şəkilçi variantları seçmək və sözləri düzgün əlaqələndirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə etsəniz, Fətəli xan haqqında müəyyən məlumat alacaqsınız. Özünüzü sınayın.

5 Verilmiş cədvəldəki qruplara uyğun gələn isimləri mətndən seçib müvafiq xanalara yazın və quruluşca növlərini izah edin.

| Yer, məkan | Heyvan, quş | Peşə, sənət | Şəxs, ad | Quru meyvə | Ədviyyat | Geyim | Zərgərlik məmulatı |
|---|---|---|---|---|---|---|---|

6 Necə bilirsiniz, mətnin “Qonaqlıq”, yoxsa “Fətəli xanın beşiyi” adlandırılması daha məqsədəuyğun olardı? Debata qoşulun və fikrinizi faktlarla əsaslandırın.

7 “Vətəni qorumaq üçün” ifadəsinin mətndəki yerini müəyyənləşdirin: Necə düşünürsünüz, bu ifadə mətndəki hansı rəngdəki ürək simvolunun yerinə qoyulmalıdır? Fikrinizi mətnin məzmunundan çıxış etməklə əsaslandırın.

❁ “Vətəni qorumaq üçün” ifadəsini işlətməklə cümlələr qurub yazın.

8 Mətnin axırıncı altı cümləsində işlənmiş feilləri seçib, hansı formada və şəxsdə olduğunu izah edin. Əlavə misallarla fikrinizi əsaslandırın.

❁ Qruplara bölünün və hər biriniz seçdiyiniz feilləri müxtəlif formalarda işlədin. Sonra hərəniz bir feili formalardan biri üzrə şəxslər üzrə dəyişib yazın.

9 Mətndə qara şriftlə yazılmış sözləri dəftərinizə köçürün və kontekstə uyğun sinonimlərini qarşılarında qeyd edin.

❁ Həmin sözləri qrammatik mənalar üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

10 Mətndə işlənmiş bağlayıcılar üzərində müşahidə aparın. Tabesizlik və tabelilik bağlayıcılarını seçib ayrı-ayrı sütunlarda yazın və qrammatik mənalarını izah edin. Fikrinizi izah edərkən rus dilindəki biliklərinizdən də istifadə edin.

Çap üçün deyil

## BUNLARI BİLİRSİNİZMİ?

**Tabesizlik bağlayıcılarının** aşağıdakı növləri vardır:
1. **Birləşdirmə** bağlayıcıları: və, ilə (la, -lə);
2. **Bölüşdürmə** bağlayıcıları: gah, gah da, ya, ya da, istər, istərsə də, yaxud ...;
3. **Qarşılaşdırma** bağlayıcıları:amma, ancaq, lakin, halbuki, yoxsa ...;
4. **İştirak** bağlayıcıları: həm, həm də, həm də ki, da, də, hətta, habelə, həmçinin, o cümlədən, özü də, bir də ...;
5. **İnkarlıq** bağlayıcıları: nə, nə də, nə də ki.

## SÖZLÜK

birləşdirmə bağlayıcıları – соединительные союзы
bölüşdürmə bağlayıcıları – разделительные союзы
qarşılaşdırma bağlayıcıları – противительные союзы
iştirak bağlayıcıları – участвующие союзы
inkarlıq bağlayıcıları – отрицательные союзы

**11** Mətndə işlənmiş mürəkkəb sözləri seçib dəftərinizə yazın, yazılış qaydalarını izah edin, sonra hər birinin hansı nitq hissəsinə aid olduğunu deyin.

**12** Üzərində ulduz işarəsi qoyulmuş sözləri tələffüz xüsusiyyəti baxımından necə qruplaşdıra bilərsiniz? Özünüzü yoxlayın.

**13** Aşağıda verilmiş atalar sözlərini oxuyun. Necə düşünürsünüz, onların hamısının mətnin məzmunu ilə səsləşdiyini söyləmək olarmı? Fikrinizi bildirin.

## ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Birlik harada, dirilik orada! 2) Güc birlikdədir. 3) El igidləri ilə tanınar. 4) Dünyanın malı dünyada qalacaq. 5) Elin malı eldə qalar. 6) El bir olsa, dağ oynadar yerindən. 7) El köçər, adət köçməz. 8) El malına göz dikən gözdən olar.

- Atalar sözlərində işlənən feillərin zamanını və şəxsini müəyyənləşdirin.
- Atalar sözlərində işlənən "bir", "diri", "tanı(maq)", "yer", "köç" sözlərindən eyniköklü sözlər düzədib cümlələrdə işlədin.

**14** Mətndə altından xətt çəkilmiş sözlərin qrammatik mənasını izah edin və məna növləri üzrə qruplaşdırıb yazın.

**15** Necə düşünürsünüz, mavi rəngdə verilmiş cümlənin mətndəki rolu nədən ibarətdir? Axı Hüseynəli xan çarşıya beşik almaq üçün getməmişdi? Yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə məsələni müzakirə edin.

Çap üçün deyil

## § 32. FƏTƏLİ XANIN BEŞİYİ
### II hissə

Bu qonaqlıqdan* bir ilmi, beş ilmi keçdi, Hüseynəli xanın bir oğlu oldu. Adını Fətəli qoydu. Günlərin* bir günü Usmi Əhmədxan qızı Fətəliyə **yüyrükdə** layla çalırdı:

Dədəm Qorqud
Bir ad versin.
Qoç Koroğlu
Qırat versin.
Körpəm, ninni,
Ötkəm, ninni...

Usmi xanım Hüseynəli xanın gəldiyini görüb dedi:

– A kişi, bu uşaq **bələk**də durmur, **gah** əlini çıxardır, **gah** ayağını, **yüyrüyə** də sığmır. Eşikağasını göndər, çarşıdan bir beşik alıb gətirsin.



Hüseynəli xan bu sözü eşidəndə məşhur beşik ustası Hacıəli kişi yadına düşdü. Dedi:

– Yox, xanım, **beşiy**in dalınca gərək özüm gedəm.

Hüseynəli xan göstəriş verdi, faytonu hazırladılar*. O, sübh tezdən yola düşdü. *İki ötüb, üç deyən günü* Badi-Kubəyə **yetişdi**. "Böyük çarşı"nı **başdan-ayağa** gəzdi, **amma** Hacıəli kişi *gözünə dəymədi*. Ondan-bundan* **soruşdu**, dedilər ki, ta yaşlaşıb, bazara gəlmir. Qaldığı yeri öyrəndi, soraqlaşa-soraqlaşa* gəlib evi tapdı. Taxta qapını yüngülcə **tıqqıldatdı**.

Hacıəli kişi əvvəlcə Hüseynəli xanı tanımadı, **zənlə** baxdı.

Hüseynəli xan dedi:

– **Əgər** yadındadırsa, demişdim **ki**, Allah-Təala mənə bir övlad versə, beşiyini sənə düzəltdirəcəyəm.

Hacıəli kişi dedi:

– Xan, yadımdadı. Çox şükür **ki**, Allah-Təala sənə övlad bəxş edib. **Ancaq** mən daha qocalmışam. Əlimin tutarı gedib, beşik düzəldə bilmirəm. Gedək, "Böyük çarşı"dan sənə yaxşı bir beşik alaq.

Hüseynəli xanla Hacıəli kişi "Böyük çarşı"ya gəldilər. Hacıəli kişinin *gözü bir beşiyi tutdu*, yaxınlaşıb* onun qiymətini soruşdu.

Satıcı cavan oğlan idi, Hacıəli kişini tanımırdı, **odur ki**, dedi:

– Bu, **bahalı** beşikdi. Uzaq* yerdən alıb gətirmişəm.

Hacıəli kişi dedi:

– Bilirəm, sən qiymətini de.

Satıcı beşiyin qiymətinin "on qızıl" olduğunu söylədi. Hacıəli kişi Hüseynəli xana sarı **çöndü**:

– Xan, bu beşiyi almaq* məsləhətdi.

Çap üçün deyil

Hüseynəli xan on qızıl çıxarıb satıcıya verdi:

– Al deyirsən, alım, **amma** mən əhd eləmişdim ki, beşiyi sən düzəldəsən.

Hacıəli kişi güldü:

– Xan, elə sən deyən oldu. Bu beşiyi **cavanlığımda*** mən düzəltmişəm. O vaxt Əfqanıstandan* bir tacir gəlmişdi. Bu beşiyi üç qızıl verib aldı. İndi bu oğlan da üç-dörd qızıl bahasına yəqin o tacirdən alıb gətirib. Bir az da özü üstünə qoyub. *Sağlığına qismət olsun*: o uşağın çox gözəl **bəxti** var ki, **həm** əhdin yerinə yetdi, **həm də** yurdumuzun malı yurdumuza qayıtdı.

**İşləyəni: Dilsuz**

SÖZLÜK

| | |
|---|---|
| zənlə – внимательно | çönmək – отворачиваться |

1 Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyun və 1-ci cümlənin mətndəki rolunu müəyyənləşdirin. Fikrinizi əsaslandırın.

A) Mətnin 2-ci hissəsini 1-ci hissə ilə bağlayır.
B) Əsas hissəni girişlə bağlayır.
C) Nəticəni əsas hissə ilə bağlayır.
D) Mətnin cümlələrini bir-biri ilə bağlayır.
E) Mətndəki əsas fikri müəyyənləşdirir.

❁ Mətnin 1-ci cümləsində hansı hadisəyə işarə edilir? Yadınıza salın və səs tonunuzu tənzimləməklə həmin əhvalatı danışın.

2 Necə düşünürsünüz, Hüseynəli xanla Hacıəli kişinin dialoqunu 1-ci hissədən çıxarsaq, mətnin davamı və sonluğu oxuduğunuz kimi ola bilərdimi? Müzakirə edin və fikrinizi söyləyin.

3 Hüseynəli xanı səciyyələndirin. Necə bilirsiniz, mətnin ikinci hissəsindəki Hüseynəli xan 1-ci hissədəkindən nə ilə fərqlənir? Münasibətinizi bildirin.

4 Mətni bütöv oxudunuz. Qruplara bölünün və əvvəlcə mətnin hissələrini, sonra isə əsas hissəni girişlə, nəticəni əsas hissə ilə bağlayan cümlələri müəyyənləşdirin. Gəldiyiniz nəticələri müqayisə edin.

5 Mətndə göy şriftlə verilmiş sözlər üçün ortaq cəhət nədən ibarətdir? Bu sözlərin yazılışı ilə əlaqədar qaydanı yadınıza salın və izah edin.

❁ Qruplara bölünün və hərəniz bu sözlərdən birini həm ismin halları üzrə, həm də mənsubiyyətə görə dəyişib yazın və cümlələrdə işlədin.

6 Mətndə qara şriftlə verilmiş sözlərin kontekstə uyğun qarşılığını deyin, sonra onları nitq hissələri üzrə qruplaşdırıb qrammatik mənalarını izah edin.

7 Qruplarla işləyin. Mətndə altından xətt çəkilmiş sözlərin feilin hansı formasında olduğunu və şəxsini müəyyənləşdirin. Hər formadakı (şəkildəki) bir feili şəxslər üzrə dəyişib yazın.

Çap üçün deyil

8 Mətndə qırmızı rəngdə verilmiş sözlərin qrammatik mənasını izah edin. Tabesizlik bağlayıcılarını seçib yazın və hər birinin qarşısında mənaca növünü qeyd edin.

❀ Seçdiyiniz bağlayıcıları işlətməklə cümlələr qurub yazın

## BUNLARI BİLİRSİNİZMİ?

**Tabelilik bağlayıcılarının** aşağıdakı növləri vardır:

1. **Aydınlaşdırma** (изъяснительные) bağlayıcıları: ki, belə ki;
2. **Səbəb** (причинные) bağlayıcıları: çünki, ona görə ki, ondan ötrü ki, onun üçün ki, buna görə də, odur ki, ona görədir ki, buna görədir ki, o səbəbə ki, bunun üçündür ki ... ;
3. **Şərt** (условные) bağlayıcıları: əgər, hərgah, madam ki, indi ki;
4. **Güzəşt** (уступительные) bağlayıcıları: hərçənd, hərçənd ki.

9 Mətndə kursivlə verilmiş ifadələrin kontekstə uyğun mənalarını izah edin və onları başqa cümlələrdə işlədin.

❀ Həmin ifadələrin qrammatik mənalarını izah edin.

10 Mətnin axırıncı cümləsinin məzmununu necə başa düşürsünüz? Bu mövzu sizə oxuduğunuz hansı mətni xatırlatdı? Yoldaşlarınızın fikrinə münasibət bildirməklə mövzunu müzakirə edin.

❀ "İtə ataram, yada satmaram" aforizmi ətrafında müzakirə təşkil edin.

## *Kəlmələrin "dili"ni öyrənək!*

**Durmaq** – 9) Qalmaq, yaşamaq, var olmaq – Oxuduğum məktəb hələ də durur; Toxunulmamış qalmaq, işlənməmiş qalmaq – Verdiyin kimi də durur. 10) İnkişaf etməmək, bir yerdə qalmaq – Elm bir nöqtədə dura bilməz. 11) İşləməmək, dayanmaq; duracaqda, yaxud hər hansı bir yerdə dayanmaq – Maşın evimizin qabağında durdu. 12) Gözləmək, səbir etmək – Sən bir dur. Durmaq vaxtı deyil. 13) Yer tutmaq, mövqe tutmaq – İntizam məsələsi birinci yerdə durmalıdır. 14) "Belə", "bu yana", "o yana" və s. sözlərlə – çəkilmək – O yana dur, keçək.

11 Mətndən mənsubiyyət şəkilçili bir neçə söz seçib dəftərinizə yazın, neçənci şəxsdə işləndiyini müəyyənləşdirib deyin. Seçdiyiniz sözləri cümlələrdə başqa şəxslərdə işlədin.

12 Verilmiş laylalarda buraxılmış sözləri tapıb yerinə qoyun. Nəzərə alın ki, hər iki laylada eyni sözlər buraxılıb. Diqqətli olun: bu sözlərin qəbul etdiyi şəkilçilər eyni qrammatik mənalı olsa da, müxtəlif şəxsləri bildirir.

Layla, ______ layla,
Evim, ______ layla,
Sən get şirin yuxuya,
Çəkim ______ layla.

Evində, ______
Yat quzum, ______ ,
Dan ulduzu, bir də mən,
Durmuşuq ______ .

❀ Səs tonu, temp və fasiləni göstərməklə laylaları oxuyun.

Çap üçün deyil

⑬ Mətndə siz "Badi-Kubə" adına rast gəldiniz. Bu adın etimologiyası haqqında nə bilirsiniz? Araşdırma aparın və əldə etdiyiniz məlumatları yoldaşlarınıza oxuyun.

⑭ Cümlələri mətnin məzmunu əsasında tamamlayın.

1) Həm əhdin yerinə yetdi, həm də ... 2) Eşikağasını göndər, ... 3) Əgər yadındadırsa, demişdim ki, ... 4) Mən əhd eləmişdim ki, ... 5) Hacıəli kişinin gözü bir beşiyi tutdu, ... 6) A kişi, bu uşaq bələkdə durmur, gah əlini çıxardır, ...

Necə bilirsiniz, cümlələrin sırası mətndəki ardıcıllığa uyğundurmu? Fikrinizi əsaslandırın və cümlələri mətndəki ardıcıllığa uyğun yenidən sıralayın.

⑮ Aşağıdakı cümlələrdən hansında tabelilik bağlayıcısı işlənməmişdir? Düzgün cavabı göstərin və hər bir cümlədəki bağlayıcının məna növünü müəyyənləşdirib deyin.

A) Səftər dayı iyirmi ilə yaxın idi ki, meşəbəyi işləyirdi.

B) Ana bu gün maaş almamışdı, buna görə də şəhərə çıxmaq istəmirdi.

C) Madam ki, təkid edirsiniz, icazənizlə bir şeir oxuyum.

D) Balalar üçün yazmağı Mahmud əmi də, cənab Köçərli də mənə məsləhət görürlər.

E) Kamal anasının gözünə görünmək istəmirdi, çünki onun dedikləri doğru çıxmışdı.

## § 33. ZİRVƏ ÜSTƏ

İllər ötüşəcək, əlli də, yüz də,
Hər vaxt yaşayacaq* nəğmədə, sözdə,
Xiyaban zirvədir, bu zirvə üstə,
Elə bil, əbədi **xaldı** şəhidlər*.

Mərmilər, silahlar gələndə dilə
Anlar günə döndü, günlərsə ilə.
Amalı, qüdrəti, ölməzliyilə
Ölümə **qələbə çaldı** şəhidlər.

Üzləri **andırdı** qızaran danı,
**Hədər** vermədilər ötüşən anı,
Qorumaqdan* ötrü Azərbaycanı
**Qüdrəti** torpaqdan* aldı şəhidlər.

Vətən deyənlərin* sırasındaydı,
Ellərin yarası yarasındaydı,
"Ölüm"lə "olum"un arasındaydı,
Bir anlıq* **xəyala daldı** şəhidlər.

Bu şirin həyatda gözləri* qalıb,
Torpaqda* **əbədi** izləri* qalıb,
Hələ deyilməmiş sözləri* qalıb
**Sanmayın** dilsizdi, laldı şəhidlər.

Hərə bir palıddır*, kökü dərində,
Qırdılar qanadın küləklərin də,
Odlu insanların* **ürəklərində**
Əbədi yaşayıb* qaldı şəhidlər!

**Tofiq Mütəllibov**

SÖZLÜK

| | | |
|---|---|---|
| amal – идея | lal – немой | andırmaq – напоминать |

Çap üçün deyil

1 Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun və əsas fikri müəyyənləşdirin. Sonra bu mövzuda fikir mübadiləsi edin.

2 Şair nə üçün şeiri "Zirvə üstə" adlandırmışdır? Düzgün hesab etdiyiniz variantı səsləndirin və fikrinizi əsaslandırın.

A) Şəhidlərin məzarı şəhərin ən hündür hissəsində yerləşdiyi üçün
B) Vətən yolunda canını qurban verənlərin yeri həmişə zirvədə olduğu üçün
C) Xalqın istəyi ilə şəhidlər zirvədə dəfn olunduğu üçün
D) Şəhidlərin dəfn olunduğu xiyabanı milyonlarla insan ziyarət etdiyi üçün
E) Şəhidlərin ruhu daima başımızın üstündə dolaşdığı üçün

3 Qruplarla işləyin. Həriniz şeirin bir bəndində ifadə olunmuş fikri genişləndirib öz sözlərinizlə danışın. Fikirlərinizi əlavə nümunələrdən istifadə etməklə əsaslandırın.

❁ Şeirin hər bəndində şəhidlərin qəhrəmanlıq zirvəsinə yüksələnədək yaşadıqları anlar tərənnüm olunmuşdur. Haqqında danışdığınız bəndin şeirin digər bəndləri ilə necə əlaqələndiyini izah edin.

4 20 Yanvar faciəsini doğuran tarixi şərait barədə nə bilirsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün və şəhidlərdən biri haqqında ətraflı məlumat toplayıb təqdimat hazırlayın.

5 Şeirdə qara şriftlə verilmiş sözlərin kontekstə uyğun qarşılığını tapıb səsləndirin. Bunlardan hansının şeirdə daha çox yerinə düşdüyü barədə fikrinizi söyləyin.

***Köməkçi:*** naxış, nişan; qalib gəlmək, məğlub etmək; qəlb, könül; xatırlatmaq, yada salmaq; boş-boşuna, əbəs, mənasız, faydasız; güc, qüvvət, taqət, cəsarət; düşünmək, fikirləşmək; daimi, həmişəlik; hesab etmək, zənn etmək, güman etmək

### *Kəlmələrin "dili"ni öyrənək!*

**Xal** – 1) Dəri üzərində əmələ gələn xırda, dəyirmi ləkə – Üzündəki xal ona çox yaraşırdı; 2) Cürbəcür saplarla, rənglə vurulan naxış; – Bizim xallı xalçalardan, Sər çinarlar kölgəsinə. S.Vurğun. 3) İdman yarışlarında və oyunlarda hesablama vahidi; say, miqdar – Bu fəndə görə oyunçuya 10 xal verdilər; 4) Musiqinin əsas melodiyası ilə həmahəng olan yeni hissə, yeni cəhət – Oxuduğu mahnıda vurduğu xallar bir yenilik idi. 5) Nişan – Zərin üstündəki xallar görünmürdü. ♦ Xal kimi – çox kiçik, bapbalaca – göyün üzündə bir xal kimi görünən; Xal vurmaq – naxış salmaq.

6 Şeirin axırıncı bəndində altından xətt çəkilmiş söz ismin hansı halındadlr? Debata qoşulun və fikirlərinizi əsaslandırın.

1) Bu söz ismin təsirlik halındadır.  2) Bu söz ismin yiyəlik halındadır.

Çap üçün deyil

**7** Verilmiş nümunələrdən hansında bağlayıcı işlənmişdir? Fikrinizi əsaslandırın və bağlayıcıların mənaca növünü təyin edin.

1) Elə bil əbədi **xaldı** şəhidlər
2)"Ölüm" lə "olum"un arasındaydı
3) Amalı, qüdrəti, ölməzliyilə
4) İllər ötüşəcək, əlli də, yüz də
5) Qorumaqdan ötrü Azərbaycanı

A) 1, 2 B) 2, 3 C) 2, 4 D) 3, 5 E) 1, 5

✿ Necə bilirsiniz, bu nümunələr içərisində köməkçi nitq hissəsi işlənməyən misra varmı? Fikrinizi əsaslandırın.

✿ Necə bilirsiniz, bu nümunələrdən hansında qoşma işlənmişdir? Düzgün variantı tapın və qoşmaların məna növünü təyin edin.

A) 1, 4 B) 2, 3 C) 1, 3 D) 3, 5 E) 1, 5

**8** Cümlələrin məzmunundakı məntiqə əsaslanaraq boşluqların yerinə müvafiq bağlayıcıları artırmaqla atalar sözlərini oxuyun, bağlayıcıların qrammatik vəzifəsini izah edin və məna növlərini göstərin.

1) Yalan ilə dünyanı gəzmək olar, ______ qayıtmaq olmaz. 2) Tısbağanı ______ öldür, ______ arxası üstə çevir! 3) Dostuna pul verən ______ pulunu itirər, ______ dostunu. 4) Mal adama ______ dostdur, ______ düşmən. 5) Bir var Koroğlu, ______ var kor kişinin oğlu. 6) Yalançının evi yandı, ______ heç kim ona inanmadı.

***Köməkçi***: həm, həm də, ya, ya da, çünki, yaxud, nə, nə də, ancaq, bir də

**9** Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə 20 Yanvar faciəsi haqqında müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin. Bu barədə daha nə bilirsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

**10** Aşağıdakı aforizmləri oxuyun və onların şeirin məzmunu ilə nə dərəcədə səsləşdiyini izah etməyə çalışın. Nitqinizdə onlardan istifadə edin.

### HİKMƏT XƏZİNƏSİNDƏN

1) Ən böyük şəxslər özündən çox, mənsub olduğu xalqı düşünən, onun xoşbəxtliyi yolunda həyatını verən insanlardır **(Mustafa Kamal Atatürk).** 2) Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar vətən naminə edilib **(Jan Jak Russo).** 3) Vətən yolunda ölməklə xeyir gətirəcəyini bilən hər hansı bir vicdanlı insan onun yolunda ölməyə tərəddüd edərmi? **(Mark Tulli Siseron).** 4) İnsan qorxaq olsa da, öz vətəni uğrunda qəhrəman kimi ölə bilərmiş **("Əli və Nino").**

**11** 20 yanvarda Şəhidlər xiyabanında olarkən, yaxud televiziyada Şəhidlər xiyabanından canlı yayımı izləyərkən hansı hissləri keçirmisiniz? Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə təəssüratlarınız əsasında "20 Yanvarın tarixi dərsləri" mövzusunda mətn tərtib edib yazın. Mətndə konkret fakt və nümunələrdən istifadə etməyə çalışın.

Çap üçün deyil

12 Şeirin birinci bəndində işlənən feilləri tapıb formasını, zamanını və şəxsini müəyyənləşdirin, sonra onları digər şəxslər üzrə dəyişib yazın. Həmin feilləri feilin digər formalarında da işlədin.

*Kəlmələrin "dili"ni öyrənək!*

**Qüdrət** – 1) Böyük qüvvət, güc; bacarıq – Ölkənin iqtisadi qüdrəti; 2) Təsir qüvvəsi, böyük nüfuz qüvvəsi – qüdrətli şair və dramaturq; 3) Taqət, iqtidar, güc – Bu cür sözlər üçün qüdrəti haradan aldın? 4) Möhkəmlik, iradə, iradə qüvvəsi; cəsarət – Ancaq unutma ki, mən ərlərdə qüvvət, qüdrət və cəsarəti sevirəm (C.Cabbarlı). 5) Təbiət, fitrət, yaradılış – Qüdrətdən səngərli, qalalı dağlar (A.Ələsgər).

13 Şeirdəki mənsubiyyət şəkilçili sözləri tapıb, əlaqədar olduğu sözlərlə birlikdə səsləndirin. Hər iki tərəfdəki şəkilçilərin qrammatik mənasını və nə bildirdiyini izah edin.

14 Aşağıdakı sözlərin içərisində "gizlənmiş" düzəltmə sözləri tapıb səsləndirin, sonra həmin sözləri mənsubiyyətə görə dəyişib yazın və cümlələrdə işlədin.

vətənim, ölkəm, qəhrəmanım, şəhidim, ölüm, ömrüm, qorxu, izləri, sözləri, gözləri, kökü, ürəkləri

## § 34. QOÇAQLAR HƏMİŞƏ ÜRƏKLİ OLUR!..

Qaçaqlar* kənddən aralanıb Gülül dağına tərəf **qatarlandılar***. Onlar *xeyli* getmişdilər **ki**, *irəlidə*, dağın ətəyində ağlı-qırmızılı, göylü-qaralı at ilxısı gördülər. Kərəm yoldaşlarına* dedi:

– Yaralı atı belə sürmək insafdan deyil, gedək o ilxıdan İsmayıla bir at seçək.

Yolun **səmti** dəyişdi. Dəstə* ilxıya yaxınlaşdı*. Kərəm qoca ilxıçıya salam verib xəbər aldı:

– Ay əmi, bu kimin ilxısıdır?

Qoca ilxıçı Kərəmi tanımadı. At belində şax oturmuş şümşadboylu, üzü təmiz qırxılmış silahlı növcavanı Gəncə bəylərinə oxşatdı. Suala sualla cavab verdi:

– Neynirsən, oğul?

– Bizə yaxşı bir at lazımdı!

Kişi əlini havada **oynatdı**:

– Ay hay, – dedi. – Bu ilxının **yiyəsi** ölüb ki, hər **yoldan ötən** bir at aparsın?! Qurban ağanı tanıyırsanmı?

Kərəm atdan yerə **endi**:

– Uzaqdan-uzağa tanıyıram… **Amma** salaməleyküm yoxdu.

Çap üçün deyil

Nədənsə şübhələnən qoca ehtiyatlanaraq*, ***gözucu*** qaçaqları* **süzdü**.

– Onda yaxşı tanı, bil ki, onun ilxısına toxunan hələ **anasından* olmayıb**!

– Əmi, biz **müftə*** istəmirik… **Haqqı** nədi, verərik.

– Bura "Mal meydanı" deyil. Qurban ağa dərimə saman təpər!..

– Təpməz, ağana deyərsən ki, atı Kərəm apardı…

– Ayə, yoxsa sən qaçaq* Kərəmsən?! – deyə ilxıçı *sevincək* **və** *heyrətlə* soruşdu.

İsmayıl, kişinin sualını təsdiqlədi. İlxıçı yaman həyəcanlanmışdı*. "Necə də cavan, yaraşıqlı* imiş bu Kərəm", – deyə düşündü.

– Mənim özümün bir atım var, sənə qurbandı!

Kərəm müştəri* gözü ilə ilxını **nəzərdən keçirdi**, üzünü yoldaşlarına* tutub əli ilə bir at göstərdi:

– Bax o ürkəni tutun!

Kərəmin **nişan verdiyi** ürkə çox yaraşıqlı idi. Qoca ilxıçı yanındakı cavan oğlanla baxışıb:

– Görürəm, at tanıyansan, **amma** o ürkə xamdır, – dedi. Atının cilovunu açan İsmayıl dilləndi:

– Mən öyrədərəm! Onu elə yumşaldaram ki, muma dönər.

Qaçaqlar* ilxını dövrəyə aldılar. İlxıçı da onlara* qoşuldu.

Birdən hürkmüş ürkə cavan oğlanın yanından* qanadlandı*. Oğlan *cəld* tərpəndi, həmin anda atın yalmanından* yapışıb belinə **sıçradı**. Ürkə fınxırdı, şahə qalxdı, kişnədi, atılıb-düşdü. Yerində **dövrə vurdu və** ox kimi **süzüb** *irəli* **sıçradı**. Qoca kişi **də**, qaçaqlar* **da** narahat oldular. İlxıçı **pıçıltı ilə** dedi:
– Allah özün saxla, oğlanı indicə yerə **çırpacaq***!

Ürkə təkə kimi dağa ________, özünü dağa-daşa çaldı. **Lakin nə** oğlan **inadından* dönür**, **nə də** at ipə-sapa yatırdı. *Bir azdan* ürkə qaçışını dəyişdi, get-gedə yavaşıdı. Oğlan atın boynunu şapalaqlayıb* başını *geri* döndərdi **və** dağdan *aşağı* endirdi. *Bir qədər* də düzənlikdə* **səyirtdi.** Ürkənin uzun yalı havada yellənir, qartal kimi qanad açıb uçurdu. Oğlan onu **haldan saldı**, qan-tərə batırınca beləcə sürdü.

Qaçaqlar* *maraqla**, *fəxrlə* cavan oğlana **tamaşa edirdilər**. *Yavaş-yavaş* onun iradəsinə təslim olan at indi *buğlana-buğlana* yorğalayır və rəvan yerişlə geri, ilxının yanına qayıdırdı…

Kərəm dedi:

– Allah saxlasın, igid baladır!

İlxıçı dilləndi:

– Mən bunu birinci dəfədir ki, belə at minən görürəm…

Oğlan köpüklənə-köpüklənə yortan ürkəni sürüb düz Kərəmin qarşısında **əylədi**.

– A bala, kimin oğlusan? – Kərəm **xəbər aldı**.

– Qurban ağanın, – dedi oğlan.

Çap üçün deyil

Kərəm **nəsə** bir an **fikrə getdi** və cibindən* pul çıxarıb atın haqqını ona uzatdı:

– Bunu dədənə ver. Özünə də deynən ki, bu kişiyə **toxunmasın**.

Bəyzadə pulu **almadı**:

– Kərəm dayı, ilxıda ən cins at bu ürkədir… Adı Turacdır*. Daylaq vaxtından* özüm bəsləyirəm. Sənə peşkəşdi.

Kərəm oğlanı bağrına basdı:

– Qoçaqlar* *həmişə* ürəkli olur!.. – dedi və cibindən* bir gümüş saat çıxarıb ona **bağışladı.**

**Fərman Eyvazlının "Qaçaq Kərəm" romanından**

### SÖZLÜK

xam – непреученный
səyirtmək – гнать лошадь
növcavan – юный, молодой
yorğalamaq – идти иноходью
yortmaq – бежать неровной рысью
finxırmaq – фыркнуть

### SÖZ EHTİYATI

ürkə – двухгодовалый жеребёнок
şahə qalxmaq – встать на дыбы
şümşadboylu – стройный
ipə-sapa yatmamaq – не поддаться
dərisinə saman təpmək – снять шкуру с кого

1 Səs tonu, temp və fasiləni gözləməklə mətni rollar üzrə oxuyun, sonra səhnələşdirin. Ən yaxşı "aktyoru" qiymətləndirin və fikrinizi əsaslandırın.

✽ Necə bilirsiniz, mətndəki ağ boşluqda hansı söz yazılmalıdır?
A) qaçdı B) çıxdı C) dırmaşdı D) sıçradı E) yollandı

2 Mətndəki fakt və hadisələrə əsaslanmaqla suallara cavab verin. Hansı sualın cavabı mətndə öz əksini tapmayıb?

1) Kərəm oğlana nə üçün gümüş saat bağışladı?
2) Qoca kişi və qaçaqlar nə üçün narahat oldular?
3) Kərəmin bəyəndiyi at necə idi?
4) Cavan oğlan nə üçün əsəbiləşmişdi?
5) Kərəmin dəstəsi nə üçün səmtini dəyişib ilxıya yaxınlaşdı?
6) İlxıçı niyə həyəcanlanmışdı?
7) Qaçaqlar nə üçün maraqla, fəxrlə cavan oğlana tamaşa edirdilər?

✽ Necə bilirsiniz, sualların sırası mətndəki ardıcıllığa uyğundurmu? Fikrinizi əsaslandırın və ardıcıllığı bərpa edin.

3 Kərəm nə üçün oğlanı bağrına basaraq: "Qoçaqlar həmişə ürəkli olur!.." – dedi? Mətndən çıxardığınız nəticə əsasında düzgün hesab etmədiyiniz variantı səsləndirin.

Çap üçün deyil

A) Oğlan özünün bəslədiyi atı mərdanəliklə Kərəmə bağışladı.
B) Bu gənc oğlan atı təslim edənədək inadından dönmədi.
C) Bu gənc Qurban ağanın oğlu idi.
D) Oğlan həm qoçaq, həm də ürəyiaçıq idi.
E) Oğlan Kərəmin ona uzatdığı pulu götürmədi.

❁ Qruplarla işləyin. Hərəniz yuxarıdakı variantlardan biri ətrafında mətndəki məzmunu genişləndirərək öz sözlərinizlə danışın. Cümlələrin əlaqələnməsinə diqqət yetirin.

4 Mətn üzrə plan tərtib edin və həmin plan əsasında məzmunu danışın.

5 Mətndə narıncı rəngdə verilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olmaz?
A) dayandı B) saxladı C) durdu D) səyirtdi E) cilovu çəkdi

❁ Bu sözün kontekstə uyğun mənasını yuxarıdakı variantlardan hansı daha dəqiq ifadə edir? Cümləni bir də oxuyun və fikrinizi əsaslandırın.

6 Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə Qaçaq Kərəm haqqında müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və məlumatınızı artırmağa çalışın.

❁ Necə bilirsiniz, tərcümə etdiyiniz mətndə yerinə düşməyən, artıq cümlə işlənmişdirmi? Həmin cümləni tapıb səsləndirin, mətnin məzmunu ilə əlaqəsi olmadığını əsaslandırın.

7 Mətnin birinci iki abzasında işlənmiş sifətləri seçib aid olduğu sözlərlə birlikdə dəftərinizə yazın. Quruluşca növlərini müəyyənləşdirib, qrammatik mənasını izah edin.

8 Mətndə qara şriftlə verilmiş sözləri dəftərinizə köçürün. Hər birinin kontekstə uyğun qarşılığını tapıb qarşısında yazın. Sonra həmin sözləri nitq hissələri üzrə qruplaşdırıb qrammatik mənalarını izah edin.

9 Mətndə qırmızı rəngdə verilmiş nitq hissəsini məna növləri üzrə qruplaşdırıb qrammatik mənasını izah edin. Hər qrupa aid əlavə misallar söyləyin.

❁ Necə bilirsiniz, mətndə qoşma işlənmişdirmi? Fikrinizi konkret misallarla izah edin.

10 Mətndə göy rəngdə verilmiş sözlər əvəzliyin hansı məna növünə aiddir? Fikrinizi əlavə misallar söyləməklə əsaslandırın.
A) sual B) işarə C) qeyri-müəyyən D) şəxs E) təyini

❁ Mətndə əvəzliyin başqa hansı məna növləri işlənmişdir? Fikrinizi faktlarla əsaslandırın.

Çap üçün deyil

⑪ Mətndə altından xətt çəkilmiş sözləri feilin formaları üzrə qruplaşdırıb dəftərinizə köçürün, hər birinin qarşısında hansı formada işləndiyini və şəxsini qeyd edin. Hər formadakı feillərdən birini şəxslərə görə dəyişin.

⑫ Mətndə kursivlə verilmiş sözlərin qrammatik mənasını izah edin və onları məna növləri üzrə qruplaşdırıb yazın. Bir neçəsini cümlələrdə işlədin.

⑬ Mətndə yaşıl rəngdə verilmiş sözün eyni, yoxsa fərqli mənalarda işləndiyini müəyyənləşdirin və bu sözü başqa mənalarda da cümlələrdə işlədin.

⑭ Mətnin hissələrini müəyyənləşdirin və hər bir hissəni digəri ilə əlaqələndirən cümləni tapıb səsləndirin.

## § 35. QƏLƏBƏNİN SİRRİ
### (rəvayət)

Doqquz* yaşlı uşağın ən böyük **arzusu** cüdoçu ________. Lakin o, nəqliyyat* qəzasında sol qolunu itirmişdi. Bu **hadisədən** həm uşaq, həm də ata-anası çox **məyus olmuşdular**. **Ancaq*** uşaq* **təsəlli tapsın** deyə onu **məşhur** cüdo ustalarından* birinin ________ qoydular.

Usta uşağa bir hərəkət öyrətdi. Bu hərəkəti **yalnız** bir qolla etmək mümkün idi. Gecə-gündüz bu hərəkəti təkrar etdilər. Uşaq hərəkəti yaxşı bacarsa da, usta ona başqa hərəkət öyrətmək **niyyətində*** deyildi.

Uşaq* **artıq*** yorulmuşdu, başqa hərəkət öyrənmək ________. Usta isə: “Bu hərəkəti tam öyrənməyənə qədər sənə başqa hərəkət öyrətməyəcəyəm”, – deyirdi.

Bir müddət* sonra uşaq bu hərəkəti **ildırım sürəti ilə** etməyə başladı. Artıq yarışlarda iştirak etmək vaxtı idi. Qəribə idi. İlk dəfə yarışda təkqollu bir cüdoçu iştirak edəcəkdi. Həm də bir hərəkətlə.

Uşaq* etiraz etdi. Necə olsa, ümidini itirmək istəmirdi. Ustanın isə fikri qəti idi. Hər dəfə: “Oğlum, sən öyrəndiyin hərəkəti et, qalanı ilə işin olmasın”, – deyirdi.

Nəhayət, yarış başladı. Birinci, ikinci, üçüncü... Uşaq rəqiblərini bir-bir keçirdi. Nəhayət, o, finala ________. Bir hərəkətlə finala çıxdığına özü də inana bilmirdi.

Finaldakı rəqibi çox **güclü** idi. Uşaq* **iri cüssəli*** rəqibini görəndə ________. Lakin usta arxayın idi və: “Qorxma, bu hərəkətdə səndən güclüsü yoxdur”, – deyib şagirdinə **ürək-dirək verdi.**

Uşaq* ildırım sürəti ilə rəqibini yerə sərdi və yarış boyu rəqibinə göz açmağa imkan vermədi. Bəli, uşaq bir qolla çempion* oldu.

Yarışdan sonra uşaq* marağını gizləyə bilməyib ustadan soruşdu: “İnana bilmirəm... Mən necə çempion* oldum?”. Usta sakit bir ifadə ilə dedi: “Bu

Çap üçün deyil

qələbənin iki sirri var, oğlum. Birincisi, cüdonun ən **çətin** hərəkətlərindən birini çox yaxşı **bacarırsan**. İkincisi, bu hərəkətin **yalnız** bir müdafiəsi* var ki, o da hərəkəti edənin sol qolunu tutmaqdır".

### SÖZLÜK

| | |
|---|---|
| ildırım sürəti – со скоростью молнии | təsəlli – утешение |
| cüssəli – плотного телосложения | təkqollu – с одной рукой |

**1** Mətni oxuyun və əsas fikri müəyyənləşdirin. Nitqinizi uyğun səs tonu ilə tənzimləməklə mətndən çıxardığınız nəticə barəsində danışın.

Mətni oxuyarkən ağ boşluqları hansı sözlərlə əvəz etdiniz? "Köməkçi"dəki sözləri nəzərdən keçirin və seçiminizin düzgün olub-olmadığını müəyyənləşdirin.

***Köməkçi:*** qalmaq idi, olmaq idi, oxumaq idi; məşqlərinə, yanına, məktəbinə; tələb edirdi, istəyirdi, lazım idi; çıxdı, gəlib çatdı; qaçdı, qorxdu, əsdi

**2** Qruplara bölünün və hərəniz mətnin məzmunu üzrə yeddi sual tərtib edib yazın. Sonra onları digər bir qrupla dəyişin və sualların dilin normaları baxımından düzgünlüyü ilə bağlı qiymətləndirmə aparın.

**3** Cümlələri mətnin məzmununa uyğun ardıcıllıqla sıralasanız, qarşınızda mətnin planını görəcəksiniz. Planda hansı dəyişikliyi etmək istərdiniz?

1) Qələbənin iki sirri var. 2) Usta uşağa bir hərəkət öyrətdi. 3) Uşaq qalib gələrək finala çıxdı. 4) Doqquz yaşlı uşağın ən böyük arzusu cüdoçu olmaq idi. 5) Yarışda ilk dəfə təkqollu cüdoçu iştirak edəcəkdi. 6) O, finala çıxdı və qalib gəldi.

Yuxarıdakı cümlələr əsasında planı başqa formada yenidən yazın.

***Köməkçi:*** 1) Doqquz yaşlı uşağın arzusu. ...

**4** Cümlələri mətnin məzmunu əsasında istədiyiniz şəkildə tamamlayın.

1) Uşaq ildırım sürəti ilə rəqibini ... 2) Uşaq iri cüssəli rəqibini ... 3) İnana bilmirəm... 4) Uşaq artıq yorulmuşdu, ... 5) Bu hərəkəti yalnız bir ... 6) Uşaq hərəkəti yaxşı bacarsa da, ... 7) Bir hərəkətlə finala çıxdığına ...

Necə bilirsiniz, yazdığınız cümlələr mətndəki ardıcıllığa uyğundurmu? Fikrinizi konkret faktlar əsasında izah edin və müvafiq ardıcıllığı bərpa edərək cümlələri yenidən sıralayın.

Cümlələri bir-biri ilə əlaqələndirərək mətnin məzmununu qısaca danışın.

**5** Aşağıdakı aforizmləri oxuyun və yadda saxlayın. Hansı aforizmdə deyilən fikri bu hekayənin qəhrəmanına aid etmək olar?

Çap üçün deyil

## HİKMƏT XƏZİNƏSİNDƏN

1) **Tənbəllik**, **avaralıq** insan əxlaqını pozur. **Abbasqulu ağa Bakıxanov**
2) Ağıl olan yerdə zora ehtiyac yoxdur. **Heydər Əliyev**
3) Özünü ələ almağı bacaran insan hamıdan **güclü**dür. **Lusiy Seneka**
4) **Ağıllı** hərəkət etmək üçün təkcə ağıl azdır. **Fyodr Dostoyevski**
5) Ağıl sonradan ah çəkmək üçün deyil; düşünüb tədbir görmək üçündür. **Mövlana**

❁ Qruplarla işləyin. Aforizmlərdə altından xətt çəkilmiş sözləri əvvəlcə hallandırın, sonra isə mənsubiyyətə görə dəyişib yazın.

❁ Aforizmlərdə qara şriftlə verilmiş sözlərlə eyniköklü feillər düzəldib yazın və onları feilin müxtəlif formalarında cümlələrdə işlədin.

6 Verilmiş birləşmələri tərcümə edin və cümlələrdə işlədin.

девятилетний мальчик, знаменитый мастер, разные движение, сильный соперник, тайна победы

7 Mətndə göy fonla fərqləndirilmiş abzaslarda işlənmiş feilləri seçib yazın. Onların formasını, zamanını və şəxsini müəyyənləşdirin. Sonra həmin feilləri lazım və vacib formalarında işlətməklə cümlələri yenidən qurub yazın və əvvəlki formalarla müqayisə edin.

8 Mətndə qara şriftlə verilmiş sözlərin kontekstə uyğun qarşılığını tapıb səsləndirin. Bu sözləri müvafiq qrammatik mənalar üzrə qruplaşdırın və hər qrup üçün xarakterik xüsusiyyətləri sadalayın.

9 Mətndə altından xətt çəkilmiş sözlərə sual verməklə onların hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirməyə çalışın və nəticəni yoldaşlarınızla bölüşün.

## BUNLARI BİLİRSİNİZMİ?

Sözlərin və ya cümlələrin **təsir gücünü artıran** köməkçi nitq hissəsinə **ədat** deyilir. Məsələn, “Məndən soruşan var **ki?**” cümləsində işlənən “**ki**” ədatı “var” sözünün, “**Artıq** yarışlarda iştirak etmək vaxtı idi” cümləsindəki “**artıq**” sözü bütövlükdə cümlənin təsir gücünü artırır.

10 Paralimpiya oyunları haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Sonra cümlələri bir-biri ilə əlaqələndirməklə mətnin məzmununu danışın.

❁ Mətn üzrə suallar tərtib edib yoldaşlarınıza verin və cavablara münasibət bildirin.

11 Aşağıda verilmiş sözləri quruluşuna görə qruplaşdırın və bir neçəsini cümlələrdə işlədin.

cüdoçu, nəqliyyat, təsəlli, gecə-gündüz, yorulmaq, ildırım, yarış, təkqollu,

Çap üçün deyil

birinci, finaldakı, cüssəli, rəqib, ürək-dirək, doqquz, maraq, inadkar, qorxaq, müdafiəçi, sağlam, fikirləşmək, fəaliyyətsizlik, beyin, onurğa, tarazlıq, qüsurlu

"Beyin" və "fikir" sözlərini mənsubiyyətə görə dəyişib yazın və sözlərin kökündə baş verən dəyişikliyin səbəbini əlavə misallarla izah edin.

12 Fiziki qüsuru olan insanların idmanla məşğul olmasına necə baxırsınız? Doğrudanmı, idmanın müxtəlif növləri ilə məşğul olmaq bu insanların həyata bağlanmasına, cəmiyyətə inteqrasiya olunmasına xidmət edə bilər? Debata qoşulun və fikirlərinizi faktlarla əsaslandırın.

13 Aşağıdakı birləşmələrdən istifadə etməklə cümlələr qurun və para-olimpiya hərəkatı, onun əhəmiyyəti haqqında düşüncələrinizi ifadə edin.

əlil idmanının inkişafı, sağlamlıq imkanları məhdud, peşəkar idman, idman və bədən tərbiyəsi, cəmiyyətə inteqrasiya, reabilitasiya, fiziki qüsurlu uşaqlar, "Uşaq Paralimpiya Hərəkatı"

14 Üzərində ulduz işarəsi qoyulmuş sözlərin içərisindən qoşasaitli və qoşasamitli olanları seçib səsləndirin və onların tələffüzü ilə əlaqədar qaydaları əlavə misallarla izah edin.

***Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir***
***– bundan daha güclü olan eynilik təsəvvür etmək çətindir.***

**Vilhelm fon Humboldt**

## § 36. MƏNİM DİLİM
## (ixtisarla)

Lay-lay dedim, **yatasan**,
Qızılgülə **batasan** ...
Hardan gəlir bu səs-səda?..
Bəlkə, illər arxasında
Layla çalır gəlin ana...
Layla axır... cocuq* baxır,
Bəs nə üçün **mürgüləmir**?
Bayaq* ana südü **əmib**,
İndi ana ruhu əmir.
İllər ötdü, **yaşa doldum**,
**Anladım** ki, ana dilim
Ürəyimdən* **çıxmaz** mənim,
**doğransam** da dilim-dilim.
Anladım ki, sinəmdəki sözlər deyil
babaların nəfəsidir.
Dizlərimə* taqət, qüvvət*
Gözlərimə* işıq* verən,
Çənlibeldə at oynadıb
şimşəklərlə qoşa gedən
igidlərin* nərəsidir*.
... Sağdır dilim,
demək, sağdır şərafətim, ləyaqətim.
Sağdır, demək, milyard yaşlı*
məmləkətim.
... Kim qoruya bilməyirsə,
öz yurdunu, yuvasını,
udmasın yurd havasını.
Kim qorumur öz dilini,
İtsin mənim gözümdən **qoy** ilim-ilim.
***O sahili bu sahillə birləşdirən***
***Polad körpüm, qılıncımdır,***
Günəşimdir mənim dilim.

**Xəlil Rza Ulutürk**

Çap üçün deyil

## SÖZLÜK

| | |
|---|---|
| şərafət – почёт, величие, честь | taqət – сила, мощь |
| ilim-ilim itmək – исчезать, исчезнуть | ləyaqət – достоинство |

1 Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun. Əsas ideyanı müəyyənləşdirin və şeirdən çıxardığınız nəticə barəsində fikrinizi yoldaşlarınızla bölüşün.

2 Şeirin məzmunundan çıxış edərək misraları öz sözlərinizlə tamamlayın, sonra onları şeirdəki ardıcıllığa uyğun olaraq dəftərinizə yazın.

1) Anladım ki, sinəmdəki ...
2) Sağdır dilim, demək, ...
3) Heç bir dildən əskik deyil ...
4) Anladım ki, ana dilim ...
5) Lay-lay dedim, yatasan,
Qızılgülə batasan ...

3 Necə düşünürsünüz, şair ana dilinə həsr etdiyi şeirini nə üçün layla misraları ilə başlayır? Müzakirə edin və yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə düşüncələrinizi ifadə edin. Diqqətli olsanız, fikrinizi əsaslandırmaqda şeirin məzmunu sizə kömək edəcək.

4 Şeirdə mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri seçib, aid olduğu sözlərlə birlikdə dəftərinizə yazın və hansı şəxsdə olduğunu müəyyənləşdirib qarşısında qeyd edin. Sonra həmin sözləri digər şəxslərdə də işlədin.

5 Laylaya qulaq asaraq mürgüləməyən uşaq haqqında şair:–
Bayaq ana südü əmib,
İndi ana ruhu əmir – misraları ilə nə demək istəyir? Müzakirə edin və fikirlərinizi yoldaşlarınızla bölüşün.

6 Şeirdə qırmızı rəngdə verilmiş sözün qrammatik mənasını müəyyənləşdirə bilərsinizmi? Debata qoşulun və indiyə qədər öyrəndikləriniz, həmçinin rus dilindəki bilikləriniz əsasında fikrinizi əsaslandırmağa çalışın.

1) Bu söz feildir.
2) “Qoy” sözü burada feil deyil, ədatdır.

7 Şeirdə qara kursivlə verilmiş misraların mənasını necə başa düşürsünüz? Şair nə üçün dili “polad körpü”,”qılınc” adlandırır? Müzakirə edin və yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə fikrinizi əsaslandırın.

8 “Mənim dilim” şeirindən götürülmüş aşağıdakı parçanı oxuyun. Necə bilirsiniz, bu parça şeirin hansı hissəsinə əlavə edilməlidir? Müzakirə edin və fikirlərinizi əsaslandırın.

Mənim dilim – Göygöl,
Xəzər, mənim dilim – Şahdağıdır.
Heç bir dildən əskik deyil
**Bəşərin dil ağacının şah budağı dilim mənim.**

Çap üçün deyil

Şair nə üçün ana dilini Göygöl, Şahdağı hesab edir. Bu misraların mənasını başa düşdüyünüz şəkildə açıqlayın və fikrinizi əsaslandırın.

Bu parçada qara şriftlə verilmiş misranın mənasını necə başa düşürsünüz? Səs tonunuzu tənzimləməklə suallar əsasında fikirlərinizi ardıcıl ifadə edin.

1) Şair dünya dillərini nəyə bənzədir?
2) Nə üçün o, öz dilini bu ağacın şah budağı hesab edir?
3) Bunun səbəbi nə ilə bağlıdır?
4) Şairin bənzətməsi ilə razılaşırsınızmı?

9 Şeirdə bir neçə mürəkkəb söz işlənmişdir. Həmin sözləri seçib, dəftərinizə yazın və misalların sayını artırın. Bu sözlərin yazılışı ilə əlaqədar öyrəndiyiniz qaydaları yadınıza salın və əlavə misallarla izah edin.

10 Qruplara bölünün və şeirdən çıxarılan aşağıdakı nəticələrdən biri əsasında fikirlərinizi formalaşdırıb bir neçə cümlə ilə ifadə edin. Fikrinizi şeirdən götürdüyünüz misralar, həmçinin əlavə misallar, faktlarla əsaslandıra bilərsiniz.

1) Dilimiz ruhumuzun sözlərlə ifadəsidir.
2) Ana dilim əcdadlarımızdan bizə yadigardır.
3) Ana dilim tariximizin yaşıdı, yol yoldaşıdır.
4) Ana dilim xalqımın şərəf və ləyaqətinin tarix kitabıdır.
5) Mənim çox zəngin bir dilim var; o, Göygöl qədər dərin, Şahdağı qədər ucadır.
6) Kim ana dilini qorumursa, onda yurd sevgisi ola bilməz.
7) Dilimizi qorumalı və yaşatmalıyıq, çünki o, harada yaşamasından asılı olmayaraq, bu dildə danışan insanları birləşdirən ən möhtəşəm bir körpüdür.

11 Şeirdə altından xətt çəkilmiş sözün qrammatik mənası haqqında deyilənlərdən yalnız biri doğrudur. Doğru cavabı tapın və fikrinizi əsaslandırın.

A) qoşmadır B) bağlayıcıdır C) sual əvəzliyidir D) sual ədatıdır

12 Aşağıda verilmiş aforizimləri oxuyun və yadda saxlayın. Necə bilirsiniz, onların içərisində şeirin məzmunu ilə bilavasitə bağlı olmayanı varmı? Fikrinizi konkret nümunə üzrə əsaslandırın.

## HİKMƏT XƏZİNƏSİNDƏN

1) Öz ana dilini bilməyənlər şikəst adamlardır! **Heydər Əliyev**
2) Dil öz köklərinin bütün incə telləri ilə xalq ruhuna bağlıdır. **V.Humboldt**
3) Bir xalqın dilinə hücum etmək, onun qəlbinə hücum etmək deməkdir. **Laube**
4) Yaxşı danışmağı yaxşı yazan müəllifləri oxumaqla öyrənmək olar. **F.Volter**

Aforizmlərdə deyilən fikirlərlə razılaşırsınızmı? Hansı aforizm daha çox xoşunuza gəldi? Fikrinizi əsaslandıra bilərsinizmi?

Çap üçün deyil

⑬ Şeirdə məcazi mənada işlənmiş sözləri seçib səsləndirin və onları həqiqi mənada işlətməklə fikrinizi əsaslandırın.

⑭ **Türk dilləri ailəsi** haqqında araşdırma aparın və tədqiqatınızın nəticəsini təqdimat formasında hazırlayın, sinifdə yoldaşlarınıza oxuyun.

5-ci, 6-cı siniflərdə və indiyə qədər öyrəndikləriniz əsasında Azərbaycan dilinin qrammatik quruluşu haqqında danışın.

⑮ Şeirdə qara şriftlə verilmiş feilləri dəftərinizə köçürün; hansı formada və şəxsdə işləndiyini müəyyənləşdirib, qarşısında qeyd edin. Əvvəlinci iki feili şəxslər üzrə dəyişib cümlələrdə işlədin.

⑯ Aşağıda ana dili haqqında indiyə qədər öyrəndiyiniz şeirlərdən parçalar verilib. Bu parçaların kimlərə məxsus olduğunu deyin və onların "Mənim dilim" şeirindəki hansı hissələrlə səsləşdiyini müəyyənləşdirin. Uyğunluğun səbəbini izah etməyə çalışın.

İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə. ☐

Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır. ☐

Mən nankor deyirəm, nacins deyirəm
Öz ana dilini bilməyənlərə. ☐

## § 37. İKİ DOST QAÇIRDI ...

– Ara, vur, onu gəbərt. **Gör necə** həyasızdır, səs-küyünə **bir bax**. Ha-ha-ha...

– Ara, **nə** durmusan, at **da**. Türkün köpəyinə **bax da**. **Gör bir** necə dayanıb? Qorxusu-hürküsü yoxdur. Vur onu, vur…

Tamerlan vahimə içində gözlərini* açdı. Gördüyünün yuxu olduğuna sevindi. Yorğanı üstündən* atıb qalxmaq* istədi. Anası onun tərpəndiyini hiss etdi. Qalxıb oturdu:

– Hara belə? Niyə durmusan?

Sonra əlini onun alnına çəkdi. – Bu nədir? Su içindəsən **ki**?

–Yuxu görürdüm, ana. Gördüm ki, ermənilər mənim Ala itimi güllələyirlər*.

– Yat, bala. Ermənilərin itlə nə işi var! Allahın heyvanıdır. Dili yox, ağzı yox. **Həm də** Allah bilir, Ala köpək o vəhşilərin əlindən çoxdan qaçıb canını qurtarıb*.

– **Yox**, ana, yox. O, məni gözləyir. Mən yaxşı dost deyiləm, ana.

Ağlamağını gizlətmək **üçün** uzanıb yorğanı başına çəkdi. Çox keçmədi ki, yuxuya getdi. Açılan güllə səsindən* diksindi. Bu dəfə parça-parça ətrafa səpələnən onun Ala itinin güllə dağıtmış başı idi. Oyandı. İşıqlanırdı… Ehmal-

Çap üçün deyil

ca yerindən* durdu. Dəhlizin qapısında dayanıb öz-özünə fikirləşdi*:

– Getməliyəm, nəyin bahasına olursa-olsun. Yolu **ki** tanıyıram.

Necə düşünürsünüz, Tamerlan heç nədən qorxmayıb, Ala itin dalınca gedəcəkmi, yoxsa fikrindən dönəcəkmi?

Həyətə düşdü. Ağzını su kranına dirəyib doyunca içdi.

Kənd yoluna çıxdı. **Gah** aramla yeriyir, **gah da** qaçırdı. Belə getsə, kəndlərinə* çatardı. Yolu çox yaxşı tanıyırdı. Neçə dəfə xalası oğlu ilə gəzə-gəzə gedib kəndlərinə* çıxmışdılar. Yolüstü suyu çox da olmayan Qarqar çayının yatağına düşüb oynayar, cürbəcür çay daşları* toplayar*, orda-burda qabaran yumru-yumru, ovuc boyda təpəcikləri qazıb oradan göbələk çıxardar, yığıb evlərinə gətirərdilər.

– Ha, ha, ha… İtini? Eləmi? Burda indiyə it qalar? Allah bilir harada gəbərib. İndi səni **də** göndərərəm onun yanına.

Bunları düşünə-düşünə nə qədər getmişdi, özü **də** bilmədi. ***Onda ayıldı ki, qarşısında doğma kəndlərinin acınacaqlı* mənzərəsi tüstülənir.*** Kənddə səs-səmir yox idi. Tamerlan çəpərdən tullanıb əmisigilin həyətinə düşdü. Əmisigilin evi salamat idi. İlk gözünə dəyən nənəsinin yana-yana xatırladığı ağ əriyin dibində oturan kişi oldu. Erməni əsgəri idi. Ərik yeyirdi. Hənirti eşidən **kimi** başını qaldırdı.

– Dayan! Kimsən, dur! Tərpənmə!

Sözün düzü, Tamerlan heç tərpənə **də** bilmirdi. Qorxudan quruyub qalmışdı.

Erməni yaxınlaşdı*. Əlini onun boynuna atıb sıxmağa başladı. Boğulmağa az qalan uşağı özünə **tərəf** çəkdi:

– Hə, nədir? Yanan xarabalarınıza yas tutmağa gəlmisən, ay musurman küçüyü?

– Mən itimi, Ala itimi aparmağa gəlmişəm.

Tamerlan vahimə içində onun gözlərinə baxdı. Ona elə gəldi ki, qarşısındakı insanın gözləri* şüşədəndi. Qışqırmaq* istədi. **Amma** bacarmadı, səsi çıxmadı. Böyümüş gözlərini* şüşə gözlərə zillədi. Sonra onları bərk-bərk yumub tətiyin çəkiləcəyi anı gözlədi. Birdən qulağına Ala itin hənirtisi gəldi. Hansı dəhşətdən gözlərini qapadığını unutdu. Gözlərini açanda **artıq** şüşə gözlərin sahibi Ala itin ayaqları* altında çapalayırdı.

Tüstülənən kənd evlərinin arası **ilə** iki dost qaçırdı…

**Gülzar İbrahimova**

### SÖZLÜK

hənirti – шорох
dirəmək – упереться
qabarmaq – burada: вздувать
acınacaqlı – плачевный, жалкий
gəbərmək – издохнуть
yolüstü – по пути

### SÖZ EHTİYATI

çayın yatağı – русло реки
quruyub qalmaq – замереть (от страха)

Çap üçün deyil

1 Səs tonu və fasiləni gözləməklə mətni oxuyun, əsas fakt və hadisələri müəyyənləşdirin. Hadisələrin harada və nə vaxt baş verməsi ilə bağlı fikirlərinizi yoldaşlarınızla bölüşün.

2 Mətn üzrə suallar tərtib edib yoldaşlarınıza verin və cavablara münasibətinizi bildirin. Cavablar sizi qane etmədikdə əlavələrinizi edin.

3 Mətn üzrə tərtib edilmiş planı nəzərdən keçirin və uyğunsuzluqları müəyyənləşdirib aradan qaldırın. Plana yeni bəndlər əlavə etmək istərdinizmi?

1) Doğma kəndin acınacaqlı mənzərəsi.
2) Açılan güllə səsi.
3) Tətiyin çəkiləcəyi an.
4) Tamerlanın yuxusu.
5) Əsirlərlə gizli görüş.
6) Tamerlan kənd yolunda.

✿ Mətn üzrə fərqli üslubda özünüz yenidən plan tərtib edin. Planın bəndlərini nəqli cümlələrlə formalaşdırın.

***Köməkçi:*** 1) Tamerlan yuxu görür. ...

4 Mətndə bir abzasın yeri dəyişik düşdüyünə görə iki yerdə hissələr arasında əlaqə pozulmuşdur. Həmin abzası tapıb yerinə qoysanız, mətndəki əlaqəsizlik aradan qalxacaqdır. Özünüzü yoxlayın.

5 Qruplara bölünün və mətnin hissələrini, həmçinin hissələr arasında əlaqə yaradan cümlələri müəyyənləşdirib, nəticələri müqayisə edin.

6 Mətndə işğal olunmuş torpaqlarımızın mənzərəsini əks etdirən abzası müəyyənləşdirin. Bu ərazilərdə indi nələr baş verir? Tamerlanın orada gördüklərini əlavə fakt və misallarla genişləndirib öz sözlərinizlə təsvir edin.

✿ Həmin abzasda fərqləndirilmiş cümlənin mənasını izah edin. “Tüstülənir” sözünün hansı məqsədlə işləndiyini açıqlayın.

7 Nə üçün Tamerlana elə gəldi ki, qarşısındakı erməninin gözləri şüşədəndir? Bunu nə ilə izah etmək olar? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

✿ Mətndəki erməni əsgərinin dilindən deyilmiş cümlələr, həmçinin eşitdikləriniz, oxuduqlarınız və gördükləriniz (Xocalı faciəsi zamanı çəkilmiş fotolar, “Fəryad” filmi) əsasında erməni faşistlərini geniş şəkildə xarakterizə edin.

8 Aşağıdakı bayatıları oxuyun və əzbərləyin. Sizcə, onlardan hansının mətnin məzmunu ilə birbaşa bağlılığı vardır? Fikirlərinizi həmin bayatını mətnin müvafiq hissəsi ilə əlaqələndirməklə əsaslandırın.

Gəzdim dağı, aranı,
Seçdim ağdan qaranı.
Vətən viran olsa da,
Cənnət gördüm oranı.

Araz gəldi yan axdı,
Dibindən min can axdı.
Vətən sarı baxanda
Ürəyimdən qan axdı.

9 Ahəng qanununa uyğun şəkilçi variantları seçmək və sözləri düzgün əlaqələndirməklə cümlələri yazılı şəkildə tərcümə edin.



Çap üçün deyil

1) Мальчик все время во сне видел родное село. 2) Он понимал, что друзей забывать нельзя. 3) Тамерлан увидел горящее село. 4) В страхе он посмотрел на стеклянные глаза врага. 5) Среди пламени горящих домов села бежали два друга.

10 Mətndə altından xətt çəkilmiş sözlərin kontekstə uyğun qarşılıqlarını tapıb səsləndirin və onlardan hansının burada daha çox yerinə düşməsi ilə bağlı fikrinizi bildirin.

11 Mətndə qırmızı rəngdə verilmiş sözlər üzərində müşahidə aparın. Necə düşünürsünüz, bunlar sözlərin və cümlələrin təsir gücünü artırmaqla bərabər, onlarda hər hansı bir məna çaları yaradırmı? Fikirlərinizi müvafiq nümunələrlə izah edin.

## BUNLARI BİLİRSİNİZMİ?

Ədatlar sözlərin və cümlələrin **təsir gücünü** artırmaqla, həm də onlara müəyyən **məna çalarları** verir. Bu baxımdan ədatların aşağıdakı məna növləri vardır:
1. **Qüvvətləndirici** ədatlar – ən, lap, artıq, axı, da, də, ha, olduqca, daha, -ca$^2$, bir;
2. **Məhdudlaşdırıcı** ədatlar – yalnız, bircə, tək, təkcə, ancaq;
3. **Sual** ədatları – məgər, bəs, ki, yəni, -mı$^4$;
4. **Əmr** ədatları – di, bax, baxın, baxsana, qoy, qoyun, qoysana, -sana$^2$, gəl ...

Bunlardan başqa, ədatların dəqiqləşdirici (elə, məhz, əsl), arzu (kaş, təki, kaş ki, barı), təsdiq və inkar (hə, yox, bəli, xeyr, heç) kimi növləri də var.

12 Mətndə qara şriftlə verilmiş köməkçi nitq hissələrini qrammatik mənasına görə qruplaşdırıb, ayrı-ayrı sütunlarda yazın. Hər birinin məna növünü qarşısında qeyd edin.

13 Mətnin əvvəlinci cümlələrində işlənmiş “at”, “vur” və “gör”, “bax” sözlərinin qrammatik mənası üzərində müşahidə aparın. Necə düşünürsünüz, bunlar mətndə eyni, yoxsa fərqli qrammatik məna bildirir? Rus dilindəki biliklərinizdən və müəllimin köməyindən istifadə edərək debata qoşulun.

1) Bu sözlərin hamısı feildir. 2) Burada “at, vur” feil, “gör, bax” isə ədatdır.

14 Necə düşünürsünüz, mətnin sonuncu cümləsi hadisə barədə aydın təsəvvür yarada bilirmi? Bəs siz hekayəni necə bitirərdiniz? Öz variantınızı təqdim edin və mətnin sonunu bir qədər genişləndirməklə danışın.

15 Necə düşünürsünüz, Tamerlan Ala itin dalınca getməkdə düzmü hərəkət etdi? Axı onların kəndləri erməni faşistləri tərəfindən işğal edilmişdi. Belə hərəkəti düşüncəsizlik, yoxsa cəsurluq kimi qiymətləndirirsiniz? Debata qoşulun və fikirlərinizi konkret nümunələrlə əsaslandırın.

Çap üçün deyil

***Bu dünyada şirin şey, bir anadır, bir Vətən!***
**Atalar sözü**

## § 38. TAMAŞA BAŞ TUTMADI

1941-ci ilin iyun ayı. Teatr institutunun tələbələri imtahan tamaşası hazırlayırdılar*. Şillerin "Məkr və məhəbbət" pyesi üzərində qızğın məşqlər gedirdi. Hələ ilk günlərdən* özünü istedadlı* **bir** tələbə **kimi** göstərən Zibaya Ledi Milford rolunu tapşırmışdılar. Ledi Milfordun mürəkkəb* xarakterini canlandırmaq* **üçün** Ziba öz üzərində çox ***işləməli***, həftələrlə* güzgü qabağında ***məşq etməli olmuşdu***. Rejissor deyirdi **ki**, sənin xarici görkəmin **də** Ledi Milforda yaraşır, **əsl** Ledisən **ki** durmusan. Uca boyun, yaraşıqlı* qamətin, iri cazibəli gözlərin* ...

Hazırlıq işləri* sona yetdi. Tamaşaya daxili baxış oldu. İnstitutun müəllimləri*, görkəmli teatrşünaslar*, professorlar* Zibanın oyununu yüksək qiymətləndirdilər, onun nadir istedad olduğunu söylədilər. **Hətta** institutun rektoru ağsaçlı professor öz çıxışında əlini Zibaya **tərəf** uzadaraq* dedi:

– Səhnəmizin gələcəyi Siz gənclərin əlindədir. Mən Ziba Qəniyevanın şəxsində gələcəyin teatr ulduzunu görürəm!

Alqışlar*, gül-çiçək dəstələri*, xoş sözlər... Afişalar vurulmuş, bütün hazırlıq işləri* görülmüşdü.

Ziba bütün gecəni yata bilmədi. Xəyalın qanadlarında* Özbəkistana, anası Kamilənin, atası Paşanın yanına uçdu. Müvəffəqiyyətinə **görə** onları muştuluqladı*, gözaydınlığı* verdi.

Tamaşanı iyun ayının 22-nə təyin eləmişdilər. **Amma** tamaşa baş tutmadı. Tamaşa əvəzinə, mitinq oldu. Alman faşistlərinin* Vətənimizə xaincəsinə* basqın etməsi barədə mitinq.

Mitinqdə tələbələr adından* Ziba Qəniyeva çıxış etdi:

– Bildiyiniz **kimi**, bu axşam biz "Məkr və məhəbbət" pyesini ***göstərməli idik***. Tamaşa baş tutmadı. İndi biz Vətənin belə ağır günündə tələbə paltarını soyunub əsgər paltarı ***geyməliyik***! Mən **elə** günü sabahdan könüllü olaraq cəbhəyə gedirəm! Anamız Vətən çağırır bizi! Azğın düşmənə **qarşı** döyüşlərə* çağırır, başının üstünü almış qara buludları* qovmağa çağırır! Mən bu çağırışa ürəkdən hay verirəm! Yaşasın Vətən! Yaşasın ana! İşğalçılara ölüm!

**Əlfi Qasımov**

**SÖZLÜK**

canlandırmaq – воссоздать        azğın – burada: коварный

**SÖZ EHTİYATI**

gözaydınlığı vermək – burada: поздравить

Çap üçün deyil

1 Mətni oxuyun və suallara cavab verin. Sualların içərisində mətnin məzmunu ilə səsləşməyəni varmı? Fikrinizi mətnin məzmunundan çıxış edərək əsaslandırın.

1) Ledi Milford rolunu nə üçün məhz Zibaya tapşırmışdılar?
2) Tapşırılan rolun öhdəsindən gəlmək üçün Ziba nə edirdi?
3) Tamaşaya daxili baxış zamanı Zibanın işini necə qiymətləndirdilər?
4) Nə üçün Ziba bütün gecəni yata bilmədi?
5) Zibanın kurs yoldaşlarına hansı rollar tapşırılmışdı?
6) Tamaşa nəyə görə baş tutmadı?
7) Vətənin ağır günlərində Ziba necə hərəkət etdi?

❀ Mətn üzrə hansı fakt və hadisələri dəqiqləşdirmək istərdiniz? Eşitmək istədiyiniz sualları özünüz tərtib edib yazın və cavablandırın.

2 Necə bilirsiniz, Zibanın xarakterindəki hansı cəhətlər bu gün də gənclər üçün nümunə sayıla bilər? Söylənilən fikirlərə münasibət bildirməklə mövzunu müzakirə edin.

3 Ziba Qəniyevanın əsl vətənpərvər bir gənc olduğu nə zaman ortaya çıxır? Mətndəki müvafiq hissəni bir daha nəzərdən keçirin və səs tonunuzu tənzimləməklə öz sözlərinizlə danışın.

4 Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə müəllimin təqdim etdiyi mətni yazılı şəkildə Azərbaycan dilinə tərcümə edin.

5 Mətndə çoxlu sifət işlənmişdir. Onları seçib aid olduqları sözlərlə birlikdə dəftərinizə köçürün. Hər birinin əlamət və ya keyfiyyət bildirdiyini təyin edin.

❀ Seçdiyiniz sifətləri quruluşca növləri üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın. Düzəltmə və mürəkkəb sifətlərin yaranma yollarını izah edin.

❀ Seçdiyiniz sifətləri mümkün müqayisə dərəcələrində işlədin.

6 Aşağıdakı mətn parçasını oxuyun. Necə bilirsiniz, onun oxuduğunuz mətnlə hər hansı bir əlaqəsi varmı? Bu parçanı mətnin hansı hissəsinə əlavə edərdiniz? Fikrinizi mətnin məzmununa istinad edərək əsaslandırın.

Ziba Qəniyeva cəbhəyə könüllü getdi. İlk günlərdən Ziba öz arzusunu komandirinə bildirdi: “Mən snayper olmaq istəyirəm”.

Komandir Zibanın arzusunu yerinə yetirdi. Onu snayperlər dəstəsinə yazdı. Təlimlər başlandı. ...

7 Ağsaçlı professor: “Mən Ziba Qəniyevanın şəxsində gələcəyin teatr ulduzunu görürəm!” – demişdi. Necə bilirsiniz, müharibədən sonra Ziba Qəniyeva teatr ulduzu oldumu? Onun həyat yolunu izləmək istəyirsinizsə, araşdırma aparın və əldə etdiyiniz məlumatları yoldaşlarınıza oxuyun.

Çap üçün deyil

**8** Aşağıdakı cümlələrə müvafiq ədatlar artırmaqla köçürün. Çətinlik çəksəniz, “Köməkçi”yə müraciət edə bilərsiniz.

1) Ziba öz üzərində – çox işləməli idi, – o, məşhur aktyor olmaq istəyirdi. 2) – afişalar vurulmuş, bütün hazırlıq işləri görülmüşdü. 3) – ilk günlərdə Ziba öz arzusunu komandirinə bildirdi. 4) – Zibaya qəhrəman demək olar – ? 5) Mərmi yarası alan Ziba – 11 ay ölüm-qalım savaşı verdi. 6) Bunu – o bacara bilərdi.

***Köməkçi:*** bax, elə, qoy, axı, düz, lap, bəs, artıq, -mı, məgər, yalnız, ancaq

**9** Aşağıdakı aforizmi oxuyun. Onun mətnin ideyası ilə bağlılığı hansı hissədə daha qabarıq görünür? Mətnin axırıncı abzasını bir daha oxuyun və fikrinizi əsaslandırın.

### HİKMƏT XƏZİNƏSİNDƏN

Vətənin qüdrətini o şəxs bilir ki, Vətən ilə onun ruhən rabitəsi olsun;
Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün. **Nəriman Nərimanov**

❀ Aforizmdə fərqləndirilmiş feillərin hansı formada və şəxsdə olduğunu deyin və onları digər şəxslərdə də işlədin.

**10** Mətndə qırmızı rəngdə verilmiş sözləri qrammatik mənalarına görə qruplaşdırıb, ayrı-ayrı sütunlarda yazın. Sonra bu qruplar arasındakı ortaq cəhətlərin nədən ibarət olduğunu deyin və hər bir qrup üçün xarakterik əlamətləri sadalayın.

### BUNLARI BİLİRSİNİZMİ?

Ədatlar, əsasən, **sözdən ayrı yazılır.** Məsələn: 1) **Əsl** Ledisən **ki** durmusan. 2) Səs-küyünə **bir** bax. 3) Uşaq **artıq** yorulmuşdu. 4) **Məhz** Novruzda həyat yenidən canlanır.

Şəkilçiləşmiş **-sana$^2$, -ca$^2$, -mı$^4$** ədatları sözlərə bitişik yazılır. **-mı$^4$** ədatı yalnız **da, də** bağlayıcılarından sonra ayrı yazılır. Məsələn: 1) De, yolun düşdü**mü** Muğan düzünə? 2) Sən də **mi** yazmamısan? 3) Uşaq oturduğu yerdə**cə** yatmışdı. 4) Gəl**sənə** yarışaq!

**11** Mətndə qara kursivlə verilmiş feilləri dəftərinizə köçürün, hər birinin qarşısında formasını və şəxsini qeyd edin. Sonra həmin feilləri şəxslər üzrə dəyişin və müxtəlif şəxslərdə cümlələrdə işlədin.

**12** Aşağıdakı birləşmələri tərcümə edin və mətnin məzmununa uyğun cümlələrdə işlədin. Cümlələri elə əlaqələndirin ki, kiçik bir mətn alınsın.

талантливый студент, сложный характер, перед зеркалом, внешний вид, привлекательные глаза, высокий рост, будущее сцены, приятные слова, предательское нападение, чёрные тучи, профессия снайпера



Çap üçün deyil

## § 39. İKİ ANA

Gülyaz Küdrü düzündə <u>göy</u> yığırdı. Buludun yaşıllıqlara* saldığı kölgə altında qoyduğu südəmər körpəsi yatırdı.

Birdən azacıq* aralıdan qopan gurultu Gülyazın nəzərini cəlb etdi. O döndü ...

Bir sürü ceyran gurultu **ilə** dərədən çıxıb düzənlik* boyu Gülyaza **tərəf** qaçırdı. **Lakin** sürü başçısı Gülyazı görəndə bir anlığa* dayandı **və** istiqaməti dəyişdi. *Gülyazın həssas qəlbindən* ana fəğanı qopdu*. Ceyranlar* onun südəmər körpəsini tapdalayacaq*, körpə dırnaqlar* altında didiləcəkdi. O qaçmağa başladı, **lakin** dəstə qundağa çatınca nədənsə birdən-birə durdu. Gülyaz bir bala ceyranın büdrəyib üzüqoylu yıxıldığını gördü:

Ah! – deyə fəğan etdi. Ceyranlar* yıxılan balanı **və** yatan qundağı dövrəyə alıb durdular. **Lakin** Gülyazın yaxınlaşdığını* görüncə hürküb qaçmağa başladılar*. Bala ceyran **isə** qalxa bilmədi. Başını sürünün getdiyi **tərəfə** çevir-di. Zərif boynunu uzadıb mələdi.

Sürüdən bir ceyran geri qaldı. O **da** ana idi. O **da** balasına səs verdi.

Gülyaz bunu görüncə durdu. İndi hər iki körpə, ceyran**la** Gülyazın arasında qalmışdı. Qadın ceyrana acıdığından* bir addım **da** atmırdı. Bala ceyran mələyib çağırır, ana ceyran **isə** insanı görüb yaxınlaşmağa qorxur, **lakin** ayrılıb gedə bilmir, yazıq-yazıq mələyirdi.

Bu aralıq* bala ceyran daşa dəyib sıyrılan qıçını güclə sürüyə-sürüyə anasına **doğru** getdi. Ana ceyran ürəklənib yanaşdı **və** hürkək baxışlarla* ətrafını, Gülyazı nəzərdən keçirərək əziz balasını əmizdirməyə başladı.

Gülyaz **da** körpəsinə yanaşdı. Gözləri ceyranlarda* ikən balasını qaldırdı **və** oyanan körpəsinə süd vermək **üçün** yaxasını açdı.

Onlar* hər ikisi ana idi ...

**Əzizə Cəfərzadə**

**SÖZLÜK**

| | |
|---|---|
| həssas – чувствительный | acımaq – burada: жалеть |
| fəğan – крик души | qundaq – burada: ребёнок в пелёнках |

**1** Mətni oxuyun və ideyasını müəyyənləşdirin. Mətndən çıxardığınız nəticə barəsində danışın.

**2** Hansı cümlədəki fikir mətnin məzmunu ilə ziddiyyət təşkil edir?
1) Ceyran sürüsü Gülyazı görəndə istiqamətini dəyişdi.
2) Gülyaz sürünü görəndə özünü itirmədi, yerində durub gözlədi.
3) Ana ceyran Gülyazdan qorxub balasına yaxınlaşmırdı.
4) Gülyazın ceyrana yazığı gəldiyi üçün yerindən tərpənmirdi.
5) Əvvəlcə bala ceyran anasına yaxınlaşdı.

Çap üçün deyil

3 Bəs siz mətni necə bitirərdiniz? Nöqtələrin yerinə aşağıdakı cümlələrdən uyğun gələni seçib deyin və mətnin sonunu təsəvvür etdiyiniz kimi genişləndirib, danışın.

A) və ona görə də ana öz körpəsini ölümdən xilas etdi.
B) və balaları təhlükədən qurtulduğuna görə sakitləşmişdilər.
C) odur ki, hər kəs öz balasını qorumaq istəyirdi.
D) ona görə də sürüdəki ceyranlar qaçıb getmişdilər.
E) analar isə öz balalarını çox sevirlər.

4 Mətndə fərqləndirilmiş cümlənin mənasını izah edin. Necə bilirsiniz, Gülyazın qəlbindən niyə fəğan qopdu? Bunun səbəbi nə ilə bağlı idi? Hadisəni öz sözlərinizlə təsvir edin.

5 Aşağıdakı atalar sözlərindən hansının mətnin məzmunu ilə birbaşa bağlılığı vardır? Fikrinizi mətnin məzmununa istinad etməklə əsaslandırın.

### ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Ananın canı övlada bağlı olar. 2) Ağlarsa, anam ağlar, başqası yalan ağlar. 3) Ananın səbri tükənməz olur. 4) Anadan əziz, yenə anadır. 5) Ana bala ucundan canını oda yaxar. 6) Hər kəsə öz balası şirindir.

6 Birinci cümlədə altından xətt çəkilmiş söz hansı mənada işlənib?

A) rəng bildirir   B) yaşıllıq yer   C) yetişməmiş, kal
D) “səma” mənasında işlənib   E) göyərti mənasındadır

7 Qara şriftlə verilmiş sözləri qrammatik mənalarına görə qruplaşdırıb dəftərinizə yazın. Hər qrupla bağlı əlavə misallar göstərin və cümlələrdə işlədin.

8 Ananı qorxudan hadisə nə ilə nəticələndi? Abzaslar və cümlələr arasındakı əlaqəni gözləməkıə hadisə barədə danışın.

9 Aşağıdakı aforizmləri oxuyun və yadda saxlayın. Qara şriftlə verilmiş sözlərin sinonim və antonimlərini deyin.

### HİKMƏT XƏZİNƏSİNDƏN

1) Yoxsa da **dünyanın** ucu-bucağı, Hər yerdən **istidir** ana qucağı. **S.Vurğun.**
2) Bir ana **ürəyi dağ** qalasıdır! **S.Vurğun.**
3) Ana **səbri böyük** olar! **S.Vurğun.**
4) Bu **qoca** dünyada bir **adət** də var: Qadın olan yerdə **ədalət** də var!.. **S.Vurğun.**

✽ Mənsubiyyət şəkilçili sözləri tapıb səsləndirin, hansı şəxsi bildirdiyini izah edin.
✽ Necə bilirsiniz, aforizmlərdə hansı köməkçi nitq hissəsi işlənib? İzah edin.

Çap üçün deyil

**10** Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun.

## CEYRAN

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartınıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə.
O qara gözlərin düşdü dillərə,
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran.
**Bir mən deyiləm ki hüsnünə heyran**,
Şöhrətin yayılıb hər yana, ceyran!

Ovçu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən,–
Qıyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

**Səməd Vurğun**

**11** Oxuduğunuz mətnlə “Ceyran” şeiri arasındakı əlaqəni müəyyənləşdirin. Sizcə, bu əsərlərdən hansında ceyranın təsvirinə daha geniş yer verilib? Səbəbini izah edə bilərsinizmi? Bir-birinizin fikirlərinə münasibət bildirməklə müzakirə edin və yekun fikri səsləndirin.

**12** Şeirdə ceyranın təsviri verilmişdir. Bu təsviri genişləndirib, şeirin məzmununu öz sözlərinizlə danışın. Nitqinizdə “həqiqətən, fikrimizcə, doğrudan da, görünür, məsələn və s.” kimi sözlərdən istifadə etməyə çalışın. Danışarkən səs tonunuzu tənzimləyin və cümlələrin bir-biri ilə əlaqələnməsinə diqqət yetirin.

**13** Şeirin birinci bəndində işlənmiş köməkçi nitq hissəsini tapıb, qrammatik mənasını (məna növünü göstərməklə) izah edin.

✽ Necə bilirsiniz, şeirdə başqa köməkçi nitq hissəsi işlənmişdirmi?

**14** Şeirdə mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri seçib dəftərinizə yazın. Hər bir sözün qarşısından neçənci şəxsdə olduğunu qeyd edin. Altından xətt çəkilmiş sözləri müxtəlif şəxslərdə cümlələrdə işlədin.

**15** Şeirdə qara şriftlə verilmiş misrada ”bir” sözü hansı qrammatik mənada işlənib? Debata qoşulun və fikrinizi əsaslandırın:

1) Miqdar sayıdır. 2) Burada bu söz say bildirmir.

✽ Bu sözü hansı sözlərlə əvəz edə bilərsiniz? Özünüzü yoxlayın və məna növünü göstərin.

**16** Necə düşünürsünüz, mətndə və şeirdə işlənmiş “o”, “bu” əvəzliklərindən sonra nə üçün vergül qoyulmamışdır? Səbəbini izah edin və əlavə misallardan istifadə etməklə fikrinizi əsaslandırın.

Çap üçün deyil

⑰ Ceyran Azərbaycanın “Qırmızı Kitab”ına daxil edilmiş heyvan növüdür. Onun haqqında araşdırma aparın və əldə etdiyiniz məlumatları sinifdə yoldaşlarınızla bölüşün.

***“Novruz hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, bizim müstəqil Azərbyacan Respublikasının bayramıdır. Novruz xalqımızı bir-biri ilə həmişə daha sıx birləşdirib, insanlarımız arasında mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir”.***

**Heydər Əliyev**

## § 40. NOVRUZ “YENİ GÜN” DEMƏKDİR



Novruz yeni gün, yeni həyat deməkdir. Məhz Novruzda həyat yenidən canlanır, torpaq* qış yuxusundan* oyanır, bitkilər* baş qaldırır, ağaclar* çiçəkləyir, günəşin istisi* artır, gecə ilə gündüz bərabərləşir*, **beləliklə**, yeni həyat başlayır*.

Novruz bayramı Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə ilə gündüzün bərabərləşdiyi gündə – martın 20-si, 21-i və ya 22-sində qeyd olunur. Qədim zamanlardan* başlayaraq*, Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bir çox Şərq ölkələrində yaz fəslinin gəlməsini təbiətin* canlanması* ilə bağlamış, bu münasibətlə şənliklər* keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Bu şənliklər* içərisində Novruzqabağı qeyd olunan 4 ilaxır çərşənbə mərasimlərinin, ayinlərinin* zənginliyi* diqqəti daha çox cəlb edir. Belə ki, qədim inanclara görə kainat* 4 ünsürdən – su, od, torpaq və küləkdən yaranıb. Odur ki, gecə ilə gündüzün bərabərləşməsindən* əvvəl insanlar* hər il 4 çərşənbəni xüsusi mərasimlərlə təntənəli şəkildə qeyd etmiş, yeni təsərrüfat* ilinin başlanması şərəfinə Novruzu böyük coşqu ilə qarşılamışlar. Təsadüfi deyildir ki, Azərbaycanda Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının*, əkinçiliyin rəmzi hesab olunur.

Novruz bayramı qabağı evlərdə, həyətlərdə abadlıq*, təmizlik işləri aparılır, ağac əkilir, bağ-bağat qaydaya salınır. Hər bir evdə qoğal, fəsəli, paxlava, şəkərbura, şəkərçörəyi ... və plov bişirilir. Yumurtalar rəngbərəng boyanır, xonça bəzənir, şam yandırılır, tonqal qalanır, səməni qoyulur, ölənlərin* xatirəsi yad edilir, küsülülər barışır, qohum-qonşular bir-birinə qonaq* gedir, pay göndərirlər*. Oğlan və qızlar* təzə paltar geyib çalıb-oynayır, yallı gedirlər*. Cavanlar* at çapır, güləşirlər*. Novruz bayramında süfrədə yalnız acılıqdan*, şorluqdan* uzaq, şirniyə baxan xörəklər olmalıdır. **Adətə görə**, süfrəyə “s”

Çap üçün deyil

hərfi ilə başlayan 7 növ ərzaq qoyulur: su, süd, səməni, sünbül, sucuq, siyənək balığı, süzmə və s. bayram süfrəsinin bəzəyidir. Şirniyyatlardan* daha çox şəkərbura, paxlava, badambura, ballıbadı və s. üstünlük* verilir.

**SÖZLÜK**

| | | |
|---|---|---|
| coşqu – оживление | ayin – обряд | ballıbadı – лепёшка с мёдом |
| sucuq – вид сладости | məhz – именно | |

**1** Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyun və aşağıdakı suallara cavab verin:

1) Novruzda yeni həyatın başlandığını nədən başa düşmək olur?

2) Qədim zamanlardan yaz fəslinin gəlməsi nə üçün şənliklərlə qarşılanmışdır?

3) Nə üçün insanlar hər il axırıncı 4 çərşənbəni xüsusi mərasimlərlə təntənəli şəkildə qeyd etmişlər?

4) Azərbaycanda Novruz bayramında nə üçün səməni göyərdilir?

5) Novruz bayramı qabağı evlərdə, həyətlərdə hansı işlər görülür?

6) Adətə görə, süfrəyə “s” hərfi ilə başlayan hansı ərzaqlar qoyulur?

7) Bayram süfrəsində bəs hansı şirniyyatlara daha çox üstünlük verilir?

**2** Tapmacaları oxuyun və cavablandırın. Diqqətli olsanız, cavabları tapmaqda çətinlik çəkməzsiniz, çünki cavabların hamısı mətndə var.

Qar altında yatmışam,
Dərdə-qəmə batmışam.
Qaranquşlar gəlməmiş,
Torpaqdan boy atmışam.

Kəmərim qırmızı,
Yaşıl köynəyəm.
Novruz bayramında,
Hər bir evdəyəm.

Qapısız günbəzəm,
Üzüm ağ, içim sarı.
Novruzda bəzənərəm,
Qırmızı, yaşıl, sarı.

Özüm isti, rəngim al,
Ağrı-dərdi məndə sal.

Ağzı bağlı, bizə tanış,
Ayparadı, üstü naxış.

**3** Tapmacalarda işlənmiş feilləri seçib səsləndirin, onların formasını, zamanını və şəxsini müəyyənləşdirin.

**4** Tapmacalarda işlənmiş sifətlərdən bir neçəsini azaltma və çoxaltma dərəcələrində cümlələrdə işlədin. Sifətlərin orfoqrafiyasına diqqət yetirməklə cümlələri dəftərinizə yazın.

**5** Təsəvvür edin ki, sizə Azərbaycanda Novruz bayramına hazırlıq və onun keçirilməsi barədə elmi-kütləvi (научно-популярный) bir mətn tərtib etmək tapşırılıb. Bu mətni necə yazardınız? Araşdırma aparın və əldə etdiyiniz məlumatlar əsasında yığcam bir mətn hazırlayın. Mətndə abzaslar və cümlələrin düzgün əlaqələnməsinə diqqət yetirin.

**6** Oxuduğunuz mətnin 1-ci abzasında yeddi düzəltmə söz işlənmişdir.

Çap üçün deyil

Həmin sözləri seçib səsləndirin, sonra kök və şəkilçiyə ayırıb yazın, hər birinin hansı nitq hissəsindən düzəldiyini qarşısında qeyd edin.

- Bu sözlərin hər biri ilə eyniköklü sözlər düzəldib cümlələrdə işlədin.

7 Mətndə göy rəngdə verilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu deyin və onları quruluşca növləri üzrə qruplaşdırın. Düzəltmə və mürəkkəb sözlərin yaranma yollarını izah edin.

8 Mətndə altından xətt çəkilmiş köməkçi nitq hissələrini qrammatik mənalarına görə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın və məna növlərini qarşısında qeyd edin.

9 Mətndə altından xətt çəkilmiş sözlərdən ikisi digərlərindən fərqləndirilmişdir. Bu sözlərin qrammatik mənasını müəyyənləşdirməkdə çətinlik çəkdinizmi? Səbəbini izah etməyə çalışın.

### BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində işlənən köməkçi söz qruplarından biri də **modal sözlərdir**. Modal sözlər **danışanın ifadə etdiyi fikrə münasibətini** (yəqinlik, nəticə, təəssüf, ardıcıllıq, güman, şübhə, fikrin mənbəyini, müqayisə və s.) bildirir. Məs.: **Məncə**, Lalə düzgün hərəkət etdi. **Nəhayət**, imtahanlar başladı.

Dilimizdə ən çox işlənən modal sözlər aşağıdakılardır: həqiqətən, əlbəttə, doğrudan (da), sözsüz, şübhəsiz, deyəsən, bəlkə (də), yəqin (ki), deməli, nəhayət, beləliklə, axır (ki), əvvəla, birincisi, heyif (ki), təəssüf (ki), məncə, fikrimizcə, mənə görə, sanki, elə bil (ki) və s.

10 Aşağıda verilmiş Novruz inanclarını oxuyun. Onlardan mətnin hansı hissəsində bir nümunə kimi istifadə etmək olar? Fikrinizi əsaslandırın.

### Novruz inancları

1) Novruz bayramı axşam yandırılan tonqaldan xeyir-bərəkət istənilər. 2) Deyirlər, Novruz bayramında bağdakı ağacların quru budaqlarını kəsməsən, ağac küsər, bar verməz. 3) Axır çərşənbədə qonşuya ələk verməzlər. 4) Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlarlar. 5) Novruz bayramı üçün göyərdilən səməni tez cücərib düz qalxarsa, deyərlər ki, həmin il məhsul bol olar. 6) Axır çərşənbədə gün çıxmamış su üstündən atlanarlar. 7) Axır çərşənbədə heyva çubuğundan gözmuncuğu düzəldərlər. 8) Axır çərşənbə günü şamı yarımçıq söndürməzlər.

- Oxuduğunuz inanclarda feilin hansı formaları işlənmişdir?
- Yuxarıdakı inanclarda modal sözlər işlənmişdirmi?

11 Mikayıl Müşfiqin “Bayram axşamı” şeirini oxuyun və mətndə təsvir olunanların həyatda necə yaşandığına şahid olun. Sonra şeiri nəsrə çevirib öz sözlərinizlə danışın.

Çap üçün deyil

## BAYRAM AXŞAMI





Toplaşardıq* bir süfrənin
Gülə-gülə dövrəsinə.
Nənəm derdi: – Qurban olum
Yaradanın süfrəsinə.

Ocaq* yaxıb, od qalayıb
Üzərindən* atlanırdıq*.
Oynayırdıq* yorulunca,
Yorğunluğa qatlanırdıq*.

“Gün çıx” deyə, “Gün çıx” deyə
Çalxanırdı sevincimiz.
“Kəhər atı min çıx” deyə
Qışqırırdı ən dincimiz.

Əynimizdə təzə paltar,
Başımızda təzə papaq*.
Odlu* məşəl əlimizdə
Dolaşırdıq* soqaq-soqaq*.

Qışqırırdıq*, bağırırdıq*
Ölçə-ölçə küçələri.
**Söz qısası**, xoş keçirdi
Bizə bayram gecələri.

Sabah Novruz* bayramıdır
Deyə-deyə yatıyorduq*.
Çəkdiyimiz acıları
Sevinclərə* qatıyorduq*.

**Mikayıl Müşfiq**

**SÖZLÜK**

yaxmaq – burada: разжечь
çalxalanmaq – burada: бушевать
yorğunluğa qatlanmaq – burada: терпеть усталость

⑫ Şeirdə milli folklor nümunələrindən olan “Günəşi çağırmaq” mövsüm-mərasim nəğməsi xatırlanır. Şeirdən həmin bəndi tapıb oxuyun və aşağıdakılardan uyğun bəndi seçərək bu nəğməni davam etdirin:

Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü
Keçəl qızı qoy evdə
Saçlı qızı götür çıx.

Yağ verin yağlamağa,
Bal verin ballamağa
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Novruz-novruz bahara
Güllər-güllər nübara,
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun...

⑬ Şeirdə altından xətt çəkilmiş sözləri dəftərinizə köçürün və qarşısında ədəbi dilimizə uyğun variantı yazın. Şəkliçilərin yazılışındakı fərqlərin səbəbini izah etməyə çalışın. Müəlliminizin köməyindən istifadə edin.

⑭ Şeirin yazıldığı dövrdən 100 ilə yaxın bir vaxt keçməsinə baxmayaraq, oradakı hadisələr, sanki indi baş verir. Şeirdən uşaqların bayram sevincini təsvir edən hissələri tapıb bir daha oxuyun. Bəs siz Novruz bayramını necə keçirirsiniz? Tarixi ənənələrimizi yaşada bilirsinizmi? Yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə müzakirəyə qoşulun.

⑮ Cümlələri düzgün əlaqələndirməklə şəxsi təəssüratınız (впечатление) əsasında “ Novruz gəlir, xoş gəlir” mövzusunda kiçik bir inşa yazın.

Çap üçün deyil

**16** Aşağıda verilmiş Novruz adətlərindən hansılar şeirdə öz əksini tapmamışdır?

A) tonqal üzərindən tullanmaq
B) təzə paltar geyinib, əldə məşəl küçələri dolaşmaq
C) bayram axşamı bütün ailə üzvlərinin bir süfrə arxasında toplaşması
D) "Kosa-kosa" və digər xalq oyunlarının keçirilməsi
E) mərasim nəğmələri oxumaq

**17** Uyğun gələn ədat və modal sözləri artırmaqla aşağıdakı cümlələri köçürün.

1) – xalqımız Novruz bayramını – çox sevir. 2) – Novruz bayramının gəlişinə uşaqlar – çox sevinirlrər. 3) Novruzun – qədim adətlərindən biri də od üzərindən tullanmaqdır. 4) – Novruz süfrəsinə "S" ilə başlayan 7 növ ərzaq qoyulur. 5) – bu il qar az yağdı. 6) " –, fizikdir", – deyə Nadir öz-özünə fikirləşdi. 7) Nə üçün, oğul, –, başa düşməmisən? 8) – bu gecə o, nə yeyəcək?

***Köməkçi:*** ən, çox, daha, həqiqətən, fikrimizcə, fikrimcə, doğrudan da, məncə, heyf ki, bəlkə, şübhəsiz, bəs, məgər

✿ Necə bilirsiniz, şeirdə modal söz işlənmişdirmi? Fikrinizi konkret fakt əsasında izah edin.

## § 41. ZƏMİDƏ BİR TURAC SƏSLƏNİRDİ...

Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarım kilometrliyindən* axan Quruçay şırıldayır, **elə bil ki**, axıb gəldiyi qalın meşələrdən bizə qəribə *əfsanələr* danışır. Qurbağalar *aramla* səslənir. Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur:

Tut-du-du, tut-du-du... Tut-du-du, tut-du-du.

Bizim yaşıl yamaclarda*, çay kənarındakı Laləli dərədə turac* çox olur. **Lakin** evimizin yaxınlığında* hər səhər, hər axşam oxuyan bir turac təzə peyda olmuşdu.

Biz iki yoldaş idik. İkimizin **də** atası ovçu idi. Onlar otuz-qırx il idi **ki**, **balta dəyməmiş qorxulu Kirs meşələrində** ovçuluq* edirdilər. *Başlarına gəlmiş* işlər barəsində o qədər maraqlı* nağıllar danışmışdılar **ki**, biz **də** ovçu olmaq* xəyalına düşmüşdük. Lakin **nə** tüfəngimiz var idi, **nə də** ov itimiz. Bunların* əvəzində, ala-bəzək iplərdən toxunmuş sapandımız var idi **ki**, daş qoyub atanda tapança **kimi** şaqqıldayırdı*. Yoldaşım Həsən kəndimizdə birinci sapand atan idi. Quşu gözündən* vurardı. Onun qorxusundan* zəmilərimizə **bir** qarğa qona bilməzdi.

Bir axşam Həsən bizə gəlib dedi **ki**, hər nə cür olsa, **gərək**, [o turacı sabah tapıb ovlayaq*.] Mən *etiraz edib* dedim:

– **Axı** atamgil indi **heç** ova getmirlər*, deyirlər*, quşların* bala çıxaran

Çap üçün deyil

vaxtıdır*.

Həsənin **bir** pis xasiyyəti vardı **ki**, **çox** inadcıl* idi. *Başına **bir** iş girdi-**mi***, **gərək** hər nə cür olursa-olsun, yerinə yetirəydi. **Buna görə də** *sözündən* dönmədi*:

– **Məgər**, – dedi, – quşların* hamısı birdən bala çıxarır?

Mən istər-istəməz razı oldum.

Səhər balaca heybələrimizi yumru daşlarla doldurduq*, zəmidə gizlənib turacın oxumasını gözlədik. O, oxumağa başlayan kimi, biz yavaş-yavaş səs gələn **tərəfə** süründük. Çox axtardıq*, bir şey tapa bilmədik. Birdən **lap** ayağımızın altından* pırıltı **ilə** bir quş uçaraq* havaya qalxdı. Həsən hazır saxladığı gödəkqollu sapandını tovlayıb atdı. Turac bir qədər havaya millənib, sonra qurğuşun **kimi** yerə düşdü. Biz adam boyu qalxmış sünbülləri aralaya-aralaya quş düşən yerə yüyürdük və gördük **ki**, o, kolun dibində bir ayağı üstündə dayanıb *ürkək* nəzərləri* **ilə** ətrafına baxır. Bizi görən **kimi** gücünü toplayıb havaya qalxdı. Biz arxasınca yüyürdük. [O, bir qədər uçduqdan* **sonra** balaca böyürtkən koluna qondu.]

Necə bilirsiniz, uşaqlar turacı tuta biləcəklərmi, yoxsa o uçub canını qurtaracaqmı? Əhvalatı siz necə davam etdirərdiniz? Variantınızı təqdim edin.

Fikirləşdim* **ki**, yəqin, heyvan yaralı *canını bizdən qurtarmaq** **üçün** bu balaca kola pənah gətirdi. **Ancaq*** yaxınlaşdığımız zaman elə mənzərəyə rast gəldik **ki**, mən onu heç vaxt unutmayacağam. Yumurtadan **təzəcə** çıxmış kiçik bala anasına baxaraq* zəif səslə civildəyir və **elə bil ki**, deyirdi: “Ana, **bəs** mənim **üçün** gətirdiyin yem hanı?” Yaralı turac isə tək ayağının üstündə dayanıb ürkək *nəzərləri* **ilə gah** bizə, **gah da** balasına baxırdı.

“Yazıq quşcuğaz! Sən sınıq* ayağınla bu körpə balaya necə yem tapıb gətirəcəksən? **Bəs** bu gecə o, nə yeyəcək?” – deyə düşünürdüm. [Bu mənzərə yoldaşıma da təsir etmiş olmalıydı **ki**, *qaşqabağını sallayıb* başını buladı.]

– Yaxşı iş görmədik, – dedi.

Mən onu *məzəmmət etdim:*

– **Axı** sənə dedim **ki**, indi quşların* bala çıxaran vaxtıdır*.

[– Keçib, – deyə o, üzümə baxmadan kədərlə dilləndi.]

Heç nədən xəbəri olmayan körpə bala anasına baxıb hey civildəyirdi*.

– **Bəs** bunlar* necə olacaq*? – deyə Həsəndən* soruşdum.

– Aparaq* evə.

Körpə balanı **və** ananı ***üsulluca*** götürüb evə gətirdik. Onlar* **üçün** qəfəsdə yer düzəltdik. Qabaqlarına* dən səpdik, su qoyduq*. Qoca nənəm sınıqçı* idi. [O, quşun qıçını sarıdı.]

[O gecə Quruçay yenə də *əvvəlki **kimi*** şırıldayır, qurbağalar *səslənirdi*.] Yaz gecəsi heç bir şey olmamış **kimi,** yenə **də** öz əfsanələrini söyləyirdi. **Lakin** evimizin arxasındakı zəmidən **daha** turac nəğməsi eşidilmirdi.

**İlyas Əfəndiyev**

Çap üçün deyil

## SÖZLÜK

sapand – рогатка, пращ
millənmək – подняться ввысь
qurğuşun – свинец
peyda olmaq – появиться
üsulluca – осторожно
sınıqçı – костоправ

## SÖZ EHTİYATI

quşu gözündən vurmaq – метко стрелять
pənah gətirmək – burada: приютиться

1 Nitqinizi uyğun səs tonu ilə tənzimləyərək mətni oxuyun və hekayədən çıxardığınız nəticə barəsində fikirlərinizi bir-birinizlə bölüşün.

2 Müəllimin köməyi ilə aşağıdakı atalar sözlərinin mətnlə əlaqəsini izah etməyə çalışın. Necə düşünürsünüz, bunların içərisində mətnin məzmunu ilə səsləşməyəni varmı? Həmin atalar sözünü səsləndirin və fikrinizi əsaslandırın.

## ATALAR SÖZÜ – AĞLIN GÖZÜ

1) Sonrakı peşmançılıq fayda verməz. 2) Daldan atılan daş topuğa dəyər. 3) Əvvəl danışan bilsə ki, sonrakı nə danışacaq, heç danışmaz. 4) Zərərin yarısından qayıtmaq da qazancdır. 5) Saqqalım yoxdur, sözüm keçmir. 6) Böyük sözünə qulaq asmayan xeyir tapmaz.

3 Necə düşünürsünüz, Həsənlə razılaşmaqla yoldaşı düzmü hərəkət etdi? Əslində o nə etməli idi? Debata qoşulun və fikirlərinizi mətnə istinad etməklə əsaslandırın. Nitqinizdə “məncə, fikrimcə, görünür, təəssüf ki, nəticədə, sözün düzü” və s. kimi modal sözlərdən istifadə etməyə çalışın.

1) Yoldaşı Həsənlə razılaşmamalı idi.
2) Yoldaşı Həsənlə razılaşmaya bilməzdi.

4 Mətn üzrə plan tərtib etməli olsanız, aşağıdakı variantlardan hansına üstünlük verərdiniz? Bu variantlar bir-birindən nə ilə fərqlənir? Müzakirə edin və fikrinizi açıqlayın.

I. 1) Bizim kəndin yaz axşamları gözəl olur.
2) Çox axtardıq, bir şey tapa bilmədik.
3) Biz də ovçu olmaq xəyalına düşmüşdük.
4) Bəs bunlar necə olacaq?
5) Quşların bala çıxaran vaxtıdır.
6) Mən onu heç vaxt unutmayacağam.

II. 1) Dostum Həsənin qərarı.
2) Qayğıkeş ana.
3) Yardım.
4) Yaralı turac.
5) Kəndimizin axşamları.
6) Peşmançılıq.

Çap üçün deyil

✿ Hansı planda mətndəki ardıcıllıq pozulmuşdur? Fikrinizi əsaslandırın və düzgün ardıcıllığı bərpa edin.

5 Necə düşünürsünüz, Həsənin öz əməlindən peşman olduğunu söyləmək olarmı? Müzakirə edin və fikirlərinizi mətndəki konkret faktlarla əsaslandırın.
✿ Bəs siz bu uşaqların yerində olsaydınız, necə hərəkət edərdiniz? Söylənən müxtəlif fikirlərə münasibət bildirməklə müzakirə edin.

6 Mətndə kursivlə verilmiş sözlərin və ifadələrin kontekstə uyğun mənalarını izah edin, sinonimlərini və antonimlərini səsləndirin.

7 Mətndə altından xətt çəkilmiş sözləri məna növləri üzrə qruplaşdırın və qrammatik mənasını izah edin. Onlardan bir neçəsini aid olduğu sözlərlə birlikdə səsləndirin.

8 Mətndə mötərizə içərisində verilmiş cümlələrdə "o", "bu" əvəzliklərindən sonra nə üçün vergül qoyulduğunun, yaxud qoyulmadığının səbəbini izah edin.

## BUNLARI BİLİRSİNİZMİ?

Modal sözlər cümlənin **əvvəlində gəldikdə** ondan sonra, **ortada gəldikdə** hər iki tərəfdən, **axırda gəldikdə** isə ondan əvvəl vergül işarəsi qoyulur. Məsələn: 1) **Məncə**, bu il yaz gecikir. 2) Sabah, **deyəsən**, yağış yağacaq. 3) Onlar gecikirlər, **deyəsən**. ***Sanki, elə bil guya*** -modal sözlərində vergül işarəsi qoyulmur.

9 Mətndə qara şriftlə verilmiş sözləri qrammatik mənaları üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda dəftərinizə yazın. Onların aralarındakı oxşar və fərqli cəhətləri izah edin. Hər birinin qarşısında məna növünü qeyd etməyə çalışın.

10 Aşağıdakı cümlələrdə "da, də"-nin qrammatik mənasını izah etməyə çalışın. Çətinlik çəkdikdə müəllimin köməyindən istifadə edin.
1) Alim də, şair də, dağda çoban da
Deyir mahnısını ana dilində (S.Vurğun). 2) Bu mənzərə yoldaşıma da təsir etdi. 3) Atamgil Kirs meşələrində ovçuluq edirdilər. 4) Sən də vaxtında gəl çıx da! 5) İldə qurban bir olar, sənə qurban gündə mən.

11 Mətndə yaşıl rənglə fərqləndirilmiş ifadənin mənasını necə başa düşmək lazımdır? Fikrinizi söyləyin.

12 Cütlərlə işləyin. Hərəniz aşağıdakı birləşmələrdən birini müxtəlif qrammatik formalarda cümlələrdə işlədin və tərcümə edin.
yaz axşamları, qalın meşələr, qəribə əfsanələr, turac nəğməsi, böyürtkən kolu, adam boyu qalxmış sünbüllər, balaca heybələrimiz, yaşıl yamaclar, maraqlı nağıllar, yoldaşım Həsən, pis xasiyyət, yazıq quşcuğaz



Çap üçün deyil

⑬ Aşağıdakı cümlələrdə işlənmiş köməkçi nitq hissələrini tapıb səsləndirin və hər birinin qrammatik mənasını, dildə rolunu izah edin.

1) O, pul sahibinin halına da acıyırdı: düşünürdü ki, kim bilir, bəlkə, indi ağlaya-ağlaya pulunu axtarır? 2) "Olmaya, İmran səni incidib?" – dedim. 3) Əlini cibinə salan kimi rəngi qaçdı, elə bil barmaqlarına ilan toxunmuşdu. 4) Doğrusu, ona birinci cavab verən elə balaca oğlan oldu. 5) O, İmrangilə də gəldi, ancaq İmran evdə yox idi. 6) Deyəsən, Əlişir məni ələ salır. 7) Elə bu vaxt Əlişir saraya girdi. 8) Əlişir, düzünü de, bu gecə bir yerdə od qalanmamışdı ki?

✿ Yuxarıdakı cümlələrdə işlənmiş köməkçi nitq hissələrinin orfoqrafik xüsusiyyətini və onlarda durğu işarələrindən istifadə qaydalarını faktlar əsasında izah edin.

⑭ Müxtəlif quşların bala verməsi ilə əlaqədar araşdırma aparın və əldə etdiyiniz maraqlı məlumatlar əsasında təqdimat hazırlayıb sinifdə yoldaşlarınıza oxuyun. Zoologiya müəlliminizin köməyindən və internetin imkanlarından istifadə edin.

⑮ Əgər mətn "Qoca nənəm quşun qıçını sarıdı" cümləsi ilə bitsə idi, siz onu necə davam etdirərdiniz? Qruplara bölünün və öz variantınızı hazırlayıb, təqdim edin. Cümlələrin düzgün əlaqələnməsinə və sonluğun orijinal olmasına çalışın.

## § 42. ƏLLAMƏ

*Azərbaycan xalq nağılı*

Qədim zamanda Gəncə şəhərində bir oğlan yaşayırdı. Ağıllı və hazırcavab olduğundan* hamı ona Əllamə deyərdi. Bir dəfə o, qala **divarlarının*** **dibində** yoldaşları* ilə oynayırdı*. Başını qaldıranda uzaqdan* bir kəndlinin* onlara* tərəf gəldiyini gördü. Kəndli eşşəyə minmişdi, **qoltuğunda** bir xoruz da var idi.**1**



Kəndli paltarı geymiş qonşu ölkənin **vəziri** idi. Vəzir çox tədbirli və hazırcavab olduğu üçün **padşah** onu tez-tez başqa **ölkələrə** danışığa göndərirdi. Vəzir həmişə sual-cavabda qalib gəlir və o yerin hökmdarından* yüz qızıl alıb geri qayıdırdı. Bu dəfə padşah onu Gəncə hökmdarının **yanına** göndərmişdi.**2**

Vəzir uşaqlara* yaxınlaşıb* dedi:

– Ay uşaqlar*, bir bura gəlin görüm!

Əllamə irəli keçib soruşdu:

Çap üçün deyil

– Nə buyurursan, əmi?
– De görüm, bu şəhərdəki böyükləri harada görmək olar?
– Gedək, mən sənə göstərim.

Onlar yola düşdülər. Bir qədər getmişdilər ki, Əllamə bir karvansaranın qabağında dayandı.

– Bax, əmi, **bizim** şəhərdə böyüklər burada yaşayırlar*. Odur, özləri* də orada durublar.

Vəzir **Əllamənin** göstərdiyi tərəfə baxanda üç-dörd dəvə görüb ucadan güldü.**3**

– **Ay** ağılsız uşaq, bu cür böyüklər yox **ey**, mən deyənlərin* uzun saqqalı* olur, – deyə öz saqqalını* göstərdi.

– Başa düşdüm, gedək.

Onlar* gəlib bir həyətə çatdılar.**4**

– Əmi, bizim **şəhərdə** bunlardan* uzun saqqallı* yoxdur.

Söz döyüşdürməyə gələn vəzir bərk acıqlandı*:

– Buna bax, ***bir qarış boyu*** ilə məni dolayır. Böyük deyəndə dəvə, saqqal deyəndə keçi göstərir. Mən danışmağa adam axtarıram, bildin?

– Hə, siz adam axtarırsınız, adam mən, elə mənimlə danışın da.

Əlacı kəsilmiş vəzir:

– Adama bax, – dedi, – gör kimlə danışmaq* istəyir?! – Yaxşı, biz uzaq* yerdən gəlib bərk acmışıq*. Bircə dinar da **pulum** var. Bu bircə dinara nə alım ki, həm **özüm**, həm **xoruzum**, həm də **eşşəyim** ondan yeyə bilsin?

Əllamə **gözlərini*** qıyıb başını qaşıya-qaşıya cavab verdi:

– Gedək, əmi! Mən sizin üçünüzə də yaxşı bir şey alaram.

Yenə vəziri dalınca apardı. Onlar* böyük bir **bazara** gəldilər. Əllamə təpə kimi qalanmış **yemişlərdən*** birini seçib vəzirə verdi:

– Buyurun, lap siz deyən şeydir. İçini özünüz yeyin, toxumlarını **xoruzunuza** verin, **qabığını** da atın eşşəyə.**5**

Özünü hamıdan ağıllı hesab edən vəzir: “Bir **şəhərin** uşaqları* bu qədər ağıllı olanda, gör böyükləri necə olar!” – fikirləşib* geri qayıtdı.

## SÖZLÜK

dolamaq – burada: издеваться
dinar – денежная монета
söz döyüşdürmək – спорить
tədbirli – предусмотрительный

**1** Nitqinizi uyğun səs tonu ilə tənzimləyərək mətni rollar üzrə oxuyun və mətndən çıxardığınız nəticəni müzakirə edin.

**2** Necə düşünürsünüz, mətndə cümlələr arasında əlaqənin pozulması faktına yol verildiyini söyləmək olarmı? Fikrinizi əsaslandırmaq üçün mətndən həmin hissəni tapıb oxuyun və uyğun bildiyiniz cümlələrlə əlaqəni bərpa edin.

Çap üçün deyil

❸ Qruplara bölünün və mətn üzrə suallar tərtib edib yazın. Sualları müəllimin tövsiyə etdiyi qrupa ünvanlayın və cavablara münasibət bildirməklə qiymətləndirmə aparın.

❹ Mətni səhnələşdirin.

❺ Necə düşünürsünüz, aşağıdakı cümlələrin mətndə işlədilməsi zəruridirmi? Bəs bu cümlələr mətndəki hansı rəqəmin yerində işlədilməlidir?

**Əllamə keçib tövlənin qapısını açdı. Oradan beş-altı keçi çıxdı.**

A) 1 B) 2 C) 3 D) 4 E) 5

❻ Necə bilirsiniz, Əllamənin hansı hərəkəti vəziri güldürdü, hansı hövsələdən çıxardı və hansı onu təəccübləndirdi? Həmin situasiyaları yadınıza salın və münasibət bildirməklə öz sözlərinizlə danışın.

❼ Aşağıdakı aforizmləri oxuyun və yadda saxlayın. Onlarda işlənmiş düzəltmə və mürəkkəb sözləri seçib səsləndirin, hansı nitq hissəsinə aid olduğunu deyin. Sonra həmin sözlərin hansı nitq hissələrindən düzəldiyini müəyyənləşdirin və düzəlmə yollarını izah edin.

## HİKMƏT XƏZİNƏSİNDƏN

*1) Ağıllı adamla dost ol, söhbət aç,*
*Namərddən uzaq ol gündə min ağac.* ***Ömər Xəyyam***
*2) Ağıllı adamlar uzaqgörən olurlar.* ***Fridrix Şiller***
*3) Ağıl gücə çevrilər, güc ağıla çevrilə bilməz.* ***Əbu Turxan***
*4) Fikirləri yox, fikirləşməyi öyrənmək lazımdır.* ***İmmanuel Kant***
*5) Qaranlığı günahlandırmaqdansa, bir şam yandır.* ***Konfutsi***

✿ Aforizmlərdə altından xətt çəkilmiş sözlərdən biri feil olmaq şərti ilə eyniköklü sözlər düzəldib yazın, sonra onları söz birləşmələri və cümlələrdə işlədin.

❽ Mətndə altından xətt çəkilmiş sözlər arasındakı ümumi cəhət nədən ibarətdir? İzah edin və fikirlərinizi əsaslandırın.

❾ Mətndə çoxlu ədat işlənmişdir. Onları seçib səsləndirin, əlavə misallarla məna çalarlarını izah etməyə çalışın.

✿ Mətndən qoşma və bağlayıcılara aid nümunələr tapıb deyin, nə bildirdiklərini cümlələrdə işlətməklə izah edin.

❿ Mətndə qırmızı rəngdə verilmiş sözlərin qrammatik mənasını izah edə bilərsinizmi? Fikrinizi bildirin və səbəbini izah edin.

Çap üçün deyil

**11** Necə bilirsiniz, mətndə kursivlə verilmiş söz müxtəlif məqamlarda aşağıdakı variantların hamısına sinonim kimi işlədilə bilərmi? Bəs variantlardan hansı burada daha çox yerinə düşür?

A) çox kiçik  B) bapbalaca  C) balaca  D) xırda  E) kiçik

**12** Mətndən sifət, say və əvəzliklərə aid nümunələr seçib ayrı-ayrı sütunlarda yazın, hər birinin quruluşca növünü qarşısında qeyd edin və qrammatik mənasını izah edin.

## BUNLARI BİLİRSİNİZMİ?

Nitqdə **hiss və həyəcan bildirmək üçün** istifadə edilən sözlərə **nida** deyilir.

Nidalar sevinc, şadlıq, ağrı, alqış, təəccüb, kədər, qorxu, çağırış, nifrət, narahatlıq və s. kimi mənalar ifadə edir: Məsələn: 1) **Bəh-bəh**, nə gözəl güllərdir! 2) **Ay** aman, nə qaranlıq gecədir! 3) **Ay** uşaqlar, bir bura gəlin görüm! cümlələrindən birincisində işlənmiş nida sevinc, ikincisində qorxu, üçüncüsündə isə çağırış mənası bildirir.

Azərbaycan dilində **ən çox işlənən nidalar** aşağıdakılardır: ay can-ay can, bəh-bəh, paho, ura, ay aman, of, uf, ax, ay dad, ey, ay, hey, a, ah, vay, bıy, tfu, xox, bah, xa-xa-xa, eh, oxay, ehey, bay, ey vay, vay-vay, ay-hay, boy, can ey, heyhat və s.

**13** Aşağıdakı atalar sözlərində buraxılmış sözləri yerinə qoyub oxuyun.

1) Ağıllı bildiyin söyləməz, – söylədiyin bilməz. 2) Ağıllı – nadan dostdan yaxşıdır. 3) – düşməndən qorxma, dəli dostdan qorx. 4) Ağıllı gördüyünü, ağılsız – söylər. 5) Ağıllı olan – aldanar. 6) Ağıl yaşda olmaz, – olar.

***Köməkçi:*** düşmən, ağıllı, dəli, eşitdiyini, bir dəfə, başda

**14** Aşağıdakı birləşmələri tərcümə edin və cümlələrdə işlədin.

другие страны, Гянджинский повелитель, перед каравансарай, громко смеялся, длинная борода, большой базар, крепостные стены, один крестьянин

**15** Mətndə qara şriftlə verilmiş sözləri aşağıdakı sütunlara uyğun olaraq qruplaşdırıb köçürün. Sonra həmin sözləri mənalı hissələrinə ayırıb yazın.

**Yalnız hal şəkilçili sözlər**  **Mənsubiyyət şəkilçili sözlər**

**16** Aşağıdakı cümlələri oxuyun və nidaları seçib nə bildirdiyini izah edin.

1) Aa, günorta oldu ki!... 2) Ah! – deyə ana fəğan etdi. 3) Ay-hay, – dedi. – Bu ilxının yiyəsi ölüb ki, hər yoldan ötən bir at aparsın?! 4) Eh, getmirsən, getmə, onda mən getdim!... 5) – Bıy, ay Namiq, nə qəşəngləşmisən?! 6) – Ayə, yoxsa sən qaçaq* Kərəmsən?! – deyə ilxıçı sevincək və heyrətlə soruşdu. 7) Eh, sən hara, mən hara? – dedi. 8) Gül açanda yaz olur, bəh-bəh-bəh! 9) Of, başım nə yaman ağrıyır, allah!

Çap üçün deyil

# MÜNDƏRİCAT


§ 1. Dostum ........ 5
§ 2. Gözəl təşəbbüs ........ 8
§ 3. Saqqallı uşaq. I hissə ........ 12
§ 4. Saqqallı uşaq. II hissə ........ 16
§ 5. Burada nə var ki? ........ 20
§ 6. Səhərin keşikçiləri ........ 25
§ 7. İnşa ........ 29
§ 8. Maraqlı görüş ........ 33
§ 9. Zəncinin arzuları ........ 38
§ 10. Qazılıq qoca oğlu Yeynək boyu. I hissə ........ 42
§ 11. Qazılıq qoca oğlu Yeynək boyu. II hissə ........ 47
§ 12. Azərbaycan ........ 51
§ 13. Hüseynqulu xan ........ 54
§ 14. Bayrağımız ........ 58
§ 15. Doğrudan da, fizikdir ... ........ 60
§ 16. Yox, montyor gəlməyəcək ........ 64
§ 17. Rezin elektriki keçirmir ........ 67
§ 18. Köməkçi ........ 70
§ 19. Qızıl payız ........ 74
§ 20. İlk qabar ........ 77
§ 21. Dinə bilmədi ........ 82
§ 22. Saat ........ 85
§ 23. Ağa Musa Nağıyev ........ 89
§ 24. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev ........ 93
§ 25. Sizinlə işləyəcəyəm... ........ 96
§ 26. Sərv ağacı ........ 99
§ 27. Ayların düzümü ........ 103
§ 28. Qırmızı giləli budaqlar ........ 106
§ 29. Koroğluynan Dəli Həsən. I hissə ........ 109
§ 30. Koroğluynan Dəli Həsən. II hissə ........ 113
§ 31. Fətəli xanın beşiyi. I hissə ........ 118
§ 32. Fətəli xanın beşiyi. II hissə ........ 122
§ 33. Zirvə üstə ........ 125
§ 34. Qoçaqlar həmişə ürəkli olur!.. ........ 128
§ 35. Qələbənin sirri. (rəvayət) ........ 132
§ 36. Mənim dilim ........135
§ 37. İki dost qaçırdı ........ 138
§ 38. Tamaşa baş tutmadı ........ 142
§ 39. İki ana ........ 145
§ 40. Novruz yeni gün deməkdir ........ 148
§ 41. Zəmidə bir turac səslənirdi... ........ 152
§ 42. Əllamə ........156


Çap üçün deyil